**Rafiq Manafoğlu, Nizami Tağısoy,**
**Rüstəm Kamal**

# İZAHLI

# TƏRCÜMƏŞÜNASLIQ TERMİNLƏRİ

# LÜĞƏTİ

**Bakı – MÜTƏRCİM – 2010**

*Lüğətin nəşri AMEA Rəyasət Heyəti yanında Terminologiya Komissiyası tərəfindən məqsədəuyğun hesab edilmişdir (məktub № T7, 07.07.2009).*

**Redaktorlar:** **Sayalı Sadıqova**
*filologiya elmləri doktoru, professor*

**İsmayıl Kazımov**
*filologiya elmləri doktoru*

**Rəyçilər:** **Nizami Cəfərov**
*filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü*

**İsmayıl Məmmədov**
*filologiya elmləri doktoru, professor*

**Nizaməddin Şəmsizadə**
*filologiya elmləri doktoru, professor*

**R.Manafoğlu, N.Tağısoy, R.Kamal. İZAHLI TƏRCÜMƏŞÜNASLIQ TERMİNLƏRİ LÜĞƏTİ.** – Bakı: Mütərcim, 2010. – 164 s.

M $\frac{4602020000}{026}$ 01-10

© Mütərcim, 2010
© R.Manafoğlu, N.Tağısoy, R.Kamal, 2010

# TƏRCÜMƏNİN NƏZƏRİ-PRAKTİK PROBLEMLƏRİNİ İŞIQLANDIRAN UĞURLU TƏŞƏBBÜS

Filologiya elmləri doktorları, professorlar Rafiq Manafoğlu, Nizami Tağısoy və filologiya elmləri namizədi, dosent Rüstəm Kamalın birgə hazırladıqları "İzahlı tərcüməşünaslıq terminləri lüğəti" Azərbaycan leksikologiyası tarixində ilk təşəbbüs kimi olduqca dəyərli bir mənbədir. Bu mənbədə tərcümə nəzəriyyəsi, təcrübəsi, tarixi və metodikasının müxtəlif və çoxtərəfli aspektləri interpretasiya olunmuşdur.

Məlum olduğu kimi, tərcümə sənəti insan fəaliyyətinin, onun digər mədəniyyətləri, ədəbiyyatları öyrənməyə canatım ehtiyacının nəticəsi olaraq meydana gəlmişdir. Deməli, tərcümə sənəti ehtiyacdan, tələbatdan yaranmış bir fenomendir. Onun tarixi cəmiyyətin tarixi ilə yaşıddır. Bu iş hər bir xalqın bədii, elmi, kütləvi irsinə olan marağından doğub, təkmilləşə-təkmilləşə, dürüstləşə-dürüstləşə inkişaf edib formalaşmışdır.

Müəlliflərin birgə yazdıqları bu dəyərli mənbədə tərcümə işinin, tərcüməşünaslığın xeyli məsələləri bu elmin son illər qazandığı nailiyyətlər fonunda işıqlandırılaraq oxuculara təqdim edilir. Burada tərcümə fikrinin və fəaliyyətinin tarixi və metodologiyasından tutmuş tərcümənin ümumi nəzəriyyəsi və əsas prinsipləri, tərcümənin başlıca üsulları, tərcümənin xüsusiyyətləri, tərcümə prosesinin istiqamətləri, tərcümə metodikası, tərcümə mexanizmi, tərcümə fəaliyyətinin sosial tərəfləri və modelləri, tərcümə tipləri və növləri (bədii və elmi-texniki tərcümə, publisistik tərcümə), tərcümədə prinsipial əhəmiyyətli məsələlər, tərcümə informasiyasının ümumi müddəaları, tərcümənin səviyyələri: söz, termin, söz birləşməsi, cümlə, mətn tərcümələri və s. kimi tərcüməşünaslığın ən mühüm problemləri əhatə olunur.

Tərcümə tarixi və prosesi mürəkkəb bir inkişafın nəticəsidir. Bu prosesdə informasiyanın ötürülməsi yolları çətin ziqzaqlardan keçir. Bununla belə, bu prosesin terminoloji vahidləri sözügedən lüğətdə lakonik şəkildə izah və təhlil edilmişdir.

Tərcümə prosesi dilçilik kateqoriyaları ilə üzvü şəkildə bağlıdır. Lüğət məqalələrinə, linqvistikanın tərcümə fəaliyyətinə təsir göstərə bildiyi bütün terminləri cəlb edilmiş, onların linqvistik, psixolinqvistik və sosiolinqvistik aspektləri şərh olunmuşdur.

Əsərin "Yazılı tərcümə" hissəsində, demək olar ki, tərcümənin bütün növləri araşdırılmış, bu növlər üçün ümumi olan və onun keyfiyyətini təmin edən əsas mexanizm dərindən müəyyənləşdirilmişdir. Ənənəvi metodlar, tərcüməçinin qarşılaşdığı çətinliklər, tərcümənin mərhələləri, tədrisdə müəllimin tərcümə sənətinə yiyələnən tələbələrlə işbirliyi, tərcümənin təhlil aspektləri, tərcümə mətnləri üzərində "əməliyyat", mətndəki informasiyanın nəzərə alınması, tərcümənin nəticələrinin təhlili, modelləşdirmə metodikası, lüğətlərdən istifadə, mətn janrlarının mənimsənilməsi, müxtəlif çeşidli mətnlərlə tərcümə işi və s. məsələlər burada elmi-nəzəri cəhətdən yerli-yataqlı təhlil olunmuşdur.

Lüğətdəki bir sıra terminlər nitq fəaliyyəti ilə bağlı qruplaşdırılmışdır. Burada nitq fəaliyyətinin müxtəlif növləri, nitq kommunikasiyası, nitq kompetensiyası, nitq kompressiyası, nitq situasiyası, nitq zənciri, nitq həlqəsi, nitq şüuru, nitq aktı və s. nitqin müxtəlif növləri ilə bağlı terminlər tərcüməşünaslıq problemləri ilə əlaqəli və dərinləşdirilmiş şəkildə təhlil edilmişdir.

Tərcümə situasiyası ilə bağlı terminlər (situativ tərcümə nəzəriyyəsi, situasiya klişesi, situasiya əlaqələri, gerçiklik situasiyası, situativ informasiya, situativ kompressiya və s.) linqvistik təhlilin dəqiqlik prinsipi əsasında müəlliflər tərəfindən düzgün şərh olunmuşdur.

Tərcümədə üslub (orijinalı saxlamaq, zaman xüsusiyyətlərini, milli koloriti, yazıçı fəaliyyətini, onun üslubu, istifadə etdiyi bədii priyomları və s) başlıca şərtdir. Üslubla üslubi kodlaşma, tərcümə mətnlərinin üslubi fərdiliyi, tərcümə zamanı üslubi itkilər, dil vasitələrinin üslubi manerası və s. məsələlərə aid terminlərin mahiyyətini tərcüməçi dərindən bilməlidir. Əks təqdirdə tərcümədə istənilən, arzu olunan nəticəni əldə etmək olmaz.

Prof. R.Manafoğlu, prof. N.Tağısoy, dos. R.Kamalın böyük zəhmət hesabına hazırladıqları "İzahlı tərcüməşünaslıq terminləri lüğəti"ndə məzmun etibarı ilə fərqlənən mətnlərin tərcümə yollarını müəlliflər ətraflı və geniş şəkildə şərh edirlər.

R.Manafoğlu, N.Tağısoy və R.Kamalın tərtib etdikləri lüğətdə nəinki tərcümə zamanı iki dil arasındakı münasibətlər, həm də dillərarası kommunikasiya, dillərarası omonimiya, dillərarası situasiya, dillərarası tərcümə, dillərarası anologizmlər, dillərarası omonimlər, semiotikaarası tərcümə, metalinqvistika, metalinqvistik funksiya, metadil, tərcümə metadili, sözün məna tutumunun, onun məcazi mənalarının yaranmasına görə genişlənməsi, sözün tərcümədə ekspressiv xassələrinin güclənməsi, metaforalaşma və s. məsələlər yığcam və dürüst şəkildə aydınlaşdırılmışdır.

Praktik tərcüməçiləri müvafiq biliklərlə silahlandırmağı ilk növbədə qarşıya məqsəd qoyan müəlliflər tərcüməçinin mətn seçmə ilə bağlı bir sıra məqamlara diqqət yönəltməsinin zərurətini vurğulamaqla, bunların sırasında tərcümə zamanı yazıya alma metodu, tərcümə metodu, mətnin seqmentasiya metodu, statistik oppozisiya metodu, transformasiya metodu və s. məsələləri dərindən təhlil edərək oxucular tərcümə etməyə müvəffəq olmuşlar.

Lüğətdə əksinə tərcümə, ümumi tərcümə nəzəriyyəsi, onun başlıca mahiyyəti, mətnin janr spesifikasından asılı olmayaraq tərcümənin ümumi qanunauyğunluqları, onun həyata keçirilmə şəraiti və xüsusiyyətləri, tərcümə təsviri üçün anlayış aparatı, tərcümə nəzəriyyəsinin xüsusi konseptual bazasının yaradılması, tərcümə nəzəriyyəsinin digər dil və qeyri-dil fənləri ilə əlaqələrinin mövcudluğu, tərcümə modelinin yaradılması, ümumi tərcümə nəzəriyyəsinin universallarını tədqiq etməsi, izahlı tərcümə, adi tərcümə, sənədlərin maşınla məhdud tərcüməsi, hərbi xarakterli tərcümə mətnlərinin xüsusiyyətləri, paradiqma, cümlə paradiqması, paradiqmatika, paradiqmatik cərgə, paradiqmatik yuva və s. məsələlər müfəssəl əksini tapmışdır.

Təqdirəlayiq haldır ki, təqdim olunmuş lüğətdə "tərcümə" anlayışının otuzdan artıq izahı verilir. Bundan başqa, dildaxili tərcümə, qəzet mətninin tərcüməsi, sənəd tərcüməsi, mətn başlıqlarının tərcüməsi, idiomların tərcüməsi, kino-video materiallarının tərcüməsi, elmi-nəzəri və ictimai-siyasi ədəbiyyatın tərcüməsi, natiq çıxışlarının tərcüməsi, poeziya, nəsr və publisistik materialların tərcüməsi, ixtisarların tərcüməsi, felyeton tipli məqalələrin tərcüməsi, terminlərin tərcüməsi, frazeologizmlərin tərcüməsi və digər janrlı mətnlərin tərcüməsinin xüsusiyyətləri doğru-dürüst araşdırılır.

Təqdim olunmuş "İzahlı tərcüməşünaslıq terminləri lüğəti"nin məziyyətlərindən çox danışmaq olar. Bu lüğətin ən mühüm cəhəti onun tətbiqi xarakterli olması ilə bağlıdır. Bu lüğətdən müvafiq universitetlərin tərcüməçilik (tərcüməşünaslıq) fakültələrində, Dövlət İdarəçilik Akademiyasının, Milli Aviasiya Akademiyasının, Polis Akademiyasının, Milli Təhlükəsizlik Akademiyasının, Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Diplomatiya Akademiyasının, Xarici İşlər Nazirliyinin nəzdindəki Akademiyada və digər ali məktəblərin müvafiq fakültələrində tələbələr, magistrlər, bu sahədə tərcümə tarixçiləri, nəzəriyyəçiləri, praktik tərcümə ilə ardıcıl və sistemli məşğul olan aspirantlar, dissertantlar və doktorantlar gərəkli mənbə, olduqca dəyərli vəsait kimi istifadə edə bilərlər.

Bundan əlavə, burada dilçilik elminin son, yeni sahə terminləri ilə (xeyli sayda) rastlaşmaq olar. Sözün həqiqi mənasında, tərcümə tarixi və metodologiyasına aid olan çoxsaylı terminoloji anlayışları ifadə edən terminlər bu əsərdə geniş şəkildə öz izahını tapa bilmişdir.

Fikrimizcə, bu lüğət həm tərcümə sənətinin elmi-nəzəri problemlərini öyrənmək baxımından, həm də tədris-metodiki cəhətdən çox dəyərlidir. Gələcək milli tərcüməçilərimizin hazırlanmasında, əlbəttə, belə əsərlərin ortaya çıxmasına böyük ehtiyac vardır.

**İsmayıl KAZIMOV**
***filologiya elmləri doktoru***

## LÜĞƏTİN STRUKTURU

□ȯ□□□□□□□□ □□□tercumcnilik 01именен сПо левому краю

Oxuculara təqdim olunan “İzahlı tərcüməşünaslıq terminləri lüğət”ində lüğət məqalələri əlifba sırası ilə düzülmüşdür. Hər söz (o cümlədən, defislə, yaxud ayrı yazılan mürəkkəb söz), yaxud söz birləşməsi ona aid bütün materialla birlikdə ayrıca, müstəqil lüğət məqaləsi yaradır. Hər nüvə təşkil edən baş söz, söz birləşməsi lüğətdə yağlı, qara şriftlə fərqləndirilmişdir. Əgər verilmiş lüğət məqaləsinin adı iki, yaxud bir neçə sözdən ibarətdirsə, bu zaman o tərcüməşünaslıq və linqvistik ədəbiyyatda verilən formada verilir. Oxucular nəzərə almalıdırlar ki, bu lüğət əsas etibarı ilə rus dilində nəşr olunmuş nəzəri və praktik materiallar əsasında hazırlandığından müəlliflər bu və ya digər lüğət məqalələrini məhz tərcümə olunmaqla təqdim edirlər. Bu zaman Azərbaycan dilinin spesifik xüsusiyyətlərinə uyğun olaraq söz və söz birləşmələri şərh olunaraq təqdim olunur. Məsələn, “Adekvat əvəzetmə”. İnversiyaya yalnız adda mənaya görə başlıca, nüvə sözü fərqləndirmək lazım gəldikdə yol verilir və o mənbədə işlənən kimi də tərcümədə verilir.

Məqalələrdəki tərif və izahlar onlar bu və ya digər mənbələrdən hansı ardıcıllıqla çıxarıldığı şəkildə nömrələnir, sıralanır. Sözlüyün həcminin süni şəkildə şisirdilməsinə yol verməmək üçün sözlərdə identifikasiyalaşan əlamətlərin təsnifat mürəkkəbliyinə görə müəllif əsərlərinə müraciət olunmur. Onlar oxuculara daha aydın, müxtəsər şəkildə çatdırılır. İstifadə olunmuş mənbələrin siyahısı lüğətin sonunda verilir və oxucu – tədqiqatçı ədəbiyyat siyahısı ilə tanış olduqdan sonra bu və ya digər kitabın hansı müəllifə məxsus olduğunu müəyyənləşdirə bilmək imkanına malik ola bilər.

Lüğətdə elə söz və anlayışlar vardır ki, onlar yalnız bir sözlə verilir. Məsələn, “yamsılama”ona aid olan heç bir söz birləşmələri, zəncirləri ilə verilmir. Elə söz və anlayışlar vardır ki, (məsələn “Elmi-texniki tərcümə”) bir neçə izahı verilir.

Müəlliflər qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq dar professional, elm və texnikanın nailiyyətlərini əks etdirən bu və ya digər xüsusi terminləri də bu lüğətə daxil etməyi gərəkli saymışlar.

## A

**Açıq auditoriya –** tərcümə zamanı ünsiyyətdə daha tez-tez rast gəlinən final adresat. O əks əlavə (tərcüməçi öz hərəkətlərinə və fəaliyyətinə olan reaksiyanı görür və eşidir) və müəyyən təşkil olunma ilə seçilir.

**Affirmativ metamətn** – pozitiv, protomətnə söykənən qeyri-polemik metamətn (xülasə, təhkiyə). Affirmativ metamətn mətnlərarası əlaqələrin bütün üsullarını (imitativ, selektiv, redusiyalı, komplementar) birləşdirir. Metamətnin affirmativ dialektik elementi dəyişilmiş kontekstdə (məsələn, sitat gətirilən parodiya) kontroverz potensial imkanı olur.

**Axtarış mexanizmi və tərcümə həllinin seçilməsi** – nəzarət edilən məqsəd, məzmun, sintaktik və leksik səviyyələrdə istifadə olunur. Bütün mexanizm, adətən, məzmun və leksik-sintaktik səviyyə kombinasiyasına istiqamətlənir.

**Alıcı (alan) –** 1. Məlumatın ünvanlanmış kommunikativ aktın iştirakçısı; tərcümə prosesində ilkin mətnin alıcısı ilə tərcümə mətninin alıcısı fərqləndirilir. 2.Bu, həm də adresat deməkdir. 3. İnformasiyanı qəbul edən kommunikant.

**Alıcı reaksiyası –** deyimin denotat, konnotativ və praqmatik mənasının alıcı tərəfindən qavranılması.

**Alqoritmin tərtibi –** işin aşağıdakı mərhələlərini nəzərdə tutur: 1) prinsipial blok-sxemin işlənib hazırlanması; 2) alqoritmin müfəssəl strukturunu əks etdirən mərhələ-mərhələ blok sxemlərin işlənib hazırlanması; 3) verilən və alqoritmlərin bütöv şəkildə təqdim olunmasının işlənib hazırlanması prosesinin ayrı-ayrı mərhələlərinin məzmunun dürüst təsviri; 4) alqoritmin maşın dilinə çevrilməsi, daha doğrusu, proqramların hazırlanması.

**Ana dili –** insan tərəfindən erkən uşaqlıq dövründə ətrafdakıları, böyükləri təqlid etmək yolu ilə mənimsənilən dil.

**Anlayış –** 1. Əşya və hadisələrin sinfi haqqında məntiqi tərəfdən formalaşdırılmış ümumi fikir. 2. Hər hansı şey haqqında təsəv-

vür, məlumat. 3. Hər hansı nəyinsə dərki üsulu və səviyyəsi. 4. Öz spesifik əlamətlərinə, tamlığına görə obyekt siniflərinin ümumiləşdirilməsinin tərtibatı. Obyektin mühüm əlamətlərinə görə düşünülmüş ümumiləşdirmə elmi anlayışın obyektinə çevrilir. Dil işarəsinin köməyi ilə dil mənası ilə anlayışın işarələnməsi.

**Annotasiyanın strukturu –** aşağıdakı bəndlərdən ibarətdir: 1) predmet rubrikası; 2) mövzu; 3) mənbənin əsas verilmişləri; 4) materialın sıxlaşmış xarakteristikası; 5) ilkin mənbənin tənqidi dəyəri.

**Anoforik əvəzliklər** – mətndə semantik münasibətlərin valentliyi kimi də şərh oluna bilər. Əvəzlik mətndə təkrarı qabardan və fərqləndirən elementlərdən biridir.

**Antonimlər lüğəti** – əks sözlərin antonimik sırasını izahla və onların işlənmə nümunələrini göstərən lüğət.

**Ara alqoritmik dil –** universal xarakter daşıyan və hər hansı məsələnin təsvirində iştirak edən ikinci nəsil alqoritmik dil; o alqoritmlərin yazısını asanlaşdırır, həll metodlarının standartlaşmasına kömək edir, proqramın tərtib olunub EHM özünə verilməsi üzrə işin bir hissəsinə imkan verməklə, proqramlaşma proseslərində avtomatlaşmanı stimullaşdırır.

**Ara dil –** 1. İkipilləli sinxron tərcümə zamanı bütün tərcüməçilərin həyata keçirdiyi tərcümə və onlara məlum olan dildir ki, adətən, pilot-kabinədən digər işçi dillərə və əksinə aparılır. 2. Bu, elə ara (ünsiyyət vasitəsi olan) dil deməkdir.

**Aradan qaldıran əlaqə –** protomətnə kontroverz münasibət özünü onda göstərir ki, mətnin seqmentləri atılır, yaxud bütöv kimi aradan götürülür. Mətnin mətnə qarşı aradan götürmə münasibəti eyni zamanda interpretasiya faktoruna (amilinə) çevrilir və, deməli, semiotik izah nümunəsi kimi xidmət edə bilir.

**Aralıq (ortadakı) adresat –** informasiyanı verən və qəbul edən şəxs, daha doğrusu, tərcüməçi, yaxud adresat-əvəzedici.

**Ardıcıl tərcümə –** 1. Dinlənildikdən və bütün məlumat sona çatdıqdan sonra onun bir dildən digər dilə şifahi tərcümə olunması, həmsöhbətin, natiqin, radioməlumatın və s. tam deyilməsi; səsli

nitqin qavrayışını və çıxış məlumatının şifahi şəkildə formalaşdırılmasını nəzərdə tutur. 2. Dinlənildikdən sonra mətnin şifahi tərcüməsi. Aşağıdakı ardıcıl tərcümə növləri fərqləndirilir: yazılı və abzas-cümlə tərcüməsi və eləcə də birtərəfli tərcümə və ikitərəfli tərcümə. Əksər hallarda ardıcıl tərcüməni eşitmə ilə peşəkar tərcümə fəaliyyətinin növü kimi şifahi tərcümə adlandırırlar. 3. İlkin mətn səsləndirilməndən sonra aparılan şifahi tərcümə növü. 4. Eşitməyə görə aparılan şifahi tərcümə. O, beləliklə, səs nitqinin qavrayışına, çıxan, göndərilən məlumatın şifahi nitqdə formalaşdırılmasını nəzərdə tutur. Ardııl tərcümənin əsas xüsusiyyəti ilkin və göndərilən məlumatın zaman kəsiyində qırıq-qırıq verilməsidir. Bu, zaman baxımından kəsik-kəsik zaman kəmiyyəti ilə ilkin məlumatın danışana verməsi ilə bağlı zəruri olan uzunluqdur ki, onun uzunluğu daha çox ola bilər. Bu amil tərcüməçinin işini xeyli çətinləşdirir. Çünki o, yaddaşında informasiyanın həcmini bu zaman kəsiyində saxlamalıdır ki, əksər hallarda o yaddaşın operativ imkanlarını dəfələrlə ötür, üstələyir. Bu vəzifəni yerinə yetirmək üçün tərcüməçinin yaddaşını həddən artıq yükləməmək məqsədi ilə (qismən) xüsusi yazma sistemindən istifadə olunur. 5. Dinlənildikdən sonra mətndə pauzalarda müəllif mətninin müəyyən hissəsinin yerinə yetirilməsi. 6. Dinlənildikdən sonra mətnin digər dilin vasitələri ilə verilməsi.

**Ardıcıl tərcümədə yazı sistemi –** bax: ardıcıl tərcümədə yazı.

**Ardıcıllıq –** bir-birinin ardınca gələn iki, yaxud bir neçə nitq seqmenti, yaxud nitq vahidi.

**Arximətn –** əsil, ilkin mətn haqqında mücərrəd təsəvvür, mətnlərarası əlaqələrdəki ilkin (janrın ilk nümunəsi).

**Arxisema və onun tərcüməsi** – ilkin mənanın poetik mətnin variant vahidləri ilə gerçəkləşən planları (Y.M.Lotman); semiofik vahidi. Tərcümədə arxisema mətnin invariant hissələri ilə əlaqələnir, deməli, o, belə demək mümkünsə, mətnin dərinlik strukturunu yenidən yaradır (işarələr səviyyəsində olan tərcümə).

**Atalar sözü –** 1. Obrazlı xarakterli və nəsihətli məna bildirən tamamlanmış deyim. Mətnə daxil edilib tərcümə üçün nəzərdə tutul-

muş atalar sözü tərcümə vahidi kimi qiymətləndirilir, çünki o da mətndəki digər vahidlər kimi tərcümə həlli tələb edir. 2. Atalar sözü obrazlı, tamamlanmış deyim olmaqla və nəsihətamiz məna daşımaqla, spesifik ritmik-fonetik tərtibata malikdir.

**Ayrıca söz** – kontekst xaricində konkret, müəyyən mənası olmayan və buna görə də tərcüməyə yatmayan nitq-dil vahidi.

## B

**Baş məcmu strukturu –** o nomenklatur model (tədqiqat) korpusunun yaxşı aparılmış inventarizasiyanın, sistemləşdirmənin və təsnifatının ortaya çıxarılmasıdır ki, onun nəticəsində struktur – təşkili sxem-modelin qurulması gedir. Bax: baş məcmu.

**Başqa istiqamətə keçirilmə vərdişi –** 1. Mətn vahidinin yeni koda (dilə) keçirilməsi üçün avtomatlaşdırılmış əməliyyat axtarışı və onun gerçəkləşdirilməsini həyata keçirmə bacarığı. Adətən başqa istiqamətə keçirilmə vərdişi əməliyyatı formal-işarə səviyyəsində nəzərdə tutulur. 2. İşarə əlaqələrini avtomatdırılmış şəkildə qurma bacarığı: bir dildəki leksik vahidlərə (söz birləşməsi, danışıq şablonlarına) digər dildə müvafiq ekvivalentlərin tapılması. Başqa istifqamətə keçirilmə vərdişi subordtinativ bilinqvizmin əsasında dayanır.

**Başlıqaltı –** bax: başlıq.

**Beynəlxalq dil –** 1. Süni köməkçi dildir ki, beynəlxalq ünsiyyət vasitəsi kimi təklif olunur; 2. Dünyanın xeyli ölkələrinin xalqları üçün beynəlxalq ünsiyyət vasitəsi kimi istifadə edilən təbii dil; 3. Geniş miqyasda siyasi-ərazi birlikləri nümayəndələri arasında ünsiyyət üçün vasitə kimi təklif olunmuş sosial-dil qurumu.

**Bədii ədəbiyyat tərcüməsi –** bax: bədii tərcümə.

**Bədii ədəbiyyatın tərcüməsi** – burada tərcümə obrazlı-emosional məqamların verilməsində maksimal dərəcədə adekvat olmalıdır. Məhz belə tərcümədə müəllifin əhval-ruhiyyəsi və hisslərinin, onun spesifik üslubunun verilməsi xüsusən zəruridir.

**Bərabər uzunluqlu avtomatlaşmış maşın lüğəti –** bu, lüğət (leksik) vahidləri, lüğət vahidlərinin uzunluğu üzrə sahmanlanmış, daha doğrusu, hər bir leksik vahiddə sözformalarının sayı nəzərdə tutulmuş lüğətdir.

**Bilavasitə tərcümə –** orijinalla birbaşa tərcümə manipulyasiyası əsasında realizə olunan tərcümə.

**Bilavasitə təşkil edənlər** – bu, iki elementdir ki, onlardan bilavasitə daha yüksək səviyyəli (daha böyük xətti uzunluğa malik) vahid əmələ gəlmişdir.

**Bildirən –** fərqləndirilən obyektə görə leksik vahid, söz.

**Bilinqvizm mexanizmi –** formalaşmış vərdişə görə bir dildən digərinə keçmə bacarığıdır ki, onun həyata keçirilməsi həm ilkin, həm də tərcümə dilində nitqi eşidib qəbul etmə vərdişindən, ehtimal proqnozlaşdırmadan və özününəzarətdən asılıdır.

**Birbaşa transformasiya** – transformasion modeldə nüvə cümlələrinin səthi strukturlara dəyişməsi işarəsi ilə göstərilir. Sözün birbaşa mənası – bu elə sözün əşyavi-məntiqi mənası deməkdir.

**Birbaşa tərcümə –** orijinaldan birbaşa aparılan tərcümə.

**Birbaşa sinxron tərcümə –** xarici (ana) dilində çıxış edən birbaşa sinxron tərcümədə natiqin nitqidir ki, bilavasitə bütün tərcümə kabinələrinə verilir və o andaca müvafiq işçi dillərə tərcümə olunur.

**Birbaşa məna –** məcazi mənadan fərqli olaraq sözün xüsusi mənada olan mahiyyəti deməkdir.

**Birdilli xüsusi lüğət –** bu, elə xüsusi ensiklopedik lüğətdir ki, onun məqalələrində müxtəlif sözlərin quruluşu təsvir olunur, xüsusi terminlər izah edilir, müxtəlif istehsalat proseslərində işlənən üsulları, avadanlıq və s. Haqqında illüstrasiyalı çertyojlar, sxemlər, şəkillər şəklində məlumatlar verilir.

**Birdilli lüğət** – 1. Sözlərin sırasını müəyyən ardıcıllıqla (adətən, əlifba sırasına görə), eyni dildə sözlərin, anlayışların, yaxud predmetlərin izahını, təriflərin, təsvirlərin, nümunələrin, eləcə də sinonimlərin və yaxud antonimlərin köməyi ilə verən kitab. 2. Bütün informasiyanı eyni dildəki vasitələrlə verən lüğət. 3. Sözlərin

mənasını, anlayışları və predmetləri, təriflərin, təsvirlərin, nümunələrin və eləcə də sinonim və antonimlərin köməyi ilə izah edən izahedici lüğət.

**Birdilli situasiya** – 1. Kommunikativ fəaliyyət eyni işarə sisteminin kodu altında gedən (həyata keçirilən) situasiya. 2. İnformasiyanın işlənib hazırlanmasını elə şəraitdə nəzərdə tutur ki, bu zaman maşının girişində və çıxışında işlənib hazırlanan informasiya eyni təbii dildə realizə olunur. 3. Bu o zaman baş verir ki, maşının girişində və çıxışında informasiya eyni dildə daxil olur. 4. İnformasiyanın «insan-maşın-insan» sistemində hazırlanması elə şəraitdə gedir ki, bu zaman maşının girişində və çıxışında informasiya eyni dildə realizə olunur. Belə realizasiya üçün bariz nümunə linvostatistik tədqiqatlar, informasiya-axtarış sistemləri və s. ola bilər.

**Birdillik** – bir dil ilə məhdudlaşma.

**Birtərəfli tərcümə** – bir istiqamətdə A1 dilindən A2 dilinə çevrilən tərcümə.

**Buraxılma və əlavə** – qrammatik və eləcə də leksik transformasiyalar əlavə sözlərin, yaxud hər hansı elementlərin buraxılmasını tələb edir. Buna görə də buraxılma və əlavə əksər hallarda qrammatik transformasiyanın digər növləri ilə uyğunlaşır və bu, nitq hissələrinin əvəzlənməsi ilə baş verir. Əlavə sözlərin ortaya qoyulması bir sıra əlavə səbəblərlə şərtlənir: cümlənin strukturundakı fərqlərlə və daha müxtəsər olan ilkin dildəki cümlələr tərcümə dilində fikrin daha geniş şəkildə ifadəsi tələb olunarkən gedir. Müvafiq sözün, yaxud bu sözün müvafiq leksik-semantik variantının olmaması da tərcümədə əlavə sözlərin mətndə istifadə olunmasına səbəb olur.

## C

**Cins** – 1. Növləri birləşdirən qrup. 2. Müəyyən hal şəkilçisini xarakterizə edən leksik-qrammatik ad kateqoriyası, uzlaşma xüsu-

siyyətləri və onların kişi, qadın və orta cinsi müəyyən etmə əlamətləri vardır.

**Cümlə səviyyəsində tərcümə –** adətən spesifik rəngə məxsus olan və tərcümə zamanı yox olan frazeoloji vahidlərin (atalar sözü, zərb-məsəllər, idiomatik ifadələr, xalq nitqi və s.) tərcüməsi zamanı istifadə olunur. Bu baxımdan cümlənin mənası ümumi ilkin dildə olan cümlənin mənası ilə üst-üstə düşür, lakin bununla belə həmin cümlələrin daxilindəki sözlər və söz birləşmələri arasında uyğunluq müəyyənləşdirmək olmur. Bax: kompensasiya.

**Cümləbəcümlə tərcümə –** bir cümlənin digərinin ardınca ardıcıl tərcümə prosesi.

**Cümlənin səthi quruluşu** – 1. Bu, cümlənin ünsiyyət prosesində nitqdə əldə etdiyi konkret formasıdır. 2. Bu, cümlənin leksik-sintaktik təşkilidir ki, burada cümlə üzvləri heç də özlərinə uyğun real substansiya funksiyalarına və əlamətlərinə tam müvafiq olmur. Məsələn, mübtəda hərəkətin mahiyyətini yox, prosesin obyektini, yaxud zaman xarakteristikasını göstərmir. Səthi strukturlu cümlələrdə sintaktik əlaqələr situasiyaya nisbətən qismən təsvir olunanın təsviri xarakterini itirir.

**Cümlənin sintaktik strukturu –** Cümlənin sintaktik quruluşu.

**Cümləüstü bütövlük –** ən aşağısı iki yanaşı cümlədir ki, burada bu cümlələr eyni üsullu ifadə, eyni tipli və eyni istiqamətli olmaqla, onlara struktur – məna korrelyasiya xasdır.

## Ç

**Çağırış siqnalı –** bədahətən (özündən asılı olmayan) formalaşdırma elementi; radiostansiyanın şərti işarəsidir ki, buna görə radioəlaqə yaratdıqda və danışıq aparanda onu tanımaq olur. O bir, yaxud iki sözdən, yaxud bir neçə hərf, yaxud rəqəmdən, hərflər, rəqəmlər və sözlərin birləşməsindən ibarət ola bilər.

**Çoxdilli lüğət -** üç və daha çox bir-biri ilə müqayisə (tutuşdurulan) edilən tərcümə lüğəti.

**Çoxdillilik** – 1. Bir neçə dili mükəmməl bilmək; 2. Konkret ərazidə bir neçə dilin olması.

**Çoxdilli situasiya** – bu, sistemə bir neçə tərcümə dilinin maşın lüğəti yerləşdirildiyi halda baş verir, məsələn, «mütərcimin avtomatlaşdırılmış iş yeri», avtomatlaşdırılmış terminoloji lüğətlərdə və xüsusi leksikada, maşın sahə lüğətlərində və s. bununla belə bu sistemlərdən hər birində terminal nəticə yalnız kişi - ilkin və tərcümə dilinin qarşılığı ilə həyata keçirilir, daha doğrusu, sistemin özü çoxdilli olmasına baxmayaraq, ikidillilik şəraitində gedir.

**Çoxfunksionallıq -** müxtəlif nitq hissələrinin formaca bir-birinə uyğun gəlməsi, bununla belə bəzi hallarda bu hissələr mənaca yaxın, bəzi hallarda isə bu sözlər mənaca tamamilə bir-birindən fərqli olur.

**Çoxpilləli tipik ayırma, seçmə -** çıxarış ayırma, seçmə əsas bütövün ardıcıl olaraq kommunikativ - funksional əlamətə görə həmcins yarımqruplara (yarımmövzulara) bölünməsini nəzərdə tutur ki, onlar da öz növbəsində çıxarış (ayırma, seçmə) proqramının təsnif sxeminə müvafiq olaraq bölmələrə və yarımbölmələrə bölünür. Başqa sözlə, mövzualtılar (yarımmövzular) və onun bölünmüş payları ümumi çıxarışın cəmi olmaqla, formal - funksional sxemlə birləşmiş kiçik seçilmişlərin cəmini göstərir. Seçmə proqramının belə təşkili əsas cəmin son dərəcə kiçildilmiş nüsxəsi olur. Belə olduqda müşahidə vahidi kimi müəyyən həcmdə öyrənilən dilaltı məzmunca məxsus olan yazılmış mətnin müəyyən hissəsi kimi çıxış edir.

## D

**Daha böyük informasiya yükünə malik sözü seçmə metodu** – məna təhlili metodlarından (ardıcıl tərcümənin yazıya alınması sistemində istifadə olunur) biridir, bu zaman açar informasiyası rolunu oynayan sözlər seçilir.

**Daxili keçidlər markeri -** mətnin «on the other hand, however» tipli yeni bölgülərinin ənənəvi üsulla aparılması – «lakin digər tərəfdən», «then all of a sudden» - «və birdən», «in contrast with all this» - «bütün bunlardan fərqli olaraq» və s.

**Daimi uyğunluq (müvafiqlik)** – 1. (məsələn, terminlər, coğrafi adlar, qabaqlayıcı yazılar, sitatlar, atalar sözü və s.). 2. Daimi uyğunluq, həm də ekvivalent müvafiqlik deməkdir.

**Danışıq dili** – bu, ədəbi dilin kodlaşmamış forması olan kitab dilinə qarşı duran xüsusi üslubi həmcins funksional sistemdir. Danışıq dili özünün xüsusi şəraiti olan, məsələn, deyimin qabaqcadan düşünülməsi və dil materialının qabaqcadan seçilməməsi, danışıq iştirakçılarının nitq ünsiyyətində bilavasitə nitq aktında onlar arasında və deyimin özünün xarakterində rəsmiyyətin olmaması ilə fərqlənir. Danışıq dilinə dil sisteminin bütün səviyyələrinin – fonetikada (tələffüz), leksika, morfologiya və sintaksisdə özünü göstərə biləcək xüsusiyyətlər xasdır.

**Danışıq klişesi** – danışıq dilində istifadə edilən stereotip deyim. Danışıq klişesinin fərqləndirilməsi təlimdə kommunikativliyin realizasiyasına kömək edir.

**Dar sintaktik kontekst** – bu, konkret sözün, söz birləşməsinin, yaxud cümlənin işlədildiyi sintaktik konstruksiyadır.

**Daralma (daraldılma)** – tərcümə praktikasında konkretləşməyə müvafiq olan semantik transformasiya.

**Deyim mənası** – 1. Məlumatın invariantı, yəni məlumatı ötürən, yaxud alanın şüurunda bu məlumatın gerçəklik situasiyası ilə uyğunlaşması. 2. Nitq əsərinin konkret situasiyada məzmunu olub semantik və situativ məlumatın qarşılıqlı təsiri nəticəsi.

**Dərinləşdirilmiş yenidən kodlaşdırma** – orijinalın dərinləşdirilmiş strukturunun (bunula belə, səthi strukturda kənarlaşmalar ola bilər) tərcüməsi.

**Diaxron tərcümə** – qeyri-müasir ədəbi mətnin (tarixən əvvəl mövcud olmuş) müasir tərcüməsi.

**Diqqətli auditoriya** – sayca daha böyük qapalı auditoriya.

**Dil daxilində tərcümə** – bax: transformasiya, dildaxili tərcümə.

**Dilin struktur səviyyəsinin təşkili** – tərcümənin stratifikasiyaya müvafiq mətn səviyyələrinə görə realizasiyası təsnifatı. Bədii tərcümə heç də yalnız bir səviyyədə realizə olunmur, o çox şeyləri əhatə edir. Bununla belə, o heç də bir dominant səviyyə ilə qurulma imkanlarını da istisna etmir. Mətnin qurulmasının ayrı-ayrı səviyyələrinə uyğun olaraq tərcümədə yenidən kodlaşdırma həyata keçirilir. Bu, fonematik səviyyədən başlayaraq, morfematikdən keçərək, leksik, frazeoloji, dialekt, dialektüstü mətn səviyyələrinə qədər hər şeyi əhatə edir. Tərcümədə realizə olunan tərcümənin dil səviyyəsinə görə öyrənilməsi – bu, tərcümənin evristik mərhələsinin tədqiqidir.

**Dil sistemaltısı** – mətnin nisbətən müstəqil hərəkət (fəaliyyət) qruplarının kommunikativ fəaliyyətin sistemaltı kimi sıxılmış modelin hissəsi.

**Dil üslubu** – 1. Seçim, uyğun işlənmə və dil vasitələrinin təşkilində xüsusiyyətləri ilə xarakterizə olunan növ müxtəlifliyi məlumat vəzifələri ilə səciyyələnir. 2. Üslub dil sisteminin sistemaltından biri kimi (yaxud belə sistemaltının kombinasiyası kimi) digər nitq üslublarından fərqli olaraq belə sistemaltının tətbiqində nitqin tipik tətbiqi sferasında istifadə olunur.

**Dil üslubu** – dil sisteminə mənsub əlamətlərin reallaşması kimi götürülən üslub. Dildə funksional və ekspressiv ifadə vasitələrinin işləndiyi üslub.

**Dil modeli** – bu, linqvistik hadisələrin cəmi, daha doğrusu, elə mexanizmdir ki, o leksik vahidlər və qaydaların düzgün, zəncirvari qrammatik qaydalara uyğun olaraq mətn yaratmasına imkan verir. Bu mənada nəinki dilaltı modeli yazılı şəkildə realizə olunan mətnləri, həm də potensial mövcud olan, daha doğrusu, yazıla biləcək mətnləri də əhatə edir.

**Dilin statistik modeli** – dilaltı alınmış funksional – kommunikativ modelin təşkil olunmuş strukturunda duran modeldir ki,

onun köməyi ilə tezlik lüğətləri seriyasının yaradılmasında nəticə olan ehtimal-statistik korpusun səmərəli yolla aparılmasını göstərir.

**Dilarası analogizmlər –** bax: tərcüməçinin yalançı dostları.

**Dilarası əlaqələrinin alt sinifləri –** bax: dilarası əlaqələr.

**Dilarası kommunikasiya (ünsiyyət) –** dil hüdudlarından (sərhədlərindən) kənara çıxan kommunikasiya.

**Dilarası omonimiya –** iki və daha artıq müqayisə edilən dillərin zahiri və semantik paralellik yaradan oppozisiyası (qarşılığı), daha doğrusu (iki dilin müqayisəsi zamanı) ən azı dörd üzvlü struktur nəzərdə tutulur ki, burada müxtəlif dillərdə omonimlərin oxşarlığı müşahidə olunur. Dilarası omonimlər tam (bütöv), yarımçıq və yalançı (qeyri-dürüst) leksik paralelin (müqayisə edilən hər bir dildə) omonimik müqayisəsini nəzərdə tutur.

**Dilarası omonimlər – bax:** tərcüməçinin yalançı dostları.

**Dilarası situasiya –** bu, elə bir dilarası situasiyadır ki, bu zaman ünsiyyət prosesində iki dildən istisfadə olunur.

**Dilarası tərcümə –** 1. Bir dildən digər dilə tərcümə, ikidilli (qoşadilli) situasiyada tərcümə, dilarası kommunikasiya şəraitində tərcümə; 2. Dilarası tərcümə bir dilin elementlərinin digər dilin elementləri ilə əvəz olunması kimi müəyyən edilə bilər; 3.Verbal işarələrin hər hansı digər dilin köməyi ilə interpretasiyası- yəni tərcüməsi; 4. İnformasiyanın hər hansı işarə sisteminin köməyi ilə digər informasiyaya çevrilməsidir ki, bu, digər işarə sistemi ilə ifadə olunur; 5. Tərcümə, yaxud bir dilin söz işarələrinin digər dilin söz işarələrinin köməyi ilə izahı, şərhi.

**Dilarası (interlinqvistik) tərcümə** – iki təbii dil sistemləri arasında həyata keçirilən tərcümə.

**Dilarası intersemiotik tərcümə –** iki semiotik sistem arasında həyata keçirilən tərcümə. Burada əsasən, semiotikaarası transformasiyadan, məsələn, ədəbiyyat dilindən film (kino) dilinə, yaxud təsviri sənət dilindən musiqi dilinə tərcümədən və s. söhbət gedir.

**Dildaxili tərcümə –** vahid dil sistemi çərçivəsində mətnin, yaxud onun elementlərinin transformasiyası. Bu, semantik sinoni-

mika səviyyəsində həyata keçirilir (mətndə izah etmə, snoskalarda şərhlər və s.).

**Dilin lüğət vahidi –** lüğət məqalələrində başlıq bildirən söz.

**Dilin makrolinqvistik təsviri –** dil sisteminin əsaslandırılmış qarşılıqlı ekstralinqvistik hadisələrlə tərcümə obyektinin mövcudluğu şərtlərinin və quruluşunun predmetini müəyyənləşdirən nitq əsəri.

**Dilin semantik – sintaktik modeli** – semantik və sintaktik əlaqələrin orqanın birləşməsini nəzərdə tutan dil modeli.

**Dillərarası uyğunluğun statistik sxemi –** əsas etibarı ilə müqayisəli dilçiliyə meyillənir və tərcümə nəzəriyyəsi üçün son dərəcə məhdud dəyərə malikdir.

**Diskurs** – filoloji ədəbiyyatda geniş yayılmış termin (frans. discours, lat. dis-curere – ora-bura, müxtəlif tərəflərə qaçmaq) fransız dilində ənənəvi olaraq "mühakimə", "fikir yürütmə" mənalarında işlədilib. 50-ci illərdə E.Benvenist deyim nəzəriyyəsini hazırlayaraq diskursu nitqin xarakteristikası kimi müəyyənləşdirir: "Birincinin müəyyən şəkildə ikinciyə təsir etmək cəhdi". Yaxud İ.Derrida diskursu yazan və oxuyanların təcrübəsində canlı dərk olunmuş mətn təsəvvürü" adlandırır. Z.Xerrisə görə diskurs verbal kommunikasiyada mətn, qrammatik formaların, bir-birinin dalınca sıralanmış frazaların ardıcıllığıdır. T.A.Van Deykə görə, diskurs "kommunikativ hadisədir".

**Diskursiv praktika** – dil baxımından müəyyən məna yaxın funksiyal alternativ dil vasitələrindən istifadə tendensiyasıdır. (Gerçəkliyin variativ interpretasiyası).

**Doğruluqlar lüğəti –** bu, bir tərəfdən, düzgün, doğru söz işlətmə və forma yaradıcılığı məsələləri ilə bağlı təkliflər, digər tərəfdən, müvafiq normaların pozulmasına qarşı hazırlanmış lüğətdir.

**Dövrə (oborot) –** 1. Tezliklər lüğətində dövrə iki və daha artıq sözformalardan (adətən, beşdən artıq olmayaraq) olan xətti mətn ardıcıllığı hesab olunur ki, onlar mətndən formal seqmentlərin fiksasiya olunmuş uzunluğu (dekadadan-iki sözdən istifadə, triadadan-üç, tetradadan-dörd, pentadadan - beş) əvvəlcədən ve-

rilmiş nüvə (aparıcı) sözformalara söykənmişdir. Nüvə (aparıcı) söz formalardan asılı olaraq bu dövrələr feli, ismi, zərfi, cümlə, bağlayıclı, əvəzlikli sol və sağ valentliyi göstərilməklə, həm də onsuz ola bilər. 2. Dövrə həm də konstruksiya kimi başa düşülməlidir.

**Düşürtmə, düşmə –** 1. İlkin mətnin izafi semantik elementlərinin qısaltma və kompressiya yolu ilə buraxılmasıdır. 2. Cümlə üzvlərindən hər hansı birinin onun «sıfır» ifadəsi kimi qəbul olunma yoxluğu. 3. Tavtologiya halların istifadə olunan priyom, eyni mənalı yanaşı duran sözlərdən birinin buraxılması. Bax: həm də buraxma və əlavə. 4. Əlavələrin əksi. Burada ona semantik cəhətdən izafi olan sözlər məruz qalır, daha doğrusu, mətndən onların köməyi olmadan mənanı ifadə edən söz çıxarılır.

## E

**Ehtimal proqnozlaşdırma mexanizmi –** mühüm, xüsusən sinxron tərcümə üçün mənbədəki mətn vahidindən və hətta situasiya elementlərini göstərən və qeyd edən məqamları hiss edib tapa bilmək bacarığı.

**«Ekspress-informasiya» tipli tərcümə –** ana dilində orijinalın əvvəlcədən ixtisarı aparılmadan müxtəsər və obyektiv xarici dildə olan elmi-texniki referat, yaxud məqalənin tərtib olunmasında istifadə olunan yazılı xüsusi tərcümə növü.

**Elmi ədəbiyyat tərcüməsi –** elmi ədəbiyyatın tərcüməsi bu dilin normalarına cavab verməlidir. Tərcümənin düzgün olunması üçün kontekstdə nədən söhbət getdiyini və onu düzgün başa düşmək tələb olunur. Xarici dildəki yeni termin hər bir sözün, onun kontekstlə əlaqələrini və onun dəqiq mənaya uyğun quruluşunun məntiqi-linqvistik təhlil yolu ilə açılmasını tələb edir. Variantın düzgün seçimi o zaman zəruri olur ki, nə vaxt xarici termin üçün ana dilindəki sözlərlə alınmış sözlər arasında uyğunluq mövcuddur. Tərcümənin bu janrı ilkin mətndəki faktik materialda heç bir kiçicik

dəyişikliyin aparılmasına yol vermir. Tərcümə zamanı cümlənin quruluşu fikrin və mənanın bütöv şəkildə aydın və dəqiq verilməsi məqsədini güdür ki, burada cümlənin hissələrə bölünməsindən, onun hissələrinin yenidən qruplaşdırılmasından, hissələrinin birləşməsindən cümləyə xələl gəlmir.

**Elmi-texniki informasiya –** Üç əsas axına (hissəyə) bölünür: 1. Mübadilənin başlıca forması olan patent ədəbiyyatına, daha doğrusu, elm və texnika sahəsində bütün yeni hər nə varsa patent kimi və ondan törəmə forması kimi qeyd olunur; 2. Elmi-texniki informsiya mübadiləsi üçün xüsusi nəzərdə tutulmuş dövri mətbuata, məsələn, referatlar, annotasiyalar və adlar olan sahə bülletenlərinə; xüsusi xarakterli hesabat məqalələrinə, problematik və diskussiyalı məsələləri əhatə edən sahə elmi-texniki jurnallarına; sənaye məhsullarının kəşf olunması və mövzuların adı olan biblioqrafik göstəricilərə və eləcə də bəzən bu sahə üzrə olan işlərin tematik şərhini özündə əks etdirən annotasiyalara; 3. Müxtəlif elmi-texniki mübadilə üçün xüsusi nəzərdə tutulmayan dövri və qeyri-dövri nəşrlərdir ki, onlardan həmin məqalədə istifadə etmək olar, məsələn: buna oxşar xüsusi kitablar və Jurnallar, reklam materialları, sərəncamlar və s. xüsusi informasiya mənbələri.

**Elmi tərcümə –** Xüsusi elmi mətnlərin tərcüməsi. Bax: elmi-texniki tərcümə.

**Elmi-texniki tərcümə –** 1. Onun başlıca cəhəti mühüm terminologiyaya söykənməklə, materialı obrazlı – emosional ifadə vasitələrinin köməyi olmadan şərh etməkdir. Elmi və texniki materialların terminologiya ilə zənginliyi tərcüməçidən nəinki dillərin qarşılıqlı qoşadilliliyin təsiri nəticəsində terminologiyanı əla bilməsini, həm də ondan düzgün istifadə etməni tələb edir. Burada iki qarşılaşdırılan dildən birində müvafiq realiya və terminoloji ekvivalentlərin yoxluğu zamanı tərcümə üsulları və metodlarından istifadə edə bilmək olduqca əhəmiyyətlidir. Bax: texniki tərcümə. 2. Elmi və texniki mövzular sahəsində ünsiyyət üçün xidmət edən xüsusi tərcümə janrlarından biri. 3. Spesifik metodla həyata keçirilən, bədii əsər tərcüməsindən fərqlənən, elmi-texniki xarakterli xüsusi

mətnlərin (sənədlərin) tərcüməsidir ki, burada dəqiqlik, müxtəsərlik, aydınlıq və s. kimi tələblər mütləq qorunulmalıdır. Əksər hallarda «elmi tərcümə» termini «elmi-texniki tərcümə» termini ilə öz mənasına görə üst-üstə düşür. «Texniki mətnlərin tərcüməsi» söz birləşməsi də təxminən eyni məna verir.

**Elmi və ictimai-siyasi ədəbiyyat tərcüməsi –** belə mətnləri dilin tələbləri ilə uzlaşan bütün cəhətləri nəzərə almaqla tərcümə etmək lazımdır. Üstəlik əgər müəllif qədim dövrə aiddirsə, bu təqdirdə ana dilindəki arxaik formalardan əvvəlki dövrlərin spesifik dilini oxucuya hiss etdirmək üçün imkan vermək lazımdır.

**Epiqraf** – bədii mətnin o komponentidir ki, oxucunu ilkin mətnə istiqamətləndirir və assosiasiya şəbəkəsini proqramlaşdırır. Bədii mətnin o işarəsidir ki, intrasemiotik uyğunluq yaratmağa qadirdir. Epiqraf açıqlığı ilə səciyyələnən mətn parçası-kəsiyidir.

**Epitetlər lüğəti –** isimlərin sifətlərlə uyğunluğunu özündə əks etdirən lüğət.

**Eşitmə ilə mənimsəmə və nitqin sinxronlaşma vərdişi –** Eyni vaxtda tərcümənin iki mühüm əməliyyatını - ilkin mətnin mənimsənilməsi və tərcümənin tərtib edilməsini həyata keçirə bilmək bacarığı.

**Eşitmə ilə sinxron tərcümə –** adətən, sinxron tərcümə adlanır; sinxron tərcümənin başlıca növlərindən biri. Xüsusi sinxron tərcümədə ilkin mətn tərcüməçi tərəfindən qəbul edilir və o, ilkin mətni tərcümə edir.

**Eyni referenti ardıcıl göstərən markerlər –** özündə şəxs əvəzliklərini (he, she, they), deyktik əvəzlikləri (this, that) və sinonimləri (dog, animal, pet, puppy) birləşdirir.

## Ə

**Ədəbi kommunikasiya –** ekspedient və persipientin ədəbi mətnin köməyi ilə kommunikativ əlaqəsi.

**Ədəbiyyatdaxili tərcümə** – bu, əsas etibarı ilə qədim ədəbiyyat kontekstində gedən tərcümədir. Ədəbiyyatdaxili tərcümə orijinal mətnin müxtəlif səviyyələrində baş verən əvəzlənməni nəzərdə tutur və buna görə də dillərarası tərcümə kimi ədəbi tərcümənin bütün atributlarına malikdir. Ədəbiyyatdaxili tərcümə mətnyaratma əməliyyatı nöqteyi-nəzərdən bilərəkdən köçürülmüş mətn və tərcüməyə bölünür. Ədəbiyyatdaxili tərcümənin praqmatik motivləşməsi bədii mətnlərin kommunikativ tələbatı, müasir ədəbiyyatın klassik irsə münasibəti və əvvəlki ədəbi mərhələlərə münasibəti, qədim mətnlərin ədəbi savadlılıq sferasına qoşulması və ədəbiyyatın ictimai dövriyyəsi (dövr etməsi) və eləcə də ədəbi prosesdə ədəbi strukturların yeniləşməsidir.

**Əks tərcümə** – tərcümə olunmuş mətnin əvvəlki dilə eksperimental tərcüməsi.

**Əks transformasiya** – transformasiya modelində səthi strukturların nüvə (aparıcı) cümlələrlə əvəz olunması.

**Əksinə (tərsinə) lüğət** – materialın əlifba, lakin sözlərin əvvəlinə yox, onların sonuna görə, daha doğrusu, sağdan sola ardıcıllığını qorunub saxlayan lüğət.

**Əksinə tezlik lüğəti** – 1. Bu, sözlərin sonundan başlayaraq sözlərin əlifba sırasında düzülüşünü əks etdirən lüğətdir. Əksinə (tərsinə) lüğətlərdən adətən ədəbiyyatşünaslıqda və qədim mətnlərin oxunulmasında istifadə olunur. 2. Bu elə tezlik lüğətidir ki, burada sözlər əlifba sırasında elə düzülür ki, iki sözün müqayisəsi əvvəlki hərflərdən yox, sondakı hərflərdən başlayır və beləliklə, sözün sonundan əvvəlinə davam edir və ilk iki sözdən hansında sonuncu hərf əlifbanın əvvəlinə yaxındırsa, eyni sonuncu hərflərdə ikinci, üçüncü və s. hərflər müqayisə olunur.

**Əksinə (tərsinə) tərcümə** –Tərcümə mətninin orijinalın dilinə tərcüməsi.

**Dil modeli** – bu, linqvistik hadisələrin cəmi, daha doğrusu, elə mexanizmdir ki, o leksik vahidlər və qaydaların düzgün, zəncirvari qrammatik qaydalara uyğun olaraq mətn yaratmasına imkan verir. Bu mənada nəinki dilaltı modeli yazılı şəkildə realizə olunan

mətnləri, həm də potensial mövcud olan, daha doğrusu, yazıla biləcək mətnləri də əhatə edir.

**Dilin statistik modeli –** dilaltı alınmış funksional – kommunikativ modelin təşkil olunmuş strukturunda duran modeldir ki, onun köməyi ilə tezlik lüğətləri seriyasının yaradılmasında nəticə olan ehtimal-statistik korpusun səmərəli yolla aparılmasını göstərir.

**Əl nitqi –** kinetik nitq.

**Əl tərcüməsi –** bax. Ənənəvi tərcümə.

**Əlaqəli informasiya –** sistemin təşkililiyinin sıralanmasını xarakterizə tam obyektiv olaraq mövcuddur. Onun təhlili və hiss olunub görülməsi üçün adi təbii-elmi aspektdən istifadə olunur. Əlaqəli informasiya üçün nümunə kimi hüceyrələrin genetik aparatının informasiyası, konstruktorunun texnikada mexanizmdə, texniki quluşun ilkin informasiyası və s. üçün xidmət edə bilər. Təsadüfilik elementi yalnız onun yaranması zamını baş verir, lakin bu kəmiyyət dəyərində özünü əks etdirir. Əlaqəli informasiyanı vermək üçün statistik aparatdan istifadə tələb olunur. Əlaqəli informasiya bir sıra hallarda kəmiyyət nöqteyi-nəzərdən daha dəqiq müasir riyazi metodlar ilə tam şəkildə müəyyən oluna bilər. 2. Tərcümə mətninin ilkin dilə tədrisi məqsədilə salınması.

**Əlamət –** 1. Hər hansı bir şeyin əlamətini müəyyən etmək üçün işarə, göstərici. 2. Predmetin, prosesin və digər əlamətlərin keyfiyyətini, kəmiyyətini və dərəcəsini bildirən semantik kateqoriya.

**Əlavələrin əsas məqsədi –** sənəd tam şəkildə oxunmazsa, onun düzgün başa düşülməsi də çətinlik yarada biləcəyini diqqət mərkəzinə çəkmək lazımdır. Bax: referatın həcmi.

**Əməliyyat –** hərəkətin, yaxud onun komponentinin konkret fəaliyyət şəraitinə uyğun üsulla yerinə yetirilməsi.

**Ərazi dialekti –** bu, konkret ərazinin dialekti deməkdir.

**Ərazi lüğəti –** bu, elə dialekt lüğəti deməkdir.

**Əsas (kök) –** sözün formayaradıcı şəkilçisini götürərkən və bu sözün leksik mənası ilə bağlanan söz formasının hissəsi.

**Əsas məna** – müxtəlif şəkildə realizə olunan dil vahidinin invariant mənası.

**Əsaslar lüğəti** – əsas və sonluqdan ibarət maşın lüğəti siyahısı. Hər bir əsasa və hər bir sonluğa onların morfoloji sinfinə və leksik-qrammatik informasiyasına kod verilir. Belə lüğətlə iş zamanı sözlərin zəruri forması müvafiq sonluqların əsasa verilmiş qaydalar əsasında birləşməsi yolu ilə gedir. Əsaslar lüğəti, xüsusən, flektiv tipli dillər üçün əlverişlidir. Lakin belə lüğət üçün olduqca qabarıq ağır morfoloji təhlil alqoritmi və dilaltının morfoloji təsviri üçün böyük zəhmət sərf olunan iş tələb olunur.

**Əsil (orijinal)** – 1. Tərcümə yox, orijinal mətn. 2. Tərcümədə ilkin mətn. 3. Əsil şey, kopiya yox, orijinal. 4. İlkin mətn, yaxud sənəd (məqalə, kitab, əlyazma və s.) tərcümə olunmaq üçün nəzərdə tutulan mətn.

**Əsil ehtimalların əsil bölüşdürücüsü modeli** – bu, elə tezliklər lüğəti deməkdir.

**Əvəzetmə** – orijinalın və tərcümənin mümkün semantik-struktur parallelizminə əsaslanan tərcümə üsulu.

## F

**Fasiləsiz ardıcıl tərcümə** – dinlənildikdən, daha doğrusu, natiqin nitqi qurtardıqdan, radioməlumata qulaq asıldıqdan, həmsöhbətin dediyi (danışdığı) tam sona çatdırıldıqdan və s. sonra məlumatın bir dildən digər dilə şifahi şəkildə tərcüməsidir. Belə olduğu halda natiq (danışan) öz çıxışının tərcüməyə görə arasını kəsmir (fasilə vermir), nitqini tam şəkildə tələffüz edir (çatdırır) və yalnız bundan sonra söz tərcüməçiyə verilir. Müqayisə et: abzas - cümlə tərcüməsi, abzas-cümlənin ardıcıl tərcüməsi.

**Fasiləsiz seçim** – bu, elə seçimdir ki, o zaman nəinki tezliklərin özü, həm də dil elementlərinin fəaliyyəti və bu şəraitin fəaliyyət prosesinə təsiri nəzərə alınır; o, öyrənilən sistemaltının qanunauyğunluqları haqqında etibarlı informasiya verir. Bəzi elementlər buraxılmış seçimdə artıq tam hesab edilə bilməz. Seçimdə bütün

fəaliyyətdə olan elementlər rəqəm-hərf işarələri, formullar, xüsusi adlar və ixtisarlar nəzərə alınmalıdır. Əgər xüsusi adlar və rəqəmlər (o cümlədən, hərflər) cəm halda nəzərdən keçirilərsə, onda ixtisar kimi (dilin vahidi hesab edilən) linqvistik vahidlər ümumi sayla cəmlənməməli, eyni zamanda, həm də statistik təhlildən kənarda qalmamalıdır. Bu xüsusi dilaltı sahələrinə daha çox aiddir ki, burada ixtisarlar informasiya yükünün daha böyük payını daşıyır.

**Felyeton tipli məqalələrin tərcüməsi –** burada ən mühümü fikri verə bilməkdir, onun tərtibatının spesifik xüsusiyyətlərini vermək o qədər də vacib deyil. Əksər hallarda xarici müəllifin oynaq üslubunu həddən artıq sadələşdirmək tələb olunur, daha doğrusu, oxucu üçün daha anlaşıqlı dildə jurnal-qəzet dili ilə sərbəst tərcüməyə, xüsusən onun başlıqlarını tərcümə etməyə çalışmaq zəruridir.

**Fəaliyyət obyekti –** hərəkətin (fəaliyyətin) hansı predmetin, əşyanın üzərinə istiqamətlənməsi.

**Fəaliyyətin planlaşdırılması –** sinxron tərcümədə – burada nəticənin əldə olunması ilə bağlı tərcüməçi konkret proseduru müəyyənləşdirmir. O, burada yalnız özü üçün tərcümənin tələb olunan dəqiqliyi və tamlığı dərəcəsini dəqiqləşdirir, öz şüurunda onu özü düşündüyü kimi dil vasitələrini müəyyənləşdirir və fəallaşdırır ki, onlar tərcümə hərəkətlərinin yerinə yetirdiyi prosesdə lazım olur, öz funksional sistemini fəallaşdırır və müvafiq zəruri hazırlıq aparır.

**Fərdi yerdəyişmə –** üslubi zövq, tərcüməçinin subyektiv obrazlı hissi və idiolekti ilə motivləşmiş fərdi kənarlaşmalar sistemi.

**Fərqləndirmə –** ümumi nitq axınından nitq vahidinin uzunmüddətli yaddaşda saxlanılanla etalonlarla və sonrakı identifikasiyası üçün fərqləndirilməsi. Qavrayış zamanı nitq fəaliyyəti kimi fərqləndirmə tanımaya, bilməyə kömək edir.

**Fiksasiya olunmamış semasioloji əlaqələr –** denotatın ardınca konkret dil işarəsini möhkəmləndirməyən semasioloji əlaqə; onlar dil işarəsinin birmənalı olmamasını, sinonimik sıra (cərgə) olduğunu göstərir.

**Filtrlər metodu –** ekvivalentlərin seçimi və ikidillik şəraitinin qarşıdurması zamanı istifadə olunur. İki filtr fərqləndirilir: seman-

tik-tezlik və semantik kompressiyaedici. Filtrin əsas alətləri tezlik lüğətləri, birdilli izahlı lüğətlər, sahələr üzrə mövcud olan ikidilli lüğətlərdir. Əlavə alətlər isə, informant - tərcüməçilərdir.

**Fonem səviyyəsində tərcümə –** bax: fonem-fonem tərcümə.

**Fonem – fonem tərcümə –** ayrı-ayrı fonem səviyyəsində yerinə yetirilən tərcümə. Tərcümə vahidi kimi fonemin seçilməsi heç də tez-tez müşahidə olunmur. Çünki fonem məna daşıyıcısı deyil, o yalnız məna fərqləndirici rolu oynayır və bu əksər hallarda şəxs adlarının tərcüməsində müşahidə olunur olur və eyni zamanda digər ölkələrin sosial və mədəni-məişət həyatında uyğunluq olmayan realilərin tərcüməsində rast gəlinir.

**Fonematik tərcümə –** mətnin, əsasən, fonematik səviyyəsində realizə olunan tərcümə.

**Formal-işarə səviyyəsində əməliyyatlar –** denotatın identifikasiyası həyata keçirilmədən bir vəziyyətdən başqasına keçid zamanı vərdiş əsasında aparılan tərcümə əməliyyatı.

**Formulyar rekviziti –** 1. Permanent vahid olmaqla, sənədin öz daimi tərkibində olur. Onlar kommuniktiv funksiyanın daşıyıcısı, kommunikativ vahidin daşıyıcısı rolunda çıxış edən məlum informasiyanı verir. Funksional perspektiv baxımdan onlar konstant xarakterə malikdir və sənədin mövzusu olub, onun elementinin rubrikasiyası və struktur formalizasiyasıdır. Sənədlər hər bir kommunikativ kateqoriyası formulyar rekvizitlərinin (dil ştampları, şərti işarələr, ixtisarlar) fiksasiya edilmiş çoxsaylı rekvizitlərinə malikdir. 2 a) ümumi başlıq (ştamp) sənədin rəngarəngliyi adı, onun nömrəsi, tarixi, müəllif (sənədi nəşr edən, orqan), nəşr yeri; b) paraqraflara və bəndlərə bölünmüş, bir-birindən rəqəmlərlə (ərəb və rum, eləcə də baş hərflərlə), yaxud abzaslarla; c) adresatın (orqanlar və sənəddə yazılmışları icra etməyə borclu olan şəxslər), yaxud yerlərə göndərilmə hesabı, sənədi nəşr edən vəzifəli şəxsin imzası və rəyini özündə əks etdirir.

**Frazeoloji tərcümə –** əsasən fraza səviyyəsində realizə olunan tərcümə.

**Frazeologizmlərin tərcüməsi** – frazeologizmlərin tərcüməsi – 1) ekviavalentlərdən istifadə (mütləq və nisbi); 2) frazeoloji analoqlardan (variantlardan) istifadə; 3) kalka yolu ilə; 4) təsviri tərcümə yolu ilə həyata keçirilir. Bax: həm də idiomların tərcüməsi.

**Frazeologizmlərin təsviri tərcüməsi** – obrazlılıqdan imtina edərək ilkin dildəki frazeoloji vahidin sərbəst söz birləşmələrinin köməyi ilə verilməsi.

## G

**Generativ qrammatika** – 1. Müasir dilçiliyin elə bir istiqamətidir ki, burada linqvistik problem kimi dil strukturunun daxili qanunauyğunluqlarının açılması, öyrənilməsi olmaqla o müəyyən «mexanizm», yaxud «quruluş» kimi təqdim olunur ki, bu nəinki dilin təbii fəaliyyəti prosesində müşahidə olunur, həm də onu sünii yolla elmi təhlil üçün hərəkətə gətirmək olur. Bunun üçün ilkin material almaqla bağlı, hər şeydən öncə, doğru-düzgün cümlələr (müəyyənləşdirmək, inventarlaşdırmaq) modeli tapmaq və onların hər biri üçün bir neçə struktur təsvir vermək lazımdır. 2. Dilin fəaliyyət mexanizmi üzərində dayanan və ona söykənən cümlənin nüvəsindəki məhdud sayda doğru elementar deyimlərə əsaslanan linqvistik model.

**Genişləndirilmiş deyim** – konkret dilin semantik-sintaktik modelinə uyğun şəkildə tam (qısaldılmış, elliptik deyil) qurulmuş model.

**Genişlənmə** – 1. Tərcümə praktikasında ona müvafiq olan semantik transformasiya. 2. Sayda, həcmdə və məzmunda artma, dəyişmə.

**Gerçəklik situasiyası** – real gerçəkliklə uyğunlaşan və subyekt tərəfindən onun fərdi və ictimai təcrübəsi və biliklərin yığılması (zənginləşdirilməsi) kimi dərk olunan nitq əsərinin məzmunu. Gerçəklik situasiyasına girə bilmə tərcüməçi üçün zəruridir, çünki

bunsuz translyantın orijinala adekvatlığını qarantlaşdırmaq mümkün deyildir.

**Gizli əlaqə –** protomətnin olduğunu bəyan etmədən metamətn yaradılması, üslubi cəhətdən o mətnin idiodəyişkənliyinin artması ilə səciyyələnir.

**Gizli tərcümə –** bu, orijinal mətnin müvafiq seqmentlərinin elə transformasiyasıdır ki, orada ekspediyent açılmır. Burada tərcümənin tam realizasiyası getmir, əksinə, burada funksional olaraq onun həyata keçirilməməsindən, onun müvafiq ədəbi strukturun aktivləşməsi məqsədi ilə qırıq-qırıqlığından istifadə olunur.

**Göndərən –** məlumat göndərən kommunikativ akt iştirakçısı; yazılı tərcümə üçün tətbiq edilən məlumatı göndərən-ilkin mətn müəllifi.

## H

**Heca kompressiyası –** bu, məlumatın heca həcminin ixtisar olunması, yaxud tərcümə dilində məlumatdakı hecanın sayının orijinal dilindəki məlumata nisbətən ixtisar olunması deməkdir.

**Hipermətn** – ənənəvi yazı mətnindən fərqlənir. Bu anlayış kompüterlərin işi ilə əlaqədar yaranmışdır. Hipermətnin tərifi saytda ("Elektron labirint") yerləşdirilib: "Hipermətn informasiya təqdimidir. O müəlliflər çoxluğunu, müəllif və oxucu funksiyalarının silinməsini, qeyri-dəqiq sərhədlərlə iş və oxu yollarının çoxluğunu mümkün edir. Hipermətnin klassik nümunəsi Bibliyadır.

**Hipertekstuallıq –** Hipermətnin səciyyəvi xüsusiyyətlərinin məcmusu, informasiyaya girmənin təşkili və strukturudur.

**Həddən artıq tərcümə ölçüsü –** bax, tərcümənin həddən artıq interpretasiyası.

**Hərbi materialların tərcümə xüsusiyyətləri –** hərbi materiallara sözün geniş mənasında tərcüməçi-referent, hərbi-bədii materialları, «hərbi-publisistik materialları» və «hərbi-siyasi materialları», hərbi-elmi və hərbi-texniki materialların, hərbi idarənin

aktlarının (müxtəlif hərbi sənədləri) tərcümə edilməsi zamanı müraciət edir. Hərbi materiallara, adətən, elmi-texniki materialları və idarəçilik aktlarını, ordunun və silahlı qüvvələrin hərbi müəssisələrinin həyat və fəaliyyəti ilə bağlı materialları aid edirlər. Hərbi-bədii ədəbiyyat, hərbi publisistika və hərbi-siyasi materiallar öz məqsəd istiqamətinə və mövzusuna görə əsasən o xassələrə bütün ictimai-siyasi, publisist və bədii mətnlərə xasdır. Hərbi-bədii materialların və hərbi-publisist materialların və siyasi istiqamətli materialların xarici dildə xüsusiyyətlərini təhlil etdikdə, hər şeydən öncə, o məsələyə diqqət yetirilməlidir ki, militarist təbliğatla seçilən xarici ədəbiyyat və mətbuatın adi metod və priyomlarından, öz dövlətlərindəki ordunun hərbi doktrinasının tərifindən, hərb tarixinin bilərəkdən təhrif olunmasından, xüsusən ikinci dünya müharibəsinin tarixinin təhrifindən. Bütün hərbi materiallar hər hansı digər materiallardan özündə hərbi leksikanın dolğunluğu, elmi və hərbi terminologiyanın geniş istifadəsi, hərbi sferada ünsiyyət üçün xarakterik sabit söz birləşmələri, hərbi nomenklatura bolluğu və xüsusi ixtisar və şərti işarələr (yalnız hərbi materiallarda istifadə edilən), sintaksis nöqteyi-nəzərindən isə elliptik və klişe konstuksiyalar elementindən, kasad feli zaman formalarından, müxtəsər formalı deyimlərdən, bir cümlə daxilində çoxsaylı parallel konstruksiyalardan, infinitiv və feli sifətlərdən istifadə olunur. Bütün bunlar hərbi sferadakı ünsiyyət üçün xarakterizə olunan müəyyən funksional ağırlıq və çətinliklə bağlıdır: formulalarda müxtəsərlik, aydınlıq, konkretlik, izahın dəqiqliyi və düzgünlüyü, fikrin şərhinin məntiqi ardıcıllığını, cümlənin quruluşunun mükəmməlliyini, bir fikrin digər fikirdən fərqləndirilməsini, veriləcək informasiyanın qavrayışının yüngüllüyünü təmin edir. Tərcümənin və o cümlədən xüsusi tərcümənin əsas prinsipi, üsul üçün də xarakterikdir. Lakin başqa kommunikativ-funksional istiqamətdə tərcümənin bu növü üçün xeyli spesifik xüsusiyyətlər xasdır ki, onlar xarici dilin üslubunun, leksikasının və qrammatikanın hərbi materialları ilə bağlıdır. Hərbi tərcümədə tərcümənin dəqiqliyi olduqca mühüm rol oynayır, çünki tərcümə olunmuş material məhz mühüm qərarların qəbul edilməsi,

hərbi əməliyyatların aparılması və s. üçün əsas ola bilər. Odur ki, hərbi materialların tərcüməsinin adekvatlığı nəinki materialın məzmunun düzgün verilməsini, həm də onun struktur formasının tam şəkildə verilməsini, onun hissələrindəki ardıcıllığı, materialın quruluşunu, şərhin ardıcıllığını və bir sıra digər amilləri verməlidir. Çünki oradakı bəzi məqamlar digər mütəxəssislər üçün lazımsız göründüyü halda, məhz hərbi mütəxəssis üçün böyük əhəmiyyət kəsb edə bilər. Məsələn, hərbi sənədlərdə göstərilən məntəqələrin verilməsi (ərəb rəqəmi və latın əlifbası hərfləri) zamanın, tarixin, vaxtın, koordinatların, coğrafi adların, hərbi hissələrin və onun bölükləri və digər məlumatlar (verilmişlər) əhəmiyyətlidir.

**Hərbi materialların tərcüməsinin üslubi xüsusiyyətləri** – tərcümənin adekvatlığının əldə olunması üçün ən mühüm problem əslin üslubunu vermək məsələsidir. Tərcümlənin üslubi aspekti əslində ümumi funksional-kommunikativ istiqamətinin verilməsi üçün leksik-qrammatik vasitələrin düzgün seçilməsini tərcümə olunan dilin mövcud ədəbi dil normalarının köməyilə verməkdir. Hərbi materialların üslubi heç də yekcins, (həmcins) deyildir. Hərbi materiallar sırasında materialların şərhində iki mövcud meyl durur: bu ya quru rəsmi-dəftərxana dilidir ki, burada arxaik tərkib və konstruksiyalar, ya sadə danışıq, bəzən soyad dil ilə sonuncu tendensiya siravi, unter zabit heyəti üçün əsasən hərbi və hərbi-texniki materiallarda qeyd olunur. Bu meyl, ilk növbədə, ümumi və texniki hazırlığın aşağı səviyyəsi ilə bağlıdır, deməli, həm də bu quru rəsmi nizamnamə materiallarını və çətin texniki izahları hərbi xidmətdən olanların əsas kütləsi üçün daha populyar və aydın etmək üçün edilir. Elə bunun nəticəsidir ki, xeyli hərbi materiallar daim izahedici illüstrasiyalar, cədvəllər, sxemlər və diaqromlarla müşayiət olunur ki, onlar oxucuya izah edilən materialın mahiyyətini çatdırmağa imkan verir. Tərcüməçi bütün hallarda əslin materialını müvafiq materialların hərbi üslubundan istifadə etməklə, bəzən əsldə ana dilində izafi obrazlılıq və familyar – danışıq və jarqon elementlərinin neytrallaşdırılmasına diqqət yetirilməli olur ki, onlar ana dili üçün qeyri-xarakterikdir. Azərbaycan dilində üslub

izahı, Azərbaycan hərbi dilində qəbul olunmuş müvafiq tipli materialların ruhuna uyğun olmalıdır.

**Hərfi tərcümə** – transparant tərcümə, kalkalaşma, tərcümə mətninin dil və tematik səviyyədə xətti əvəzlənməsidir ki, burada orijinal və qəbuledən mətndə onların obrazlar sisteminə diqqət yetirilmir.

## X

**Xarici (əcnəbi) sözlər lüğəti** – 1. Əcnəbi dil mənşəli, az ya çox, xüsusi və onların izahını özündə əks etdirən lüğət. 2. Xarici dil mənşəli sözlərin siyahısını, onların izah və etimologiyasını göstərən lüğət.

**Xəbərdarlıq siqnalları** – təhlükə haqqında xəbər vermək üçün nəzərdə tutulmuş xüsusi işarələr.

**Xidməti siqnallar** – xidməti danışıqların aparılması, çevik və inamlı əlaqələrin aparılması üçün nəzərdə tutulan xüsusi siqnallar. Bu işarələr özündə: xidməti işarələr, köməkçi sözlər, köməkçi cümlələri birləşdirir. Belə işarələr bir, iki və üçhərfli qrup, ayrı-ayrı sözlər və söz birləşmələrindən ibarətdir ki, onların ardınca müəyyən mənalar möhkəmlənməmişdir ki, onlar daha tez-tez istifadə olunan göstəriş, sərəncam, sorğu və məlumatların daha müxtəsər formada verilməsi üçün istifadə edilir. Xidməti siqnallar heç zaman adi fraza və cümlələrlə dəyişdirilib, əvəzlənmir.

**Xülasəedici əlaqə** – mətnin «düz olmayan nitq» prinsipi üzrə istiqamətlənən mətnlərarası əməliyyat, daha doğrusu, mətnin xülasəsi, cəmlənməsi (adaptasiya), lap kiçik ölçülü olan mətnin uyğunluğu və kondensasiyası, məsələn, əsərin biblioqrafik titulu.

**Xüsusi dialekt** – başqa sosial qrupun dialekti.

**Xüsusi yardımçı dil** – nisbətən məhdud leksika – qrammatik xarakteristika ilə seçilən linqvo – stilistik sistemaltı; o formalizə olunmağa nisbətən asan meyllidir, deməli, o təbii dilin funksional sistemaltının elə ixtisarlaşmış təsvirini verir ki, (yaxud baza dilaltı-

nın yaranmasını təmin edir ki), insanın EHM ilə ünsiyyətini asanlaşdırır.

**Xüsusi əlavə dil –** onlar dil elementlərinin yığımı, kiçik linqvoüslubi və həmcins mövzulu mətnlərdə onların münasibətləri olan sistemaltılardır. Hər bir xüsusi dilaltı özünə münasibətdə daxil olan dilaltıları, yaxud kiçik dilaltıları, kiçik mikrodilaltı kimi çıxış etməklə ierarxik struktur yaradır ki, o da, öz növbəsində, özünə mikrodilaltı qoşur. Xüsusi dilaltı bir qədər tamlığı ilə, sonucluğu ilə xarakterizə olunmaqla, daha formal, məhduddur. Lakin burada yalnız nisbilik dərəcəsi haqqında danışmaq, heç də bu əlamətlərin mütləqliyi haqqında danışmaq deyildir.

**Xüsusi ensiklopediyalar –** onlar ümumi ensiklopediyalar kimi qurulmaqla, adı çəkilənlərdən həm də məzmunla fərqlənir; məsələn, tibbi ensiklopediyalarda bütün məqalələr yalnız tibbə aiddir, kimya ensiklopediyalarında isə kimyaya aid olur və s.

**Xüsusi siqnallar –** hər hansı komanda, əmr, xəbərlə bağlı ixtisar olunmuş şərti işarələrdir. Xüsusi işarələrdə hər hansı say, söz, yaxud rəqəm və hərf kombinasiyaları var. Xüsusi işarələrin tətbiqi informasiyanın tez verilməsi və qəbulunu, xüsusən, texniki kanal əlaqələri ilə təmin edilir və belə olduğu təqdirdə işləyən radiostansiyalar arasında qarşılıqlı maneələri azaldır.

**Xüsusi lüğət –** hər hansı xüsusi problemin, məsələn, semantik sintezin və s. həll olunması üçün formalaşmış lüğət.

**Xüsusi politexnik qoşadilli lüğətlər –** bu lüğətlər ümumitexnik və ümumielmi terminlərin ekvivalentlərini və eləcə də elm və texnika dilində geniş istifadə olunan adi sözlərin ekvivalentlərini verir.

**Xüsusi slenq –** müxtəlif jarqon və peşəkar leksikanı özündə birləşdirən slenqin dar sahəsi.

**Xüsusi süni dillər –** bu, ya elmlərin – riyaziyyatın, məntiqin, kimyanın, linqvistikanın və s. rəmzi dilləridir, yaxud insan – maşın (proqramlaşma dilinin, informasiyaların, verilmiş bazada olanların idarə olunması və s.) dilidir. Bu dillərin formal təsvir metodları, ifadə və formulların yaranması və yenidən dəyişdirilməsi, öz se-

mantikası vardır. Onlar heç də qapalı sistem deyildir və buna görə də ondan törəyən mətnlər sonsuzdur.

**Xüsusi tezlik lüğəti –** funksional üslub, yaxud yardımçı dillər mətnin tərtibində istifadə olunma üçün leksik tutuma malik olur.

**Xüsusi tərcümə (1) –** 1. Bir dildə olan söz işarələrinin digər dilin söz işarələri ilə verilməsi. Məxsusi tərcüməyə dövlət müəssisələri, ictimai təşkilat və partiyaların adı məruz qalır. 2. Digər dildən xarici gerçəkliyə müraciət etmədən verilmiş qaydalara görə tərcüməçinin təcrübəsində, yaxud təfəkküründə olan tərcümə.

**Xüsusi tərcümə (2) –** 1. Biliklərin hər hansı sahəsinə öz terminoloji nomenklaturasına aid olan materialların tərcüməsi. 2. Biliklərin müəyyən sahəsini öz terminoloji nomenklaturasına xidmət edən informasiya – kommuniativ (linqvistik) tərcümədir: ünsiyyət sferasında ictimai-siyasi, elmi, texniki, hərbi, administrativ – təsərrüfat, hüquqi, diplomatik, kommersiya, işgüzar, maliyyə, publisistik və digər xüsusi mövzu və predmet sahəsidir ki, o həm də gündəlik nitq-dil ünsiyyətini də özündə birləşdirir. Xüsusi tərcümənin nəzəri bazası linqvistik tərcümə nəzəriyyəsidir.

**Xüsusi tərcümə nəzəriyyəsi** – bu, tərcüməçinin xüsusi iş şəraitini, tərcümə edilən mətnlərin, müxtəlif növlü tərcümələrin xüsusiyyətlərini nəzərdə tutur.

## İ

**İctimai** – bax: realilərin verilməsinin (tərcüməsinin) əsas üsulları.

**İdiostil (idivüslub)** – mətnin konkret müəllifinə xas olan diskursiv təcrübələri (praktikaları) əhatə edir. İdiostil (üslub) struktur poetikanın, bədii ədəbiyyatın dilinin tədqiqində mühüm obyektlərdən biridir.

**İdiomların tərcüməsi** – idiomların tərcüməsində aşağıdakı hallarla rastlaşırıq: 1) idiomun idiomla tərcümə olunması. Belə tərcümə o təqdirdə mümkündür ki, nə zaman tərcümə olunan dillə orijinalın dilində mənaca ekvivalentlər vardır. 2) idiomların analoqun, daha doğrusu, idiomun köməyilə tərcüməsidir ki, o digər obrazla bağlı olmaqla eyni fikri verə bilir. Bununla belə, bu üsuldan istifadə etdikdə ehtiyatlı olmaq lazımdır ki, tərcümə edilən dildəki mətnə yad olan spesifik şəraitin ab-havasını gətirməyəsən. 3) təsviri tərcümə. Bəzən elə olur ki, tərcüməçi öz dilində müvafiq ekvivalent, analoq axtarıb tapa bilmir, yaxud da bütün yaxın variantlar öz dilində olan tipik şəraitin möhürünü əks etdirir. Belə olduğu halda, tərcümə üçün nəzərdə tutulmuş mətnin xüsusiyyətləri ilə hesablaşmadan dövrün idiomatik tərcüməsini vermək olar.

**İfadə** – səslər və söz birləşmələri dil vahidinin xarici (zahiri), (maddi) tərəfi. Bax: həm də ifadə planı.

**İfadə planı** – 1. İşarələrin müəyyən ardıcıllığı. 2. Deyimi, onun mənalarını və onda olan dil vasitələrini müəyyən üslub tərəfindən nəzərdən keçirilməsi, daha doğrusu, dil işarəsində zahiri tərəfin müəyyənləşdirilməsi.

**İxtisar olunmuş hərfi yazı** – aşağıdakı şəkildə formalaşan yazı sistemi qaydalarından biri: beş və daha çox hərfdən ibarət Azərbaycan türkcəsində sözlərin yazılışı, saitlərin sözün tərkibindən düşməsilə; eyni zamanda sifət, yaxud isimlərin sonluğu yazılmır, qoşa samitlər və uzun sözlərdə samitlər yazılmır.

**İxtisarlar lüğəti** – mürəkkəb ixtisarlaşmış (eyni zamanda, inisial tipli abreviaturaları) tərkibli adlardan yaranan sözləri özündə əks etdirən lüğət.

**İxtisarların tərcüməsi –** ixtisarların tərcüməsinin əsas üsulu, təbiidir ki, lüğətlərə müraciət etməkdir. Lakin bunu da nəzərə almaq lazımdır ki, xüsusi materiallarda rast gəlinən ixtisarların heç də hamısını hər hansı lügət özündə əks etdirə bilməz. Buna görə də tərcümə zamanı ixtisarların əsas üsullarını bilmək lazımdır. Birinci, ixtisar olan sözün ümumi mənasını başa düşmək üçün konteksti dərindən öyrənib bilmək zəruridir. Bəzən onun mətndə ilkin işlənməsi zamanı açılma ilə müşayiət oluna bilər. İkinci, ixtisarın strukturunun tam təhlilini aparmaq və onun komponentlərini açmaq lazımdır. İxtisarların tərcüməsi aşağıdakı üsullarla həyata keçirilə bilər: 1. Tam formanın tərcüməsi və onun əsasında ixtisarın Azərbaycan dilinə tərcüməsini vermək. 2. Tam formanın tərcüməsi. 3. Transliterasiya. 4. Xarici ixtisarın latın hərfləri ilə tam şəkildə verilməsi. Bu üsuldan adətən nomenklatur işarələrin verilməsi zamanı istifadə olunur. 5. Transkripsiya etmə. 6. Səs-hərf transkripsiyası. 7. Tərcümə və transkripsiya.

**İxtisaslaşmamış süni dillər** – təbii dillərə oxşarlığı olan ümumi təyinatlı və beynəlxalq dillərdir ki, onlar insanlar arasında ümumi ünsiyyət prosesi üçün (məsələn, İDO, esperanto, beysik inqliş və s.) istifadə olunur.

**İkidillilik şəraitində informasiyanın yenidən işlənməsi –** 1. Bax: Tərcümə. 2.Maşın tərcüməsində insanın daha çox iştirakını tələb edir və buna görə də avtomatlaşdırılmış prosesdir.

**İkinci dərəcəli metamətn** – törəmə metamətn onun protomətni əsl mətn yox, artıq mövcud olan metamətndir (məsələn, tərcümədən tərcümə).

**«İkinci dəfə» tərcümə (təkrar) –** bu, artıq hazır tərcümədir ki, tərcüməçilik kommunikasiyasında aralıq – əlaqələndirici kimi istifadə olunur. Adətən, burada olduqca yaxın dillərdən olan tərcümələrdən istifadə olunur.

**İlkin dil (dil-mənbə)** – ədəbi kommunikat tərcümə olunan dil, orijinalın dilidir.

**İlkin dildə tərcüməçinin oriyentirləşməsi -** hər hansı məna məzmunun, tərcümə dilində leksik deyimin və sintaktik nöqteyi-nəzərdən təşkil olunması üçün zəruri olan informasiyanın çıxarılma prosesi.

**İlkin kommunikativ fəaliyyət** – məlumatı göndərənin kommunikativ fəaliyyəti.

**İlkin kommunikativ situasiya** – onun iştirakçıları, ilkin mətnin göndəricisi, mətni və başqa məlumatı alan tərcüməçi. Tərcüməçi mətnin alıcısı kimi iştirak edir.

**İlkin mətnin tərcümədə interpretasiyası** – tərcüməçinin gözü ilə digər dilin daşıyıcısını və mədəniyyətini görməsi**.**

**İlkin mətndə tərcüməçinin oriyentir prosesi-sinxron tərcümədə** – bu, heç də natiq nitqinin sadəcə dinlənilməsi yox, həm də tərcümə həllinin seçimi, yaxud axtarışı prosesində məzmuna görə informasiyanın aradan çıxarılması və natiq deyiminin leksik-qrammatik təşkil olunmasıdır. Daha uğurlu oriyentir üçün tərcüməçi natiqdən 1-3 saniyə və ya daha artıq zaman kəsiyində geri qalmaqla oriyentirləşmə obyekti kimi ilkin mətnin əsas məna həlqələrini seçərək intonasiya-məna vahidləri, struktur-semantik bloklar, yaxud parçalarla konstruktiv prosesdəki addımlara uyğun olan və tərcüməçinin şüurunda gedənlər auditoriyaya çatdırılır. Oriyentirləşmə tərcüməçinin keçmiş təcrübəsinə, onun ünsiyyət situasiyasını bilməsinə, natiqin motiv və məqsədləri haqqında qabaqcadan olan təsəvvürlərdir. Sinxron tərcüməçinin fəaliyyəti şəraiti nəticəsində ilkin mətndə gedən oriyentir müəyyən qeyri-müəyyənlik kəsb edir.

**İlkin mətnin transformasiyası metodu** – sinxron tərcümənin metodlarından biri olub, formal-işarə səviyyəsində ilkin mətnin hazırlığında leksik, qrammatik transformasiya və nitq kompressiyası (sıxılması) yolu ilə həyata keçirilməni nəzərdə tutur.

**İlkin sənədlər** – ilkin informasiyanı özündə saxlayan və onun tərcüməsi üçün nəzərdə tutulmuş bütün nəşr olunası materiallar. Belə sənədlər kimi kitablar, dövrü mətbuatda gedən məqalələr, da-

vam edən nəşrlər (sərəncamlar, texniki sənədlər və s.) və dissertasiyalar ola bilər.

**İllokutiv akt –** lokutiv akta məqsədyönlülüyün verilməsi, kommunikativ məqsədin ifadəsi.

**İmitativ əlaqə –** metamətndə mətnarası invariantın olduğuna şəhadət verən əlaqə; imitativ əlaqədə metamətn orijinalla müqayisədə öz semantik və üslubi uyğunluğunu – 1:1 səviyyəsində göstərir.

**İnformasiya bolluğunun maddi-qrafik səviyyəsi –** qavrayışa daha asan olan mətnin aşağı səviyyəsi. O nəinki formal, həm də mətnin məzmunu funksiyasını da yerinə yetirir. Mətn qrafik baxımdan həm yekcins (yalnız hərfi-söz işarələri ilə) ifadə oluna, həm də qrafik qeyri-yekcins (yəni burada söz və rəqəmli, diaqrafik və piktoqrafik işarələr) bir-biri ilə uyğunlaşa (birləşə) bilər.

**İnformasiya daşıyıcısı –** hər hansı dil ümumiliyinin nümayəndəsi.

**İnformasiyanın xüsusi mənbələri** – elmi, texniki, xüsusi ədəbiyyat, xüsusi lüğətlər, xüsusi ensiklopediyalar, soraq kitabları informasiya mənbələri sayılır.

**İnformasiyanın digər məktəbləri –** bu, mütəxəssisdən zəruri məlumatların alınması imkanı və əldə edilmiş təcrübədən istifadədir. İnsanın öz təcrübəsi isə nəinki onun praktik işi nəticəsində alınmışlardan ortaya çıxır, həm də tərcüməçi elm və texnikanın yeni nailiyyətlərini, o cümlədən elmi-kütləvi jurnallardan aldığı məlumatlar nəticəsində yaranıb, toplanır.

**İnformasiyanın işçi mənbələri** – bu, elə tərcüməçinin informasiya mənbələridir; bax: tərcüməçinin informasiyasının ümumi mənbələri, tərcüməçinin informasiyasının xüsusi mənbələri.

**İntensional metamətn –** müəllif subyektinin (orijinala söykənən qeyri-intensional metamətndən fərqli olaraq) orijinala münasibətini ifadə edən metamətn. Qabaqcadan nəzərdə tutulmuş mətnarası əlaqə, müəllif proqramı fərdi, yaxud qrup halında (ədəbi ənənəyə münasibət) ola bilər.

**İstehsalat dialekti** – peşəkar dialekt növü olmaqla, istehsalatın bu sahəsində məşğul olan adamları birləşdirir.

**İşarə olunan** – dil vahidinin daxili (semantik), yaxud məzmun tərəfinin real dünyanın fikir predmetində, şüurda, predmetlərdə keyfiyyət və proseslərin inikası, əks olunması.

**İşarənin dərki mənası** – bax: işarənin referensial mənası.

**İşarənin praqmatik mənası** – konkret işarədən istifadə edən işarə və insan arasında münasibət.

**İşarənin-predmet məntiqi mənası** – işarənin referensial mənası.

**İşarənin referensial mənası** – konkret işarə ilə bildirilən Əşya ilə predmet arasında münasibət, əlaqə.

**İşçi dillər** – bu, danışıqlarda, konfranslarda, konqreslərdə, simpoziumlarda və s. rəsmi ünsiyyət dilləridir.

**İzahedici tərcümə** – 1. Adətən adların transkripsiyası ilə müşayiət olunan tərcümə (elmi jurnalların və s.). 2. Sözün özünün yerinə onun izahını verən tərcümə. Tam yazılı tərcümə qaydası aşağıdakı mərhələlərdən ibarətdir: 1) orijinalla tanışlıq; 2) mətnin qaralamada tərcüməsi; 3) mətnin tam redaktəsi; 4) başlıq tərcüməsi.

**İzahedici tərcümə** – tərcümə olunan söz, yaxud söz birləşməsinin mənasının sərbəst şəkildə verilməsi (tərcüməsi). Müqayisə et: anlayışın məntiqi inkişafı.

**İzafi informasiya** – uyğunsuzluqlar informasiyası nəzəriyyəsində tərcümə mətninin müqayisəli öyrənilməsində bölünən və tərcümə mətinində olan və ilkin mətndə olmayan məlumatlar.

## J

**Janr norması** – Janrın norması, yaxud konvensiyasında fərqlər bir dil, bir mədəniyyət çərçivəsindən kənara çıxdıqda daha aydın görünür. Hər şeydən əvvəl, bu fərqlər janrın öz nomenklaturası ilə bağlıdır. Hər hansı yazılı mədəniyyətdə (yazı, nağıl, məqalə) mövcud olan ümumi janrlarla yanaşı, elə janrlar da vardır ki, (məsələn,

sovet, yuqoslav, hindu və s.) onlar bir neçə mədəniyyətdə yayılmışdır və, nəhayət, elə janrlar da vardır ki, onlar bir mədəniyyət üçün (məsələn, Yaponiyada «hayku» poetik janrı) spesifikdir. janrların konvensiyası tarixi variativliklə xarakterizə olunur (məsələn, orta əsrlər elmi əsərlərinin (divan) şeir forması.

**Janr yerdəyişməsi –** mətnin bir xüsusi ədəbi janr kimi konstitutiv əlamətlərinin dəyişməsi zamanı gedən tematik yerdəyişmə nəticəsi. Janr yerdəyişməsi, adətən, makroüslubi sahədə gedir və onu digər yerdəyişmədə tərcümə səviyyəsində mikroüslubi yerdəyişmə başa çatdırır. Janr yerdəyişməsi üçün tərcümə versiyasının müxtəlif tipləri xarakterikdir.

## K

**Kalambur –** danışıqda müəyyən məqsədlə eyni sözün müxtəlif mənalarının qarşılaşmasından və ya səs tərkibinə görə yaxın sözlərin sıralanmasından ibarət söz oyunu.

**Kalka** – başqa dilə məxsus söz və ya ifadələrin sırf hərfi tərcüməsindən yaranan tərcümə.

**Kalkalaşdırma –** kalkalaşdırma zamanı əcnəbi dilə məxsus söz və ifadənin mənası və strukturu əxz edilir. Bu da başqa dillərin və ya dilin leksik-semantik, leksik-semantik modellərinin əxz edilməsi yolu ilə sözlərin yaranması və ya dilə yeni sintaktik quruluş qaydalarının daxil edilməsidir.

**Kalkalaşmayan situasiya (vəziyyət) –** Morfoloji, sintaktik və semantik səviyyələrdə qarşılışdırılan bir, yaxud bir neçə elementlər seqmenti kimi xarakterizə olunan tərcümə situasiyası. Hətta müxtəlif mənalılıq köməkçi əlavə qənaətedici proqramlar və sözbəsöz tərcümə belə müsbət nəticələrə gətirib çıxarmır. Məsələn, no traffic- zona boşdur; surface windl- yer üzərində külək; terminal weather- enmə məntəqəsində hava. Buraya həm də söz birləşmələrinin tək bir sözlə qarşılaşması kimi hallar da aiddir. Məsələn, low pressure area- siklon; drifling snow- çovğun. Mühəndis dilçiliyi

(linqvistikası) nöqteyi-nəzərdən leksik-qrammatik və funksional - semantik təhlil konteksti nəticəsində hissələrə bölünən bu seqmentlər maşın dövrəsi olur.

**Keçirmə** – 1. Bu tərcümənin elə bir mərhələsidir ki, orada tərcüməçi ilkin məlumatda olanın nüvəsinə yaxın uyğunluq tapa bilir. 2. Bu, semantik transformasiyadır ki, o çarpazlaşan anlayışların əvəzedilməsinə əsaslanır.

**Keyfiyyətsiz tərcümə –** bu, o zaman baş verir ki, tərcüməçi öz peşəkar fəaliyyətinə lazımınca yanaşmır, hazırlaşmır, yaxud heç də zəruri fərdi - bədii qabiliyyətini öz fəaliyyətinə tətbiq etmir. Mətn səviyyəsində keyfiyyətsiz tərcümə subinterpretasiya, yaxud ilkin mənbənin, orijinalın ideya – bədii xüsusiyyətlərinin düzgün dərk olunmamasında özünü göstərir. Tərcümə prosesi əslin mətninin bədii xüsusiyyətlərinin neqativ şəkildə yerdəyişməsi, yaxud mətnin üslubi nivelirovkası ilə müşayiət olunur. Oxucu nöqteyi-nəzərindən keyfiyyətsiz tərcümə bədii-kommunikativ kanalları bağlaya bilməklə, xarici müəllifin yaradıcılığını gözdən sala bilər və bununla da onu uzun müddət ərzində vətən ədəbiyyatı və ədəbi səviyyə kontekstindən ayıra bilər.

**Kiçik sistemaltları (dilin yarımsistemləri)** – bütöv, sonuncu və bəzi hallarda formal məhdudlaşdırılmış sistemaltılar. Nisbətən aydın parametrlərlə ifadə olunan kiçik funksional sistemaltılar (yarımsistemlər), məsələn, telefon məlumatları, qəzet elanları və s. Kiçik sistemaltıların (yarımsistemlərin) – xüsusi dilaltıların (yarımdil sistemlərinin) öyrənilməsi müəyyən universal prosedur əsasında həyata keçirilir. Burada bu və ya digər kiçik sistemaltıların (yarımsistemlərin) onların optimal prosedurunu özündə təhlilin iki mərhələsini – qeyri-alqoritmi və alqoritmi birləşdirən spesifik xassələrinin işlənib hazırlanması nəzərdə tutulur.

**Kino/video materiallarının tərcüməsi –** işin məqsəd və xarakterindən (auditoriya üçün, dublyaj, səsləndirmə və s. üçün tərcümə) asılı olmaqla, o özündə sinxron, ardıcıl və yazılı tərcümənin xüsusiyyətlərini əks etdirir.

**Kodsuzlaşdırmaq–** bax: kodsuzlaşdırma**.**

**Koqnitiv dilçilik** – informasiyanın transformasiyasında və kodlaşdırılmasında rol oynayan işarələr sistemi kimi dil bu istiqamətin mərkəzində durur. Bəzi tədqiqatçılar koqnitiv dilçiliyi yeni elmi paradiqma kimi səciyyələndirirlər.

**Kommunikativ akt –** van Deykin fikrincə, ayditiv aktdan (yaxud dinləyən aktdan) və kommunikativ situasiyadan ibarətdir.

**Kommunikativ intensiya** – kommunikativ məqsəd-məram İntensiya (lat. intentio) fəlsəfi elmlərin terminoloji aparatından götürülmüşdür.

**Kommunikativ kompetensiya –** şəxsi cəhətlərin və imkanların insanın kommunikativ fəaliyyətini təmin edən, eləcə də dil və dildənkənar bilik və bacarıqların məcmusu.

**Kommunikativ mövqe –** ekspediyentin, ötürücünün məlumatı (mətni) kodlaşdırılma və yenidən kodlaşdırma zamanı tutduğu mövqe. Tərcümə kommunikasiyası aktında tərcüməçi məlumatın, yaxud orijinal mətnin kodlaşdırılmasında iştirak edir (bu, tərcümə prosesinin analitik mərhələsidir) və bunun nəticəsində yeni mətn yaranır. Tərcüməçi məlumatın yenidən kodlaşdırılması və bu kodlaşdırma həm də orijinalın tərcümədə yenidən kodlaşdırılması adlanır. Tərcüməçinin kommunikativ mövqeyinin bir tərcüməçinin mətndə müəyyən obraz sistemi, yaxud üslubunun dinamik konfiqurasiyası vəziyyətini ədəbi kommunikasiyasının diferensiyasiyasına canatma kimi xarakterizə etmək olar.

**Kompensasiya priyomu (tətbiqi) –** 1. Tərcümə edilən dilə xas olan vasitələrlə semantik-üslubi cəhətdən itirilənlərin tərcümədə doldurulması (bərpası). 2. Tərcümə dilindəki vasitələrlə heç də nə tərcümə mətnində, nə də orijinalda mütləq eyni yerində həyata keçirilməyən labüd semantik, yaxud üslubi cəhətdən itirilmişləri doldurmaq üçün tətbiq edilən tərcümə priyomu.

**Kompilyativ tərcümə –** əvvəllərdən mövcud olmuş tərcümələr əsasında aparılan tərcümələr.

**Komplementar əlaqə –** mətn köməkçilərinin əlavələri və tamamlamaları ilə (qeyd, kommentari, izah, ön söz) protomətnin inkişaf edən invariantının xüsusiyyətləri, mətnlərarası münasibətlər.

**Konstitutiv yerdəyişmə** – qaçılmaz yerdəyişmə, bu, əsasən, tərcümə zamanı iki dil arasında, iki poetika, iki sistem-orijinal və tərcümədə həllolunmaz fərqlər zamanı ortaya çıxır.

**Kontroverz metamətn** – neqativ protomətnə polemik söykənən. Kontroverz metamətn öz protomətni haqqında orijinalın (parodiyanın) tipik xüsusiyyətlərinin modelləşməsi haqqında informasiya verir. Kontroverz metamətn eyni zamanda imitasiya üsulunu istifadə edə bilər, yaxud o dialektik olaraq hər iki prinsipi – affirmativ və kontroverzi dialektik şəkildə birləşdirə bilər.

**Klişe** – kitab nəşrindən götürülmüş ifadələrin pejorativ mənada işlədilməsi. Bunları bəzən streotip ifadələr də adlandırırlar.

**Kütləvi kommunikasiya** – texniki vasitələrin köməyi ilə informasiyanın daha çoxsaylı auditoriyaya istiqamətlənməsi, cəmiyyətdə mənəvi dəyərlərin təsdiq olunması məqsədilə informasiyanın yayılması prosesi və qiymətə, fikrə və insanların davranışına ideoloji, siyasi və iqtisadi, yaxud təşkilati təsir.

**Kvazimeta mətn** – təxəllüs, daha doğrusu, bu, müəllif mətninin özünün olmayan – «orijinal» tərcümə yerinə vermə situasiyasıdır. Kvazimeta mətn müəllifin kommunikativ strategiyasının nəticəsidir ki, o, metamətni qəbul etməyə istifadə üçün qurulmaya istiqamətlənmiş, eləcə də öz (fərdi) xüsusi mətnin və onun kommunikativ dönərliliyin yaranmasıdır.

## Q

**Qabaqcadan istiqamətlənmə** – sinxron tərcümədə tərcümləyə olan sosial sifarişin tərcüməçinin şüurunda subyektiv inikasına, kommunikativ akt iştirakçılarının motiv və məqsədlərinin formalaşması haqqında təsəvvürlər və tərcümə üçün nəzərdə tutulmuş ilkin mətnin məzmun və forması haqqında müddəaların irəli sürülməsi.

**Qabaqcadan tərcümə edilmiş mətnin sinxron oxunuşu** – sinxron tərcümə növlərindən biri. Tərcüməçi əvvəlcədən hazırlan-

mış yazılı tərcümə mətnini əgər natiq ilkin tərcümə mətnindən kənarlaşırsa, mühüm korrektivlər əlavə etməklə, natiqin nitqinin gedişinə uyğun olaraq oxuyur.

**Qanadlı sözlər və ifadələr lüğəti –** sözlərin əlifba sırasında izahla qurulmuş ədəbi sitatlar və obrazlı ifadələr.

**«Qara qutu» metodu –** orijinal mətnin tərcümə mətni ilə ölçülməsi və müqayisəsi tərcümə prosesinin tədqiqat metodlarından biridir.

**Qarışdırma (səhv salma) –** konkret verilmiş anlayışın yerinə eyni cinsli anlayış hədlərində qarışıq anlayışdan istifadəyə əsaslanmış semantik transformasiya.

**Qarışıq situasiya –** çoxdilli ünsiyyətə EHM-nın köməyi ilə öyrədilmə şəraitində informasiyanın işlənib hazırlanması, daha doğrusu, tədris situasiyasında eyni öyrənilən dildə, yaxud iki – doğma və öyrənilən dildəki informasiyanın sistemlərdə, dövr etməsidir. Belə hallarda nümunə kimi xüsusi təyinatlı muxtar sistemlər, daha doğrusu, təlimin linqvistik avtomatlarındakı sistemlər ola bilər.

**Qarışıq tərcümə –** 1. Avtomatlaşdırılmış lüğətin köməyilə aparılan ənənəvi tərcümə. 2. Mətnin xeyli dərəcədə ənənəvi dəyişilməsinin köməyi ilə aparılmış avtomatlaşdırılmış tərcümə.

**Qayda –** bu, üsul, yaxud dil ifadəsini nümunəvi seçib təklif edən müxtəsər zəmanət.

**Qeyd olunan –** ətraf mühitdə, həyat daxilində sözlə seçilən obyekt (predmet, hadisə, əlamət) denotat. Bax, həm də – işarələnən.

**Qeyri-bədii tərcümə –** bax: xüsusi tərcümə.

**Qeyri-ekvivalent konstruksiyalar –** konstruksiyalar qeyri-ekvivalent, digər dildə analoji sintaktik forma olmadıqda, həm də cümlənin strukturunun məntiqi qeyri-bərabərliyi (bərabərsizliyi) nəticəsində ola bilər.

**Qeyri-kommunikativ deyim** – onun başlıca məzmunu hiss və emosiyaların ifadəsidir.

**Qeyri-sərbəst hərfilik – bax**: hərfilik qeyri-sərbəst.

**Qəbulediciyə görə tərcümə –** bu, metakommunikasiyadır. Semiotik aspekt tərcümə zamanı müvafiq mədəniyyətdə məkan və

zamanın fərqlərinin realizasiyası zamanı kommunikativ yerdəyişmələr və kommunikativ situasiyalar gözlənilməsini tələb edir.

**Qəzet mətninin tərcüməsi –** orijinala tamamilə sadiqliyə riayət etmək prinsipi ilə qəzet mətninin tərcüməsi. Bununla belə, qəzet-siyasi klişesində (qəbul olunmuş terminologiya və «qrammatik birləşmələr») praktikaya söykənməklə tərcümə. Bu tələblər çərçivəsində qəzet mətninin tərcüməsi orijinala maksimal dərəcədə yaxın olmalıdır. Bununla belə, qəzet tərcüməsinin əsas vəzifələri – məzmunu əks etdirməkdir. Odur ki, qəzet materialının tərcüməsində metoforiklik və digər ədəbi üsulları saxlamaq o qədər də zəruri deyildir.

**Qiymət –** danışanın mühakiməsi, onun münasibəti-bəyənməsi, yaxud bəyənməməsi, arzu, istək, mükafatlandırma və s. bütün bunların hamısı üslubi konnotasiyanın əsas hissələrindən biridir.

**Qiymət diskursu –** aksioloji, makrostrateji mətnlərin cəmi, bu mətnlərin (qiymətləndirilməsi) müxtəlif növlü ekstralinqvistik amillərin-siyasi, ideoloji, mental, tarixi, kulturoloji, psixoloji və s. təsiri altında olur.

**Qohum dillər –** mənşəcə ümumiliyi izah edilən və oxşar xüsusiyyətləri olan dil.

**Quruluş –** mürəkkəb sintaktik vahidlərin hissələrinin qrammatik münasibətləri.

## L

**Layihəli qrammatika –** tamın komponentlərini təşkil edən qaydalar toplusunu formalaşdıran proses.

**Leksikanın semantizasiyası –** leksik vahidlərin mənasını açan leksik daxil olma mərhələsində mühüm tədrisi hərəkət (fəaliyyət). Semantizasiya qismən – denotativ, situasion, (yaxud) işarə əlaqələrinin qurulması – və tam (bütöv) əlavə siqnikativ və fon əlaqələrinin formalaşması ola bilər.

**Linqvistikaönü –** fonetika (fonologiyadan fərqli) nitq səslərinin xassələrinin fonoloji (semioloji) öyrənilməsində əvvəlcədən nəzərdə tutulmuş mühüm mərhələ.

**Linqvistik terminlər lüğəti –** dilçilik terminləri və onların izahını göstərən lüğət.

**Linqvostilistik sistematik tamlığı –** sistem o zaman tam hesab olunur ki, o kommunikativdir və öz vasitələri ilə konkret fənn sahəsində olan əlaqələrdəki hər hansı faktı təsvir etmək imkanına malikdir. Belə olduğu halda, bütün dil sisteminə mütləq tamlıq xasdır, daha doğrusu, bütün təbii dil (milli miqyasda). Nisbi tamlıq ya konkret fənn sahəsindən olan süni dilə (riyazi dil, alqol, kobol, beysik və s.), ya da onun bəzi xüsusi sistemaltlarına (dilaltına) xasdır.

**Lüğət –** əlifba sırası ilə, izah və şərhlə olunan, yaxud digər dilə tərcümə edilən sözlərin sırası.

**Lüğət məqaləsi –** lüğətdə başlıq sözü bildirən və izah edən məqalə

**Lüğət sözformalarının yeniləşdirilməsi –** mühəndis linqvistikasında sözformaları siyahısının yeniləşməsi ardıcıl axtarış yolu ilə və müxtəlif sözformaları korpusunun seçilməsi, onların tezliyinin bir yerə yığılması və bir siyahıda müxtəlif söz formalarının birləşdirilməsidir. Bu məqsədlə yeni massivdən sözformalar seçilir və onun ekvivalentlərinin axtarışı təşkil edilir. Əgər identik (uyğun) sözforma tapılmışsa, belə olduğu halda onların tezliyi bir yerə toplanır; əks halda sözforma əsas siyahıya əlavə yazılır. Sözformaları massivləri nəzərdən keçirildikdən sonra baş verir.

**Lüğət yuvası –** bir lüğət məqaləsi şəklində təqdim olunmuş eyni kökdən olan sözlər qrupu.

**Lüğəvi (lüğət) uyğunluğu –** lüğətlə müəyyənləşdiriləcək lüğət uyğunluğu.

## M

**Makrolinqvistika –** 1. Dili «makroskopik» səviyyədə, daha doğrusu, onu geniş planda statistik metodlarla tədqiq edən dilşunaslıq sahəsi. 2. Dilşünaslığın mikro və makrolinqvistika bölgülərinin mövcudluğu kompleksi və onun vahid şəkildə nəzərdən keçirilməsi.

**Makrotərcümə –** tərcümə yerdəyişmələri, daha doğrusu, bir dil səviyyəsindən digərinə, bir kateqoriyadan digərinə keçid.

**Marker** – 1. Nəyinsə göstəricisi, məsələn, cəm halın göstəricisi; 2. Nəyə isə işarə; 3. Siqnal işarəsi; 4. Oriyentir işarəsi.

**Markirələnmiş –** 1. Tam, aydın, müsbət dil ifadəsinə malik olan; 2. Nişanlanmış, qeyd olunmuş, tərtib olunmuş.

**Maşın dövriyyəsi –** 1. Mühəndis linqvistikasında mətn seqmenti (söz birləşməsi), sözformaları lüğətlərinin köməyi ilə adekvat (bərabər) konfrontasiyaya, ziddiyyətə girə bilməməsi və o kontekstual leksik-qrammatik və funksional-semantik təhlil nəticəsində bölünür; 2. Giriş dilinin markalanmamış (markirə edilməmiş) vahidi. 3. Bu, maşın (avtomatlaşdırılmış) lüğətinin elə ehtiyacı üçündür ki, burada müxtəliflik və izomorfluq və mövcud standart proqramların hazırkı maşın lüğətlərinin köməyi ilə aradan qaldırıla bilməz; belə olduqda adekvatlıq bütün səviyyələrdə bütün dövrənin maşın (avtomatlaşmış) lüğətinin leksik vahidi kimi onun ikonik konfrontasiyası ilə əldə olunur.

**Maşın interpretasiyası (maşın lüğətinin leksik əsası) –** bu leksik vahidlərin xüsusi kodlaşmış cədvəllərin qaydaya müvafiq olaraq kodlaşması prosesini özündə birləşdirir. Bu cədvəllərin və işlənib hazırlanmış qaydaların köməyi ilə sözlüyün hər leksik vahidə, onların leksik-qrammatik və leksik-semantik kod göstəriciləri verilir. İlkin kod (göstəriciləri) işarələri ardıcıl olaraq sıxılmış (müxtəsərləşdirilmiş) koda və ikinci dərəcəli sıxılmış kodlar və paradiqmlərin sıxılmış xüsusi cədvəllərə görə sıxılması ilə kompressiya olunur. Bununla maşın lüğətində daha kompakt (müxtəsər) yazıya alma təmin olunur. Maşın interpretasiyası nəticəsində baza dilinin (dilaltının) leksik vahidi maşın lüğətinin lüğət vahidinə çevrilir, maşın lüğətinin leksik əsası isə giriş və çıxış sözlüyünə transformasiya olunur.

**Maşın köməyilə tərcümə** – bu elə avtomatlaşlaşdırılmış tərcümədir ki, (EHM) bu zaman maşın yaddaşı redaktə vasitələri ilə ikidilli lüğətə uyğunlaşdırılıb qurulur və maşın tərcüməçinin köməkçisi kimi çıxış edir və tərcümə əl ilə, yaxud kompüterlə (displeydə) həyata keçirilərkən avtomatlaşdırılmış ikidilli lüğət kimi çıxış edir.

**Maşın lüğəti –** 1. Maşın tərcüməsi sisteminin hər hansı mühüm hissəsi; 2. Hər hansı sahmana salınmış leksik informasiyanın sonuncu massivində nisbətən avtomatlaşdırılmış şəkildə təchiz olunmuş proqramın və ona əlavələr olması ilə EHM yaddaşında yerləşdirilmiş siyahı, cədvəl, yaxud digər siyahı; 3. Sözlər haqqında zəruri informasiyanın maşınla axtarışının həyata keçirilməsi məqsədilə xüsusi şəkildə təşkil olunmuş lüğət massivi. Əksər hallarda maşın lüğəti dedikdə sözlər haqqında informasiyanın elə quruluşunu və informasiya verilməsini nəzərdə tutur ki, ondan mətnin avtomatik işlənib hazırlanması zərurəti yaranır.

**Maşın tərcümə –** 1. EHM köməyi ilə verilmiş proqram əsasında mətnin avtomatlaşdırılmış şəkildə tərcüməsi; 2. Dilçiliyin linqvistikanın əsas müddəaları və metodlarını işləyib hazırlayan tərcümə nəzəriyyəsi; 3. İkidillik (qoşadillik) situasiyası şəraitində avtomatlaşdırılmış informasiyanın işlənib hazırlanması – mətnin bir təbii (insan) dilindən digərinə çevrilməsi; 4. Maşının (EHM, kompüterin) köməyi ilə tərcümə; 5. İkidillik (qoşadillik) situasiyası şəraitində texniki vasitələrin bütün mərhələlərində istifadə (və inkişaf) informasiyasının ümumi prosesinin işlənib hazırlanması; 6. Mətnin bir dildən (təbii, yaxud süni) digər dilə (təbii, yaxud süni) elektron rəqəmli hesablama maşınlarında həyata keçirilən tərcümə prosesi.

**Maşın tərcüməsi –** elektron-hesablama maşınlarının yaddaşından istifadə edən tərcümə. Bu, orijinalın dil sisteminin leksik elementlərinin və tərcümənin dil sisteminin leksik elementlərinin izomorfizm proqramı. Tərcüməçi – maşının köməyi ilə realizə olunur.

**Maşın vaxtı –** 1. EHM-da alınmış informasiya siklinin tam şəkildə işlənib yerinə yetirilməsinə sərf olunan vaxt; 2. EHM-da iş

vaxtının kəmiyyət ölçüsü avtomatlaşdırılmış maşın lüğəti – bu, maşın lüğəti kimi başa düşülməlidir.

**Mexaniki tərcümə –** sözbəsöz tərcümə ilə eynidir.

**Mexanikləşdirilməmiş proses –** ikidillik şəraitində hər hansı texniki vasitələrin tətbiqini nəzərdə tutmayan informasiyanın işlənib hazırlanması; o qeyri-maşın, yaxud «əl ilə» yerinə yetirilir.

**Merizm -** diferensial əlamətlərin ölçü (səviyyə) vahidi.

**Metadil –** 1. «İkinci qəbildən» olan dil, daha doğrusu, dil haqqında danışılan dil (dil-obyekt); 2. Bu elə bir dildir ki, onun obyekti digər dilin məzmunu və ifadəsidir; 3. Təbii milli dili əvəz edən dil. Əksər hallarda bu elm və texnikanın hər hansı məhdud sahəsində qəbul edilmiş xüsusi dildir. Dilçilər metadilə dilinionların «adəti, modallığı, dodaqlanmayan səsi» və s. aid edirlər.

**Metaədəbiyyat –** ikinci, törəmə ədəbiyyat, mətnlər arasında modelləşdirici münasibətlər prinsipi əsasında yaranan ədəbiyyat. Metaədəbiyyat affirmativ formada oxucu kommunikasiyası nöqteyinəzərdən nisbətən müstəqil çıxış edə bilər (o ilkin nümunənin bilinməsini, yaxud əksinə – bilərəkdən oricinalı qabaqcadan əvəz edir). Kommunikasiya zamanı metaədəbiyyat, kontroverz formada öz tam konkretləşməsi üçün orijinalı bilməni nəzərdə tutur. Müəyyən şəraitlərdə metaədəbiyyat sonrakı ədəbi proses üçün mənbə ola bilər.

**Metafora –** hər hansı gerçəklik modelinə müvafiq olaraq insan təfəkkürü ilə müəyyənləşən və alternativlərin hər hansı qərarların qəbulu prosesinə təsir edən dil fenomeni.

**Metaforalaşma (metaforizasiya) –** sözün məna tutumunun, ondakı məcazi mənaların yaranmasına görə genişlənməsi və onun ekspressiv xassələrinin güclənməsi.

**Metakommunikativ aspekt –** metakommunikasiya prosesində metakommunikativ vektorların qoyulma üsulu.

**Metakommunikativ subyektin reallığa münasibəti –** ənənəyə, mətnin reallıq-ənənə oxu üzərində qəbuledicinin mətnə və reallığa münasibətindən haqqında söhbət gedir.

**Metakommuniasiya –** törəmə, ikinci kommunikasiya. Metakommunikasiya funksiyası – orijinalın invariant xüsusiyyətlərinin inkişafı, yaxud onların ikinci törəmə mətndə, metamətndə rədd edilməsi (protomətn).

**Metalinqvistska –** dilin məzmun tərəfini ünsiyyətdə olan kollektivin təfəkkür və ictimai həyatla əlaqədə olan xüsusiyyətlərini öyrənən dilçilik sahəsidir. O, dil ünsiyyətində olan kollektivi linqvistik vahidlərin mahiyyətinə daxil olma fəaliyyətinin mühüm şərti və qanunauyğunluqları kimi öyrənir.

**Metalinqvistik funksiya –** 1. Kommunikativ aktda istifadə olunan «koda», daha doğrusu, dilə özünü istiqamətləndirmiş funksiya; bu,dil məlumat predmetinə çevrildikdə başlıca funksiya daşıyır; 2. Linqvistik kateqoriyalara keçidi bildirən funksiya; 3. Linqvistik sistemin təsvirinə xidmət edən linqvistikaüstü sistemin təsvirini göstərən funksiya.

**Metamətn –** protomətn modeli, əlaqə məhsulu, mətnarası invariantın iki mətn arasında mövcudluq üsulu.

**Metamətn subyekti –** mətn yaradıcılığı prosesində müəllif strategiyasının ortaya çıxmasına müvafiq olan kommunikativ subyekt və onun aktlararası əlaqələrdə iştirakı. Metamətn subyekti mətnin müvafiq səviyyələrində özünü açıq aydın, yaxud gizli şəkildə predmeti affirmativ, yaxud kontroverz münasibətdə göstərə bilər. Bu iştirakın xarakteri dialektik münasibətlərin əlaqə prinsipində özünü göstərə bilər.

**Metamətnlərin tipologiyası –** müəllif və oxucu subyektlərinin yaradıcılığında iştirak dərəcəsinə uyğun olaraq müəllif metamətni, kvazimetamətni və oxucu metamətnləri fərqləndirilir. Metamətnlər tipologiyası struktur və kommunikativ prinsiplərə söykənir.

**Metaşeir – şeir haqqında şeir** – ikinci, törəmə poetik mətn. O, ədəbi aktivliyi modelləşdirir (C.S. Xolmsa məxsus termin).

**Metonimiya –** bir əşyanın adının digər əşyanın (predmetin) yerinə onların arasındakı zahiri və yaxud daxili əlaqəyə görə işlənməsi.

**Metrika ( ölçü) –** 1. Şeirşünaslıq nəzəriyyəsi; 2. Şeirşünaslıq sistemi.

**Məcazi məna –** nitqdə adətən, yaxud təbii referent olmayan predmeti bildirən nitqdə şüurlu istifadə nəticəsində sözün qazandığı məna.

**Məişət-danışıq dili –** bu, elə xalq-danışıq dili deməkdir.

**Məişət-danışıq koynesi –** üstün dialekt əsasında əmələ gəlmiş ümumi dil, bu, elə xalq-danışıq dili deməkdir.

**Məkan əlaqəsi –** qarışıq hadisələrlə bütün istiqamətlərdə qarşılıqlı əlaqədə olan uzunluğun məhdudlaşmayan əlaqələri.

**Məkan münasibətləri markerlər -** onların sırasında məkan qoşmaları, «long way off»- «uzaq-uzaq», «ten miles long»- «on mil uzunluğunda», «it's a day's trip»- «oraya bir günlük yol var» kimi məsafə tipli indikatorlar xüsusilə fərqləndirilir.

**Məktub (yazı) –** bax: yazışma**.**

**Məktub – nitqin xüsusi janrıdır.** Çünki ünsiyyətə girənlər arasında kontakt birbaşa yox, bilavasitə, zaman və məkan baxımından distansiyada gedir. Bütün bunlar şifahi nitq etiketi vasitələrindən fərqlənən müəyyən yığımda müəyyən dil vasitələrindən istifadəni diqtə edir.

**Məqsədli dil –** tərcümə dili və onun sistemi; tərcümə olunan dil haqqında məlumat.

**Məqsədli pedantlıq (hərfgüdmə) –** Bax: pedantlıq məqsədli.

**Məlumat –** 1. İnformasiya daşıyan deyimin kommunikativ tərəfi. 2. Veriliş üçün nəzərdə tutulmuş informasiya. İnformasiya nitq əsərinin məzmunu ilə üst-üstə düşməyə və nitq əsərinin strukturu haqqında məlumatı özündə birləşdirə bilər (məsələn, müəllif üslubu haqqında məlumat ola bilər). 3. Situasiyanın təsviri üsulu.

**Məlumat predmeti –** bax: situasiya.

**Məna –** 1. Semantik məzmundur ki, onun əsasında iki dilin vahidi arasında qanunauyğun müvafiqlik qurulur; tərcümə zamanı invariant məna olur. 2. Tərcümə nəzəriyyəsində nitq əsərinin konkret verilmiş situasiyada məzmunu semantik və situasiya informasiyasının

qarşılıqlı hərəkəti kimi nəticəsi olur. 3. Bu, sözün, yaxud söz birləşməsinin konkret nitq situasiyasında qazandığı mənadır.

**Məna informasiyası –** semantik və situasiya informasiyanın müqayisəsinin nəticəsi olan nitq əsərinin mənası.

**Məna inkişafı** – 1. Tərcümə zamanı lüğət uyğunluğunun məntiqi şəkildə onunla bağlı kontekstuallıqla dəyişilməsi (predmet burada onun əlaməti, proses – predmetlə əlamət - predmet, yaxud proseslə əvəz oluna bilər). 2.Tərcümə üsulunun mahiyyəti, əgər tərcümə zamanı ilkin vahidlər onların leksik (lüğət) uyğunluğu ilə yox, öz məqamları etibarı ilə onunla üst-üstə düşmürsə, digər vahidlərlə dəyişilir, əvəzlənir. Bu üsuldan müxtəlif çeşidli mətnlərin tərcüməsində istifadə olunur.

**Məna invariantı –** özünün konkret realizasiyasındakı əsas əlamətləri birləşdirən sema.

**«Məna-mətn» modeli -** İnsanın nitq fəaliyyətinin modeli, hər hansı mənanı ifadə edən, hər hansı mətnin - onun mənasını özündə saxlayan model. Bununla belə, məna ümumi şəkildə müəyyənləşdirilir ki, o bütün müxtəlif deyimlərdə dil daşıyıcıları tərəfindən tanınan və istifadə edilən bərabərişarəli (perifraz) kimi işlədilir.

**Məna təhlili –** ilkin mətnin (orijinalın) qavrayışı zamanı tərcüməçinin mütləq əməliyyatlarından birinə çevrilir; onun burada məqsədi mənanın müəyyənləşməsi və invariant informasiyanın fərqləndirilməsidir. İlkin mətnin semantik təhlili zamanı onun məlum metodlarından istifadə olunur: daha böyük informasiya yükü daşıyan söz seçimi metodu, transformasiya metodu, daha relyefli söz seçimi metodu.

**Məna təhlili metodu –** onun köməyi ilə tərcümədə məna təhlili həyata keçirilir. Ardıcıl tərcümə zamanı yazıya alınma sistemində - daha böyük informasiya sisteminə malik olan söz seçimi metodu, transformasiya metodu, daha relyefli sözün seçimi metodu kimi metodlardan ardıcıl tərcümə zamanı istifadə edilir.

**Məna yoldaşı –** seçilmə (ayrılma) və yadda saxlamaya əsaslanan nitq əsərindəki məna döyüş nöqtəsi yaddaşı.

**Mənfi nitq situasiyası –** kommunikasiyaya mane olan və fon informasiyanın mənbəyi olan nitq situasiyasının bir hissəsi.

**Məntiqi münasibətlər markeri –** məntiqi münasibətlər modifikasiya olunmuş zərflərin köməyi ilə markirə edilir (sentence adverbs), «moreover – bundan başqa», «therefore – bunun üçün», «nevert-heless – bununla belə», budaq cümləni meydana çıxaran bağlayıcılar (if, although, because), feldən düzəlmə formalar (feli sifət, qerundial forma), feldən asılı əsas hadisəni ifadə edən; «he concluded - o belə bir nəticəyə gəldi», «he argued - o etiraz etdi» tipli məntiqi münasibətləri və əlaqələri ifadə edən sintaktik vahidlər. Mətnin başlanğıc və son markerləri – once upon a time (azərbaycanca müqayisə et: biri vardı-biri yoxdu) və they lived happily ever after (azərbaycanca – onlar, bax, beləcə şad və xoşbəxt yaşamağa başladılar) tipli standart formulları özündə birləşdirir.

**Mərhələ blok-sxem –** verilmişlərin həndəsi fiqurlar (yaxud bloklar) şəklində işlənib hazırlandığı hər bir mərhələdəki proses alqoritmin struktur coğrafi təsvirinin izahı.

**Mətn əlaqəliliyi –** deyim müddətində mətnin müxtəlif tərəflərini çevirməklə və bir predmetdən digərinə «ehmalca» keçməklə «mühakimə predmeti» mətni saxlaya bilmə bacarığı.

**Mətn ontologiyası –** sosial, fəlsəfi, psixoloji və digər gerçəklik elementlərinin mətnə transformasiya prosesləri kimi (yəni gerçəkliyin inikası kimi) qoşulmasıdır. Bu elementlər mətndə tematik amillərlə və müvafiq forma ilə (mətn gerçəkliyi ilə) təqdim olunur.

**Mətn sadəliyi və mürəkkəbliyi –** semantik əlaqələrin və komponentlərin münasibətlərinin sıxlığının kommunikativ məqsədyönlülüyü dərəcəsindən asılıdır.

**Mətn səviyyəsində tərcümə –** ayrı-ayrı sözlər, söz birləşmələri, cümlələr səviyyəsində (bəziləri istisna olunmaqla), uyğunluq tapılmadıqda tərcümə vahidi mətn səviyyəsində seçilir, buna nəsr tərcüməsi zamanı nadir hallarda rast gəlinir. Poeziya tərcüməsində isə bu, adi hadisədir. Çünki burada ümumi mətndən təcrid olunmuş ilkin dildəki cümlə heç də tərcümə dilində olan cümlə ilə uyğunluq təşkil etmir.

**Mətn tərcüməsi** – orijinal mətnində bir bütöv kimi tam tərcümənin tərcümə prosesinə çevrilməsi.

**Mətnaltı –** 1. Bu, dilin sisteminə daxil olan və bu predmet, daha doğrusu, gerçəkliyin müəyyən sahəsinin zəruri təsviri üçün leksik kateqoriyaların minimal yığımı. 2. Hər hansı biliklər sahəsi, predmet (fənn) sahəsi (riyaziyyat, fizika, hərbi dil, diplomatik dil və s.). 3. Mətn massivində hər hansı reprezentativ məhdudiyyət əlamətinə görə dil vahidlərinin cəmi. 4. Dil elementlərinin yığımı və eyni mövzulu mətnlərdə onların münasibətləri. 5. Kiçik linqvostilistik (linqvoüslubi) sistemaltı. 6. Hər hansı konkret dilin dilaltı. O dil sisteminin quruluşunun bu ünsiyyət sahəsində istifadə olunan və bu mövzuda olan dilaltı nəzərdən keçirilir. 7.Xüsusi qapalı dil mikrosistemi, yaxud kiçik linqvistik sistemaltı olub dil strukturu və vahidlərinin yığımından ibarətdir və bu, dilin sosial sahəsi, yaxud peşəkarlıq funksiyası ilə bağlı tematik həmcinsliyə uyğundur. 8. Statistik-tematik mətnlərin eyni predmet sahəsinin korpusu və funksional-stilistik istiqamətidir ki, müəyyən mövzulara aid olan (məsələn, elektronikanın dilaltısı, kimya dilaltısı, hava haqqında məlumat dilaltısı və s.) sahələrə xidmət edir.

**Mətndənkənar ontologiya –** mətndə obyektiv gerçəkliyin, reallığın əksi.

**Mətnə söykənməklə sinxron tərcümə –** bax: əvvəlcədən tərcümə olunmuş mətnin sinxron oxunuşu.

**Mətnin başlıqlarının tərcüməsi –** yeni kəşflərin patentləri və informasiyanın sistemli kataloqunun tərtib edilməsində istifadə olunan texniki tərcümə növüdür ki, burada kəşfin mahiyyəti adlıq cümlə ilə ifadə olunur və bu kəşfin artıq ona kimi məlum olanlardan yenilik baxımından fərqini əks etdirir.

**Mətnin birgə yazılışı –** kommunikativ fəaliyyətlərin hərəkətə və əməliyyatlara bölünməsində, onların əlaqəsində özünü göstərir. Bitişik yazılış və disekretlik mətnin müxtəlif böyüklükdə (ölçüdə) olan vahidlərin məzmununda, bölünmələrində və bu vahidlərin birbiri ilə əlaqəsində özünü ifadə edir.

**Mətnin əlamətləri – bax:** mətnin ümumi əlamətləri.

**Mətnin əvvəlinin və sonunun markerləşdirilməsi –** once upon a time (müqayisə et: Azərbaycan türkcəsində: biri vardı, biri yoxdu) və they lived happily ever after (müqayisə et: Azəri türkcəsində: onlar bax beləcə şad xürrəm yaşamağa başladılar) tipli standart frazalarını birləşdirən mətnin əvvəlindəki və sonundakı markerlərin köməyi ilə həyata keçirilir.

**Mətnin makro üslubu –** mətndə cümlədən başlamış yüksək semantik səviyyələr qatı (təbəqəsi); cümləüstü formalardan (hipersintaksis) başlamış bütöv mətnə qədər. Tematik planda nəzərdən keçirilən mətn (hərəkət, zaman, məkan, personajlar, kompozisiya).

**Mətnin məna qruplaşması –** müxtəlif kommunikativ dəyərli informasiya daşıyan vahidlərin mətndə fərqləndirilməsi.

**Mətnin məzmunu –** 1. Dil vahidlərinin daxili (anlayış, məna) tərəfidir ki, ona görə (daxili tərəfə görə) zahiri (səs, qrafik və s.) tərəfləri ifadə xassələri kimi cəhətləri əldə edir. 2.Deyimin daxili tərəfinin quruluşu, onun məna ilə zənginləşdirilməsi. 3. Hər hansı situasiyanın təvsiri. Bax: eyni zamanda informasiya.

**Mətnin mikroüslubu –** mətnin dil səviyyələrinin aşağı üslubi təşkili – fonemdən cümləyə qədər.

**Mətnin özbaşına formalaşdırılması –** ayrı-ayrı leksik vahidlərin və eləcə də bütöv cümlələrin və anlayışların əvvəlcədən şərtlənmiş rəqəm, hərf, yaxud qarışıq indekslərlə, xüsusi və xidməti işarələr, xidməti kodlar və kodlarla olan cümlələri, parol, rəy və eləcə də xüsusi şifrə və kodların əvəzlənməsini nəzərdə tutur.

**Mətnin rekvizitləri** – konkret təsvirini yalnız kontekstdə tapan dəyişkən vahidlər, onlar sənədin formulyarına qoyulur, yeni informasiya verilir və kommunikativ funksiya planında sənədin rekvizitləri adlanır.

**Mətnin ritmi –** komponentlərin müxtəlif münasibətlərində uyğun kommunikativ – məqsədyönlü şəkildə ardınca gedilməsidir. Mətnin ritmik təşkilinin bariz nümunəsi deyimdəki sintaktik paralellizmdir – komponentlərin cümlə üstü vahidliyi və eləcə də sual-cavab vahidliyinin zənciridir.

**Mətnin seqment metodu –** yazılı tərcümənin metodlarından biri. Burada orijinalda olan mətn seqmentlərə bölünür və hər seqmentdən aparıcı informasiya çıxarılır ki, o tərcümənin tam tərtibatı üçün mənanın dayaq bəndləri və onun şərti kodlaşdırılması aparılır.

**Mətnin seqmenti –** bax: mətnin seqmentasiyası.

**Mətnin seqmentasiyası –** 1.Müxtəlif həcmdə (uzunluqda) söz birləşməsi olan söz və ifadələrin zəncirinin fərqləndirilməsidir ki, onlar bəzi semantik-sintaktik əlaqələrlə tərtib olunmuş, bölünmüşlər (formal təyinedicilər), adətən, onların seqmentasiyası keyfiyyətində köməkçi sözlər çıxış edir. 2. Mətn vahidlərin ardıcıl şəkildə təqdim olunması. 3. Mətnin nitq seqmentlərinə nitq zəncirinin idarə olunan komponentin idarə edən söz ardınca fasiləsiz saxlanılması prinsipinə söykənməklə bölünməsi və bəzi istisnaları nəzərdə tutmasıdır ki, o mətnin informativliyini müəyyənləşdirməyə kömək etməklə, yazılı tərcümə metodlarından birinin əsasını təşkil edir.

**Mətnin semantik formalaşdırılması –** abbreviasiyanın (qısaltma, ixtisar) bütün üsullarının mətndə geniş istifadəsində özünü əks etdirir.

**Məlumatın semantik mənası –** yəni onun məna tərəfi.

**Mətnin tərcümə olunması –** digər dilə (digər simvollar sisteminə) tərcümə olunma imkanı ilə müəyyənləşə bilən mətnin xassəsi.

**Mətnin strukturluğu –** kommunikativlilik kateqoriyasının özünü xüsusi şəkildə, ayrıca əks etdirməsidir. Mətnin strukturluğunun səbəbi – kommunikativ fəaliyyətin strukturluğundadır. Mətnin strukturu – bu, ondakı komponentlər arasındakı bütöv kommunikativ – şərti münasibətləridir. Mətnin strukturluğu çoxaspektlidir, çünki mətndə semantik, qrammatik struktur, üslubi vasitələrin strukturu, kompozisiya strukturu, məntiq strukturu vardır. Mətnin ümumi strukturuna mətn sistemaltıları və elementar deyim strukturları da təsir edir.

**Mətnin tərcümədə müqayisəli təhlili –** uyğun hadisələrin müqayisəsinə əsaslanır və müxtəlif dillərin mətnlərində onların bu və ya digər dil ailəsinə məxsusluğundan, daha doğrusu, onların

arasında genetik bağlılığın olub-olmamasından asılı olmayaraq əlaqələri öyrənir.

**Mətnin ümumiləşməsi-konkretləşməsi –** bax: mətnin analitikliyi və sintetikliyi.

**Mətnlər arasında əlaqə –** dialektik qarşıdurma affirmativ və kontroverz əsasda modelləşdirilmiş mətnlər arasında münasibət. Mətnarası əlaqəyə qabaqcadan hazırlıq – mətnarası invariantın mövcudluğu. Əlaqə nəticəsində yeni mətndə invariantın realizasiyasında işarə olan hərəkətlər (yerdəyişmə) yaranır. Mətnlər arasında əlaqə - bu ayrı-ayrı mətnlərin, yaxud onun və xeyli çoxsaylı mətnlərin arasında olan münasibətlərdir.

**Mətnlərin ümumi əlaməti –** Onlara; 1)mətnin sonuncu nişanlanmasının müxtəlif üsulları; 2) əlaqəli mətnin daxili bölmələri arasındakı keçidlərin nişanlanma üsulları; 3) temporal əlaqələr; 4) məkan əlaqələri; 5) məntiqi əlaqələr (məsələn, səbəb və nəticə); 6) diskurs iştirakçılarının identifikasiyası; 7) müxtəlif ayırma vasitələrində (high-lighting) bu və ya digər elementlər üzərində diqqət, yaxud emfazanın fokuslaşdırılması; 8) müəllifin, daha doğrusu, onun mövqeyinin və nəzər nöqtəsinin (author's involvement) aidiyyatı.

**Məzmun –** 1. Düşüncəmizə təsir edən və tərəfimizdən fiksasiya olunan mətnin elementləri. 2.Bütövün bütün əsas elementlərinin vahidliyi, onun xassələri və əlaqələridir ki, o formada mövcud olan və ifadə olunmaqla ondan bölünməzdir. 3.İfadənin əsas mahiyyəti.

**Məzmunun sərbəst variasiya olunan elementləri –** orijinal mətnin elementləridir ki, onların tərcüməsi nisbətən sərbəst dəyişdirilə, yaxud buraxıla bilir.

**Mikrodilaltı –** bax: xüsusi dilaltları mikro şərh edilmiş bütün mətnin tam şəkildə sonra verilməsini (tərcüməsini) nəzərdə tutan mətndən açar informasiyanı özündə daşıyan sözlərin seçilməsi ilə bağlı yaddaşı inkişaf etdirmək üçün olan çalışmalar.

**Mikrolinqvistika –** dilçiliyin dil sisteminin daxilindəki qarşılıqlı əlaqələri və qarşıdurmalarını öyrənən sahəsidir.

**Mikrosistem – bax:** sistemaltı.

**Mikrotərcümə –** leksik vahidlərin və qrammatik formaların verilməsi.

**Milli dil –** Bütöv bir millətin ümumi dili.

**Milli realilər –** 1. Hər hansı sosial icma, etnik qrupa aid olan spesifik predmet (əşya), hadisə, ənənə və adətləri bildirən söz və söz birləşməsinə realilər deyilir. Milli realilərin əksəriyyəti ekvivalentsiz leksikaya aiddir. 2. Dildə öz əksini tapan konkret hadisələr və konkret xalqın ənənəsi çərçivələrində mövcud olan milli sistem anlayışı elementləri. Milli realiləri bildirən leksik vasitələr metonimiya qanununa uyğun olaraq milli realiyalar adını qazanmışdır.

**Modal rəmzlər -** nitqdə modal münasibəti ifadə etmək üçün istifadə olunan təcili tərcümə yazısı rəmzi.

**Model -** 1. Ümumi şəkildə təqdim olunmuş köməkçi sistemi əvəz edən öyrənilmə üçün nəzərdə tutulmuş obyekt; 2. Bu (verilmiş) dilə xas olan, onun strukturunu təşkil edən elementlər sxemidir; 3. Bu sxemin (yaxud onun hər hansı hissələrinin və yaxud elementlərinin) kompakt simvolik təsviridir ki, ondan dilin onun öyrənilməsində metodlardan biri kimi dilin modelləşdirilməsidir; 4. Hər hansı dil vahidinin onun hissələrini təşkil edən ardıcıl düzümünü (yerləşməni) əks etdirən sxem, yaxud nümunədir.

**Modelin etibarlılığı –** Bu, modelin keyfiyyət və kəmiyyət xüsusiyyətlərini, daha doğrusu, onun keyfiyyət və kəmiyyət etibarlılığını nəzərdə tutur.

**Modelləşdirmə -** 1. Çətin müşahidə olunan, yaxud son dərəcə mürəkkəbliklə seçilən (fərqlənən) obyektin sxematik şəkildə əks olunmasında istifadə olunan elmi yanaşma; 2. Fiziki hadisə və proseslərin modellərdə tədqiq olunmasıdır ki, burada təcrübələrin nəticələrinə görə natural şəraitdə gedən proseslər haqqında fikir yürütmək olar; 3. Hər hansı dil vahidinin sxeminin, yaxud modelinin hazırlnması.

**Modulyasiya -** 1. Yaradılma prosesində bir sözdən digərinə onun əsas mənasının saxlanılması ilə keçilməsi baş verir; 2. İdentik situasiyanı təsvir edən məlumat tipinin dəyişdirilməsi müvafiq yol yaratma üsuludur.

**Motivasiya -** 1.Bu və ya digər hərəkət və fəaliyyətə yönələn tələb; 2. İnsan fəaliyyətini təşkil edən və istiqamətləndirən, onun fəallıq mənbəyini, və davranışını oyatmağa çalışan səbəblər sistemi.

**Monoqrafik referat -** bir mətnin məzmununu şərh edən referat. Bir sənəd, bir material üzrə tərtib olunur. Bütün materialı əhatə edən monoqrafik referat tərtib edilərkən referat mövzusu adətən materialın özü ilə müəyyənləşir. Lakin mənbənin ayrı-ayrı fəsilləri, yaxud hissələri şərh edilən zaman isə referatın mövzusu nəşrdə göstərilir. Belə şərhetmə seçmə şərhetmə adlanır.

**Monoqrafiya -** hər hansı bir elmi problemə həsr edilmiş tədqiqat işi.

**Monoloji nitq -** məzmunun mövzu genişliyini əhatə etməyə istiqamətlənən, əhatəli formada olan konstruksiya və onların qrammatik tərtibatı olan nitq. O öz genişliyi, əhatəliliyi ilə xarakterizə olunur.

**Monoloq -** digər şəxsin sözlü reaksiyasını nəzərdə tutmayan nitq. Bu, danışanın özünə müraciəti formasında olan nitqdir.

**Monosemiya – təkmənalılıq.**

**Morfem -** əldə olan keyfiyyətin itirilməməsi şərti ilə və mütəmadi olaraq bu dilin modelinə müvafiq olaraq ifadə sistemi vahidi, bilavasitə onun məzmun sisteminin elementinə müvafiq olan son dərəcə kiçik dil vahidi.

**Morfem-leksem tərcümə -** ilkin mətnin (dilin) kökmorfeminin tərcümə mətninin (dilinin) ayrıca söz ilə tərcüməsi.

**Morfem-morfem tərcümə –** struktur əlaqələri nəzərə alınmadan ayrı-ayrı morfem səviyyəsində yerinə yetirilmiş tərcümə. Morfemin tərcümə vahidi kimi seçilməsi nadir hallarda müşahidə olunur, çünki əksər hallarda üst-üstə düşməyən mənaları müxtəlif dillərdə sözün morfem strukturunda vardır.

**Morfem səviyyəsində tərcümə –** bax, nomorfem tərcümə.

**Morfematik tərcümə –** əsasən, mətnin morfematik səviyyəsində realizə olunan tərcümə.

**Möhür dili –** yazılı dilin güclənmiş variantıdır ki, burada yazılı dil üçün xarakterik olan əsas xüsusiyyətlər son həddə çatır.

**Mövcud oriyentirovka (istiqamətlənmə) - ilkin mətndə gedən proses –** bu, elə tərcüməçinin ilkin mətndə istiqamətlənmə prosesidir.

**Köməkçi sözlər –** bax: deyktik sözlər.

**Mübahisəli tərcümə (1) –** bu, tendensioz tərcümədir ki, burada bir tərcüməçinin əməliyyatı polemik olaraq digər tərcüməçinin əməliyyatlarına qarşı yönəlir və bu mütləq digər tərcüməçilik konsepsiyasına qarşı dayanır. Yaxud da, bu, elə tərcümədir ki, burada digər tərcüməçinin konsepsiyasının bədii, tematik və digər tendensiyaları, yaxud orijinal müəllifinin ənənələr ifşa olunur.

**Mübahisəli tərcümə (2) -** bu, affirmativ kontroverz metamətndir.

**Müəllif metamətni –** bu, müəllifin özünün yaradıcı subyekt-obyekt əlaqəsi olmasıdır. Müəllif metamətni affirmativ, yaxud kontroverz, gizli, yaxud aydın şəkildə mətn elementləri, yaxud bütöv mətn səviyyəsində realizə olunur. Müəllif metamətn janrları metakommunikasiya sistemi yaradır (bax, tipologiya metamətni).

**Müəllif ortaqlı markerlər –** burada müəllif ortaqlığı iki tipli ola bilər-avtobioqrafik (real və ya fiktiv) 1-ci marker onun markeri 1-ci şəxs əvəzliyi ola bilər və qiymətvermə anlamındadır; 2-ci marker isə leksik vahidlər (ola bilər this was an ugly scene - bu olduqca eybəcər bir səhnə idi) verilən qiymətdir.

**Müəllif tərcüməsi –** əsərin müəllifin özü tərəfindən digər dilə tərcüməsi (avtotərcümə). Avtotərcümə ilkin mətnə işarə – modelləşdirmə səviyyəsinə görə münasibətdə orijinal mətnin variantı hesab edilə bilməz. O yalnız dəyər və üslubi-dil sahəsinin dəyişilməsi nəticəsində protomətnin məruz qaldığı dəyişilməyə görə tərcümə hesab edilə bilər.

**Mühakimə –** ardıcıl formada izah olunan təfəkkür zənciri.

**Müxtəlif mənalılıq (müxtəlif mənalılıq forması)** –ikidillik situasiyası şəraitində idiomatiklik və tərcümə olunmama.

**Müxtəlif predmetli sinonimlər –** bu, elə ideoqrafik sinonimlər deməkdir.

**Müxtəsər ifadə –** bu, annotasiya, yaxud referat anlayışıdır.

**Müxtəsər tərcümə –** əsil (orijinal) ilə müqayisədə müxtəsər tərcümə olunmuş mətn.

**Mükəmməl tərcümə –** 1. Əslin məna-məzmun tərəfinin tam şəkildə verilməsi və ona tam funksional-üslubi uyğunluq. 2. Mükəmməl tərcümə həm də adekvat tərcümə kimi başa düşülməlidir.

**Müqayisəli dilçilik –** bu, dilçiliyin elə sahəsidir ki, orada məqsəd iki və bəzən də genetik cəhətdən bir neçə qohum və qohum olmayan dillərin aralarında dil strukturunun bütün səviyyələrindəki uyğunluq (ümumi) və uyğunsuzluğun (fərqli) müqayisəli şəkildə öyrənilməsi ilə məşğul olur.

**Müqayisəli linqvistika –** bax: müqayisəli dilçilik.

**Müqayisəli-tarixi dilçilik –** bu, dilçiliyin elə bir sahəsidir ki, onun obyekti bir-biri ilə genetik cəhətlərdən bağlı olan qohum dillərdir ki, onların arasında münasibətləri (uyğunluqları) və onların zaman və məkanı çərçivəsində təkamülünün təsviri verilir.

**Münasibət** – predmetlər, proseslər və əlamətlər arasında məna əlaqələri ifadə edən semantik kateqoriya.

**Mündəricat –** kitabın əlyazma hissələrini, yaxud fəsillərini təşkil edən məzmunun sadalanması.

**Mürəkkəb dillər** – dünyada ən çətin dil aşağıdakı dillər hesab edilir: hippev - bu Minnesota Şimali Amerika hindularının dilidir ki, bu dildə fel formalarının maksimal sayının- 60 minə qədər olduğunu, hayda – bu dil də Şimali Amerika hindularının dilidir ki, bu dildə sözün 70 minə qədər ön şəkilçiləri vardır? Tabasaran – Dağıstanda yaşayan tabasaranlıların dilidir ki, ismin 37 halı məlumdur. Bununla belə, Çin dili də son dərəcə mürəkkəbdir, çünki bu dildə 50 minə yaxın heroqlif vardır.

**Mürəkkəb sintaktik bütöv –** müstəqil cümlələrdən yaranan, struktur-məna korrelyasiyası xas olan sintaktik vahiddir; o, kontekstdən çıxarış edildikdə belə öz sintaktik müstəqilliyini qoruyub saxlayır.

**Müsbət nitq situasiyası –** nitq situasiyasının elə hissəsidir ki, o məlumatın tam şəkildə verilməsinə kömək edir və situativ informasiyanın mənbəyi olur.

**Mütləq tezliyin toplanması –** bu, korpusda lüğət vahidlərinin ümumi sayını, daha doğrusu, lüğət vahidlərində seçilmiş məcmuyun həcmini göstərir.

## N

**Nağıl –** hər hansı şeyin (mətnin) məzmununun şərhi. Müqayisə et: dəyişdirmə (uyğunlaşdırma).

**Natiq nitqi –** 1.Çoxsaylı auditoriyaya yönəlmiş müraciət, yaxud nitq. Buna görə də o xüsusi keyfiyyət tələb edir: müəyyən və bərabər səsin təmin olunması, xüsusi sintaktik quruluş, xüsusi leksik vasitələr və s. 2. Kollektiv dinləyiciyə ünvanlanmış məhsuldar nitq, o sinxron, yaxud ardıcıl tərcümə olunur.

**Natiq nitqinin tərcüməsi** – natiq nitqi dinləyiciyə istiqamətlənmiş nitqdir ki, ona müəyyən fonetik, xüsusən ritmik tələblər verilir. Tərcüməyə də eyni tələblər verilir. Tərcümə üçün olduqca zəruridir ki, səslənən nitqin bir yerə toplanmışlarını müəyyənləşdirib qaydaya salmaq üçün gözə daha çox çarpan təkrarlar-səslər, cümlənin gedişini çətinləşdirən eyni yaxınlıqda, məsafədə qafiyələnən sözləri, söz birləşmələrini seçib ortaya çıxarmaq lazımdır. Natiq nitqinin ən mühüm tələbi cümlənin cedişini çətinləşdirmək və ağırlaşdırmaq yox, onu yüngülləşdirməkdən ibarətdir. Odur ki, onların tərcüməsi zamanı uzun-uzadı budaq cümlələrin istifadəsindən qaçmağa meyilli olmaq vacibdir. Natiq nitqinin təşkilində parallelizm və təkrarlar kimi sintaktik vasitələr əsas rol oynayır. Elə buna görə də ağıllı və düşünülmüş tərcümə zamanı ilkin mətndə olan ümumi təkrarların sayından kənarlaşmaq da olar. Müəllifin yaradıcı şəxsiyyətinin fərdi özünəməxsusluğu ilə bağlılıq burada onun nitqinin üslub formasında özünü göstərməsidir, odur ki, o janr üçün spesifik olan müvafiq formada yerinə yetirilir.

**Neologizmlər –** 1. Dildə, bəzən isə verilmiş hər hansı kontekstdə müvəqqəti, okkazional (fərdi) yaranmış, bəzən bu və ya digər vaxt (dövr) ərzində özünə yer almış sözlər. Neologizmlərin tər-

cüməsində tərcüməçi oxucu qavrayışı üçün daha səmərəli anlayışların verilməsinə söykənir. Başlıca vəzifə yeni anlayışın mahiyyətini verə bilməkdir. Neologizmlərin tərcüməsi bəzən tərcümə dilində yeni terminlərin, müvafiq anlayışların yaranması ilə bağlıdır. 2. İkidilli tərcümə lüğətlərində qeyd olunmamış, yaxud dildə mövcud olan sözlərin yeni mənalarının qeyd edilməmiş yeni sözlər.

**Neologizmlər lüğəti –** bu, elə yeni sözlər lüğəti deməkdir.

**Neologizmlər tərcüməsi –** bax: neologizmlər.

**Nəql etmə –** bu, təsvirə əks olub, müxtəlif zaman kəsiklərində gedən hadisələrin təsviridir ki, onlar bir-birinin ardınca gedir, yaxud bir-birini şərtləndirir; bu, monoloji müəllif nitqinin başlıca hissəsidir.

**Nəzarət mexanizmi və nəticələrin korrektə edilməsi –** mütərcimin bu və ya digər tərcümə variantını seçərkən özünə inamı olmadığı zaman istifadə olunur. O, özündə deyimin məzmununun sintaktik və leksik səviyyəsini birləşdirə bilər. Mütərcim öz fəaliyyətinə şüurlu olaraq nəzarət edir.

**Nisbi bilinqvizm –** süni bilinqvizm nəticəsində iki dildə nisbətən sərbəst danışan şəxs; ikidilliliyin nisbi xarakteri, dillərdə danışma xarakteri.

**Nisbi sinonimlər –** quruluş və məna etibarı ilə uyğun olan semantik konstruksiyalar.

**Nisbi tezlik –** Bu, mətnin (korpusun) elə hissəsini lüğət vahidinin faizlərlə təmin etməlidir və ödəməlidir ki, bununla onun mühümlüyünü müəyyənləşdirmək olsun.

**Nitq –** 1. Prosesində dilin funksionallığının kommunikasiya prosesində informasiyanın verilməsi verilməsi. 2. Dilin köməyi ilə ünsiyyətin bu və ya digər növüdür ki, o, öz xassələrinə görə vəziyyətlə və kommunikasiyasının məqsədi ilə müəyyənləşir. 3. Aktuallaşma və kontinuumla xarakterizə olunan çoxsaylı məlumatlar arasında uyğunluq sistemi. 4. Nitqi, dili tətbiq edən danışanın konkret dil kollektivində digər onun üzvləri ilə qarşılıqlı fəaliyyəti. 5. Müxtəlif, rəngarəng, dil vasitələrinin mürəkkəb məzmununu vermək üçün istifadə olunan danışıq prosesidir ki, o,

informasiyanın özü ilə bərabər (yanaşı), dinləyiciyə müraciət (çağırış) deməkdir ki, onu (cavaba müvafiq) hərəkətə təhrik edir.

**Nitq axının makroseqmentasiyası –** sintaqmların, frazaların, yüksək fraza vahidlərinin nitq deyiminin seqmentasiyası.

**Nitq dil vahidi –** bu elə nitqdə və dildə dil vahidlərinin və nitq vahidlərinin birliyi deməkdir.

**Nitqin əsəri –** sözlərdə ifadə edilmiş fikir, bu başlıca fikri ifadə edən sonuncu cümlə, cümlənin hissəsi, yaxud hər hansı bir fikri açan cümlənin bəzi hissəsinin cəmi ola bilər. Nitq əsərində fikir müəyyən bütövlüyə malik olur, buna görə də biz nitq əsərinin hər hansı növünü fikrin dil ifadəsi vahidi kimi nəzərdən keçirməliyik. Digər tərəfdən, nitq əsəri dil çərçivəsində olur və buna görə də dil elementlərinin öyrənilməsi və onun üzərində müşahidə, daha doğrusu, onun strukturu üzərində müşahidə də istifadə oluna bilər. Bax: nitq əsəri.

**Nitq janrı** – müvafiq məzmunun verilməsində diskursiv praktikalardan istifadə ssenarisidir və konkret kommunikativ məqsədlə əlaqədardır. Nitq janrları üslubiyyat çərçivəsində funksional üslublar formalaşdırır.

**Nitq fəaliyyəti –** 1. Müxtəlif dilçilik, psixologiya, fiziologiya və s. elmlərin predmeti kimi eyni zamanda çıxış edən (nitqin bir əsər kimi təqdim olunmasından fərqli olaraq) nitq prosesi. 2. Dil nitq bacarığının ictimai kollektiv tərəfindən mənimsənilən, bu bacarığın həyata keçirilməsi və nitq aktının iştirakçısı kimi dinləyicini özündə birləşdirən zəruri şəraitlərin cəminin məcmuyu. 3. Fərdin nitqi, fərdi nitq. 4. Hər hansı məqsədə çatmaq üçün istiqamətlənmiş nitq fəaliyyəti və hərəkətlərin daha üstün sistemi. Tərcümə yazı, oxu, danışıq və eşitmə ilə yanaşı nitq fəaliyyətinin növlərindən biridir. 5. Dilin köməyilə həyata keçirilən fəaliyyət. Yalnız nitq hərəkətlərini özündə birləşdirən fəaliyyət mövcud deyildir. Nitq hərəkətləri bütün hallarda zehni, hərəkətedici və s. çarpazlaşır.

**Nitq fəaliyyətinin müxtəlif növləri** – oxu, danışıq, tərcümə, redaktə, referat çıxarma, korrektor işi və s. kimi ola bilər. Əgər nitq fəaliyyətinin professional növlərini atsaq, o zaman dörd əsas nitq

fəaliyyəti növü - danışıq, qulaq asma (eşitmə), oxu və yazını fərqləndirmək olar.

**Nitq həlqəsi (zəngiri)** – ritmik-informasiya vasitələri ilə fərqləndirilən cümlənin müxtəsər olan başlıca hissəsi. Ayrı-ayrı nitq həlqələri qismində, adətən, sintaqma və ritmik qruplar çıxış edir.

**Nitq hərəkəti** – nitq fəaliyyətinin elementini təşkil edən hərəkət.

**Nitq işarəsinin mikroseqmentləşməsi** – nitq işarəsinin (siqnalının) minimal sahələrdə səsdən kiçik olan, həm də səslərin, bəzən isə hərflərin seqmentləşməsi.

**Nitq kommunikasiyası** – 1. Ünsiyyətin şifahi forması. 2. Bu və ya digər üslubun, dilin çərçivəsində ünsiyyət. 3. Söhbəti, danışılanı bildirmək. 4. Kütləvi çıxış.

**Nitq kompentensiyası** – bu, elə kommunikativ kompentensiya deməkdir ki, toplanmış dil materiallarını ünsiyyət məqsədi ilə istifadə etmək bacarığıdır.

**Nitq kompressiyası** – 1. İlkin mətnin heca həcminin ikinci dərəcəli informasiyalara malik nitq vahidləri hesabına kiçildilməsi və eyni zamanda leksik və qrammatik transformasiyalar hesabına qısaldılması. 2. Vəzifəni yerinə yetirərkən danışanın qarşıda qoyduğu məqsədə çatması üçün həcmi kiçiltmək bacarığı. Nitqin kompressiyası sinonimik yolla, yaxud ona yaxın olan deyim hissələrinin heca həcminin kiçildilməsinin, nitqin bəzi parçalarının buraxılması yolu ilə, yaxud əvvəlki parçaların məna məzmununun əvəz edilməsi, yaxud informasiyaya malik ünsiyyət situasiyasında olan, yaxud kommunikasiyanın vəzifəsi nöqteyi-nəzərdən izafisi. 3. Nitq kompressiyası sinonimik və ona yaxın söz birləşmələri və cümlələrin daha müxtəsər sözlər və söz birləşmələri və cümlələrlə əvəz edilməsi, nitq parçalarının buraxılmasıdır ki, o əvvəl verilmiş informasiyanı və məna vahidlərinin buraxılmasını əvəz edir, konkret ünsiyyət şəraitində ya izafidir, ya da kommunikativ vəzifənin yerinə yetirilməsi nöqteyi-nəzərdən aparılır. Nitq kompressiyası imkanı dilin izafi informasiyası ilə izah olunur.

**Nitq kontaktorları** – nitq kontaktını həyata keçirməyə imkan verən danışıq klişeləri.

**Nitq konteksti –** Bu, elementin nitqdə istifadə olunma xüsusiyyətləri, şəraiti.

**Nitq mədəniyyəti –** bax: mədəni nitq.

**Nitq seqmenti** – nisbətən məna müstəqilliyi ilə xarakterizə olunan nitqin minimal parçası və mətnin seqmentasiyası nəticəsinə nitq zəncirinin fasiləsiz saxlanma qaydasında idarə olunan komponentin idarə edən komponent ardıcıllığının alınması.

**Nitq situasiyası –** 1. Nitq ünsiyyəti həyata keçirilən situasiya. 2. Kommunikasiya həyata keçirilən real gerçəklik. Tərcümə ilə kommunikasiyada N1 nitq situasiyası fərqləndirilir ki, bu zaman məlumat tərcüməçi tərəfindən qəbul edilir və bir də N2 nitq situasiyası vardır ki, o sonuncu ünvançı tərəfindən situasiyanın qəbuludur. Bundan başqa tərcümə ilə kommunikasiya situasiyası müsbət və mənfiyə bölünür. 3. Nitqə təhrik edən situasiya.

**Nitq şəraiti –** bu elə situasiya konteksti deməkdir.

**Nitq şüuru** – konkret nitq quruluşunda öz əksini tapmış nitq situasiyası, nitq şəraiti, deyiminin məqsəd və vəzifəsi.

**Nitq üslubu –** 1. Konkret nitq sferasında dil üslubunun tətbiqi. 2. Dil üslubunun (yaxud dil üslublarının kombinasiyasının) konkret nitq sferasında tipik tətbiqindən biri.

**Nitq ünsiyyəti –** təbii dilin köməyilə ünsiyyət.

**Nitq zənciri –** nitqin sıra xətti, səslənmənin fasiləsiz ardıcıllığıdır ki, qəbul edən tərəfindən semantik səviyyəli vahidlərin təşkilinin ardıcıllığı kimi bölünür.

**Nitqçilik (nitqşünaslıq) –** fonetika, psixologiya, fiziologiya, akustika, sosiolinqvistika, kommunikativ linqvistika kimi biliklər sahəsini özündə birləşdirir.

**Nitqi eşitmə –** bu və ya digər dildə nitqi qavrayış üçün qəbul etməyə hazırlanmış (hazır olan) eşitmə.

**Nitqin başa düşülməsi –** dinləyicinin aktiv mürəkkəb fəaliyyətinin nəticəsi prosesi, nitq stimulunun passiv qəbul edilməsi kimi başa düşülmür. Daxil olan akustik işarəyə əlavə olaraq qavrayış

prosesində və nitqin interpretasiyasında informasiyanın müxtəlif mənbələrindən istifadə olunur. Bu mənbələr özündə situasiyanı, konteksti, dilin strukturunu (fonologiyasında, leksikasında, sintaksisində və s.), qulaq asmanı və əvvəlki cavabını qeyri-verbal oriyentirləri özündə birləşdirə bilər.

**Nitqin bitişikliyi, qovuşuqluğu və diskretliyi –** bu, kommunikativlik kateqoriyasının özünü əks etdirməsindən biridir.

**Nitq əsəri –** real deyilmiş, yaxud yazılmış cümlələr, yaxud cümlələr cəmi, eyni zamanda hər hansı uzunluqda olan şifahi, yaxud yazılı nitqin parçası; ədəbiləşən, şifahi yaradıcılıq ədəbiyyatı və s.

**Nomenklatura –** 1. Konkret elm sahəsində istifadə olunan xüsusi termin-adların cəmi. 2. Konkret (mücərrəd anlayış və kateqoriyaları özündə birləşdirən terminologiyadan fərqli olaraq) elm obyektlərinin tipik adı. 3. Müşahidənin ayrı-ayrı elementlərinin tam cəmini bildirən siyahı.

**Nominasiya** – 1. Ad proses kimi, sözün verilmiş konkret referentə uyğunluğu. 2. Nominasiya dedikdə nominativ funksiya başa düşülür. 3. Dilin köməyi ilə hər hansı predmet və hadisənin təyin olunması, işarələnməsi.

**Nominativ funksiya –** söz, yaxud söz birləşməsinin predmetin (əşyanın) adına uyğunluğu. Adlandırma funksiyası, ad verilmə prosesi.

**Nominativ məna –** predmet, hadisə və s. istiqamətlənmiş sözün əsas birbaşa mənası.

**Norma –** fərdin nitqində dil vasitələrinin qaydaya salınmış halda işlədilməsinin qəbulu norma adlanır.

**Normalaşma (normalaşdırma) –** norma qoyulması, normaya salınma.

**«Nümunə və səhvlər» modeli -** müəyyən seçim kriteriyasına cavab verməyən variantların rədd edilməsi yolu ilə məsələnin ardıcıl olaraq optimal həllinə gəlmə metodu.

**«Nümunələr və səhvlər» metodu –** seçimin ayrı-ayrı müəyyən olunmuş ölçülərinə cavab verməyən variantlarının rədd edil-

məsi yolu ilə optimal həllə ardıcıl yaxınlaşma. Bax: həm də **optimal həllin axtarışı prosesi.**

**Nüvəyəyaxın səviyyə** – transformasiya edilmə səviyyəsinin qeyd olunması. O nüvə cümlələr səviyyəsindən onunla fərqlənir ki, cümlələr arasında məna əlaqələri üçün bağlayıcı və bağlayıcı sözlərdən istifadə edir. Bu səviyyədə sətirdən-sətrə keçirilir.

## O

**Oberton** – musiqi termini kimi işlənir, bu tərcümədə əsas tona xüsusi rəng verən əlavə tondur. Əlavə, daha yüksək tondur ki, onun yüksəkliyindən, gücündən və onların münasibətindən səs tembrinin xarakterik əsası asılıdır.

**Obrazı yadda saxlama** – qəbul edilmiş informasiyanı obrazların, təsəvvürlərin, hisslərin köməyi (vasitəsi) ilə yadda saxlamaq bacarığı.

**Obrazlı ifadə** – məcazi mənada işlədilən nitq vahidləri. Tərcümədə adətən tərcümə üçün ayrıca həll tələb edir, daha doğrusu, tərcümə vahidi kimi çıxış edir.

**Obyekt**- o hadisə, əşya, şəxsi göstərir ki, kimin üzərinə hər hansı fəaliyyət və ya diqqət yönəldilmişdir.

**Okkazional** – ümumi qəbul olunmuş qaydaya müvafiq olmayan, fərdi zövqlə bağlı, spesifik kontekstlə şərtlənən; təsadüfi; nadir.

**Okkazional uyğunluqlar** – tərcümə zamanı qeyri-mütəmadi olaraq işarədən, yaxud strukturdan ilkin dilin vahidlərini müşayiət edən hər hansı xüsusi şəraitlərlə bağlı təsadüfi olaraq işarə, yaxud strukturdan istifadə.

**Omofonlar** – eyni cür səslənib, müxtəlif cür yazılan müx sözlər.

**Omoformalar** – tələffüzü zamanı yalnız ayrı-ayrı formalarda uyğun gələn sözlər.

**Omoqraflar** – tələffüzünə görə yox, yazılışına görə uyğun gələn müxtəlif sözlər.

**Omoqraflar lüğəti** – yazılışına görə bir-birinə uyğun gələn müxtəlif mənalardan tərtib olunmuş lüğət.

**Omomorfemlər** – leksikologiyanın omonimləri öyrənən bölməsi.

**Omonimlər** – eyni nitq hissələrinə aid olub, eyni cür səslənib, mənasına görə müxtəlif olanlar.

**Omonimlər lüğəti** – qrammatik məlumatlarla və üslubi əlamətlə səciyyələnən omonim cütləri və eləcə də, omonimlərin – onların yaranması, yaxud mənşəyi nöqteyi-nəzərdən təsnifatı.

**Onomatopeya** – səs təqlidi. Təbiət səsləri, heyvan səsləri və eləcə də digər səs təqlidi yolu ilə yaranan şərti səslər.

**Operativ (əməli) yaddaş** – 1. Müvafiq qurulma olduğu zaman alınmış informasiyanın (ixtiyari) yadda saxlanılması. 2. Qavrayış (zamanı) prosesində verilən informasiyanın yadda saxlanılmasıdır ki, o aparılan fəaliyyət zamanı zərurətliyi ilə ortaya çıxır və yalnız informasiya işlənən zaman fəaliyyətdə olur. Operativ (əməli) yaddaş keçmiş təcrübə ilə bilavasitə bağlı deyil və o heç də biliklərin toplanmasına istiqamətlənməmişdir. Bax: həm də: yaddaş.

**Oppozisiya** – (müxalifət) dillər arasındakı fərqləri ortaya çıxarmaq üçün aparılan iki və daha artıq həmcins vahidlər arasında aparılan qarşıdurma.

**Optimal həll axtarışı prosesi** – tərcümə zamanı bu heç də birdəfəlik akt deyildir (əgər sinxron tərcüməni hesaba almasaq). Bu axtarış nitq fəaliyyətinin özü kimi adətən yoxlama, seçmə və səhvlər metodu ilə həyata keçirilir. Burada tərcümənin bir neçə mümkün variantları saf-çürük edilməklə və optimal varianta əsaslanaraq ardıcıl yaxınlaşma vasitəsilə müəyyən funksional kriteriyalara cavab verməyənlərin rədd edilməsini nəzərdə tutur.

**Orfoepik lüğət** – düzgün normativ ədəbi tələffüz sözləri olan lüğət.

**Orfoepiya** – 1.Normativ ədəbi tələffüz məsələlərini öyrənən dilçilik bölməsi. 2. Konkret dildə qəbul olunmuş tələffüz qaydalarına müvafiq vahidlərin tələffüz qaydalarının cəmi.

**Orfoqrafik lüğət –** normativ ədəbi tələffüz və düzgün yazılışlı sözlər lüğəti.

**Orijinal –** 1. Mətnindən tərcümə həyata keçirilən mənbə. 2. Tərcümədə ilkin mətn. 3. Orijinal, həm də əsl deməkdir.

**Orijinal və tərcümə arasındakı qavrayış arasında fərq –** faktdan gələn kommunikativ fərqdir ki, orijinal və tərcümənin kommunikativ aktı heç vaxt eyni anda gedə bilməz, yəni eyni mədəni kodda baş verə bilməz, bu isə o deməkdir ki, onlar tamamilə müxtəlif kommunikativ keyfiyyətə malikdir.

**Orijinalda şeir motivi –** bu, poetik tərcümənin elə bir növüdür ki, bu zaman tərcümə mətnində əslin əsas motivi daha böyük dəqiqliklə verilir, eyni zamanda mətnin qalan hissəsi isə tərcümədə maksimal dərəcədə sərbəst şeirin bu motivinə uyğun olaraq gercəkləşir.

**Orijinalda və tərcümədə dil vasitələrinin üslubi identifikasiyası –** üslubi-semantik interpretasiyanın obrazlı sistem çərçivəsində bədii dəyərin qoyulması. Üslubi dəyər, eyni zamanda, empirik və nəzəri şəkildə qoyulur; adətən, təsviri vasitələr tərcüməçinin praktikasında intuitiv olaraq seçilir.

**Orijinalda və tərcümədə sözün üslubi dəyəri –** leksik vahidin onun quruluşunun müəyyən səviyyəsinə üslubi uyğunluğu.

**Orijinalın semantik-üslubi instruksiyası** – tərcümənin yaradılması zamanı mütləq ədəbi kommunikantın təkrarolunmaz təşkilindən doğan orijinalın struktur xüsusiyyətləri.

**Orijinalın tərcümədə mətnarası invariantı –** orijinala tərcümə elementlərinin yaxınlıq (uyğunluq) mənası.

**Orijinalın yenidən kodlaşması –** bax, tərcüməçinin metadil mövqeyi.

**Ortologiya –** nitqin düzgünlüyü, normativliyi haqqında təlim.

## Ö

**Ölüdil -** canlı ünsiyyətdən çıxıb yazılı abidələrin dilində əks olunan dil; müstəsna hallarda həm də reqlamentləşmiş qədim (türk dili, qədim slavyan, latın, skif, qotların və s. dili) dil.

**Öyrədici linqvistik avtomat** – 1. Xarici dil və tərcüməyə kompüterlə (distant) təlim üçün nəzərdə tutulmuş elektron-hesablama texniki vasitələri kompleksi. 2. EHM-nın köməyilə xarici dil ünsiyyəti təlimi üçün nəzərdə tutulan xüsusi təyinatlı avtonom (muxtar) sistemi. 3. TTV (təlimin texniki vasitələri) yüksək səviyyəli geniş spektrli təlimin mürəkkəb vəzifələrinin həllini elmi tədqiqatların birləşməsi ilə nəzərdə tutan avtomatlaşmış təlim sistemi.

**Özbaşına formalaşma** – ayrı-ayrı leksik vahidlərin (EV) və eləcə də bütöv cümlələrin və anlayışların müxtəlif, əvvəlcədən şərtlənmiş rəqəm, hərf, yaxud qarışıq indekslərlə əvəz olunmasını nəzərdə tutur.

**Özbaşına yaddasaxlama** – xüsusi iradi qüvvə tələb edən yaddaşa daxil olmuş informasiyanın yadda saxlanılmasına qurulma.

## P

**Panxronomiya –** həm ümumi linqvistik, həm də universal, zamandankənar hadisələrin, daha doğrusu, insan dilinə xas olan hadisələrin nəzərdən keçirilməsi (başa düşülməsi)

**Paradiqma –** eyni sözün (leksik vahidin) söz dəyişdirilmə formalarının cəmi, konkret leksemin cəmini əks etdirən söz forması; cümlə paradiqmi – sadə cümlənin struktur sxeminin forma sistemi.

**Paradiqma sırası –** konkret leksik vahidin söz dəyişmə formasının cəmi, konkret təşkil edən, söz forması cəmi.

**Paradiqma yuvası –** bax. Paradiqma

**Paradiqmatik ekvivalentlik –** üslubi elementlərin paradiqmatik üslubi oxu elementləri, daha doğrusu, elementar üslubi vahidlərin sistemi səviyyəsi. Buna uyğun olaraq əmin vahidlər öz aralarında bu sistemin çərçivəsində ekvivalent olmaqla, müəyyən münasibətlərə daxil olur. Paradiqmatik ekvivalentlik heç də sintaqmatik ekvivalenliyə uyğun deyildir.

**Paradiqmatika –** dil vahidlərinin hər hansı əlamətə görə qruplara (siniflərə) ayrılması və qarşılaşdırılmasını müəyyən edən dilin sistemli öyrənilmə aspekti.

**Parafrastik –** parafraz olan.

**Parafraz (parafraza) –** 1. Təsviri dövr, təsvir. 2. Digər ifadə, yaxud sözün mənasının təsviri ilə ifadəsi. 3. Predmetlərin, yaxud hadisələrin adlarının onların mühüm əlamətlərinin, yaxud onların xarakterik xüsusiyyətlərinin dəyişilməsi şəkildə verilməsi. 4. Fikrin, hərəkət işarəsinin onu əvvəlkindən fərqləndirən dil vasitələri ilə verilməsi. 5. Söz sırasının dəyişilməsi. Bax. Perifraz.

**Parafrazlaşdırmaq** – parafraz formasında şərh etmək, işləmək.

**Paralelilzm –** qonşu cümlələrin, deyimlərin, yaxud niqtin hər hansı hissəsinin eyni sintaktik quruluşu.

**Paralinqvistik kinesika (mimika, jestlər) –** verbal kommunikasiyanın komponentinin təşkili kimi nəzərdən keçirilə bilər. De-

məli, paralinqvistik kinesika insan davranışının spesefik əlamətləri ilə semiotik sistem olmaqla bilavasitə dil strukturu ilə bağlıdır.

**Paralinqvistik vasitələr –** dil koduna, yaxud onu əvəz edənə bərabər tutulan ünsiyyət vasitəsi. Burada söhbət, ilk növbədə, informasiyadan, deyimdən, vurğunun qoyulması və pauzadan, jestikulyasiyadan, mimikadan gedir. Bəzi alimlərin fikrinə görə paralinqvistik vasitələr nitqdə verilmiş bütün məna informasiyasını 75% təşkil edə bilər.

**Paralinqvistika –** 1. İnformasiyanın verilməsində iştirak edən və nitq ünsiyyətini müşaiyət edən amillərin öyrənilməsi ilə məşğul olan dilçilik fənni. 2. Şifahi niqti müşaiyət edən jestləri, mimikanı, səslənmə həddini və s. öyrənən dilçiliyin bölməsi.

**Parametr –** 1. Hər hansı nəyin isə ölçüsü, sərhəddi; 2. Hər hansı predmetin, hadisə və prosesin əsas xassələrini xarakterizə edən həcm (yaxud həcmlər). 3. Hər hansı tapşırıq yerinə yetirilən zaman öz daimi mənasını saxlayan və riyazi formulaya daxil olan həcm.

**Paremioloji lüğət –** atalar sözü, zərb-məsəllər lüğəti.

**Parol və rəy** – əlaqə qurduğu və iş apardığı zaman müxbirlərin əsl məxsusluğunu müəyyənləşdirən, imkan verən söz, yaxud say.

**Paronimlər –** 1. Səslənməsinə görə yaxın, mənasına görə ya qismən, ya da heç üst-üstə düşməyən eyniköklü sözlər. Məsələn, işləmək-çalışmaq, qalxmaq-durmaq, dramatik-dramtikli (Qeyd: bunlar paronim deyil). 2. Qismən səs və struktur uyğunluqlu eyniköklü sözlər. Paronimlər problemi həm də «tərcüməçinin yalançı dostları» ilə əlaqədardır. Dildə paronimlərin düzgün müəyyənləşdirilməməsi mənanın təhrifinə gətirib çıxarır.

**Paronimlər lüğəti –** hər bir sözün - paronimin izahı verilən sözdür ki, burada cütə aid olan hər bir leksik vahidin kökü göstərilir, sözlərin məna fərqlərini təsdiqləyən illüstrasiyalar gətirilir.

**Parsinal tərcümə ölçüsü –** bax, tərcümənin subinterpretasiyası.

**Passiv leksika –** elə reseptik leksika deməkdir ki, onu ilk növbədə yazılı mətndə tanıyır və başa düşürlər.

**Patent referatlar tərcüməsi –** patent informasiyası işarələrinin işlənib hazırlanması üçün nəzərdə tutulmuş texniki tərcümə növüdür ki, nəticədə xarici patent referatı tərcümə edilən dilə çevrilir.

**Pauza –** nitq axınını müəyyən səbəblər üzündən bölən (kəsən) müxtəlif funksiyalar yerinə yetirən səslənmənin müvəqqəti dayandırılması.

**Pauzasiya –** nitq axınında pauzanın yerləşdirilməsi.

**Pentada –** beş sözlü birləşmə.

**Pepsepsiya** – hiss orqanlarının köməyilə gerçəkliyin bilavasitə inikası, qavrayışı. Kommunikasiya aktında, əsasən, görmə və eşitmə persepsiyası fərqləndirilir.

**Perifrastik –** perifraz olan**.**

**Perifrastik tərcümə –** məzmunun (sözlərin, realilərin) digər formada və digər sözlərlə təsviri şəklində verilməsi.

**Perifraz (perifraza) –** 1. Birbaşa adı əvəz edən təsviri ifadədir ki, o, birbaşa adı çəkilməmiş predmetin əlamətlərini özündə saxlayır. 2. Adi sözün (bəzi predmetlərin bir sözlə sadə işarələnməsi) təsviri ifadə ilə dəyişilməsindən ibarət trop növü. Müqayisə et: parafraz.

**Perifraz (perifrazlaşdırma)** – eyni fikrin digər sözlərlə eyni dildə verilməsi.

**Perifraz sistemi –** «məna↔mətn» modelində sinonimik deyimlər arasında sadə məna ekvivalentləri verən qaydalar toplusu.

**Perifrazlamaq –** şərh etmək – perifraz şəklində şərh etmək; başqa sözlərlə demək.

**Perlokusiya** – nitq aktının nitqdənkənar nəticələr ilə əlaqəsi.

**Persepsiya –** duyğu orqanları ilə gerçəkliyin qavranılması. Kommunikasiya aktında əsasən görmə və eşitmə persepsiyası fərqləndirilir.

**Perspektivli –** gələcək, gözlənilən, nəzərdə tutulan, mümkün.

**Peşə dialekti –** bir peşəni, yaxud məşğulluq növü altında insanları birləşdirən sosial dialektin növündən biri.

**Peşəkar dili –** 1. Bir peşəyə məxsus dil vasitəsilə yaranmış dil növü. Hal-hazırda bu növ dil ünsiyyət sistemində müxtəlif jarqonlaşdırılmış (məsələn, dənizçilərin, hərbçilərin, tələbələrin və b. dili) sahələrdə mövcuddur. 2. Bir peşəyə məxsus olan şəxslər arasında istifadə edilən konkret dilin sosial dialekti.

**Peşəkar leksika** – vahid peşədə birləşmiş insanların nitqində istifadə olunan bu peşəkar qrupa aid olan leksika.

**Peşəkar sinxron tərcümə –** beynəlxalq konfranslarda şifahi tərcümənin elə növüdür ki, eşitməni eyni vaxtda qavrama vasitəsilə (üstəgəl bəzən «vərəqdən» görmə ilə) şifahi məlumat üçün ilkin mətnin tərcüməçini auditoriyadan təcrid edib kabinədən aparırlar ki, bu proses zamanı fəaliyyətin ekstremal şəraitində hər hansı zaman parçasında ciddi məhdudlaşmış həcmdə informasiya işlənib hazırlanır.

**Peşəkar tərcümə –** 1. Xüsusi hazırlıq, vərdiş və bacarığın digər dildə yaradılmasına istiqamətlənmiş xüsusi dil fəaliyyəti. 2. Müstəqil, sərbəst və obyektiv dəyər daşıyan tərcümə. Orijinal mətndən, orijinaldakı bu və ya digər səbəbdən istifadə edə bilməyənlər üçün daha çox və az şəkildə ekvivalent əvəzi. Onu elə bir mütəxəssis yerinə yetirir ki, faktik olaraq o, bu xarici dili o qədər yaxşı bilir ki, bu mətnin başa düşülməsində onun tərcümə olunmasına heç bir ehtiyac yoxdur.

**Peşəkarlıq –** bu və ya digər peşəkar qrupun nitqinə xas olan söz, yaxud ifadələr.

**Pıçıldama –** Kabinədən kənar «pıçıldama» sinxron tərcümə.

**Plan –** 1. Dil işarəsinin tərəfindən biri onun iki aspektindən biri kimi. 2. Dil hadisələrinin nəzərdən keçirilməsi üsulu, nəzər nöqtəsi. 3. Bax: səviyyə.

**Pleonazm (artıqlıq) –** 1. Dil vahidinin daimi xassəsinin izafi ifadəsi. 2. Çoxsözlük ifadəsidir ki, onlar təkmənalı və bununla da artıq sözləri (əgər onlar üslubi tapşırıqlarla, məsələn, sinonimlər əsasında qurulmuş qradasiyalardırsa) ifadə edir.

**Poetema –** poetik əsər üçün xarakterik olan və məişət nitqində az işlənən söz, yaxud söz birləşməsi.

**Poetik (metasemiotik) funksiya** – nitq deyiminin formasını ifadə edən funksiya.

**Poetik mətnin prozaik (nəsri) adaptasiyası –** bax: tərcümə-adaptasiya.

**Poetik tərcümə –** 1. Poetik tərcümə bədii tərcümədən fərqli olaraq publikanın zövqünə, bilik, təfəkkür səviyyəsinə, xarakter və tələblərinə uyğun olmalıdır. 2. Bir dildən digər dilə, daha vacibi bir mədəniyyətdən digərinə poetik əsərin poetik əsər kimi verilməsi və qəbul edilməsi. 3. Poetik yaradıcılıq forması. Bununla belə, bu həm də xalqdan xalqa, qəlbdən qəlbə ötürülən sosial kommunikasiyanın xüsusi növüdür. Odur ki, mütərcimin ən böyük missiyası ondan ibarətdir ki, o, şairin döyünən qəlbinin çırpıntılarını onun şeirlərindən eşitməli və şairin qəlbinin bu döyüntüsünü öz xalqının dilində mümkün olmayanı mümkün etməlidir. Əyintiyə yol vermədən poeziyanı bir xalqın dilindən digər xalqın dilinə tərcümə etməyi bacarmalıdır. 4. Bədii tərcümənin ən mürəkkəb növlərindən biridir.

**Poeziya tərcüməsi** – etiraf etmək lazımdır ki, poeziyanın tərcüməsi zamanı tamamilə spesifik problemlər yaranır. Belə ki, ritm, ölçü, qafiyə və s. ifadə formaları auditoriyaya məlumatın ruhunu çatdırmaqda mühüm amillərdən biridir.

**Poeziyanın nəsrlə tərcüməsi –** bax: nəsr tərcüməsi (prozaik tərcümə).

**Poliqlot –** çox dil bilən adam.

**Poliloji nitq** – üç və daha artıq söhbətdə iştirak edən insanlar arasında gedən dil ünsiyyəti formalarından biri; kollektiv ünsiyyətin formalarından biri.

**Poliloq –** 1. Danışan və qulaq asan bir sıra adamlar arasında gedən söhbət. Danışanların sayı (ikidən artıq) bu prinsipi dəyişdirmir. 2. Çoxsaylı insanlar arasındakı söhbət. Müqayisə et: dialoq, monoloq.

**Polisemiya –** leksik vahidlərin çoxmənalılığı.

**Postalqoritmik mərhələ** – baza dilində (BD) linqvistik vahidlərin seçilməsində bir sıra statistik – leksikoqrafik məsələlərin nəticələrinin qiymətini və təsvirini özündə birləşdirir.

**Postredaktə** – maşın tərcüməsindən sonra mətnin insan tərəfindən redaktə olunması.

**Postulat** – ilkin qəbul edilmiş nəzəri müddəa.

**Pozulmuş semasioloji əlaqə** – dil işarələrinin denotatla əlaqəsidir ki, kommunikant tərəfindən qəbul edilmir.

**Praqmatik** – praktik cəhətdən səmərəli nəticə verməni tanıyan və ona əsaslanan praqmatizm.

**Praqmatik adaptasiya** – 1. Alıcının informasiya ehtiyatını nəzərə alan ilkin mətnin dəyişdirilməsi. 2. Praqmatik mənanın ilkin deyimin dəyişdirilməsi uçotu ilə verilməsi. Praqmatik adaptasiya mətnə əlavə elementlərin qoşulması, elementlərin digər dildə izafiliyi nöqteyi-nəzərdən buraxılması və eyni zamanda sematik transformasiyanın tətbiqi.

**Praqmatik adekvat tərcümə** – ilkin deyimdə olan praqmatik mənanın verilməsi tələblərinə cavab verən tərcümə.

**Praqmatik ekvivalentlik** – bax: ekvivalentliyin növləri.

**Praqmatik məna** – müxtəlif alıcılar və alıcılar qrupu tərəfindən deyimdə dil informasiyasının spesifik qavrayışını özündə birləşdirir. Praqmatik məna praqmatik məna ilə müəyyənləşir.

**Praqmatik münasibətlər** – semiotikada bu və ya digər işarə sistemindən istifadə edən işarələr və şəxslər arasında münasibətlər.

**Praqmatika** – 1. Dilin dildən istifadə edən bu və ya digər şəxsə münasibətini tədqiq edən və seçən dil tədqiqatının plan və aspektlərindən biri. 2. Dilçiliyin dil işarələrinin nitqdə iştirakını və danışanın işarələri arasında münasibətləri öyrənən sahə. 3. Bu və ya digər elmi müddəanın praktik səmərəsi. 4. Müəyyən edilmiş obyektlərə görə dil vahidi münasibətlərini öyrənən semantikanın bölməsi.

**Predikativ rəmz** – predikatların yazılışını özündə birləşdirən və rəmzlər qrupuna aid olan tərcüməçilikdə tez yazmanın rəmzi.

**Predmet** – prosesdə iştirak edən əşyaları və canlıları özündə birləşdirən semantik kateqoriya.

**Predmet situasiyası** – 1. Deyimdə predmetlər və onlar arasında təsvir olunanlar. 2. Deyimdə gerçəkliyin təsvirinin bir hissəsi. 3. Mətndə özünü əks etdirən situasiya.

**Presizion informasiya** – deyimdə informasiya bazası. Yadda saxlama üçün mürəkkəbdir və şifahi tərcümədə xüsusi çətinlik yaradır. O, söz və say presizion informasiyalara bölünür.

**Presizion sözlər** – ümumişlək sözlərdən fərqli olaraq birmənalı olub, adətən, konkret assosiasiyalar yaratmır. Şifahi tərcümədə isə müəyyən çətinliklər yaradır. Presuppozision sözlərə şəxs adları, həftənin günləri və ayları, eləcə də saylar aiddir.

**Presuppozisiya (önmövqe)** – 1. Cümlənin məna komponentidir ki, o cümlənin məna cəhətdən qeyri-konkret qəbul edilməməsi üçün həqiqi, doğru olmalıdır. 2. Kommunikantın həyat təcrübəsi nəticəsində yaranan həcm kompetensiyasının sabitliyi olub, özünə nitq situasiyasının şəraitini də əlavə edir. Presuppozisiya, həm də kommunikasiyanın digər iştirakçılarının presuppozisiyası haqqında təsəvvürləri də birləşdirir. Onun məzmunu əksər hallarda şəxsiyyətin milli-mədəni keyfiyyətlərindən asılıdır.

**Produktiv (məhsuldar) leksika** – çoxlu informasiyanı assosiasiya edən, buna görə də deyimin konstruksiyalaşması üçün sərbəst istifadə edilən leksika.

**Proksema** – proksemanın emik vahidi, daha doğrusu, ünsiyyətin xarakterinə müvafiq olan kommunikantın ətrafında özünəməxsus kommunikativ aktın iş məkanı keyfiyyətini saxlayan fiziki parametrlərə malik vahid. Daha doğrusu, proksema – bu verbal və qeyri-verbal kommunikativ davranışda məkan realizasiyası fonudur.

**Proksemika** – insan davranışının məkan parametrlərini öyrənən elm sahəsi.

**Proqram** – 1. Konkret EHM komanda sistemi ilə yazılmış qaydalar sistemi. 2. Maşın dilində verilmiş məsələlər həllinin alqoritmi.

**Proqramlaşdırıcı linqvistika** – bu elə alqoritm linqvistikasıdır.

**Proses** – hərəkət, hadisə və s. bildirən semantik kateqoriya.

**Prospektiv –** strukturun növbəti elementinə işarə edən.

**Protokol tədbir** – işgüzar ünsiyyətin daha məhdud formal şəraitdə – qəbullar, banketlər, prezentasiyalar və s. formasında aparılan növü.

**Protomətnin mövcudluğu –** bu, mətnyaradıcılıq fəaliyyətidir ki, metamətni yaradan subyekt (bax, metamətn subyekti). Metamətn yaradılmasında əldə rəhbər tutulan aspektlər – əlaqənin semantik, üslubi, aksioloji, müəllif strategiyası və imkanı. Protomətni – metamətn münasibətlərini biz invariant və variant arasında münasibət kimi müəyyənləşdirə bilərik. Metamətnin şərti mövcudluğu – protomətndir. Protomətnin mühüm komponenti metamətndə semantik (yerdəyişmə) ötürmələrin köməyilə realizə olunur. Metamətn protomətni onun üslubunun, (tematik və dil quruluşu) modelləşdirmə yolu ilə reallaşdırır, protomətnin üslubi modelləşdirilməsi eksperiment xarakteridir. Belə ki, metamətn protomətni mütləq şəkildə nə yenidən yarada, nə də təkrar edə bilər (tərcümə heç bir halda orijinalı olduğu kimi əks etdirə bilməz). Metamətn müəllif strategiyasının dəyəridir, o orjinala söykənir. Müəllif aşkar, yaxud gizli mətnlərarası əlaqələr görə bilər. Onun həlli bəzi hallarda üslubi priyom xarakteri daşıyır. Müxtəlif mətnlər arasında münasibətlər mətnin ayrı-ayrı elementləri səviyyəsində, yaxud elə bütöv mətn üzərində qurula bilər. Metamətnlə protomətn arasındakı münasibətləri transformasiya xarakteri nöqteyi-nəzərdən interpretasiya etmək olar ki, onu metamətndə (imitativ, selektiv, reduasiya və komplementar əlaqə səviyyəsində) həyata keçirmək olar.

**Prozaik tərcümə –** köməkçi tərcümə. O yalnız tanışlıq funksiyası yerinə yetirir və buna görə də, adətən, poetik tərcüməni tam şəkildə əvəz edə bilməz. Buna görə də şairlərin prozaik (nəsrlə) tərcüməsini yalnız poetik mətnin bədii nəsr vasitələri ilə oxucuları xaricidilli orijinalın məzmunu ilə tanış etməkdir. Nəsrlə tərcümə ikinci dərəcəli xarakterə malikdir və poetik orijinal haqqında yalnız yaxınlaşdırıcı təsəvvür yaradır.

**Psevdotərcümə –** bax, tərcümə simulyasiyası.

**Psixolinqvistika –** 1. Məzmun nöqteyi-nəzərdən və kommunikativ dəyərdən nitq aktının konkret kommunikativ fikrə, daha doğrusu, təbii dilin köməyilə verilən məlumatın təbiətini və xassəsini nitqin yaranması prosesini öyrənən dilçilik sahəsi. 2. Nitq prosesi, onun yaranması və qəbulu nöqteyi-nəzərdən elm bölməsi.

**Psixoloji xəbər** – psixoloji mahiyyətə görə şüurda sıraya görə ikinci yaranmış və ona əks üzvüdən, psixoloji mübtədadan fərqləndirmə, yalnız dayanma mövqeyinə görə hansı nitq hissəsi (söz birləşməsi) ifadə olunma.

**Psixoloji mübtəda –** psixoloji mahiyyətə (yükə) malik və şüurda sıraya görə yaranmış ilkin təsəvvür.

**Publisistik mətnin tərcüməsi –** əgər publisistik mətni müxtəsərlik, artıq sözlərdən kənarlaşmaya can atma fərqləndirirsə, tərcüməçi də eyni müxtəsərliyə can atmalıdır. Adətən, publisistik mətndə terminlərdən asancasına istifadə özünü göstərirsə və onlar bununla məişət sözlərinə yaxındırsa, belə olduğu halda, tərcüməçi bütün bu elementləri mətbuatda öz doğma dilində müvafiq şəkildə verməyi bacarmalıdır, o, burada mövcud terminologiyadan istifadə etməlidir. Obrazlı ifadələr, danışıq-məişət ifadələrinin, mətndəki emosional rəngli xüsusiyyətli yerlər xarici ölkə publisistikası üçün xarakterikdir və tərcümə mətnin belə hissələrinin başqa şəklə salınmasına yol verilməməlidir. Publisistik mətndəki mürəkkəb cümlələrdə sintaksis tamlığı xüsusilə mühümdür. Odur ki, mürəkkəb cümlələrin tərcüməsi zamanı qeyri-müəyyənliklərdən, qarma-qarışıqlıqlardan qaçıb, daha uzun cümlələri hissələrə bölüb ilə əvəz etmək məqsədə uyğundur.

**Publisist tərcümə –** publisist əsərlərin, ictimai-siyasi ədəbiyyatın, tənqidin və natiq nitqinin tərcüməsi.

**Punktuasiya (durğu işarələri) –** rubrika elementi və struktur formalaşdırma: durğu işarəsi müəyyən semaktik-sintaktik və funksional-kommunikativ əhəmiyyətə malikdir. O, maşın tərcüməsi məqsədləri ilə və durğu işarələrinin konfrontasiyası (qarşıdurması) zamanı ələvə (yardımçı) dilin modelləşdirilməsi zamanı nəzərə alınır.

**Purizm –** dilin təmizliyini, toxunulmazlığını saxlamaq cəhdi, dildə hər hansı yeniliklərə qarşı mübarizə (neologizmlər, xarici dildən alınmalar) ədəbi dili normalaşmamış, leksik və qrammatik elementlərin daxil olmasından qoruma.

## R

**Rakurs** – nəzər nöqtəsi, baxış bucağı

**Ranq –** 1. Tezlik lüğətlərində sözformaların sıra nömrəsi. 2. Ranq tezlik lüğətlərində ranjirə olunmuş cərgədə sözformanın ortaya çıxmasında (mətndə işlənməsində) və sözformaların mütləq tezliyinin azalması cərgəsində sözformanın sıra ardıcıllığı. 3. Tezlik siyahısında lüğət vahidinin sıra nömrəsi. Tezlik siyahısının ranq ranjirə edilməsi adi ardıcıl nömrələmədən onunla fərqlənir ki, eyni tezlikli lüğət vahidlərinə ayrı-ayrı ranqlar deyil, intervallar ranqı verilir. 4. Tezlik lüğətində sözdən sonra duran rəqəm və tezliyə işarə edən (istifadə olunan) bu sözün mətndə rast gəlinməsidir (əsərdə mətnlər cəmi, informasiya massivi və s.).

**Ranq tezlik lüğəti** – 1. Lüğət vahidlərinin azalma tezliyi üzərində qurulmuş lüğət. 2. Ranq üzrə sözlərin, daha doğrusu, onların işlədilməsi (rast gəlinməsi) tezliyi üzrə olan tezlik lüğəti. 3. Azalma tezliyi sırası üzrə quruluş lüğət vahidləri olan tezlik lüğəti.

**Reaksiya – 1.** Adətən reaksiya dedikdə bir məlumata «cavab» nəzərdə tuturuq. 2. Bax, həm də ünsiyyət effekti.

**Real aktantlar –** situasiyanın substantiv elementləri, subyekt, obyekt, substansiya prosesinin həyata keçirməsini əngəlləyən, yaxud ona kömək edən məkan, yaxud zaman konkretləşdiriciləri və s.

**Realilər –** 1. Başqa dildə danışan insanların praktik nitqində mövcud olmayan predmet, əşya anlayışı, situasiya bildirən söz, yaxud realiyalar. 2. Zahiri linqvistika və tərcüməşünaslıqda, məsələn, hər hansı ölkənin dövlət quruluşu, hər hansı xalqın tarixi və mədəniyyəti, konkret dilin daşıyıcısı olan dil əlaqələri nəticəsində

bu dildə öz əksini tapmış müxtəlif çeşidli faktorların öyrənilməsi. 3. Sözün normativ mənası üçün əsas kimi xidmət edən maddi mədəniyyət əşyaları. 4. Həyat və məişət milli-spesifik xüsusiyyətlərini bildirən sözlər. 5. Oijinal mətnində realizə olunan mədəni kod elementləri.

**Realilər tərcüməsinin əsas üsulları –** 1. Transliterasiya və transkripsiya. Realiyanı bildirən konkret sözün ya yazıda onun kökünün öz dilində, yaxud öz dilində şəkilçilərlə birlikdə bilavasitə istifadə olunması. 2. Yeni sözün, yaxud mürəkkəb sözün, yaxud söz birləşməsinin elementlər əsasında və morfoloji münasibətlərdə müvafiq predmetin, artıq dildə real şəkildə mövcud olanların bildirilməsi. Əsas etibarı ilə belə tərcümə təsviri, perifrastikdir. 3. Birbirinə xarici dildəki realilə yaxın olan, lakin funksiya etibarı ilə uyğun olmayan-oxşayan tərcümədir ki, o kontekstdə dəqiqləşdirilir və bəzən təxmini yaxınlıq bildirir, ifadə edir. 4. Hiponimik üsul-ümumiləşdirilmiş – yaxınlaşdırıcı növ anlayışını bildirən, ifadə edən tərcümə. Xarici dildəki sözlər tərcümə dilində cinsi anlayış bildirən sözlərlə verilir. Belə üsul reali adları ilə bağlı təsəvvürləri kasadlaşdırır, çünki tərcümə dilində ümumi anlayışdar konkretliyin itməsinə gətirib çıxarır

**Reali -** sözlər – ilkin dilin daşıyıcılarının praktik təcrübəsində mövcud olmayan və buna görə də ekvivalentlərə malik olmayan əşyaları, hadisə və anlayışları bildirən sözlər. Bax: realilər.

**Redaktəönü –** mətnin maşına, maşın tərcüməsinə daxil edilməsinə qədər qabaqcadan redaktə olunması.

**Redusiya olunan əlaqə –** mətnlərarası invariantın semantikasının saxlanılması zamanı mətnin ayrı-ayrı səviyyəsində aksent edilən iki mətn arasındakı münasibətlər.

**Referat** – 1. İlkin sənədin müxtəsər izahını əks etdirən ikinci sənəd. Referatın əsas məqsədi - izah olunan işin əsas müddəaları ilə tanış etməkdən ibarətdir. Materialın müxtəsər izahı olan referat. Təbiidir ki, ilkin sənədi əvəz edə bilməz və, adətən, referatın öyrənilməsinin əsasında ilkin sənədin tam, yaxud qismən tərcüməsinin məqsədəuyğunluğu ilə bağlı nəticələrə gəlmək olar. 2. Referatın

əsas təyinatı – materialı əvəz etməkdir. Buradan aydın olur ki, referat materialın daha qənaətli vasitəsi olub onun məzmununu tam şəkildə əhatə etməlidir. Resenziyadan fərqli olaraq, referatın başlıca təyinatı, hər şeydən öncə, materialın məzmununun açılmasına xidmət etməlidir. Bununla belə, referatdada materialın ümumi şəkildə dəyərləndirilməsi arzu olunur. Referat nəzərdən keçirilən məqalə, yaxud kitabda hansı yeniliklər var, orada əksini tapan materialın xüsusiyyəti nədən ibarət olması çatdırılmalıdır. Referatın dəyəri, ilk növbədə, onunla müəyyənləşdirilir ki, orada oxucu üçün maraq doğuran orijinalın məzmunu daha dərin və geniş şəkildə açılmış olmalıdır. 3. Tam izahına görə orijinalın məzmununu əks etdirən referat informativə və indikativə bölünür; izah olunan sənədlərin kəmiyyətinə, sayına görə bu sənədlər – monoqrafik, məlumat və xülasəyə, referatda izah olunan materialın xarakterinə görə isə referat - üzərində işin ardıcıllığı. 4. Hər hansı məsələnin mahiyyətinin müxtəsər izahı. 5. Elmi işin, kitabın və s. müxtəsər şifahi, yaxud yazılı izahı. 6. Ədəbi və digər mənbələrə əsaslanan hər hansı mövzuya həsr olunmuş məruzə. 7. Mənbənin qısa, bütün toxunulan məsələlərlə bağlı hər nə varsa dəyərləndirilməsidir ki, o mənbənin qiymətləndilməəsi və referatın nəticələri ilə müşayiət olunur.

**Referat çıxarma –** mətndə tanışlıqla bağlı nitq fəaliyyətinin mürəkkəb növüdür ki, mətndə onda olan verilmiş informasiyanın, yaxud əsas məzmunun yazılı şəkildə verilməsi məqsədini güdür.

**Referat-xülasə –** referat-xülasədə onun əsas müddəaları materialın olduqca yığcam şəkildə təqdim olunması ilə bərabər bütün ikinci dərəcəliləri atılır. Referat - xülasədə materialın məzmununun daha yüksək dərəcədə ümumiləşdirilməsi tələb edilir, nəinki referat – konspektdə. Bax: indikativ tərcümə.

**Referat-konspekt –** referat-konspektdə əslin yığcam şəkildə onun materialını möhkəmləndirən mühüm müddəaları gətirilir. Bax: informativ referat.

**Referat üzərində işin ardıcıllığı –** 1. Referat üçün nəzərdə tutulmuş sənədi diqqətlə oxumaq. 2. Tamamlanmış fikri əks etdirən sənədin mətnini bölmək. Məqalələr, konfranslardakı çıxışların ste-

noqramlarında və digər həcimcə böyük olmayan sənədlərdə bu məna hissələri adətən abzasa, yaxud abzaslar qrupuna müvafiq olur. Kitablarda belə parçalara ya fəsil, ya da mətnin struktur vahidi müvafiqdir. 3. Referat üçün nəzərdə tutulan sənədin planını tərtib etmək. 4. Referat üçün nəzərdə tutulmuş sənədin məqsədini və başlıca mənasını formalaşdırmaq. 5. Referatın planını hazırlamaq. 6. Referatı tam həcmə riayət edilməklə yazmaq. 7. Zəruri olduqda referata əlavələr etmək. Əlavələrdə müəllifin nəzərə çarpacaq səhvləri, fakt və hadisələrin ənənə şəklində təhrif edilməsi, oxucunu faktın qiymətləndirilməsində yeni yanaşmaya cəlb etmək.

**Referatın həcmi** – referatın tamlığına və həcminə, eləcə də onun tərtib olunması xüsusiyyətləri referatın təyinatından və onu sifariş verənin konkret tələbi ilə bağlıdır. Bununla belə nəzərə almaq lazımdır ki, referat tərtibinin əksər hallarda hazırlığı ilə bağlı ümumi qaydalar mövcuddur. Referatın həcmi əsasən ilkin sənədin həcmindən asılıdır, bununla belə bu asılılıq heç də birbaşa deyildir. Bir neçə yüz səhifəlik monoqrafiya və ya məqalələr məcmuəsi referatının maksimal həcmi adətən beş-altı kompüter səhifəsi ilə məhdudlaşır. 20-30 səhifəlik xüsusi jurnaldan çıxarılmış məqalənin referatı isə iki-üç kompüter səhifəsindən artıq olmur. Təxminən 10 səhifəlik bir məqalənin referatı isə bir səhifə həcmində olur. Təxminən digər materialların (sərəncamlar, soraq kitabları, dərsliklər və s.) referat şəklində tərtib olunmasında bu tipli tətbiq olunmuş proporsiyalardan istifadə olunur.

**Referatın strukturu** – adətən referat aşağıdakı hissələrdən ibarət olur: 1) referat edilən sənədin başlığı olan biblioqrafik təsvirdən; 2) orijinalın əsas fikrini əks etdirən əsas məzmundan; 3) referentin, əgər bu zəruridirsə, qeydlərdənindən. Başqa sözlə, biz bundan aşağıdakı kimi ifadə edə bilərik; 1) predmet rubrikası; 2) referatın mövzusu; 3) mənbənin əsas göstəriciləri; 4) referat materialının başlıca fikri; 5) məzmunun ifadə olunması; 6) referat edilən material üzrə müəllifin gəldiyi nəticələr; 7) referentin izahı.

**Referativ annotasiya** – bax: annotasiya.

**Referativ jurnal** – hər hansı bir nəsnənin (kitab, məqalə və

s.) müəyyən mövzunu müxtəsər şəkildə referatlar formasında əks etdirən materiallar məcmuəsi.

**Referativ tərcümə –** orijinalın qabaqcadan seçilmiş hissələrinin tam yazılı tərcüməsi olub, əlaqəli rabitəli mətndir ki, onlar bir yerdə orijinalın referatını əmələ gətirir.

**Referent –** 1. Konkret dil ifadəsi ilə uyğunlaşan fikrin predmeti. 2. Bu, elə denotat deməkdir. 3. İşarə ilə göstərilən həmcins əşyalar, hadisələr sinfi. 4. Müəyyən məsələlərlə bağlı məruzəçi, məsləhətçi olan vəzifəli şəxs. 5. Məlumatda söhbət gedən konkret predmet.

**Referent funksiya –** fikrin predmeti ilə bağlı funksiyadır ki, konkret dil ifadəsi onunla uyğunlaşır.

**Referent işləməsi –** bax: dinlənilmiş materialın şifahi şəkildə referat kimi verilməsi.

**Referent-tərcüməçi –** xarici dilləri bilən və «**Dilçi. Tərcüməçi**» diplomu olan mütəxəssis. Müq. et: tərcüməçi və tərcüməçi-referent.

**Registr –** sosial professional, müəyyən ünsiyyət sferasında xidmət edən verilmiş mövzu ilə bağlı leksik vasitələr və qrammatik strukturlardan istifadə ilə bağlı yığım. Registr, adətən, ümumi peşəli, yaxud ümumi sosial maraqlı insanların danışıq dilini bildirir. Şifahi formanı bəzən dilaltı adlanıdırırlar.

**Rekoqnitiv əlamət** – tanıdıcı əlamət.

**Rekonstruksiyalaşdırma –** 1.Nəinki sintaktik, həm də üslubi normalara tərcümə dilində cavab verən tərcümə mətninin yaranma mərhələsi. 2. Tərcümə mərhələsində nəinki sintaktik, həm də üslubi normalara cavab verən son deyim.

**Rekvizit –** sənəd formasının ayrı elementi.

**Relevant** – dil vahidlərinin diferensiya etmə bacarığı linqvistik vahidlərin fərqləndirilməsi (bir-birindən ayırd edilməsi) üçün xidmət edən, dil üçün ünsiyyət vasitəsi kimi vacib olan; əhəmiyyətli.

**Relyasion məna –** münasibətlərin mücərrəd mənası, daha doğrusu, qrammatik məna.

**Relyefli söz** – qeyri-ordinar, koloritli, özünə diqqəti daha çox çəkən söz. Ardıcıl tərcümədə yazılma üçün istifadə olunur.

**Relyefli söz seçimi metodu** – məna təhlili metodlarından biridir, (ardıcıl tərcümənin yazıya alınması sistemində istifadə olunur) burada tərcümənin yazıya alınması zamanı daha güclü informasiya yükü daşıyan sözlər yox, daha çox diqqəti cəlb edən qeyri-adi, koloritli sözlər seçilir.

**Rema – 1**. Mövzu haqqında məlumat verilən deyim komponentini ifadə edən. 2. Məlumatın məzmununu özündə əks etdirən mövzu ilə bağlı danışanın məlumat vermə imkanı. 3. Məlumatın nüvə informaisyasıdır ki, yəni informasiyanı özündə əks etdirir, cümlənin aktual bölünməsi komponenti.

**Replika** – dialoqda iştirak edən şəxsin deyiminin dialoji nitqdə hər hansı ayrıca deyimi.

**Reprezentasiya** – daha inamlı şəraitdə dil faktlarının təqdim olunması.

**Reproduktiv** – nitq məlumatını çatdıran, ifadə edən; fəal.

**Reproduktiv hərəkət** – vərdişlərin fəaliyyəti ilə bağlı hərəkətlər.

**Reproduktiv leksika** – tanış situasiyada əzbərlənmiş cümlələrin tələffüz olunması leksikası. Reproduktiv leksikanı produktivlə (məhsuldar) birlikdə aktiv (fəal) leksika adlandırılar.

**Reproduksiyalı əlaqə** – təsirlik prinsipindən istifadə zamanı mətnin reproduksiyasına istiqamətlənmiş metamətn əməliyyatı (tendensioz transliterasiya). Daha doğrusu, iqtibas, kalkalaşdırma; mətnin, yaxud bütün əsərin iqtibas edilən seqment seçimi (poetik mətn, antologiya) protomətndən minimal üslubi kənalaşmalarla gedir.

**Resenziya** – bu resenzentin müəllifə, onun elmi, yaxud bədii mətninə verdiyi yazılı təhlil qiyməti.

**Reseptiv** – nitq məlumatını qəbul edən, passiv.

**Reseptiv hərəkət** – informasiyanın qəbul etməklə bağlı hərəkət.

**Resepstiv leksika –** bu, elə passiv leksika deməkdir, daha doğrusu, bu, elə leksik vahidlərdir ki, onlar tanınır və bilinir, lakin bununla belə, hələ də nitqdə reproduksiya olunmur.

**Resepsiya –** 1. Qavrayış, qəbuluetmə. 2. Başqa ölkədə, yaxud başqa mərhələdə yaranan sosioloji və mədəni formaların konkret cəmiyyət tərəfindən mənimsənilməsi, qəbul edilməsi. 3. Əsəb qıcıqlandırıcılarına verilən işlənmiş enerjinin reseptor tərəfindən qavrayışının həyata keçirilməsi.

**Reseptor** – mətnin, tərcümənin xarici dildən olan alıcısı.

**Retrospeksiya –** mətnin prospeksiyası – kommunikativlik kateqoriyasının özünü fərdi şəkildə büruzə verməsi. Retrospeksiyanın səbəbi – mətnin prospeksiyası kommunikatın hər bir hərəkətinin əvvəlki və sonrakı hərəkətləri ilə uyğunlaşmasıdır. Reetrospeksiya – mətnin prospeksiyası mətnin komponentlərinin- cümlədən yüksəkdə dayanan cümləüstü vahidlər, deyim və söz vahidlərinin əvvəlki və sonrakı komponentlərlə uyğunlaşdırılması.

**Retrospektiv –** geriyə, yaxud keçmişə, keçmiş hadisələrə aid.

**Reversiv situasiya** – qarşılıqlı dövr edən situasiyadır ki, o tərcümə zamanı xarici dildən ana dilinə ana dilindən də həmin xarici dilə tərcümə zamanı ortaya çıxır.

**Rezonator (səs ucladan) ton** – bax. oberton (əsas tona xüsusi rəng verən əlavə ton)

**Rəng –** həm də konnotasiya deməkdir.

**Rənglilik –** bax: konnotasiya.

**Rəsmi dil** – bax: millətlərarası ünsiyyət vasitəsi olan dil.

**Rəy –** bax: parol və rəy.

**Ritmik fonetik –** özündə ekspressiyanın yüksəldilməsi üçün birləşməkdə istifadə olunan və ritmik-fonetik priyom və modelləri birləşdirəndir.

**Ritmik qrup –** 1.Ritmik quruluşda daha davamlı sintaktik bütövun əsasında fərqlənən qrup. 2.Nitq fikri prosesində məna bütövlüyünü ifadə edən minimal fonetik vahidlik. Ritmik qrup predmeti, hadisəni, hərəkəti, yaxud ayrı-ayrı keyfiyyətləri bildirir.

**Ritmik yerdəyişmə** – bu, orijinalın və tərcümənin ritmik strukturunun müxtəlif şəkildə təşkili zamanı gedir. Əsas isə dilin müxtəlif xüsusiyyətləridir. Ritmik yerdəyişmə – bu, ifadə, onun orijinal və tərcümə mətnində həyata keçirilməsidir.

**Ritorika** – nitqin ifadəlilik nəzəriyyəsi, bəlağət nəzəriyyəsi, natiqlik sənəti

**Riyazi linqvistika** – 1. Təbii dilin (və nitqin) semiotik və riyazi xüsusiyyətlərini mətndə qeyri-formalizə olunmuş şəkildə formalizə olunmuş süni dildən (məsələn, bəzi informasiya dili) informasiyanın tərcüməsi məqsədilə öyrənir. Çoxluqlar nəzəriyyəsi və əlcəbr münasibətlərinin, qeyri-cütlüklər çoxluğu və linqvistik dəyişkənliklər və ehtimal nəzəriyyəsi, riyazi statistika, eləcə də informasiya nəzəriyyəsi elementləri riyazi aparat əsasında öyrənilir. Riyazi linqvistika mühəndis dilçiliyi ilə sıx surətdə bağlıdır. 2. Dilin təsvirini və tədqiqini riyazi metodların tətbiq olunmasının köməyi və imkanlarının öyrənilməsi ilə məşğul olan dilşünaslıq sahəsidir.

**Riyazi statistika** – statistik riyazi aparatlar linqvistik obyektlərin öyrənilməsi məqsədi ilə istifadə olunur.

**Rubrikasiya** – mətnin onun zahiri ifadəsinin kompozisiya quruluşunun struktur formalizasiyası vasitələrdən biri. O formulyar və sənədin mətninin müəyyən tərkib hissələrinə bölünməsinə özündə hissələrin qrafik bölünməsinə, başlıqların, yarımbaşlıq, bəndlərin, paraqrafların, abzasların, nömrələrin və punktuasiyanın istifadə olunmasına uyğundur.

## S

**Sabit söz birləşməsi** – daxili bütövlüyə xas olan leksik, qrammatik, yaxud üslubi xarakterli sözlərin birgə deyilişi.

**Sahə lüğəti** – elm və texnikanın hər hansı sahəsinə aid lüğət.

**Seçilmiş cəm ölçüsü** – lüğət vahidlərində yığılmış mütləq tezliyi göstərir.

**Seçim həcminin müəyyən olunması –** linqvistikanın mühüm problemlərindən birinə aiddir. Belə ki, seçim əsasında aparılmış tədqiqatlarda alınmış nəticələr, bütöv tamlıq haqqında təsəvvür almağa kömək edir. Seçimin daha reprezentativ optimal həcmi 200 minə qədər sözün işlədildiyi mətn korpusudur. Lakin maşın lüğətlərində sintetik dil (rus, alman) giriş lüğətlərinin qurulması üçün elmi-texniki mətnlərdən olan seçim 1,5-dən 2 dəfəyə qədər artır, daha doğrusu, 300-400 min sözün işlənməsindən az olmamalıdır, publisist, belletrist və qarışıq mətnlərdə isə seçimin ilkin həcmi tezlik lüğətləri qurularkən 5 dəfə artır.

**Seçmə (alıntı) proqram –** əsas bütövün, tamın son dərəcə kiçildilmiş strukturunun nüsxəsi (kopiyası). Bax: çoxpilləli tipik (istiqamətlənmiş) seçim.

**Selektiv əlaqə –** mətnlərarası əlaqədir ki, burada metamətn protomətnin müəyyən elementləri əsasında yaranır və həm də tipikləşdirmənin köməyilə uyğunluq prinsipi əsasında aparılır.

**Selektor –** tərcümənin dinamik modelində – struktur, semantik və funksional üslubi məhdudiyyətlərin siyahısı.

**Sema** – məzmun planının ən kiçik (yığcam) vahididir ki, o müvafiq vahidlərə (elementlərə) uyğun olmaqla, sintaqmatik cərgədə ifadə planı ilə uzlaşır. Bax: Semantik komponent.

**Semantik adekvat tərcümə –** ilkin deyimin denotativ mənasını verən və tərcümə normalarına cavab verən tərcümə.

**Semantik boş kateqoriyalar –** sırf linqvistik xarakter daşıyır, daha doğrusu, yalnız dilin daxili ehtiyacları üçün istifadə olunur; məsələn, ismin cinsi, sifətin bütün kateqoriyaları, müqayisə dərəcəsindən başqa, felin tək-cəm və şəxs kateqoriyaları.

**Semantik çoxaldıcı –** bu da, elə sema deməkdir.

**Semantik əlaqələr –** digər sözlərlə eyni semantik sistemə daxil olan sözlərin əlaqələri.

**Semantik formalaşdırılması –** mətndə müxtəlif ixtisarların geniş istifadə olunmasında özünü göstərir.

**Semantik hərfilik** – sözün, söz birləşmələrinin semantik komponentlərinin verilməsi nəticəsində digər amillərin nəzərə alınmaması ilə bağlı tərcüməçinin səhvi.

**Semantik informasiya** – deyimdə olan informasiya və dil vahidləri vasitəsilə tərcümə edilən informasiya. Heç də daim onun mənası ilə üst-üstə düşmür. Semantik informasiya situasiya və kontekstdən asılı olaraq müxtəlif interpretasiya əldə edir.

**Semantik kompensasiya** – «ekvilalentsiz leksika» adlanan elementlərlə əvəzetmə.

**Semantik komponent** – 1. Sözün, söz birləşməsinin, cümlənin, deyimin mənasının semantik elementi. 2. Komponent təhlili yolu ilə ortaya çıxarılan sözün mənasının tərkib hissəsi. Bax; sema.

**Semantik komponentlərin buraxılması -** deyimin semantik komponentinin semantik transformasiya yolu ilə aradan qaldırılması. Bu, əsasən, tərcümə dilinin normaları, yaxud kontekst hesabına doldurulan izafını nəzərdə tutur.

**Semantik komponentlərin ixtisarı** – deyim zamanı semantik komponentlərin əvəzlənməsi zamanı aradan götürülən semantik transformasiya.

**Semantik komponentlərin təkrarı** – ardınca eyni semantik komponentlərin çoxsaylı ifadəsini gətirən deyimin semantik transformasiyası.

**Semantik komponentlərin yenidən bölüşdürülməsi** – deyimin elə semantik transformasiyasıdır ki, burada leksik ixtisarlaşdırma və leksik inkişaf etdirməyə yer verilir.

**Semantik kompressiya** – təkrar olunan semantik komponentlərin və semantik komponentlərin konfiqurasiyasının deyim və məlumatda ixtisar olunması, azaldılması. Semantik kompressiya diferensial semantik komponentlərin aradan qaldırılması ilə əlaqədar növ anlayışından cins anlayışına keçməkdir ki, daha ümumi məna kəsb edən söz, daha konkret mənanın əvəzinə istifadə olunur. Semantik kompressiyanın son həddi kimi tammənalı sözlər əvəzinə deyktik əvəzliklərin istifadə olunmasını nəzərdə tutmasıdır.

**Semantik münasibətlər –** semiotikada işarələr və onların bildirdiyi predmetlər arasında münasibətlər.

**Semantik parametr** –cümlədə açar söz mənasına birləşən bu və ya digər elementar mənanı ifadə edən leksik funksiyadır. Semantik parametrin ifadə olunması üçün xidmət edən, açar sözlə müəyyənləşən konkret leksik vahid seçimi.

**Semantik sahə –** 1. Tematik sıranı təşkil edən söz və ifadələrin məcmusu; biliklərin müəyyən sahəsini əhatə edən dildəki söz və ifadələr. 2. Hadisə, yaxud gerçəkliyin cəmi olan leksik vahidlərin dildə tematik birliyinin məcmusu. 3. Ümumi semantik komponentə malik söz qruplarının mənası. 4. Tematik sıra (cərgə) yaradan leksik vahidlərin məcmusu. O, insan yaddaşında uzun müddət qalır, sonra isə hər dəfə zərurət olduğu halda bu tematik sahədə özünü göstərir. İnsan yaddaşında semantik sahənin yaranması – müvafiq sahədə sərbəst ünsiyyətin mühüm şərtidir.

**Semantik sahənin sıxılması metodu –** tərcümə uyğunluğunun ortaya çıxarılması, bir-biri ilə ziddiyyət təşkil edən lüğət məqalələrinin funksional - semantik təhlili zamanı minimal sayda sinonimlərin ayrılması prosesində verilmiş sözformanın semantik sahəsini əhatə edir və siyahıdan kənarda qalan sözformaların götürülməsini nəzərdə tutur.

**Semantik tam kateqoriyalar –** ekstralinqvistik informasiya daşıyıcısıdır, məsələn, ismin tək və cəmini, növ, modallıq, zaman üstəgəl bütün leksik kateqoriyalar.

**Semantik tezlik lüğəti –** semantikaya daxil olan vahidlərin qeydə alındığı lüğət. Belə lüğətlər birdilli (məsələn, yazıçı dili lüğəti; belə lüğətlərdə sözlərin mənası izah olunur və sözlərin tezliyi göstərilir), ikidilli və çoxdilli (məsələn, tədris lüğət minimumları). Semantik tezliklər lüğəti maşın tərcüməsində, linqvistik avtomatlarda, tədris vasitələri kimi maşının köməyi ilə aparılan tərcümələrdə istifadə olunur: tədris lüğət minimumları, leksik soraq kitabları və s. bununla belə onlar adi tezlik lüğətlərinin xarakterik xüsusiyyətlərini saxlayır, onlardan istifadə edən və onları tətbiq edənlərin sayını artırır.

**Semantik transformasiya** – informaisyanın semantik səviyyəsini yenidən kodlaşdıran tərcümə priyomlarından biridir. Bax: həm də semantik transformasiyalar.

**Semantik transformasiyalar –** situativ modellə təsvir olunan ayrı-ayrı sözlərin məna strukturunun və ümumiyyətlə, deyimin dəyişilmə növlərinin situativ modeli.

**Semantik natamamlıq –** ilkin dil ifadəsinin xüsusiyyəti olmaqla, ona tərcümə zamanı əlavə elementlərin əlavə edilmə zərurili-yi ilə müəyyənləşir: o tərcümə dilinə münasibətə görə müəyyənləşir.

**Semantika –** 1. Dilin və yaxud dil vahidlərinin köməyi ilə verilən informasiya. 2. Dil və hər hansı dil vahidlərinin köməyi ilə verilən informasiyanı öyrənən dilçilik bölməsi. 3. Semiotikanın mühüm bölmələrindən biri.

**Semasioloji əlaqə** – denotatla dil işarəsinin əlaqələri. Tərcümə vahidlərində aşağıdakı semasioloji əlaqələr fərqləndiririlir: konstant, yaxud müvəqqəti; fiksasiya olunmuş, yaxud olunmamış; ifadə olunmuş, yaxud pozulmuş.

**Semasiologiya –** söz və ifadələrin və onların mənasının dəyişməsini öyrənən dilçilik bölməsi.

**Semema –** mücərrəd təsvir səviyyəsində məzmun planının minimal vahidi.

**Semioloji (1) –** dilin ayrı-ayrı vahidləri arasında ifadə üçün yararlı və ayırmaq üçün xidmət edən.

**Semioloji (2) –** bu, elə semiotika deməkdir.

**Semiotik invariant –** orijinalın məzmunu.

**Semiotik səviyyə –** 1. İşarə sistemlərinin ümumi xassələri haqqında elm. Buraya dilçiliyi də o şəkildə əlavə etmək olar ki, orada dilə semioloji (semiotik) xassələr xasdır. 2. İnsanın onun şəxsi tezaurs və bacarığı nöqteyi-nəzərdən hadisələri əməli şəkildə dərklə bağlı hazırlıq səviyyəsi.

**Semiotika – 1**. Təbii və sünii dilləri də əlavə etməklə, işarə sistemlərinin ümumi xassələri haqqında elm. 2. Müxtəlif işarə sistemlərini, informasiyanı saxlayan və ötürən (məsələn, dil, mərasim, heyvanlar arasında kommunikasiya) elmi fənn.

**Semiotikaarası tərcümə** – yaxud transmutasiya – verbal işarələrin qeyri-verbal işarə sistemlərinin köməyilə interpretasiyası.

**Sensor informasiya** – əsəb telləri ilə mərkəzi əsəb sisteminə gələn informasiya.

**Sənədlərin maşın tərcüməsi məhdudiyyəti** – mətnin məzmununu insan tərəfindən yerinə yetirilmiş tərcümə ilə müqayisədə rəqabətə davamlı edən sözbəsöz və dövrəbədövrə verməyə istiqamətlənmiş tərcümə.

**Sənədlərin tərcüməsi (işgüzar, kommersiya və diplomatik)** – burada nəinki mümkün qədər fikrə, həm də orijinalın formasına olduqca böyük yaxınlıq tələb olunur.

**Sərbəst informasiya** – idarəedən aə idarəolunan sistemlər arasında münasibət. Yalnız inikas olunan situasiyada nəzərə çarpır. Bu tipli informasiyanın təhlili üçün statistik aparat və riyazi ehtimal nəzəriyyəsindən istifadə olunur.

**Sərbəst situasiya** – cəmiyyət həyatının reqlamentləşmiş hissəsini təşkil etməyən və fiksasiya edilmiş kommunikativ vəzifə və sosial rollarla bağlı olmayan nitq situasiyası.

**Sərbəst tərcümə** – 1. Tərcüməçinin başa düşdüyü kimi digər dildə olanın, deyilənin (yazılanan) ümumi məzmununun verdiyi tərcümədir ki, burada mənbə dilindəki ifadə olunan dil vasitələri fikrin ayrı-ayrı hissələrinin uçotunu nəzərə alınır. 2. Mənanın verilməsi – xarici dildə deyilmişi, yaxud yazılmışı ilkin mənbəni dili ilə dil-obyekt (adətən, onu izah edənin subyektiv qavrayışını nəzərdə tutan element) arasında formal uyğunluğun gözlənilməsi. Müqayisə et: sərbəst tərcümə. 3. Özgə dildə olan mətnin ümumi məzmununun ilkin mənbə dilindəki istifadə olunan dil vasitələrinin, emosional – ekspressiv əlamətlərinə, məna detallarını daxil olmadan vermə.

**Sərbəst tərcümə** – bax, tərcümənin həddən artıq interpretasiyası.

**Səsyazısının yazılı tərcüməsi** – maqnitofon, yaxud komputerdə səsyazılı, yaxud videoyazıya verilən xarici dildə olan mətnin tərcüməsinin tədris növü. Bəzən kinofilmlərin ssenarisində, geniş çıxışlarda və s. tərcüməsində peşəkarcasına istifadə olunur.

**Səthi strukturlar – 1.** Bu, dilin ən sadə sintaktik modelindən (nüvə cümlələrdən) transformasiyalar seriyası yolu ilə yaranmış sintaktik konstruksiyalardır, (quruluşlar) onlar real nitq prosesində mürəkkəblik dərəcəsi ilə seçilməklə, həm də nitqdə istifadə olunur. 2. Real nitq praktikasında istifadə olunan, lakin mürəkkəblik dərəcəsi ilə seçilən və müxtəlif qrammatik üsullar və vasitələrin qeyd olunması üçün istifadə olunan müxtəlif sintaktik quruluşlar.

**Səthi yenidən kodlaşdırma –** mətnin səthi səviyyədə orijinalın dərinləşdirilmiş strukturunu verməyən tərcümə (bax, tərcümənin subinterpretasiyası).

**Sətri tərcümə –** 1. Bədii poetik tərcümə nəzəriyyəsində sözbəsöz tərcümə. Burada orijinalın məzmunu ilə oxucunu ümumi şəkildə tanış etmək funksiyasını daşıyan tərcümə dilinin leksik-qrammatik normalarını qoruyub saxlayan poetik mətn. Sətri tərcümə bəzən orijinalın forma xüsusiyyətlərini izah edən tərcüməçinin qeydləri ilə müşayiət olunur. 2. Sözbəsöz (sətri) tərcümə nəticəsində alınmış mətn, yaxud sənəd.

**Sıfıra bərabər informasiya** – 1. Hər hansı məlumat yoxluğu. 2. Mətndə sıfır informasiyalı (əhəmiyyəti olmayan) söz və söz birləşmələri, daha doğrusu, konkret verilmiş mətndə məna informasiyası daşımayan fikir.

**Sıxma – bax**: kompressiya.

**Siqnifikativ funksiya –** ayırıcı funksiya.

**Siqnifikativ konnotasiya** – dil işarəsinin siqnifikativ konnotasiyası dedikdə biz elə bir məna başa düşürük ki, o onun denotativ mənasına kömək edir və bu dil ilə konkret bütün etnik icmanın dili ilə bağlıdır və buna görə də dil faktıdır.

**Simvol –** 1. Ardıcıl tərcümədə: 1) anlayışların əlamətlərinə görə qənaətli və əyani şəkildə göstərilməsi. Simvol yalnız öz təyinatını yerinə yetirərkən simvoldur. O, qənaətcilliyi, əyaniliyi və universallığı ilə seçilməlidir. Mənbə dilindən asılı olmadan simvollar leksik mənanın daşıyıcısı olur. Yazı zamanı bəzi zəruri qrammatik informasiyanın verilməsində, sözlərin ardıcıllığında şərti işarələrdən istifadə olunur; 2) simvollar üçün şərti işarələr, hərflər, yaxud

ixtisarlardan istifadə olunur ki, onlar anlayışların hərfi, assosiativ və törəmə simvollarına bölünür; 3) öz başlıca təyinatına görə simvollar predikativ simvollara, zaman simvoluna, modal simvollara və keyfiyyət simvollarına bölünür; bütün digər simvollar isə ümumi təyinatlı predmet simvolunun geniş qrupunu təşkil edir. 2. Sürətli tərcümə yazısı zamanı predmet və hadisələrin qrupunu işarə etmək üçün istifadə olunan şərti işarələr. 3. Konkret, verilmiş referentlə motivasiyası olan əlaqə işarəsi. Adətən, ümumi anlayış qrupu üçün simvol əlamət bildirir. Əyanilikdən başqa, simvol həm də qənaətcillik və universallıqla seçilir, xarakterizə olunur. Simvolların əyaniliyi nəinki Sözün hərfi ifadələrindən görmə qavrayışı üçün asandır, həm də simvol üçün seçilmiş əlamət anlayışla bağlı olan assosiasiyalara səbəb olur. 4. Ardıcıl tərcümədə yazı zamanı istifadə olunan şərti informasiya işarəsidir; simvollar işarə üsuluna görə tərcümədə assosiativ, hərfi və törəmələrə bölünür.

**Sinxron intralinqval tərcümə –** ədəbi əsərlərin dilin inkişafında eyni tarixi dövrə, mərhələyə keçməsi.

**Sinxron tərcümə –** 1. Peşəkar tərcümənin əsas formalarından biri. Tərcüməçi tərəfindən tərcümə edilən mətnə paralel aparılan bir dildən digər dildə məlumatın şifahi tərcüməsi. 2. İlkin mətnin eşidilməsi ilə eyni vaxtda qəbul edilən və həyata keçirilən şifahi tərcümə. 3. İlkin mətnin səslənməsi ilə paralel olaraq tərcümənin mətninin tələffüzü ilə xarakterizə olunan şifahi tərcüməçinin fəaliyyət növü. Sinxron tərcümədə – eşitmə ilə sinxron tərcümə; vərəqdən sinxron tərcümə; əvvəlcədən tərcümə olunmuş mətnin sinxron oxunuşu və s. bölünür. 4. Şifahi tərcümənin qoşadilli kommunikativ nitq fəaliyyətini şifahi birdəfəlik məlumatın eyni zamanda eşitmə ilə qavranılması yolu ilə aparılmaqla, zaman çatışmazlığı və işlənib hazırlanması olduqca məhdud həcmdə həyata keçirilməsi olub, onun predmeti və məhsulu işlənib hazırlanmış nitq məlumatının semantik - məna strukturudur. 5. Eşitmə ilə (vərəqdən tərcümədən fərqli olaraq) şifahi tərcümənin növü (bütün yazılı tərcümə növlərindən başqa) olmaqla ilkin dildə (ardıcıl tərcümədən fərqli olaraq) nitq məlumatının alınması ilə eyni vaxtda tərcüməçi

tərəfindən həyata keçirilən fəaliyyət. Bax: eyni zamanda peşəkar sinxron tərcümə. 6. Orijinal mətninin kabinədə tələffüzü ilə xüsusi texniki vasitələrin köməyi ilə, yaxud kabinədən kənarda astaca deyilişlə həyata keçirilən fəaliyyət. 7. İlkin mətnin eşidilməklə qəbulu əməliyyatının və tərcümənin digər dildə şifahi cəhətdən, eyni zamanda, bir vaxtda həyata keçirilməsi. Sinxron tərcümənin əsas xüsusiyyəti – onun tərcüməçinin hərəkətlərinin üzərinə qoyulan ekstremal zaman məhdudiyyəti və daim onun diqqətinin bir obyektdən digərinə qoşulması ilə bağlıdır. Sinxron tərcüməçiyə öz funksiyalarını yerinə yetirməkdə mühüm amil tərcümənin işarə ilə verilməsi üsuludur ki, bir dildən digər dilə keçmə işarə səviyyəsində həyata keçirilir və bu, ilkin dili denotatı düşünmədən gedir. Sinxron tərcüməyə öyrətmə aşağıdakı mexanizmlərin formalaşmasını nəzərdə tutur: nitqin qavrayışının sinxronizasiyası, şifahi nitqin qavrayışı zamanı danışmanın neytrallaşdırılması vərdişi və başqa obyektə qoşulma (burada şifahi tərcüməçiyə zəruri olan xarici nitqin eşidilmə mexanizmi və şifahi nitq texnikası artıq yarandığı nəzərdə tutulur). 8. Şifahi tərcümə tərcüməçi tərəfindən praktik olaraq tərcümə olunacaq mətni eşitmə ilə eyni vaxta yerinə yetirilir. Adətən, sinxron tərcümə beynəlxalq konfranslarda, yığıncaqlarda təşkil olunur ki, o zaman həm də şifahi formada məlumatın mənasının daha tez, çevik başa düşülməsi zərurəti yaranır.

**Sinxron tərcümə modeli -** sinxron tərcüməçinin fəaliyyətinin mühüm xassələrindən olan təsviri; sxematik təsviri.

**Sinxron tərcümə** – müasir tərcümə.

**Sinxroniya –** zaman, statikada təkamüldən asılı olmadan həmin stadiyada (mərhələdə) müşahidə edilən dil faktlarının xarakteri.

**Sinxronlaşdırma mexanizmi –** 1. Fəaliyyətin xüsusi məşqlərin köməyi ilə formalaşdırılmasıdır ki, ilkin mətndə oriyentirləşdirmə prosesinin parallel həyata keçirilməsi, tərcümə hərəkətlərinin və tərcümə həllinin həyata keçirilməsinin axtarışında istifadə olunur; 2. Müəyyən zaman kəsiyində nitq və tərcümə mexanizmlərinin birgə fəaliyyətini koordinasiya edir, həyata keçirir. O, özündə nizamlanmanın bir sıra səviyyələrini birləşdirir ki, onlar potensial şəkildə

dərk ediləcək dərəcədə, həm də nizamlanma obyektləri ilə bir-birindən fərqlənir. Səviyyələr: aktual dərk edilmə, şüurlu nəzarət və şüursuz (qeyri-iradi) nəzarət.

**Sinonimik sıra –** 1. İntensivlikdən və onun keyfiyyət ifadəsi olan çalardan asılı olaraq eyni mənaların (sinonimlər) sırası. 2. Leksik, yaxud frazeoloji sinonimlər sırası.

**Sinonimik əvəzləmə –** 1. Bu və ya digər dildəki eyni mənaya malik söz, söz birləşməsidir. 2. Digər nitq vahidini məna baxımdan əvəz edə bilən söz və söz birləşməsi.

**Sinonimlər –** 1. Eyni anlayışları ifadə edib bir-birinə yaxın, yaxud uyğun sözlər olub, müxtəlif çalara, yaxud üslubi çalarlarla fərqlənən, adətən, eyni nitq hissəsinə aid olub, deyimin qarşılıqlı dəyişən elementi kimi çıxış edir. 2. Eyni nitq hissələrinə aid olub tam, yaxud qismən leksik mənası ilə uyğun gələn sözlər. 3. Mənaca bir-birinə o qədər yaxın sözlərdir ki, onların düzgün ifadə edilməsi həmin sözlərin semantik çalarının və üslubi xassəsinin bir-birindən fərqləndirilməsi üçün dəqiq bilik tələb edir.

**Sinonimlər lüğəti –** bu, sinonimləri, onların izahını, onlara illüstrativ materialları özündə əks etdirən lüğətdir. Sinonimlər lüğəti nəinki onlara məna baxımından uyğun olan sözlərin mənasını izah edir, həm də tərcüməçinin əlinə (onun sərəncamına) fikri daha dəqiq ifadə etmək üçün leksik vasitələr imkanı verə bilər.

**Sintaqma –** 1. Mənaca və ritm-melodik cəhətdən bir-birinə birləşmiş cümlə tərkibində bir qrup sözlə əmələ gəlmiş nitqin semantik-sintaktik vahidi. 2. Qrammatik cəhətdən formalaşmış və daha mürəkkəb bütövün (cümlənin) nisbətən bitmiş fikri ifadə edən birləşmiş nitqin ritm-melodiuk vahidi.

**Sintaqmatika –** dilin sistemli öyrənilməsinin dil vahidlərinin onların xətti ardıcıllığındakı münasibətlərlə müəyyənləşməsi.

**Sintaktik aktantlar –** real aktantları bildirən (mübtəda, bütün hallarda işlənən tamamlıq, yer zərfliyi və s.) cümlə üzvləri.

**Sintaqmatik ekvivalentlik –** mətnin sintaqmatik ox üzərində elementlərinin təşkili, daha doğrusu, onun struktur quruluşu səviy-

yəsi. Üslubun paradiqmatik «anbar»ından bədii ifadə vasitələrinin seçimi nəticəsində üslubi elementlər ekvivalentidir.

**Sintaktik əvəzləmə -** əsl mətnin konstruksiyasından fərqlənən əslin və tərcümə dilinin qrammatik quruluşunun üst-üstə düşməməsi ilə ortaya çıxan tərcümə mətnindəki cümlənin digər sintaktik konstruksiya ilə verilməsi.

**Sintaktik kodlaşdırma –** sistemə girişdə (real kommunikasiyada sintaktik kodlaşdırma danışana məxsus olduqda) sintaktik zəncirin formalaşması.

**Sintaktik kompressiya** – orijinalda verilmişlə daha müxtəsər və daha sadə sintaktik konstruksiyanın seçilməsi. Sintaktik kompressiyaya aşağıdakı üsulları aid etmək olar: 1) Bir neçə budaq cümlənin iki və daha artıq sadə struktura parçalanması; 2) budaq cümlənin feli sifətlə əvəzlənməsi; 3) natiq çıxışlarında daha tez-tez rast gəlinən feli sifət çevrəsini çıxışlıq hal ifadəsi ilə (yaxud adlıq haldan başqa hallarda) əvəzlənməsi; 4) söz birləşməsinin bir sözlə, eləcə də dövlətin, yaxud təşkilatın tam adının ixtisarla, yaxud abbreviatura ilə əvəzlənməsi.

**Sintaktik məna –** deyim elementləri arasında əlaqələri ifadə edən məna. Bax: eyni zamanda işarənin dildaxili mənası.

**Sintaktik münasibətlər –** semiotikada işarələr arasında olan münasibətlər.

**Sintaktik transformasiyalar –** cümlənin, yaxud bir cümlənin sintaktik tipinin digərinə dəyişdirilməsi.

**Sintaktik uyğunluq –** cümlənin sintaktik şəklinin dəyişdirilməsi, bir sintaktik konstruksiyanın digər, yaxud cümlə üzvlərinin cümlənin məna strukturunun xələl gətirilmədən yenidən dəyişdirilməsi (dəyişilməsi). Tərcümə zamanı sintaktik konstruksiyanın dəyişilməsi semantik və üslubi cəhətdən özünü doğrultmalıdır. Tərcümə zamanı qrammatik əvəzləmə analoq xarakterinə malikdir.

**Sintaktika** – dilin plan, yaxud tədqiq aspektlərindən biri olmaqla, dil vahidlərinin özü arasındakı münasibətlərlə fərqlənən, daha doğrusu, onları dildən istifadə edənlərə həm bildirdikləri pred-

metlərə, həm də şəxsi, yaxud şəxslər arasındakı münasibətdən kənarda nəzərdən keçirən.

**Sintaksis** – 1. Nitq deyiminin strukturlaşdırılması qaydası. 2. Nitqin strukturlaşması (sözlərin bir-biri ilə uzlaşması və sözlərin bir-birinin ardınca olması) prosesini öyrənən qrammatikanın bölməsi.

**Sintez** – 1. Elementlərin (daha ayrı-ayrı kiçik vahidlərin) daha böyük (qlobal) vahidlərdə birləşməsi. 2. Danışıq - aktiv qrammatika - mənadan formaya keçid- məlumatın törəməsi.

**Sistem –** 1. Bir-birindən qarşılıqlı şəkildə asılı elementlərdən ibarət bütöv obyekt. Sistem nöqteyi-nəzərdən ona aid olan sistemin elementi parçalanmamaq xassəsinə malikdir. Sistemin elementləri arasında qarşılıqlı əlaqələr, bu əlaqələrin cəmi, onun təşkili məhz strukturudur. Əgər biz dili nitqdən fərqli olaraq sistem kimi nəzərdən keçirmiş olsaq, belə olduğu təqdirdə onun elementləri sözlər və sabit söz birləşmələri olacaqdır, strukturu isə sözlərin birləşməsi və sabit söz birləşmələrinin cümlələrdə əks olunması, həm də onlarda gedən dəyişikliklər olacaqdır. Burada ayrıca sistem kimi hər bir nitq əsəri çıxış edir. Onun daxili elementlərinin əlaqələri və qarşılıqlı münasibətləri nitq əsərinin strukturu olur. 2.Bu, həm də dil və məna fərqləndirici vahidlərin bir-biri ilə müəyyən münasibətlərdə dayanan (duran) cəmi kimi dərk edilməlidir.

**Sistemaltı –** ümumi dil sisteminin qanunauyğun təşkil olunmuş hissəsi.

**Sistematika (sistemlilik) –** sintaqmatikadan, daha doğrusu, dilin daha sonra bölünməyən elementlərindəki təsnifatda dilin tədqiqinin ikinci fazası, daha doğrusu, paradiqmlərin üzvləri (hissələri) arasında münasibətlərin müəyyənləşməsi.

**Situasiya –** 1. Konkret deyim həyata keçirilən zaman nitq konteksti, daha doğrusu, şərait (məqsəd və s.). 2. Maddi və yaxud ideal obyektlər və onlar arasındakı münasibətlər. 3. Deyimlə təsvir olunmuş konkret, yaxud mücərrəd gerçəklik. 4. Nitq hərəkəti məqamında, yaxud deyimdə təsvir olunmuş və mövcud olan real gerçəklikdəki komponentlərin cəmi. Nitq və predmet situasiyaları

fərqləndirilir. 5. Deyimlə təsvir olunan konkret, yaxud mücərrəd gerçəklik: o, özündə məqsəd, deyimin məzmunu, ünsiyyət şəraitini, nitq şəraitini, veriləcək informasiyanın kəmiyyətini (həcmini) və digər bu deyimdə (nitq ünsiyyəti) həyata keçirilən şəraiti nəzərdə tutur. 6. Ayrıca nitq kommunikasiyası aktının gedişi zamanı dərk olunan, fikirləşilən və dəyişilən gerçəkliyin fraqmenti. 7. Nitq konteksti, daha doğrusu, bu deyimin həyata keçirildiyi şərait (vəziyyət, məqsəd və s.). 8. Gün, il, illərin hesablanmasının daxili və xarici şəraitini xarakterizə edən gerçəkliyin bir hissəsi (real, yaxud xəyalda tutulan). Nitq aktı nöqteyi-nəzərdən situasiya amilləri onlara deyilir ki, onlar səs, yaxud xışıltı yaradanlardan fərqli olaraq məlumatın verilməsinə kömək edir.

**Situasiya əlaqələri –** onların istifadəsi qəbul olunmuş situasiya ilə bağlı hazır cümlənin leksik vahiddən ibarət olan əlaqələridir.

**Situasiya klişesi** – konkret bu situasiya üçün vacib olan stereotip ifadə. Məsələn, «Danışır, Bakı!», «Xoş gəlmisiniz!». Situasiya klişesi tərcümə üçün ayrıca həll tələb edir, daha doğrusu, onlar özləri daxil olduğu ilkin mətndə tərcümə vahidi kimi nəzərdən keçirilə bilər.

**«Situasiya-mətn» modeli –** bu, elə situativ model deməkdir.

**Situasiya obrazı –** kommunikasiya (ünsiyyət) aktında situasiyanın təsviri və dəyişdirilməsi, onun nəzərdən keçirilməsi şüurun məhsuludur.

**Situasiyalı informasiya** – nitq aktına kömək edən ekstralinqvistik amillərdən gələn informasiya.

**Situativ –** həmin situasiya ilə şərtlənmiş deməkdir.

**Situativ informasiya** – bilavasitə hər hansı situasiyanı əks etdirən informasiya.

**Situativ kompressiya – bax**: situativ-məna kompessiyası.

**Situativ kontekst –** şəraitin və əvvəlki təcrübənin ekstralinqvistik elementləri. Bax: eyni zamanda situasiya konteksti.

**Situativ – məna kompressiyası –** informasiyaya malik ünsiyyətin ekstralinqvistik situasiyasını dolduran parçaların kompres-

siya vasitəsilə aradan götürülməsi deməkdir. Məsələn, konfransda sədrlik edib natiqə söz verəni bircə sözlə, natiqin təqdim etdiyi ölkənin adını çəkməklə kifayətlənir. Bununla belə, situativ kompressiya öz tətbiq edilmə hədlərinə malikdir və rəsmi situativ sinxron tərcümə zamanı bu son dərəcə yolverilməz olur.

**Situativ model –** insanın nitq fəaliyyətinin elə modelidir ki, o eyni müxtəlif semantik komponentlər yığımının köməyi ilə predmetli təsvirlərin eyni işarəli təsvirlərini aparma üsuludur.

**Situativ tərcümə nəzəriyyəsi –** situativ tərcümə nəzəriyyəsi dil çərçivələrindən bir qədər kənara çıxır və gerçəkliyə müraciəti nəzərdə tutur. Situativ tərcümə nəzəriyyəsi onu əsas götürür ki, hər hansı denotat (predmet, əlamət, hərəkət, daha doğrusu, ətraf aləmdə, gerçəklikdə olan element), hər hansı situasiya müxtəlif cür təsvir oluna bilər. Üstəlik nəzərə almaq lazımdır ki, hər bir dilin özünün daşlaşmış təsvir üsulları vardır. Və bu üsulu ayrı-ayrı mətn vahidlərinin yeniləşməsi yolu ilə yox, təsvir olunan denotat, təsvir olunan situasiya yolu ilə tapmaq lazımdır. Situativ model denotatın, yaxud situasiyanın müəyyənləşdirilməsini ilkin mətnin və onların əsasında tərcümə mətnin müəyyənləşməsini nəzərdə tutur. Beləliklə, situativ tərcümə nəzəriyyəsi konkret verilmiş deyim mənası olan obyektivlikdən çıxış edir ki, burada məna situasiya ilə qarışdırılır. Bu tərcümə nəzəriyyəsi çərçivəsində tərcüməçi iki dilin nəzəriyyə və praktikasını yaxşı bilən yüksək səviyyəli linqvist-dilçi kimi çıxış edir. Situativ tərcümə nəzəriyyəsi, xüsusən, Rusiya tərcüməşünasları, əsasən V.Q.Qak tərəfindən daha yaxşı işlənib hazırlanmışdır. Situativ tərcümə nəzəriyyəsi öz üstünlüklərinə baxmayaraq, tərcümə prosesində tərcümə haqqında elmin obyekti kimi onun komponentlərini nəzərə almır. Bax: həm də denotativ tərcümə nəzəriyyəsi.

**Siyasi diskurs –** siyasi diskussiyalarda istifadə olunan bütün nitq aktlarının cəmi. Bax: diskurs.

**Slenq –** müəyyən peşə, yaxud sosial təbəqə nümayəndələrinin tərəfindən istifadə edilən söz və ifadələr. Ümumi və xüsusi slenqlərə bölünür.

**Slot –** biliklər təsəvvürünü təşkil edən freymadır ki, o freymanı təsvir edən anlayış, yaxud obyekti xarakterizə edən bəzi mahiyyəti, yaxud əlaqəsi.

**Soraq –** biblioqrafik kitabın işlənib hazırlanması - bu kitablarda tərcüməçinin nəinki xarici dili bilməsini, həm də tərcüməşünasliq üzrə olan ədəbiyyatı bilməsini, bu sahədəki əsas problemləri, onun inkişaf tendensiyasını bilməsini tələb edir. Bu tərcüməçini daim öz biliklərini dərinləşdirməyə, yeni ədəbiyyatı izləməyə, həm doğma dil də, həm də xarici dillərdə ixtisasla bağlı ədəbiyyatı mükəmməl bilməlidir ya vadar edir. Referent işində səriştəsi olmayan tərcüməçilər, hər şeydən əvvəl, soraq-biblioqrafik materialların tərtibatı qaydalarını bu növ işlərdə elementar vərdişlərin əldə olunmasını dərindən öyrənməlidir.

**Soraq annotasiyası –** bax, annotasiya.

**Soraq kitabları** – texnikanın və sənayenin müxtəlif sahələrində çalışan müxtəlif mütəxəssislər üçün nəzərdə tutulur və xüsusi məlumatları özündə saxlayır, texniki-iqtisadi göstəricilər, verilmiş rəqəmlər və s. Bununla belə, tərcüməçi uyğun xüsusi soraq kitabında orijinalı düzgün başa düşmək üçün və onu texniki nöqteyi-nəzərdən tərcümə prosesində düzgün səsləndirmək üçün soraq kitablarında müxtəlif detalların, proseslərin və s. adları verilir, istehsalatın üsul və təşkili təsvir olunur, yazılı illüstrasiyalar gətirilir, konkret məsələ ilə bağlı xüsusi ədəbiyyat siyahısı verilir. Tərcümə zamanı az tanış olan sahədən materiala bağlı müvafiq soraq alma işin daha uğurlu olmasını təmin edir.

**Sosial dialekt –** bu, dilin olduqca məhdud çevrəsində xüsusi və ümumiliklə bağlı olan və daimi və bilavasitə ünsiyyətdə olanlar tərəfindən işlədilən söz formasıdır. Hər bir dildə çoxsaylı sosial dialektlər mövcuddur.

**Sosial-markirələşmiş ekspressiv leksikanın (arqo, disfemizmlər, jarqon, slenq və s.) tərcüməsi** – tərcümənin mərhələləri: 1. Tərcümə olunan leksik vahiddən yaranmış ədəbi dil sözünün əsas mənasının uçotu; 2. Onun yaranması zamanı praqmatik komponentlərin mənasının istifadəsinin uçotu; 3. Alınmış vahidin

özünün denotativ mənasının uçotu; 4. Tərcümə zamanı üslub, ideoloji ixtisar, axtarılan tələb olunan təbii tərcümə ekvivalentinin uçotu; 5. Orijinalın mətnin yaradıcısı istifadə etdiyi prinsipləri əldə rəhbər tutmaq: tərcüməçi personajların arqotik nitqini elə modelləşdirməlidir ki, tərcumədə-orjinalın bədii dürüstlüyü saxlanılmış olsun.

**Sosiolinqvistika –** 1. Dil ilə ictimai həyat faktları arasındakı səbəb əlaqələrini öyrənən dilçiliyin bölməsi. 2. Dilərin sosial diferensiasiyasını öyrənən dilçiliyin şöbəsi, daha doğrusu, onun müxtəlif sosial dialekti. 3. İctimai mövcudluq və dilin ictimai inkişaf şəraitini öyrənən dilçiliyin sahəsi.

**Söz –** 1.Dilin öz səs tərkibi ilə predmet (əşya), proses, gerçəklik hadisələri, onların xassələri, yaxud aralarındakı münasibəti ifadə edən ən müxtəsər əsası. 2. Kontekstdən kənarda ayrı-ayrı sözlər müəyyən məna kəsb etmədiyindən tərcümə də oluna bilməz.

**Söz-anlayış –** sözün nəinki sadə şəkildə fərqləndirilməsi, həm də onun bir məna ətrafında seçməsini nəzərdə tutan leksik materialın seçim vahidi. Buna görə də çoxmənalı söz bir neçə leksik vahid kimi nəzərdən keçirilir.

**Söz birləşməsi –** söz birləşməsi dedikdə iki və daha artıq əsas sözün (ona aid olan köməkçi sözlər, yaxud bu sözlərsiz) birləşməsi olub, vahid, lakin anlayış və təsəvvürün açılması ifadəsi üçün xidmət edən birləşmə.

**Söz birləşməsi səviyyəsində tərcümə** – ilkin dildə müvafiq söz birləşmələrinin ekvivalentini axtaran tərcümə. Söz birləşməsinin tərcüməsində belə seçim vahidi geniş yayılmışdır, belə ki, tərcümə zamanı daha tez-tez bu səviyyə uyğunluğuna rast gəlinir ki, bu zaman sözlər cümlədə sözbəsöz tərcümə olunur, cümlənin qalan hissəsi isə söz birləşməsi səviyyəsində tərcümə olunur.

**Söz - formalar lüğəti –** ələvə yardımçı dilin bütün söz formalarından ibarət olan maşın lüğəti. Bu tipli lüğətdə morfoloji təhlilə tələb xeyli dərəcədə sadələşir. Sözün özünün həcmi isə xeyli dərəcədə artır, lakin analitik tipli dillər üçün bəzi hallarda, xüsusən, ingilis dili üçün söz forması lüğətini tərtib etmək daha sərfəlidir.

**Söz formaları lüğətinin tərtibi** – mühəndis linqvistikasında daxil edilmiş massivin sadə metodu ilə gedir, burada identik sözformaların axtarışı onların kəmiyyətinin üst-üstə gəlməsidir ki, burada sözforması haqqında informasiyanın adresatı xidmət edir. Mətnin ümumi massivindən növbəti sözforma çıxarılır və onların axtarışı təşkil olunur. Eyni (üst-üstə düşən) sözformaların sayı toplanır. Axtarışın sonunda mətndə verilmiş sözformalar massivindən sürüşdürmə metodu ilə mətndən götürülür. Oxu prosesi, yadda saxlama və hesablama bütün mətnin işlənib hazırlanması sona yetənə qədər siklvari olaraq təkrarlanır. Hər bir sikldən sonra massivin yerdəyişməsi həyata keçirilir. Nəticədə maşının yaddaşında ranjirə olunmamış bütün sözforması korpusunun mütləq tezliyi yığılır. Alınmış siyahı, növbəti yığılma (toplanma) yadda saxlanılır, yaxud qarşılığı üçün, yaxud çap olunmaq üçün sözün kataloqu formasında daxil edilə bilər.

**Söz işlədilməsi –** 1. Mətn vahidi olub (söz, yaxud digər dil, yaxud işarə obyekti) aralıqdan-aralığa qədər olan boş yer. 2. İki ara arasında hərflərin hər hansı ardıcıllığı. Defis və kəsr işarəsi hərf kimi hesablanır.

**Söz səviyyəsində tərcümə – bax:** sözbəsöz tərcümə.

**Söz tərcüməsi** – mətnin, əsasən, leksik səviyyəsində realizə olunan tərcümə.

**Sözbəsöz tərcümə –** 1) - Hər bir sözün tərcüməsi. 2. Sintaksis və üslubi nəzərdə tutmaqla məna və məzmunun sözbəsöz tərcüməsi. Bu konfranslarda və məhkəmələrdə şifahi tərcümədir, sinxron və elmi-texniki tərcümə, sonuncuda tərcümə dilində terminoloji anlayışların yoxluğu tərcüməçi üçün yeni termin və anlayışların yaranmasını diqtə edir. 3. Sözlər arasında hər hansı məna və üslubi əlaqələrin uçotunu nəzərdə tutmayan ayrı-ayrı sözlərin tərcüməsi. 4. Söz səviyyəsində tərcümə. Tərcümə vahidi kimi bir sözün seçilməsinə tez-tez rast gəlinir, lakin o tətbiqi sferada məhdudlaşmışdır. Çünki cümlədə heç də bütün sözlər tərcümə zamanı sözbəsöz müvafiqlik təşkil etmir, yalnız onların bir hissəsi uyğun gələ bilir. Bunlar, adətən, sadə və elementar cümlələr olur, çünki daha mürək-

kəb cümlələrdə müxtəlif leksik və sintaktik vahidlər sözbəsöz tərcümə etməni mümkünsüz edir, yaxud da onu minimuma endirir. 5. İlkin mətndə olan ayrı-ayrı sözlərin sadə, sırf mexaniki tərcüməsidir ki, onlar nə məna, nə də sintaktik baxımdan bir-biri ilə əlaqəni nəzərdə tutmur.

**Sözbəsöz tərcümə 2) –** orijinalın dil mənalarının mümkün üslubi ekvivalentlərinin işarə olunması ilə tərcüməsi. Sözbəsöz tərcümə – bu, dili bilən insanın fəaliyyətinin əsası kimi xidmət edir.

**Sözforma –** 1. Bütövlüyün vahidi, ilkin elementi. Yazı səviyyəsində bir-biri ilə üst-üstə düşən sözlərin çoxlu işlədilməsi. İxtisarlar sözforma statusunda nəzərə alınır, eləcə də rəqəm, hərfi, hərfi-rəqəm işarələri, xüsusi adlar (toponimlər, antroponimlər, zoonimlər).

**Sözlərin çoxmənalılığının çıxarılması (boşaldılması)** – biz sözlərin mənasını üç müxtəlif mənbədən alırıq: a) konvensiyaya (sövdələşməyə) görə dilin bu işarəsi filan şeyi bildirəcək; b) situasiyaya (kontekstə) görə o konkret dilin mənasını bizə anladır; c) fon biliklər hesabına ki, bu kontekstdə (situasiyada) nə var, yəni dilin bu işarəsi onun məhz başqa bir şey olduğunu yox, bu şey olduğunu bildirir.

**Sözlərin ilkin forması lüğəti** – bu sadə (yaxud düzəltmə-törəmə) əsasını göstərən və sözyaradıcılığı və formayaradıcılığının sonrakı mənbəsi olan lüğətdir.

**Sözlü presiziya informasiyası –** müxtəlif ad və adlandırma, xüsusi adlar.

**Sözlük –** lüğətin başlıq sözlərinin əlifba ilə siyahısı.

**Sözün adlıq mənası –** adlıq mənası o sözlərə xasdır ki, onlar bir predmet (əşya), şəxs, yaxud coğrafi anlayış (hadisə) bildirir və onu eyni sırada olan predmet (əşya), şəxs, coğrafi anlayışlardan ayırır, fərqləndirir.

**Sözün birbaşa mənası –** bu, elə sözün əşyavi-məntiqi mənası deməkdir.

**Sözün əsas hissəsi –** lüğətdə leksem nümunəsi kimi ənənəvi seçilən söz formalarından biri. Məsələn, ingilis dilində fel üçün «to»

hissəciksiz infinitiv, isim üçün ümumi hal forması, müsbət dərəcə forması- sifət və zərf üçün. Bu elə sözün lüğət forması deməkdir. Müqayisə et: sözün ilkin forması.

**Sözün əsas mənası –** 1. Tərcümə zamanı saxlanılan sözün invariant mənası. 2. Dilin müxtəlif şəkildə işlənilməsində dil vahidinin invariant mənası. 3. Bu həm də sözün əşyavii-məntiqi mənası deməkdir.

**Sözün lüğət forması –** bu, elə sözün əsas forması deməkdir.

**Sözün morfonoloji quruluşu -** morfemin fonoloji tərkibi.

**Sözün nominativ funksiyası –** sözün predmetin adına xidmət etməsi.

**Sözün nominativ mənası –** sözün predmet-məntiqi mənası kimi başa düşülməlidir.

**Sözün okkazional mənası –** kontekstdə gözlənilmədən yaranan sözün mənası əsassız olaraq yaranmır – o, bu sözün semantik strukturunda potensial və fərdi şəkildə əks olunmuşdur.

**Sözün predmet-məntiqi mənası –** sözlə predmet, yaxud hadisə haqqında onun əlamətinin mənanın tarixi inkişafı nəticəsində bütün anlayışı ifadə etməsi. O dil sistemində dil kollektivinin kommunikativ fəaliyyəti nəticəsi sistemində möhkəmlənmiş və bu kontekstdə gercəkləşmişdir. Müqayisə et: sözün kontekstual mənası.

**Sözün semantik forması –** bu, elə sözün daxili forması deməkdir.

**Sözün semantik strukturu –** sözün elə morfoloji mahiyyətidir ki, onlar bu (konkret) səslənmənin bu (konkret) üslubi konnotasiyalarla ilə əlaqələrini simvolikləşdirir.

**Sözyaradıcılığı lüğəti** – dilin daha çox işlənən sözlərinin sözyaradıcı strukturunu göstərən lüğət.

**Sözyaradıcı omonimlər –** bax: omomorfemlər.

**Spontan mətn –** qabaqcadan hazırlıq aparılmadan danışan tərəfindən ortaya çıxan mətn.

**Standart nitq vasitələri –** danışıq və situativ klişelər.

**Standart situasiya** – sosial münasibətlərlə şərtlənən və mütəmadi olaraq təkrarlanma və cəmiyyətin reqlamentləşmiş həyatını

əks etdirən situasiya. Standart reqlanmentləşən fiksasiya olunmuş kommunikativ nitqin uzual vasitələri, situasiya (situativ) klişelərindən istifadəni tələb edir.

**Statistik** – informasiya münasibətləri – fonetika, leksika, qrammatika, dilin «dördüncü ölçüsü» olmaqla, dili mühüm dərəcədə xarakterizə edir, çünki yardımçı dilin homogenliyi nəinki liğət və qrammatikada, həm də ayrı-ayrı fonem, leksik vokabul və ayrı-ayrı qrammatik forma və strkuturların daha tez-tez işlənməsini, başqa sözlə, nəinki nə işlədilir, həm də nə dərəcədə tez-tez işlədilməsində özünü əks etdirir.

**Statistik toplam** – məlum zaman və məkan hüdudlarında ayrı-ayrı vahidlərdən ibarət olan müəyyən münasibətlərdə olan həmcins predmetlərin (əşyaların) kütləsindən ibarət olan istənilən hadisə, yaxud ictimai həyatın prosesi. Statistik hər bir vahid müəyyən xarakteristikaya malikdir. Dil bu mənada statistik kimi nəzərdən keçirilə bilər ki, o da onun müxtəlif səviyyələrdə təsviri olub xüsusi tərzdə təşkil olunmuş obyektlərin (vahidlərin) ayrı-ayrılığının cəmi kimi nəzərdən keçirilə bilər. 2. Bütün təsvir yaruslarında səviyyələrdə xüsusi şəkildə təşkil olunmuş vahidlərdən ibarət dil (yardımçı dil). 3. Faktların statistik strukturu – bu mətndə və onların mətndə özünü göstərməsi tezliyi olub, sözlərin sayı arasında münasibətləri uyğunluğu bildirir.

**Statistik – kombinator modelləşdirmə –** struktur-riyazi linqvistikanın elə bir bölməsidir ki, orada dilin tədqiqinə nəzəri-çoxluq, alqoritmik və statistik yanaşma tərzi mövcuddur.

**Statistik leksikoqrafiya** – ümumiyyətlə, tezliklər lüğətinin tərtibi və istifadəsi ilə məşğul olur. Bax: hesablama və tərcümə leksikoqrafiyası.

**Statistik linqvistik təhlil –** sadə (əl) metod (mikrokalkulyator və digər hesablayıcı qurğuların tətbiqi) ilə aparıldığı kimi, həm də EHM köməyi ilə aparıla bilər. Hər bir halda alınmış nəticələr gələcəkdə mühəndis linqvistikasında (maşın tərcüməsində), yaxud alqoritmik sahədə (təlimaparan linqvistik avtomatlar) tətbiq edilə bilər.

**Statistik linqvistika** – 1. Kompüter linqvistikasının aparıcı istiqaməti hesab olunur. Bu, kompüter linqvistikasının bütün istiqamətlərinin fəaliyyətinə əsaslanır və onun bazasıdır (əsası, özülüdür). 2. Linqvistik obyektləri ənənəvi statistik metodların köməyi ilə öyrənir. 3. Ənənəvi statistik aparatı istifadə edən nitq əsərinin və dil sisteminin tədqiqi ilə məşğul olub, dilin statistikasında və dinamikasında ona tətbiq edilən ümumi statistik qanunları (qanunauyğunluqları) ortaya çıxaran kompüter linqvistikasının istiqamətidir. Statistik leksikoqrafiya vasitəsilə o xarici dil təlimi metodikası ilə əlaqədə olub, təlimin optimizasiyası ilə də bağlıdır, baza dilinin parametrlərini müəyyənləşdirməklə, dillərin tədrisinin statistik optimizasiyasının parametrlərini müəyyənləşdirməklə və həyata keçirməklə, bir tərəfdən, mühəndis linqvistikası ilə – maşın tərcüməsi sahəsi ilə bağlıdır ki, linqvostatistik xarakteristikalar əsasında bir, iki, və çoxmənalı tezlik lüğətlərinin tərtibatını təmin edir ki, onlar maşın tərcüməsi sistemində avtomatlaşmış maşın lüğətlərinin əsas bazası olmaqla, maşının köməyi ilə tərcüməni təmin edir. Alqoritmin linqvistika ilə xarici dillərin kompüter vasitəsilə tədrisinin optimizasiyasında mühüm rol oynamaqla, söz siyahısının tezliyini müqayisə etməyə imkan verməklə və dərsliyin keyfiyyətini müəyyənləşdirməklə, dərslik materialının kəmiyyət dəyərinin avtomatik hesabını aparır. 4. Tezlik lüğətlərinin tətbiqi və istifadəsi məsələləri ilə məşğul olan statistik leksikoqrafiyanın başlıca komponenti.

**Statistik oppozisiya metodu –** tərcümənin müvafiqliyini müəyyənləşdirən və bir-biri ilə müqayisə ediləcək lüğət məqalələrinin funksional- semantik təhlili zamanı və daha tipik ekvivalentlərin seçilməsi ilə bağlı statistik xarakteristikanın istifadəsi ilə bağlı müşahidə zamanı, xüsusən, daha böyük, ekvivalent olan tezliklə və ən aşağı tezliklə bağlı istifadə olunur. Bu üsul lüğətin çıxış dövriyyəsində sözformaların ekvivalentinin seçilməsində daha səmərəlidir.

**Stenoqrafiya** – fikir yox, yalnız sözlərin yazılışı üzərində dayanan sistemdir ki, o, sözbəsöz tərcümə üçün şərait yaradır, qav-

rayış zamanı intellektual fəallığı aşağı salır, tərcümə tərtibində xeyli dərəcədə çətinliklər yaradır.

**Stereotip** – həyatda hər hansı bir şeyin daimi nümunəsi, standart.

**Stilistika** – 1. Müxtəlif nitq üslublarında ilişgi vasitələri haqqında elm və eləcə də dil vahidlərini seçim qaydaları. 2. Müxtəlif üslub və ekspressiv-emosional-dəyər mahiyyətini müxtəlif dil vasitələri baxımdan onların nitq-dil ünsiyyətində istifadə olunmasını öyrənən dilçiliyin bölməsi. 3. Dilin ifadəli vasitələri və onların müxtəlif nitq ünsiyyəti sahələrində istifadə olunması haqqında təlim.

**Stoxastik qrammatika** – ehtimal qrammatikası.

**Stratifikasiya** – kəsişən və qarşılıqlı şəkildə bir-birinin içinə daxil olan qatların, səviyyələrin obyekt şəklində təqdimatı.

**Struktur** – 1. Sözlərin bir-biri ilə üzlaşması üsulu, onların bir-birinin ardınca gəlməsi, düzülüşü və məhz bu sözlərin, deyimin quruluşu üçün faktın özünün seçimi (bu, deyimdə mühümdür, daha doğrusu, inormasiyanı və onun strukturunun reprezentləşdirir. 2. Daxili təşkil olunma, muəyyən münasibətlərdə olan elementlərin ardıcıllığı.

**Struktur (yaxud sənədli) formallaşma** – 1. Əlavə dilin təsnifatın prinsiplərindən başlayaraq nomenklaturasının hərtərəfli təşkilindən mətnin bütün struktur kompozisiyanın tərtib olunmasında özünü əks etdirir. Mətnin struktur cəhətdən formallaşmasının vasitələrindən biri kimi rubrikasiya çıxış edir ki, o, mətnin tərkib hissələrinə bölünməsinə müvafiqdir. O hissələrinə qrafik bölgüsünü, başlıqlardan istifadədəki, bəndləri, bəndaltıları, abzasları, numerasiyanı və durğu işarələrini özündə birləşdirir. Başlıqlar (yarımbaşlıqlar) rubrikasiyanın mühüm vasitəsidir, deməli, formallaşma strukturunun elementidir. Onlar son dərəcə sıxılmış, müxtəsər və lakonik formada sənədin seçilmiş hissəsinin əsas ideyasını və tematikasını əks etdirməyə imkan verir ki, bu məlumatın mühüm vahidi kimi, müəyyən informasiya verən kimi çıxış edir. Durğu işarələri nəinki struktur formallaşmanın elementi kimi çıxış edir, həm də özündə

müəyyən semantik-sintaktik və funksional-kommunikativ məna daşıyır ki, onun modelləşdirilməsi zamanı dilaltının modelləşdirilməsi və durğu işarələrinin konfrantasiyasını nəzərə almaq lazımdır. Sənədin mətni kompozisiya tamlığı ilə və materialın yazının (ifadənin) səliqəli, sistemli quruluşu ilə, kompaktlıq və müxtəsərliklə fərqlənir. O, bu funksional-kommunikativ tipli sənədin standart formasında, onun formulyarında əks olunan şəkildə qurulur. Standart forma sənədin işini asanlaşdırır. Formulyarlar mətnli, qrafik və tip trafaretşəklində olur. Tip sənədlərin istifadə olunması iş vaxtını 40-50% qənaət etməyə imkan verir. Sənədin mətni – bu blank-mətndir. Orada mətnin rekviziti və rekvizit formulyarı aydın verilir. Formulyarın rekviziti konstant xarakterə malikdir və funksional perspektiv nöqteyi-nəzərdən sənədin mövzusu olur. Mətnin rekvizitləri dəyişkən xarakter daşıyır və kommunikativ funksiya planında sənədin remasıdır. Sənədin formulyarının rekvizitləri (onun mövzusu), sənədin strukturunu əks etdirir, onun rubrikasiyasının elementləri, deməli, struktur formallaşması kimi çıxış edir. Formulyarlar rekvizitləri dil ştampı, şərti işarələr, müxtəsərlərdən ibarətdir. Öz strukturuna (tərkibinə) görə onlar müxtəlif tipli, tərkibli cümlələrdir: adlıq, adyektiv, adverbial, feli olur. 2. Bu formallaşma öz təşkilati formasının quruluşuna görə general məcmudur ki, həm onun klassik nomenklaturasının təsnifatının ifadəsində, həm də materialı ifadəsində və sənədin formulyasının quruluşunda ifadə olunur.

**Struktur linqvistika –** dil sistemində tədqiqat predmetinin daxili münasibətlərini və əlaqələrini məhdudlaşdıran dilçilik sahəsi.

**Struktur – riyazi linqvistika –** iki tərəfi birləşdirən xüsusi cins anlayışı: kvantitativ və kombinator linqvistika

**Struktur – sintaktik blok –** cümlənin sintaktik strukturunun ayrıca, funksional – xüsusiləşmiş hissəsi.

**Strukturalizm –** dilçilikdə istiqamət olub dil komponentlərin asılılığı, onun strukturunun daxili münasibətlərinin linqvistik cəhətdən tədqiq olunmasını qarşıya məqsəd qoyur.

**Submətn** – mətnin məna nöqteyi-nəzərdən müstəqil, tonlu hissəsi.

**Subordinativ bilinqivizm** – dominant dil, təfəkkür dili özünü göstərən bilinqivizm.

**Substansiya** – bütün predmet və hadisələrin mahiyyəti və ilkin əsası.

**Substitusiya** – bir dil vahidinin digəri ilə əvəzlənməsi.

**Subyekt** – linqvistikada hərəkəti edənə, fikir predmetinə aid edilir.

**Subyektiv – görmə kodu** – bir-biri ilə qonşu olan obrazlarla və təsəvvürlərlə yanaşı olan insanın iç dili.

**Subyektiv kod** – tərcüməçi yazı zamanı istifadə etdiyi şərti işarələr sistemi.

**Sünii intellekt sistemi** – Bu, insanı yaradıcı intellekt fəaliyyəti prosesində ənənəvi doğula biləcək nəticələri qabaqlayan EHM - da istifadə olunan sistemdir

## Ş

**Şəklinin dəyişdərilməsi** – bu, tərcüməçinin elə fəaliyyətidir ki, burada əsas məqsəd çatdırılası məzmunun dəyişdirilməsini elə yolla həyata keçirmək lazımdır ki, tərcümə dilində yaradılan mətnin digər yeni adresatın linqvoetnik kommunikativ kompetensiyasına uyğunlaşdırılmasıdır.

**Şərh** – Bax: şərh olunmuş referat.

**Şərh olunmuş referat** – 1. Ümumi mövzu altında birləşmiş bir neçə sənədin məzmunu ilə oxucunu tanış edir. 2. Bir neçə material və mənbə (məsələn, mətbuatla bağlı referat şərhi) tərtib edilir və referent tərəfindən onun mövzusuna bu mənbədən aid olan məqalələrin müstəqil olaraq seçilməsini (qəzetdən, jurnaldan, kitabdan, broşuradan və s.) nəzərdə tutur. Bəzən referentə müəyyən mənbələrdən onlardakı materialların xarakterindən asılı olmayaraq şərh etmək tapşırılır. Əksər hallarda belə şərhlər sözün əsl

mənasında referat deyildir və hər bir material üzrə annotasiyadan ibarətdir. 3. Bu bir sıra materialları əhatə edən və məqsəd etibarilə onlardan hər birinin müxtəsər xarakteristikasını əhatə edən referatdır. Şərh referatı üçün material referent tərəfindən müstəqil olaraq seçilir. Buna görə də şərh referatını-şərt (ciddi) tematik çərçivə ilə məhdudlaşmayan yeganə referat tipi adlandırmaq olar. Mövzunun dəqiqləşdirilməsi referatın materialından asılı olaraq aparılır. Referat şərhi nəinki mövcud informasiya üçün, həm də sorğu-biblioqrafik material kimi xidmət edə, ona görə də daha konkret xarakterə malik ola bilər.

## T

**Tam ekvivalentlik –** 1. Tam ekvivalentlik halları mümkündür, lakin bəzən elə olur ki, adətən, o qədər də mürəkkəb olmayan kommunikativ şəraitdə məhdud diapazonlu funksional xarakteristika mətnlərdə nisbətən tam ekvivalentlik müşahidə olunur. Tərcüməyə verilən tələblər mürəkəb və zidiyyətli olduqca «(tərcümə paradoksları, ziddiyyətləri)», tərcümə olunan mətnin funksional spektri geniş olduqca, orijinalın aynadakı kimi əksini tapan tərcümə mətnin yaradılması ehtimalı da azalır. 2. Tam ekvivalentlik ilkin mətnin kommunikativ – funksional invariantının bütövlüyünü nəzərdə tutur. Başqa sözlə, burada tərcüməyə verilən maksimal tələblərdən söhbət gedir.

**Tamamilə kalkalaşdırma situasiyası –** mətn seqmentinin bütün birmənalı konfrontasiyalı elementlərinin tam qarşılıqlı izomorfluğunu səciyyələndirən tərcümə situasiyası. Bunlara daxil olan dillə ilkin dildə olan ziddiyyətlərin səs-hərf ixtisarlarını aid etmək lazımdır. Onlar daxil olan və ilkin dildəki sözlərin sözbəsöz konfrontasiyası (qarşılaşdırılması) yolu ilə tərcümə olunur, məsələn, USA-ABŞ.

**Tam olmayan uyğunluq –** məna və üslubi invariantlara uyğunluq. 1. Məna invariantına uyğunluq. 2. Mənanı özündə əks etdirməyən (saxlamayan) uyğunluq.

**Tam tərcümə –** hər hansı bir ixtisara yol verilmədən edilən tərcümə**.**

**Tam yazılı tərcümə –** texniki tərcümənin əsas forması. Çünki bütün tərcümə praktiki olaraq istifadə olunan informasiya tam yazılı tərcümə formasında işlənib hazırlanır, texniki tərcümənin digər formaları isə həmin əsas formanın ixtisarlaşdırılmış variantı olur.

**Tamhüquqlu əvəzləmə –** adekvat əvəzləmə.

**Texniki ədəbiyyat tərcüməsi –** burada ön plana tərcümə edilən mətnin predmetinin düzgün başa düşülməsi çıxır. Bununla belə, texnikanın istənilən sahəsinə aid olan və qəbul edilən Azərbaycan terminologiyasını yaxşı bilmək tələb olunur. Əsasən standart terminologiyadan istifadə etmək məsləhətdir. Təsviri tərcüməyə yalnız o zaman yol vermək olar ki, Azərbaycan dilində həmin termin mövcud deyildir. İşə başlamazdan əvvəl konkret ixtisas üzrə materialın başa düşülməsi üçün vacib olan əsas məqamlarla dərindən tanış olmaq lazımdır. Tərcümənin özünə verilən tələbə gəldikdə isə fikrin düzgün verilməsi ilə yanaşı, həm də qəbul olunmuş terminologiyadan müxtəsər formada istifadə etməyi bacarmaqdır. Maşınların, avadanlıqların, instrument və alətlərin, yaxud istehsal proseslərinin hamısı təsviri xarakter daşımalıdır. Bütün ingilis-amerikan ölçülərinin metrik ekvivalentlərini düzgün hesablamaq lazımdır. Çertyojlarda imzalar tamamilə yenidən çəkilməlidir (sxematik şəkildə) və Azərbaycan dilində uyğunlaşdırılmalıdır.

**Texniki mətnlərin tərcüməsi –** bax: elmi-texniki tərcümə.

**Temporal münasibətlərin markerləri –** buraya zaman bağlayıcıları, «the next morning-növbəti, səhəri gün», «all that day-bütün gün» tipli temporal cümlələr, Future Perfect və Past Perfect nisbi zaman tipli, zamanların uzlaşması (he said he came), sözlərin sırasını əks etdirən hadisələrin ardıcıllığı aiddir

**Terminlərin tərcüməsi –** məlum olduğu kimi, dildə terminlər (daha doğrusu, sözlər və söz birləşmələri) xüsusi anlayışları və

xüsusi əşyaların işarələrini bildirmək üçün yaradılan, yaxud alınmış sözlər (elmi, texniki və s.) dilin son dərəcə müxtəsər şəkildə və informasiyanın dəqiq verilməsinə canatması nəticəsində əmələ gəlir, daha dogrusu, burada elə bir dəqiqliyə cəhd olunmalıdır ki, sözlərin və söz birləşmələrinin özbaşına və subyektiv izahına yol verilməsin. Bu, öz ifadəsini tərcüməçinin xarici terminologiyanı dolğunluğu ilə əla səviyyədə bilməsində tapır. Xüsusi materialların tərcüməsində ən çətini terminlərin düzgün çevrilməsi məsələsidir. Termin adətən başqa dildəki müvafiq terminlə tərcümə olunur, ona görədə analoji, sinonimik əvəzləmə, təsviri tərcümə kimi üsullardan yalnız o zaman istifadə olunur ki, dildə müvafiq terminin qarşılığı yoxdur. Dəqiq və tam semantik sərhədləri olan birmənalı terminlərlə yanaşı, həm də çoxmənalı terminlər mövcuddur. Buna görə də hətta təkkomponentli terminlərin çoxmənalılığı onların düzgün başa düşülməsini və tərcüməsini çətinləşdirir ki, onun adekvatlığı tam şəkildə situasiya kontekstindən asılı qalır. Anlaşma və tərcümə olunma baxımdan terminlərin tərcüməsini üç qrupa bölmək olar: 1. Xarici reallığın realiyalarını bildirən terminlər. Bu qrupa aid terminlərin izahı o qədər də çətin deyil, burada aşağıdakı hallar ola bilər: a) ekvivalent kimi Azərbaycan dili terminindən istifadə olunur ki, onun forması tərcümə dilindəki terminlə əlaqədardır (beynəlxalq terminlər); b) ekvivalent kimi tərcümə olunan (Azərbaycan dili) termindən istifadə olunur ki, onun forması ilkin dildəki (məsələn, ingilis dilindəki) terminin forması ilə əlaqədar deyildir; c) çoxkomponentli bir neçə sözdən ibarət ingilis terminin mənası məna və forma etibarı ilə Azərbaycan termininin müvafiq komponentlərinin məna və forması ilə üst-üstə düşür; d) çoxkomponentli ingilis termininin ümumi mənası analoji Azərbaycan terminin mənası ilə tam üst-üstə düşür, bununla belə, onun ayrı-ayrı komponentləri Azərbaycan ekvivalentindən fərqlidir. 2. Azərbaycan gerçəkliyində xarici realiləri bildirən terminlər, lakin ümumi qəbul olunmuş Azərbaycan terminoloji ekvivalentləri. 3. Azərbaycan gerçəkliyində olmayan və ümumi qəbul olunmuş Azərbaycan dilinin terminoloji ekvivalentləri olmayan əcnəbi realiləri bildirən terminlər. Belə ter-

minlərin tərcüməsinə aşağıdakı yolla nail olmaq olar; a) ingilis dili terminin təsviri; b) sözbəsöz tərcümə köməyilə; c) qismən, yaxud tam transliterasiya və sözbəsöz tərcümənin köməyilə; d) transkripsiya ilə; e) transkripsiya və tərcümə ilə. Qeyd etmək lazımdır ki, bu tipli terminlərin tərcüməsi zamanı səhvlər əsasən o zaman ortaya çıxır ki, xarici terminə hərfi uyğunluq axtarılır. Əlbəttə, belə yanaşma heç də özünü doğrulda bilməz: birinci, xarici gerçəklikdə olan realinin spesifikası aradan çıxır, ikinci isə belə olduqda burada həmin terminlər yalnız xarici gerçəklik üçün xarakterik olan anlayışları ifadə edə bilər və məhz buna görə də Azərbaycan dilinin xüsusi materiallarında qəbul olunmuş realilərə müvafiq olmaya bilər. Digər tipli səhvlər onunla bağlı olur ki, bu zaman yuxarıda göstərdiyimiz qruplardan hər birinə bu terminlərə qeyri-düzgün münasibət nəticəsində və tərcümə üçün qeyri-adekvat üsul seçiləndə yaranır, ortaya çıxır. Tərcüməçinin daha bir səhvi sözbəsöz tərcümədir. Bu o zaman ortaya çıxır ki, xarici termin, yaxud onun komponentləri Azərbaycan dili termininə analoji olmaqla, tamamilə başqa məna kəsb edir. Tərcümə zamanı daim terminin konkret şəraitdə, konkret kontekstdə real mənasını nəzərə almaq lazımdır. Həm də eyni zamanda cəm haldan istifadə zamanı terminin mənasının dəyişilməsi mümkündür. Beləliklə, terminlərin düzgün başa düşülməsi və tərcüməsi heç də yalnız dili yaxşı bilməklə əlaqədar deyildir, bu həm də xarici və Azərbaycan cerçəkliyində olan realiləri yaxşı bilməkdən irəli gəlir.

**Terminləşməmiş leksika** – öz adi keyfiyyətində xüsusi mətnlərdə olub, amma termin kimi işlədilməyən söz və söz birləşmələridir. Bu leksikanın əhatəsi o qədər də geniş deyil və xüsusi mətnlərin tərcüməsində əlavə çətinliklər yaratmasın deyə qısa zaman kəsiyində öyrənilə bilər.

**Tezlik lüğətlərinin ümidvericiliyi qiyməti** – düzgünlük və effektivlik qiymətini özündə ehtiva edir və nəzərdə tutur.

**Tezlik siyahısının riyazi təhlili** – EHM-da tezlik lüğətlərinin lüğət vahidlərinin hərfi yazılışı (təsviri) aparılmadan riyazi işləmələr üçün istifadə olunur. O bunu yalnız dərəcə tezlik siyahısını və

mütləq tezlikdən yararlanmaqla həyata keçirir. Riyazi təhlil nəticəsində Estu-Sipfa-Mandelbrot qanunu parametrləri, mütləq nəzəri tezlik, nisbi empirik tezlik, nisbi nəzəri şəkildə toplanmış tezlik, maksimal və minimal nisbi səhvlər və riyazi linqvistikanın bir sıra başqa parametrlər alına bilər.

**Təhtəlşüur –** müəyyən şəraitlərdən əvvəllər dərk olunmuş, yaxud dərk oluna biləsi. Təhtəlşüur hadisələrinə nitq vərdişlərini aid etmək olar ki, onlar əldə olunmuş biliklər əsasında formalaşır.

**Təxəllüs –** insanın ictimai həyatda əsl adı, yaxud onun yerinə işlədilən uydurma adı.

**Təxəllüs metodu** – müəllif subyektinin kompozisiya strategiyasıdır ki, o, öz əsərini başqasınınkı kimi təqdim edir (müəllif tapılmış əlyazmanın nasiri kimi, müəllif-təhkiyəçi). Tərcüməçilik sferasında təxəllüs metodu fiktiv tərcümədə istifadə edilir.

**Təkrar –** bax: tərcümə-reminissensiya.

**Təkrar (təkrir)** – 1. Təkrar – mikro və makromətn tərkibində cümlə əlaqəsinin elementar forması (fonetik: alliterasiya və assonans; leksik və sintaktik. Təkrardan istifadə mətnin təşkil xüsusiyyətləri və təfəkkür prosedurlarının ifadə üsulları ilə bağlıdır. Təkrar mətnin mühüm elementlərini ayırır, müəyyən terminləri mətn semantikasının "təməl", ilkin komponentlərini müəyyənləşdirir. 2. Bir dilin içində sözün, söz birləşməsinin, yaxud cümlənin danışanın nitqin predmetinə münasibətdə subyekt-qiymət vermə, dəyərləndirmə ifadəsi ilə müşayiət olunur.

**Təkrar informasiya** – verilmiş mətndə bir neçə dəfə təkrarlanmış məlumatlar.

**Tərcüməçinin üslubi idiolekti –** tərcüməçinin üslubu. Bu, tərcümə mətnində tərcüməçinin üslubi vərdiş və bacarıqlarının gerçəkləşdirilməsinin məcmusudur.

**Tənzimləyən funksiya –** bax: Nitq kommunikasiyasının (ünsiyyətinin) funksional məzmunu.

**Tərcümə (1) –** 1.«Tərcümə» insanın nitq-dil fəaliyyətinin mürəkkəb növlərindən biri. Burada, adətən tərcümə prosesinin özü, ya tərcüməçi fəaliyyətinin şifahi–yazılı mətn, deyimin özünün nəti-

cəsi nəzərdə tutulur. Tərcümə prosesi (və onun nəticəsi) ikidillik şəraitində baş verir ki, bu prosesdə ən azı iki dil iştirak edir, daha doğrusu, dillərarası situasiyada inkişaf edir. Belə olduğu halda, tərcüməni dillər arasında gedən dəyişmə, şifahi və yaxud yazılı mətnin transformasiyası kimi də nəzərdən keçirmək olar ki. Əgər dil cəmiyyətin mövcud kommunikativ təbii sistemidirsə, nitq-kommunikasiya prosesində informasiya otürülməsində dilin fəaliyyətidirsə, deməli, konkret nitq əsərində onun digər dil vasitələrinin köməyi ilə informasiyanın mahiyyətinin verilməsi prosesi gedir. Bu tərifdən definisiyadan başqa tərcüməni həm də bir dildə deyilmiş fikirlərin (hisslərin, emosiyaların) digər dilin vasitələrinin köməyilə verilməsi kimi başa düşməliyik. Yaxud bir dildəki mətndə olan materialın (mənbənin dilində – ilkin dildə) verilməsi, yaxud ikidillik situasiyasında gedən dil-nitq kommunikasiya prosesidir. Daha doğrusu, bu bir ( söz, termin ifadələrin) situasiyadır ki, kommunikativ fəaliyyəti ikidillilik şəraitində həyata keçirən tərcüməçi eyni zamanda alınmış informasiyanı iki müxtəlif işarə sistemli kodlar vasitəsi ilə yenidən kodlaşdırır. Buna görə də tərcümə prosesini həm də ikidillilik şəraitində psixolinqvistik fəaliyyətin mürəkkəb növü kimi nəzərdən keçirmək olar. 2. Tərcümə dil fəaliyyəti növlərindən biri kimi bir dildə deyilmişlərin digər dilin vasitələri ilə yetkin və adekvat şəkildə verilməsidir. Adekvat və yetkin, tam tərcümə əslin (orijinalın) məzmun və keyfiyyətlərini, onun bütün struktur xususiyyətlərini, üslubunu, leksika və qrammatikasını, tərcümə dilində bütün cəhətləri ilə düzgün, dəqiq və tam şəkildə verilməsini nəzərdə tutur. 3. Tərcümə hər hansı mətnin, yaxud şifahi nitqin digər dilin – ikinci bir dilin köməyi ilə verilmə prosesidir. 4. Tərcümə mətnin (yaxud şifahi nitqin) bir dildən digər dilə keçirilməsi deməkdir. 5. Tərcüməçinin fəaliyyətinin nəticəsi mətndir. 6. Tərcümə (tərcümə prosesi) bir dildə deyilmiş fikirlərin (hiss və emosiyaların) digər dilin vasitələri ilə verilməsidir. 7. Tərcümə bir dildə ifadə olunmuşların digər dilin vasitələri ilə verilməsidir. 8. Hər bir konkret əsərdə olan informasiyanın digər dilin vasitələri ilə verilmişdir. 9. Eyni dəyərə malik informasiyanın bütün dolğunluğu

ilə ötürülməsidir. 10. Hər hansı bir konkret dildə verilmiş şifahi, yaxud yazılı mətnin digər dildəki məntdə (şifahi, yaxud yazılı) dillərarasında dəyişilməsi, yaxıd transformasiyası prosesidir. 11. Bir mətnin materialında (mənbənin dilində – ilkin dildə) olanın digər dildə (tərcümə dilində) mətn materialı ilə verilməsidir. 12. İkidillilik şəraitində gedən nitq-dil komminikasiya prosesidir. 13. Mənbəni verənin və qəbul edənin kodları uyğun gəlmədiyi hallarda, istifadə olunan komminikasiya komponentlərinin ikiləşməsini nəzərdə tutan nitq fəaliyyəti növüdür. 14. Tərcümə mətnə daxil olduqda bir dildə olan informasiyanın ilkin dildə işlənib hazırlanması prosesidir. 15. Digər dildə elə ifadə vasitələrinin axtarılıb tapılmasıdır ki, nəinki onlar konkret mətndə çeşidli informasiyanın verilməsini təmin edir, həm də yeni mətnin ilkin mətnə formaca (daxili və xarici) tam uyğun gəlməsidir ki, bu bədii məntin tərcüməsinin digər dildə hələ sabit anlyış və ifadələrə malik olmadığı zaman zəruri hala çevrilir. 16. İkidillilik situasiyasında nitq-dil ünsiyyəti prosesində bir dildə daxil olan informasiyanı ilkin mətnin məzmun və formasını tam şəkildə qorumaqla, digər dilin vasitələri ilə verən informasiya prosesi. 17. Dillərarası kommunikasiya üçün zəruri olan məlumatın verilməsi və qəbuluna istiqamətlənmiş nitq-dil fəaliyyəti. 18. Orijinaldakı gerçəkliyi yenidən yaradan proses. 19. İki dil vahidlərinin uyğunluğu invariant mənaların köməyi ilə müəyyənlişdirilir. 20. Tərcümə nəinki orijinalda (əsldə) olanı verməlidir, həm də onun necə ifadə olunmasını göstərməlidir. 21. İki və daha artıq dillərin onların semantik vahidləri arasında, adətən, ikidilli – leksikoqrafiya, müqayisəli sematik tədqiqatlar və s. üçün semantik uyğunluğun axtarılması məqsədilə aparılan iş. 22. Tərcümə elə bir dil əməliyyatıdır ki, burada bir dildə olan mətnin digər dildə olan məntlə əvəzlənməsi prosesi baş verir. Tərcümə bir dildə olan materialın (ilkin dildə) digər ekvivalentidir. 23. Tərcümə ilkin dilin mətninə ekvivalent olan materialın mümkün qədər orijinalın məzmun və üsulubi cəhətlərinin tərcümə dilində mətndə işlənməsi və reallaşma prosesidir. Tərcümə bölünmüş, parçalanmış iki fazanın düşünmə prosesini (bu zaman tərcüməçi ilkin mətni onun məna və üslubi

intensiyalarını təhlil edərək) və dili rekonstruksiyası fazasını birləşdirir ki, burada ilkin mətn kommunikativ ekvivalentliyin ən optimal tələbləri nəzərə alınır, tərcüməçi onu öz dilində yaradır. 24. Tərcümə dillərarası və mədəniyyətlərarası komminikasiyadır və təkistiqamətli və iki fazalı prosesdir ki, burada ilkin mətnin məqsəd-əuyğunun təhlili zamanı onu digər dil və mədəni mühitdə əvəz edən ikinci mətn (metamətn) yaranır. 25. İlkin məntinin ünsiyyət səmərəsini verməyə və iki dil arasındakı fərqlərə, iki mədəniyyət və iki kommunikativ situasiyaya görə Qismən modifikasiyalaşmasını xarakterizə edən proses. 26. Əslin (orijinalın) elə tam verilməsidir ki, hər hansı kənarlaşmaya yol vermədən tam, dolğun şəkildə əvəzləmə aparılmalıdır. 27. İkidillik situasiyasında informasiyanın işlənib verilməsi prosesi. 28. Artıq bir dildə ifadə olunmuşların digər dilin vasitələri ilə ifadə olunması. 29. Yeni əsərlər – mətnlərin təşkili və yaranma növlərindən biri. 30. İki dildəki fərqlər, iki mədəniyyət və iki kommunikativ situasiyadan asılıl olaraq qismən modifikasiya olunan və ilkin mətnin kommunikativ təqdimi ilə xarakterizə olunan proses. 31. Tərcüməni – təkistiqamətli, ikifazalı dillərarası və mədəniyyətlərarası kommunikasiya prosesi kimi müəyyən etmək olar ki, əvvəla onun nəticəsində birinci mətni digər dil və mədəni mühitdə təqdim edən ikinci mətn yaranır və ikinci, orijinalın iki müxtəlif mədəniyyət və iki kommunikativ situasiya ilə fərqlənən kommunikativ səmərənin yenidən yaradılmasına yönələn proses kimi başa düşmək lazımdır. 32. Nitq fəaliyyətinin bir növü kimi onun məqsədi mətnin strukturunun yenidən dəyişdirilməsini nəzərdə tutur ki, nəticə də məzmun planı saxlanılarkən ifadə planı dəyişikliklərə uğrayır. 33. Dillər arasında ünsiyyətdir ki, onun ictimai əhəmiyyəti vasitəli olan ünsiyyətin ikidillilik kommunikasiyanın dolğunluğuna, səmərəliliyinə və təbiiliyinə qədər daha çox yaxınlaşdırmaqdan ibarətdir.

**Tərcümə (2)** – dil mətninin yenidən kodlaşdırılmasıdır ki, bu zaman onun dil obrazı və üslubi forması yaranır. Tərcümə bir mətnin invariantının digərinə keçidi deməkdir ki, bu zaman orijinalın üslubi və digər spesifik xüsusiyyətlərinin maksimal dərəcədə qoru-

nub saxlanılması zəruridir. Bunun nəticəsində tərcümə affrimativ olur və mətnlərarası (metamətn) əlaqə xarakteri kəsb edir. Nəzərə alsaq ki, dillər, üslublar və mədəniyyətlər arasında fərqlər mövcuddur, orijinalın zamanı hərfi səviyyədə realizə oluna bilməz, yalnız ekvivalentlik (modelləşmə) prinsipi əsasında gerçəkləşməlidir. Bu mənada tərcüməçilik fəaliyyəti yaradıcılıq variantı, yaxud eksperimental yaradıcılıq kimi özünü göstərir.

**Tərcümə-adaptasiya** – poetik mətnin nəsr formasında (prozaik) adaptasiyası – burada mətnin nəinki hazırlıqsız oxucu üçün adaptiv uyğunlaşmasının ənənəvi istifadəsində müstəqil tərcümə janrında (sadələşdirmə, ixtisar etmə) poetik mətnin prozaik adaptasiyası, həm də tərcümə mətninin bu üslubun elementləri ilə zənginləşməsi baş verir.

**Tərcümə yollarını arama** – tərcümə dilində deyimlərin mənasının, məzmununun, onun sintaktik strukturunun və leksik tutumunun müəyyənləşdirilməsi prosesi.

**Tərcümə cütlüyü** – dil bilən mütəxəssislərin, yazıçı və şairlərin tərcümə prosesində birləşməsi. Tərcümə prosesinin iki fazasının – analiz (mütəxəssis tərəfindən orijinalın yenidən kodlaşdırılmasında) və sintez zamanı (şair tərəfindən tərcümənin kodlaşmasında) zəruri realizə nəticəsində meydana çıxır.

**Tərcümə-devalvasiya** – bu, elə poetik mətndir ki, tərcüməçinin qeyri-peşəkarlığı üzündən orijinal haqqında təhrif olunmuş təsəvvür yaranır. Bu isə öz növbəsində tərcümə olunan şairin reputasiyasına (nüfuzuna) mənfi təsir göstərməklə yanaşı, xalqlar və onların ədəbiyyatı arasında mədəniyyətlərarası dialoqun zəifləməsinə səbəb olur.

**Tərcümə dili (1)** –tərcümə edilən dil.

**Tərcümə dili (2)** – tərcümədə dil vahidlərinin orijinal və tərcümə mətnləri arasında dil səviyyəsi münasibətlərinin (fonematik, morfematik, leksik, sintaktik və daha yüksək dil quruluşunun nəzərə alınması) qurulması.

**Tərcüməedilmə** – orijinal ədəbi əsərin müəllifi ilə tərcümə qəbuledicisi arasında gedən kommunikativ aktdır ki, ədəbi kom-

munikatın tərcümə olduğunu qəbul edə, yaxud qəbul etməyə bilər. Tərcümə olunma mətndə oxucu gözləməsi kimi realizə olunur və oppozisiyaların (mövqelərin) çarpazlaşması ilə həyata keçirilir: protomətn – metamətn, aktuallaşma – ekzotizasiya, tarixiləşmə – modernləşmə. Həmin oppozisiyaların arasındakı dialektik qarşıdurma tərcümə mətnində tərcümə olunma kateqoriyası kimi realizə olunur. Tərcümə olunma mətnin üslubunda özünü göstərir.

**Tərcümə ekvivalenti –** tərcümə nəzəriyyəsində orijinal mətnin müəyyən vahidinə ekvivalent olan tərcümə mətninin vahidi başa düşülür.

**Tərcümə ekvivalentliyi –** kommunikativ ekvivalentlik kimi başa düşülməlidir.

**Tərcümə etmək –** 1. Başqa dilin vasitələri ilə artıq ifadə olunmuş məzmun və formanı vəhdət kimi əks etdirən mətnin digər dilin vasitələri ilə düzgün və tam ifadə olunması. 2. Mətnin məzmunun üslubi və ekspressiv xüsusiyyətlərini saxlamaqla, onun başqa dilin vasitələri ilə tam və düzgün verilməsi. 3. Başqa işarələrlə, digər hədlərdə ifadə etmək.

**Tərcümə fəaliyyəti –** hər hansı kollektiv, yaxud təşkilat tərəfindən həyata keçirilən mətnlərin bir dildən digərinə tərcüməsini nəzərdə tutan sistemli iş.

**Tərcümə fəaliyyətinin sosial tənzimlənmə mexanizmi –** tərcümənin sosial aspektinə kommunikativ yanaşmanın tədqiq olunmasına aiddir. Tərcümə nəzəriyyəsində ilk dəfə olaraq tərcümənin sosioloji problemləri rus alimi V.V.Andrianov tərəfindən nəzərdən keçirilmişdir. O, tədqiqatının predmeti kimi marksist interpretasiyasında sosial rolların bir sıra nəzəri anlayışlar əsasında formalaşmış tərcümə fəaliyyətinin sosial tənzimlənməsi məsələlərinə toxunmuşdur. Sosioloji aspektdə götürülən tərcümə V.V.Andrianovun araşdırmasında dillərarası gedən məqsədyönlü kontaktın qurulması və saxlanılması prosesi kimi nəzərdən keçirilir. Tərcümənin adekvatlığını isə onun mütərcim tərəfindən seçilmiş verbal və qeyriverbal vasitələrin ünsiyyətin sosial şəraitdə seçilməsidir ki, nəticədə başqa dildə ünsiyyətə girən insanda ilkin dildə olan kommunikativ

konstruksiyalara reaksiyalar əmələ gəlir. Tərcüməçinin verbal və qeyri-verbal davranışında bir sıra sosial qaydaları müəyyənləşdirmək mümkündür ki, onlardan ali hərbi məktəblərdə tərcüməçi - referentlərin hazırlığında olunur.

**Tərcümə haqqında elm –** Nitq fəaliyyətinin xüsusi növünü - tərcümə məsələlərini tədqiq edir; bax: tərcüməşünaslıq.

**Tərcümə haqqında elm** – tərcüməçilik işinin xarakterini tədqiq edən nəzəriyyə və metod. Ümumi şəkildə tərcümə haqqında elmi-nəzəri fənlərə və tərcümə praktikasına ayırmaq olar:

I. Ümumi tərcümə nəzəriyyəsi:

a) tərcümə nəzəriyyəsinin şifahi forması;

b) tərcümə nəzəriyyəsinin yazılı forması;

c) maşın tərcüməsi nəzəriyyəsi;

II. Xüsusi tərcümə nəzəriyyəsi.

III. Tərcümənin praktikologiyası.

IV. Tərcümənin didaktikası.

Xüsusi tərcümə nəzəriyyəsi öz ümumi aspektinə malik ola bilər (burada ümumiləşdirmə yalnız bir dildən başqa dilə tərcümədə ola bilər).

**Tərcümə hesablayıcı leksikoqrafiya –** bu, maşınların köməyilə tərcümənin ehtiyacını ödəmək üçün tezlik lüğətlərinin tərtibi və istifadə olunması ilə (daha doğrusu, avtomatlaşdırılmış tərcümə lüğətlərinin və tərcüməçinin avtomatlaşdırılmış iş yeri) məşğul olur. Bax: Statistika və hesablayıcı leksikoqrafiya.

**Tərcümə variantlarının tapılması və qərarların qəbul edilməsi prosesi –** sinxron tərcümədə hər biri 2-5 saniyə olan qısa müddətli «kvantlarla» həyata keçirilən və parallel aparılan proses. Bu proses tərcüməçinin şüurunda növbəti fraqmentlərin deyim məzmunun qurulması, tərcümə dilində deyimin sintaktik strukturunun müəyyənləşdirilməsi və onun digər mümkün variantları və tərcümə üçün yararlı leksik vahidlərin seçilməsində özünü göstərir. Tərcümə prosesində, yaxud tərcümə həllinin seçimində həll fazalarındakı qatlardan hər biri aparıcı rol oynaya bilər. Sinxron tərcümə-

də bu proses müəyyən dərəcədə qərarların hazır stereotip bloklarından istifadəyə əsaslanır.

**Tərcümə həlli yaddaşı** – tərcüməçinin bütün yaradıcılıq fəaliyyəti dövründə yaratdığı üslubi priyom və prinsiplər xəzinəsi. Tərcüməçi üslubi vərdişlərlə gerçəkləşən tərcümə həlli yaddaşı oxucuya üçün nəzərdə tutulmuş üslubi priomun gözlənilməsi kimi təsir edir.

**Tərcüməçi qərarının həyata keçirilməsi prosesi** – sinxron tərcümədə parallel olaraq tərcüməçinin ilkin mətndə oriyentirləşməsi (istiqamətlənməsi) prosesi və tərcümə həllinin axtarılıb tapılması prosesi ilə eyni gedir. Bu tərcümə dilində işlənib hazırlanmış tərcümə həllindəki deyimlərin komponentlərinin ortaya çıxmasında özünü göstərir.

**Tərcümə həllinin realizə mexanizmi** – proqramlı motor (mütəhərrik) tərcümə həlli, səslər seçimi və tərcümə dilində nitqin tələffüzü zamanı həyata keçirilir.

**Tərcümə-imla (1)** – diktə yolu ilə aparılan tərcümə deməkdir.

**Tərcümə-imla (2)** – 1. Bu elə tədris-təlim tərcümə növüdür ki, burada müəllim mətni bir dildə oxuyur, təlim alanlar onu digər dildə yazırlar. 2. Bax: həm də-tərcümə imla.

**Tərcümə kompensasiyaları** – özündə əlavə fikirləri əks etdirən (birləşdirərək) tərcümə prosesində gedən qrammatik transformasiyalar (sintaktik və bəzi sözlərin tərcümədə buraxılması (tərcüməçi baxımından tərcümə üçün artıq olan informasiyanın verilməməsi) və eyni zamanda əlavə fikir və tərcümədə buraxılmış sözlərin bir-biri ilə uyğunlaşdırılması üsulu.

**Tərcümə leksikoqrafiyası** – ikidilli və çoxdilli lüğətlərin tərtibi ilə məşğul olur. Bax: ikidilli leksikoqrafiya.

**Tərcümə lüğəti** – iki və daha artıq dillərin (onların bu və ya digər hissəsinin, yaxud hamısını) lüğət tərkibinin planlı şəkildə müqayisəsini əks etdirən lüğət.

**Tərcümə metodikası** – 1.Tərcüməçilik fəaliyyətinə öyrətmə nəticəsində praktik fəaliyyət zamanı əldə edilən metod və priyomların məcmusu; 2.İkidillilik (qoşadillilik) şəraitində informa-

siyanın işlənib hazırlanmasında istifadə olunan metodların məcmusu; 3.Mətnlərin tərcüməsinin yerinə yetirilməsi prosesində praktikada yoxlanılıb sınaqdan keçirilmiş və elmi cəhətdən əsaslandırılmış qaydalar. Bax**: tərcümə texnikası, tərcümə təcrübəsi.**

**Tərcümə metodu (1) –** tərcümə üsulundan fərqli olaraq tərcümə metodu obyektiv, mövcud qanunauyğunluq yox, tərcümənin növ və üsullarını nəzərə alan qarşılıqlı priyomların məqsədyönlü sistemidir.

**Tərcümə metodu (2) –** tərcümənin realizə üsulu. Tərcümə metodu tərcüməçinin ondan əvvəlki tərcümə ənənəsinə fərdi münasibətindən, ədəbi savad dairəsindən və mövcud ədəbi kanonlara, dövrün estetik prinsiplərinə münasibətdən asılı olaraq formalaşır. Tərcümə metodu – tərcümə prosesinin onun bütün aspektlərində tərcüməçi tərəfindən realizasiyası deməkdir.

**Tərcümə məktəbi –** tərcüməçilərin ictimai mövqelərinin ideya – estetik oriyentasiyası əsasında, tərcüməçilik metodu və ədəbi savad xarakteri səviyyəsində birləşməsi.

**Tərcümə mətni –** 1. Tərcümə nəticəsində alınan mətn. 2. Tərcümə dilindəki mətn. 3. Tərcümədə ilkin mətn (bəzən onu orijinal, yaxud əsl də adlandırırlar) və tərcümə mətni fərqləndiririlir.

**Tərcümə mətni yaranma prosesində oxucu –** tərcümənin obrazlı strukturunda oxucuya yönəlik ustanovkaları proyeksiyası. Oxucunun zövq və maraqlarına uyğun olan vasitələrin seçilməsi.

**Tərcümə mətnində adaptasiya –** mətnin mövzusuna və onun elementlərinə (personajlarına, realilərinə) aid olan tərcümənin işlənib hazırlanması. Buna qəbuledicilərin və qəbul edən mühitin ədəbi-mədəni kommunikativ maraqlarını qoruyan adaptasiya da deyilir.

**Tərcümə mətnində aktuallaşma –** əsərdə realizə olunan zaman və hərəkətə aid olan tərcümə mətninin işlənib hazırlanması. Mətnin işlənib hazırlanması onu qəbuledənlərin, yaxud qəbuledən mühitin ədəbi normaları ilə.

**Tərcümə mətnində aralıq dil** – qrammatik, leksik, üslubi sistemlərdir ki, mətnin təşkilində tərcüməçiyə xidmət edir. Tərcümə

prosesində onlar müqayisə fonu kimi xidmət edir. Əlaqələndirici (aralıq) amil kimi üslubi səviyyədə üslubi sistem tərcümənin gərəkliyi, yaxud uyğunluq vasitəsi kimi çıxış edir.

**Tərcümə mətnində dil ekvivalentliyi –** orijinal və tərcümə səviyyəsində dil səviyyəsində elementlərin həmcinsliyi (fonetik, morfoloji və sintaktik). Dil səviyyəsində həmcinslik mətnin üslubi səviyyəsində ekvivalentliyin müəyyənləşməsi ilə əlaqədardır.

**Tərcümə mətnində dil əməliyyatları –** məlumatı verən və qəbul edən dil arasında vahidlərin uyğunluğunun seçilməsi.

**Tərcümə mətnində dövrün üslubu –** müasir ədəbi dil kanonlarında qoyulmuş üslubi konvensiyalar sistemindən fərqli olaraq, m.vcud oxucu vərdişləri və göstərilənlərdən fərqli olan üslub. Hər bir mətn ədəbi konvensiyalara tabe olur. Ədəbi kanon dəyişə bilər və belə olduğu halda üslubun bədii norması da dəyişəcəkdir.

**Tərcümə mətnində ekzotizm –** orijinaldan tərcüməyə keçirilmiş tematik, dil, üslubi elementlər. Burada söhbət orjjinal mədəniyyəti üçün tipik olan və tərcümə mədəniyyəti üçün məlum olmayan qeyri-adi elementlərin seçimindən gedir. Tərcümənin orijinala yaxınlaşdırılması tərcümə mətnində dil transpozisiyalarını və tematik faktları əhatə etməklə baş verir. Mətnin təşkilində ekzotiklik semiotik əməliyyatdır və orijinal ədəbiyyat mətnində də əksini tapır. Odur ki, onu tərcümə ədəbiyyatını, orijinal yaradıcılıqdan fərqləndirən yeganə əlamət kimi hesab etmək olmaz.

**Tərcümə mətnində ifadənin substitusiyası (əvəzlənməsi) –** ifadənin tərcümə olunmamış elementlərinin ona təxminən yaxın olan bədii mənasına görə funksional əvəzlənməsi.

**Tərcümə mətnində kommunikativ mövqelərin konfrontasiyası –** kommunikativ əks əlaqə, daha doğrusu, tərcüməçinin oxucu qavrayışı səviyyəsini nəzərə almağa cəhd etməsi. Bu, konkret olaraq tərcüməçinin bədii priyomların tətbiqində, üslubi seçimlərin müəyyənləşdirilməsində özünü büruzə verir.

**Tərcümə mətnində kommunikativ situasiya** – kommunikasiya prosesində tərcümədə yaradılmış münasibət: bu situasiyada iştirak edənlər: tərcüməçi mətnin ekspediyenti rolunda və qəbuledici

– rolunda iştirak edir. Kommunikativ situasiya tərcümənin üslubi quruluşunda özünü əks etdirir.

**Tərcümə mətnində lokallaşma** – mətndə məkan kateqoriyasına aid olan orijinalın tematik elementlərinin işlənilib hazırlanması (hərəkət yeri və onunla bağlı hər şey). Lokallaşma oxucu qavrayışının qəbuledicini yüngülləşdirməyə istiqamətlənmə.

**Tərcümə mətnində mənaların invariantlığı –** invariant nüvə mətnin semantik elementlərinin daimi, əsas, dəyişilməz hissələridir. Onların mövcudluğunun mənaların qatlaşdırılma eksperimenti ilə sübut etmək olar (semantik kondensasiya). Daimi mənaların əsas nüvəsi əsasında oxucu, tərcüməçi (və digərləri) konkretləşməsi, yaxud transformasiyası və onun variantları yaranır. Bu zaman məna nüvəsi dəyişilmir, burada yalnız forma sahəsində və təsviri vasitələrdə dəyişikliklər baş verir.

**Tərcümə mətnində mənaların qatılaşdırılması –** bax: tərcümə zamanı semantik kondensasiya.

**Tərcümə mətnində mövzu –** orijinalın və onu «məzmununun» tərcümə zamanı quruluşunun gerçəkləşdirilməsi. Mətnin tematik elementləri və onların təşkili (kompozisiya) orijinaldan o qədər də böyük dəyişikliklər olmadan tərcüməyə köçür. Tərcümədə baş verən tematik yerdəyişmələr orijinaldakı və tərcümədəki sosial-psixoloji və mədəni fərqlərlə bağlı olur ki, burada tərcüməçi oxucunun zövq maraqlarını (mövzunun adaptasiyası, lokalizasiyası, aktualizasiyası) ödəməyə çalışır.

**Tərcümə mətnində «yad» mədəniyyət –** orijinal mədəniyyətin tanınmasını şərtləndirən mətndəki mövzu, dil və üslubi elementlər. Burada söhbət mlli ədəbi struktur kontekstinə münasibətdə olan yeni mətndən gedir.

**Tərcümə mətnində tərcümə olunma və tərcümə olunmama elementləri arasında münasibət** – bax, tərcümədə üslubi və məzmun ekvivalentliyi.

**Tərcümə mətnində üslub –** tərcümədə elementlərin üslubi təşkili onun eyni üslub elementlərinə münasibətdə və onların ori-

jinalda dil və tematik korrespondensiyalarda təşkilinin nəzərə alınmaması.

**Tərcümə mətnində üslubi yerdəyişmə** – orijinalın və tərcümənin ayrı-ayrı elementlərinin ümumi məna və üslubda ekvivalentliyinin əldə edilməsi üçün funksional uyğunsuzluq

**Tərcümə mətnində milli aspekt** – tərcüməçinin ədəbi və mədəni məxsusluğunu xarakterizə edən dil və mövzu elementləri oxucu vərdişləri və eləcə də oxucunun gözləmə stereotipi.

**Tərcümə mətnində yeni üslubun tapılması** – bu, orijinalın üslubi və semantik invariantının tərcümədə gerçəkləşməsi deməkdir ki, onun nəticəsində milli ədəbiyyatın üslub ənənəsi yeni elementlərlə zənginləşdirilir.

**Tərcümə mətnində zaman aspekti** – bu, orjjinal mətnlə tərcümə mətni arasında zaman məsafəsi ilə şərtlənən kommunikativ dəyişiklikdir. Zaman aspekti iki əsas səviyyədə proyeksiyalaşır: mətnin maddi substratı səviyyəsində (qrammatik zaman) və mətnin semiotik funksiyası səviyyəsində (zaman mədəniyyət fenomeni kimi). Tərcüməçi üçün daha vacibi zaman proyeksiyasıdır ki, bu mətnin dərinləşdirilmiş ölçüsü olur. Tərcümədə isə bu ölçü orijinalın zamanın yaxınlaşdırılması (tarixiləşmə), yaxud onun uzaqlaşması (modernləşməsi) ilə ifadə olunur, bu isə tərcümənin kommunikativ mövqeyindən asılıdır. Orijinal mətndə realizə olunmuş mədəni kod tərcümə mətnində realizə olunan mədəni kodla öz intensivliyinə görə üst-üstə düşə də bilər, düşməyə də bilər (ümumiyyətlə, əksər hallarda üst-üstə düşmür). Belə ki, burada zamanın ya gecikməsi, ya da qabaqlanması özünü büruzə verir.

**Tərcümə mətnində zamanarası amil** – bu, orijinal və tərcümə mətnləri arasındakı fərqdir ki, orijinalın və tərcümənin yarandığı mədəni sistemlər nəticəsində özünü göstərir. Onlar arasındakı gərginlik «özünün» və «özgənin» oppozisiyasını əks etdirir (Y.M.Lotman). Mədəniyyətlərin bu ziddiyyətləri arasında intensivlik mətnlər arasındakı tarixi, antropoloji və psixoloji fərqlərlə ifadə olunur.

**Tərcümə mətninin sistemli-obrazlı strukturu** – dil vasitələrinin seçimi əsasında obrazlı sistemin tək, yaxud standartlaşmış təşkilidir ki, o tərcüməçinin kommunikativ mövqeyi ilə müəyyənləşir; üslubun sintaqmatik aspekti.

**Tərcümə mətninin tarixləşməsi –** tərcümə olunacaq bütün mətnə, yaxud onun bir hissəsinə aid olunan və müəllifin orijinal əsərinin semantik – üslubi kodundan (poetikasından) yaranan mövzu və dil işləməsi.

**Tərcümə mətninin üslubi istiqamətliliyi** – tərcümə mətnində orijinalın üslubi xüsusiyyətlərinin proyeksiyası və gerçəkləşməsi. Üslubi istiqamətliliyin həyata keçirilməsi mətnarası invariantın stoxastik (həqiqətə uyğun) qorunub saxlanılmasında əhəmiyyətli olur.

**Tərcümə modeli –** tərcüməçilik fəaliyyətinin modeli.

**Tərcümə uyğunluğu –** bu, tərcüməyə ekvivalentlik deməkdir.

**Tərcümə nəzəriyyəsi –** tərcümənin sistemli şəkildə öyrənilməsi ilə məşğul olan elmi fənn. Məntiqi – sintaktik, semantik aspektləri ilə bərabər, həm də praqmatik cəhət onun tərkib hissəsini təşkil edir. Tərcümə nəzəriyyəsinin ayrı-ayrı aspektləri tədqiqatın sinxron və diaxron müvafiqliyində gedir.

**Tərcümə nəzəriyyəsinin metadil problemi –** əslində bu vasitəçi dil - əlaqəli problemidir. Bir tərəfdən, linqvistikada mübadilə dedikdə «ikinci sırada duran dil» başa düşülür, daha doğrusu, təbii dil üzərində qurulan mülahizələr. Burada müəyyən anlayışlar sisteminə müvafiq olan linqvistik nəzəriyyələr çoxluğundan söhbət gedə bilər ki, dillərin mühüm əlamətlərini əks etdirən və onların həm zahiri, formal, həm də daxili, məzmun tərəflərini təsvir etməyə imkan verir. Digər tərəfdən, dilçilikdə metadil dedikdə bəzən linqvistik təsvirin daha mücərrəd sxemi başa düşülür. Tərcümə prosesinə tətbiqən belə sxem aşağıdakıları özündə əks etdirir: a) elementar məna vahidləri cəmi; b) mətnin müvafiq parçasının yaranması tarixi; c) onun üslubi xarakteristikasını. Bax: həm də tərcümə metadili.

**Tərcümə nəzəriyyəsinin predmeti** – onun predmeti dillərarası kommunikasiyanın leypsiq məktəbi tərcümə nəzəriyyəsinin terminlərdə «dil vasitəçiliyi»nin spesifik növü.

**Tərcümə oxucusu** – ədəbi metakommunikasiyanın iştirakçısı, tərcümənin qəbuledən.

**Tərcümə oluna bilməmə** – bu, orijinal və tərcümənin dil elementləri arasında arzu ediləcək dəyişikliklər baş vemədiyi situasiyadır ki, burada nə struktur, nə xətti, nə də funksional dəyişikliklər baş vermir. Bu, eyni zamanda elə situasiyadır ki, yaradıcı subyektlə orijinalın dil ifadələri tərcümə olunan dildə öz adekvat əksini tapmır.

**Tərcümə olunan mətn** – bir dildən digərinə tərcümə olunan mətn.

**Tərcümə olunma** – 1. İki dildən istifadə ilə kommunikasiya şəraitində məlumatı obyektiv verə bilmək imkanı. 2. bax: həm də: tərcümə olunma - tərcümə olunmama problemi.

**Tərcümə** – bu, orijinal və tərcümənin dil elementləri arasında və obrazlar sistemində struktur, yaxud funksional dəyişikliklərin aparılma situasiyasıdır. Burada - tərcümədə funsional əvəzləmə üslubi (yer dəyişmələrin) köməyi sayəsində əldə edilir.

**Tərcümə və tərcümə olunmama problemi** – 1. Tərcümə olunma problemin - tərcümə probleminin ən köhnə nəzəriyyələrindən biridir. Bu problem tərcüməyə tələbat yaranan və onu formalaşdırmağa cəhd olduğu bütün zamanlarda ortaya çıxır. Prinsipial tərcümə olunma təxminən xalqlar eyni səviyyədə olanda (onların elmi-texniki inkişafı bir-birinə uyğun olanda) gedə bilər. Belə olduqda bir dildə ifadə olunan digər dildə ifadəsini tapa bilər, yəni tərcümə mümkündür. Burada bir problemin iki tərəfi var. Tərcümə informasiyanı elə şəkildə çatdırılmalıdır ki, orada hər hansı itki getməməli, orijinalın məzmun və forması çatdırılmalı, bu zaman, dəqiq şəkildə informasiyanın dəyişdirilməsi mümkün deyildir. Əgər tərcüməni məlumatın verilməsi və qəbuluna istiqamətlənmiş nitq-dil fəaliyyəti kimi nəzərdən keçiririksə, daha doğrusu, bu dillərarası kommunikasiya üçün zəruridirsə, bu zaman tərcümə olunma

problemi müsbət həll olunur. Sonuncu halda mövcud informasiyanın verilməsi şəraiti sanki ünvançıya onun çatdırılasını deyir. Bədii tərcümədə oxucuya ilk növbədə əsərin müəllifinin üslubunu çatdırmaq lazımdır. Sinxron və ardıcıl tərcümədə isə yalnız məkanın verilməsi ilə məhdudlaşmaq olar. Lakin bunun özü də əsilin adekvatlığını və tamlığını müstəsna etmir. 2. Əgər tərcüməni artıq hər hansı dildə ifadə olunmuş fikir kimi qiymətləndiririksə, deməli, tərcümə olunmayan orijinal da yoxdur. Belə ki, bir dildə ifadə olunanı digər dildə də ifadə etmək olar. Deməli, belə olduqda biz çətin tərcümə olunan mətnlərdən danışa bilərik. Tərcümə zamanı bu, ya orijinalın dilini mükəmməl bilməmək ucbatından ortaya çıxan çətinliklərlə bağlıdır, yaxud predmetin mahiyyətinin tam bilinməməsi, daha doğrusu, dərk olunmaması, xüsusi biliklərin natammalığı ilə bağlı olur. Yaxud tərcümə edilən dilin özünün zəif bilinməsi ilə bağlı olan çətinliklərlə, yaxud da tərcümə dilində hazır ekvivalentlərin olmaması ilə əlaqədardır. 3. Tərcümə olunma ilkin dildə və tərcümə dilindəki dildaxili üslubi, semantik informasiyanın yenidən yaradılmasıdır.

**Tərcümə olunmama –** 1. Doğma dildə ideal ekvivalentin olmaması, yaxud orijinaldakı bu və ya digər sözə, yaxud anlayışa uyğunsuzluq. Bu, tərcüməçinin tərcümənin bu və ya digər priyomlarında bacarıqla istifadə etmək yolu ilə verilir. 2. Bax: tərcümə olunma - tərcümə olunmama problemi.

**Tərcümə olunmuş mətn –** tərcümə prosesi nəticəsində alınan mətn.

**Tərcümə praktikası –** 1. Tərcümə nəzəriyyəsi, metodikası və texnikasının əsasında dayanan seçilmiş bilik və bacarıqların tərcüməçilik fəaliyyətinin onun şifahi və yaxud yazılı prosesində tərcüməçinin koqnitiv hərəkətləri və bu fəaliyyətlə sistemli məşğuliyyət nəticəsi, daha doğrusu, ikidilli situasiyada informasiyanın işlənməsi. 2. Tərcüməşünaslığın tədris prosesində nəzəri biliklərin tətbiqi və möhkəmləndirilməsi. 3. Təcrübəyə əsaslanan ikidilli situasiyada yazılı və yaxud şifahi informasiyanın işlənib hazırlanma

bacarığı, məşğuliyyəti, işi. Bax: tərcümə metodikası, tərcümə texnikası.

**Tərcümə priyomu** – tərcümə prosesində ortaya çıxan tərcüməçinin fəaliyyəti, yaxud konkret əməliyyatlar.

**Tərcümə prosesi** – 1. Bir işarələr sistemindən digərinə keçid. 2. Orijinaldakı hər hansı ekvivalent vahidlərin əvəzinə tərcümə dilində ekvivalent vahidlərin ardıcıl olaraq qoyulması prosesi. 3. Tərcüməçinin ilkin mətndən qavradığını tərcümə mətnində yaratması. İki dildən istifadə etməklə kommunikasiyanın əsas həlqəsini və spesifikasını təşkil edir. 4. Bir dildə göndərəndən digər dildə adresata (informasiyanın verilməsi yolu ilə (şifahi, yaxud yazılı) şəyata keçirilən kommunikasiya aktı, yəni, ikidilli kommunikasiya aktı. 5. Üç hissədən ibarət məqsədyönlü, adekvat proses: a) hər hansı dildə görmə, yaxud eşitmə yolu ilə anlama məqsədilə qavrama; b) başa düşülmüşün dildə təhlili məqsədilə məlumatın, yaxud orijinalın öz şəxsi biliyinə çevrilməsinin dərk olunması; c) digər dildə yadda saxlanılmışların yenidən səsləndirilməsi (əksər hallarda ana dilində) öz biliyinin malına çevrilmişi digər şəxsə çatdırma. 6. Burada sözlər, orijinalda digər dilin qrammatik konstruksiya və vasitələri yox, orijinalın məzmunu, mənası tərcümə olunur. Məzmun bir daha ifadə olunur. Bu dəfə tərcümədə, lakin öz qanunları olan digər sistem işarələri yaradan başqa vasitələrin köməyi ilə gedir. 7. Ümumi şəkildə desək, o, çoxsaylı funksional kriteriyalar arasında gedən axtarış həlli prosesi kimi nəzərdən keçirilə bilər. Tərcümənin nəticəsində təsir edən və eyni zamanda geniş perifraz (kontekstual sinonimiya) tərcümə həllinin heç də yeganə həll olmadığını və çoxsaylı dəyişkən həcmlər olduğunu göstərir. Başqa sözlə, deyim çərçivəsində tərcümənin bir neçə «düzgün» variantı mümkündür. 8. Fikir-nitq fəaliyyəti olmaqla, üç ardıcıl mərhələni özündə birləşdirir: ilkin dildə olan ifadələrin fikrinin başa düşülməsi; təfəkkürün bir obyektdən digərinə qoşulması (bir dildən başqa dilə); tərcümə dilinin vasitələri ilə fikrin ifadəsi. Buradan belə bir nəticə çıxır ki, tərcümə nitq fəaliyyətindəki digər dörd növə nisbətən – şifahi nitq, məruzəyə qulaq asanlar, yazılı nitq və özü-özünə oxuya nisbətən

ikincidir; tərcümənin hər hansı növü üzrə bacarıq və vərdişlərin nitq fəaliyyətinin sadaladığımız iki növündən (audirovaniye – şifahi nitq, audirovaniye – yazılı nitq, öz-özünə (ürəkdə) oxuma – yazılı nitq) və bir dildən başqa dilə keçid təfəkkürünü tərcümənin hər hansı növünü yuxarıda qeyd etdiyimiz nitq fəaliyyətinin iki növünə bölmək mümkündür. 9. Hər hansı mətnin, yaxud şifahi nitqin digər dilin köməyilə birincinin məzmun və formasının vahidliyini yenidən yaratma prosesi. Adətən tərcümə dedikdə nəinki proses, həm də tərcümə olunmuş mətn, bəzən isə tərcümə olunmuş sənəd nəzərdə tutulur.

**Tərcümə prosesində kommunikativ miqyaslar –** tərcümə aktını iki kommunikativ zəncirin (Müəllif→Mətn→Oxucu/Tərcüməçi→Mətn→Tərcümə) asılılığı kimi nəzərdən keçirən konfrontasiyası kimi qəbul edən kommunikativ imkan diapazonudur ki, onlar eyni zamanda eyni şəraitlərdə fəaliyyət göstərmir. Bu konfrontasiya prosesində tərcüməçinin mətn səviyyəsində zaman və məkan baxımından kənarlaşması gedir.

**Tərcümə-referat –** bəzən tərcüməçiyə mətni ixtisar imkanı verilir ki, oradan o, ikinci dərəcəli şeyləri kənara atıb, tərcümə olunan işin məzmununu daha müxtəsər şəkildə öz sözləri ilə şərh etməsi nəzərdə tutulur. Tərcümə-referat orijinalın əsas fikrini əhatəli şəkildə işıqlandırmalı və referat öz lakonikliyi ilə seçilməlidir. Tərcümə-referatda, xüsusən, yenini fərqləndirməyə ehtiyac vardır.

**Tərcümə-reminissensiya –** orijinalın təsiri altında və onun məzmunun və yaxud formasının komponentlərindən istifadə etməklə, lakin müəllif əsərinin ilkin mənbəsi göstərilməməklə yaradılmış bədii poetik mətn.

**Tərcümə reseptoru** – bu, elə adresat, alıcı deməkdir.

**Tərcümə tarixi –** diaxron aspektdə tərcümə prosesinin modernləşdirilməsi. Tərcümə tarixi ədəbi prosesin bir hissəsini təşkil edir. Milli ədəbiyyat tarixinə məxsusdur. Tərcümə tarixi məhdud mənada isə tərcüməçilik proqramlarının tarixi, tərcümə konsepsiyasını və tərcümə metodlarının inkişafını özündə ehtiva edir. O, ədəbi əlaqələr tarixi və tarixi üslubiyyatla bağlı olur. Tərcümənin daxili

inkişafının tarixi poetika ilə çarpazlaşması tərcümə tədqiqatının modelini əks etdirir.

**Tərcümə tənqidi –** ədəbi tənqid tərəfindən tərcüməyə münasibətdə irəli sürülən dləyərləndirmə meyarlarının cəmi. Tərcümənin aksiologiyası – tərcümə mətninin aktual dəyər kriteriyasıdır. Dəyər kriteriyasının qoyulmasında ədəbi tənqid praqmatik funksiyası ilə iştirak edir. Adətən, praktikada tərcümə tənqidinə üç əsas mövqe əks olunur: oxucu dəyəri tərcümənin tənqidi kimi, orijinalın ideya - estetik dəyərinin tərcümə olunmuş mətndə reallaşması; tərcümə olunmuş əsərin qəbuledici ədəbi kontekstində ideya – estetik əhəmiyyəti

**Tərcümə tipləri –** tərcümənin realizə tipinə uyğun olaraq gerçəkləşməsi (elmi, bədii, publisist və s.). Operativlik və ikoniklik kimi ziddiyyətlər əsasında qurulan ilkin üslubun əsas sxemi anlaşma və emosionallıq üzərində qurulmaqla, ilkin üslubların müvafiq qollarını təqdim edir.

**Tərcümə transformasiyaları –** müvafiqliyin üçüncü kateqoriyasıdır ki, burada nitq vahidlərinin mənalarından asılı olan uyğunluğu tərcüməçinin özü yaradır. Belə olduğu halda, təsviri tərcümə tərcüməçinin köməyinə çatır və məntiqi təfəkkürün mənanın konkretləşməsi ilə bağlı, mənanın generalizasiyası, anatomik tərcümə və s. köməyə gələ bilir.

**Tərcümə universaliləri –** 1. Tərcümənin şəraitindən asılı olmayaraq, mətnin janr xarakteristikasından, ünsiyyətə girən dillərdən asılı olmayaraq tərcümənin anlayış və kateqoriyaları. Tərcümə universalilərinə invriant, məlumat, tərcümə üsulu, müvafiqlik, tərcümə vahidi və s. aid etmək mümkündür. 2. Tərcüməçilik fəaliyyətinin bütün müxtəlif növlərinə, hadisə və kateqoriyalarına xas olan xüsusiyyətlər: tərcümə prosesinin sxemi, tərcümənin invariantı, tərcümə vahidi və s. aiddir.

**Tərcümə üçün mətn seçimi –** bax, tərcüməçi proqramı.

**Tərcümə üsulu –** tərcümə haqqında elmin əsas kateqoriyalarından biri. Tərcümə üsulu obyektin mövcud olan tərcümə fəaliyyə-

tində bir dildən digərinə keçidin qanunauyğunluğu. Tərcümənin iki üsulu məlumdur: işarə və məna.

**Tərcümə vahidi –** ayrı-ayrı vahidlərin tərcüməsidir.

**Tərcümədə semantik kondensasiya –** mətndə semantik seqmentlərin tədricən formalizə olunması zamanı gedir ki, onun köməyi ilə mətnin əsas modelinin invariantına eksperimental yanaşma mümkündür.

**Tərcümədə bədii inversiya –** digər dildə tərcümə zamanı özünü göstərən və tərcüməçinin maraqlarına uyğun olaraq transformasiya.

**Tərcümədə dilin kreolizasiyası –** tərcümə dilinin orijinal dilinin elementləri ilə sistemsiz şəkildə doldurulması; iki dil strukturunun tərcümədə qeyri-orqanik çarpazlaşması. Orijinal dil strukturunun tərcümə dilinə, hər şeydən öncə, leksik, morfoloji və sintaktik formalardan kalkalaşma yolu ilə gedir.

**Tərcümədə mədəniyyətin «kreolizasiyası»** – iki mədəniyyətin çarpazlaşması; iki mədəniyyətə məxsusluq (tərcümə «sənəd» kimi, yaxud orijinal mədəniyyətinin daşıyıcısı və vətən, qəbul edən mədəniyyətinin özünəməxsus faktı).

**Tərcümədə neqativ yerdəyişmə –** orijinalın dərk olunmaması ilə şərtlənən üslubi informasiyanın qeyri-adekvat həlli. Neqativ yerdəyişmə tərcümə mətnində dili bilməmək, yaxud orijinal strukturunun səthi interpretasiyası ilə motivləşə bilər. Tərcümə mətnində neqativ yerdəyişmə, belə demək mümkünsə, «perevodizm»lərin, yaxud son dərəcə yüksək interpretasiyası şəklində, orijinal mətnin interpretasiyasında özünü göstərir.

**Tərcümədə orijinala sadiqlik –** bax, tərcümədə üslubi və məzmun ekvivalentliyi.

**Tərcümədə orijinalın kodlaşması** – bax, tərcüməçinin metabədii fəaliyyəti.

**Tərcümədə relyativ tarixiləşmə –** bu, əsərin bütün mətninə yox, müxtəlif səviyyələrinə aid olan tematik və dil işləməsidir. O, müəllif koduna (poetikasına) uyğun olaraq tərcüməçinin mövzu-üslubi direktivlərindən irəli gəlir.

**Tərcümədə tematik yerdəyişmə** – orijinalda və tərcümədə tematik realilər arasında olan müxtəlifliklər. Tərcümə zamanı tematik yerdəyişmə denotatların çatışmazlığı nəticəsində yaranır: konnotasiyaya üstünlük vermənin özü konnotasiyanın ziyanına ola bilər.

**Tərcümədə transformasiya –** tərcümə zamanı orijinalın dilinin, mövzusunun, üslubunun modifikasiyası, tərcümənin yaradılması şəraitində orijinalın invariant nüvəsi. Tərcümədə transformasiya müəyyən dərəcədə ekvivalentlik dərəcəsi yaradır, daha doğrusu, burada tərcümənin orijinala yaxınlaşdırılma dərəcəsi nəzərdə tutulur

**Tərcümədə üslubi itkilər –** orijinalın bədii strukturunun tərcümə mətnində bədii üslubi elementlərinin itirilməsi**.**

**Tərcümədə üslubi kalkalaşma –** orijinaldan tərcüməyə keçirilmiş, işlənilmiş hazır üslubi sxem və metodlar. Bu, mətnin makro, yaxud mikroüslubi səviyyəsində həyata keçirilə bilər.

**Tərcüməçi (1) -** 1. Bir dildən digərinə çevirən, tərcümə üzrə mütəxəssis. 2. Həm ilkin dildən alıcı rolunu da, həm də sonuncu dildən, yəni tərcümə dili rolunda çıxış edən ikidilli kommunikativ akt iştirakçısı. 3. Ünsiyyətdə əlavə; ona ehtiyac, zərurət o zaman yaranır ki, mənbə ilə adresatın kodları üst-üstə düşmür. 4. Müəyyən mənada onu linqvoölkəşünas da hesab etmək olar ki, o özü konkret mədəniyyət daşıyıcısı olsa da, digər mədəniyyət haqqında da eyni dərəcədə müvafiq biliyə malik olmalıdır.

**Tərcüməçi (2) -** yaddilli məlumatı (mətni) qəbul edən məlumatın (mətnin) digər dildə yenidən kodlaşdırılmasıdır.

**Tərcüməçinin ümumi informasiya mənbələri –** 1. Ümumi təyinatlı lüğətlər: A. İkidilli lüğətlər; 1) xarici – Azərbaycan və Azərbaycan- xarici qeyri-ixtisas lüğətləri; 2) frazeoloji lüğətlər. B. Birdilli lüğətlər; 1) Azərbaycan dilinin izahlı lüğəti, xarici dilin və əcnəbii söz lüğətləri; 2) köməkçi (yardımçı) lüğətlər (sinonimlər, antonimlər, orfoqrafik); 3) ümumitəyinatlı ensiklopedik lüğətlər. II. Ümumi ensiklopediyalar.

**Tərcüməçi mövqeyi (ideoloji)** – tərcüməçinin orijinalın ideya – estetik xüsusiyyətlərinə münasibəti, orijinal müəllifinin və onun ədəbi aktivlik fəaliyyətinin dəyərlənirilməsi.

**Tərcüməçi mövqeyi (üslubi) –** hakim ədəbi baxışlar çərçivəsində yaranan orijinalın üslubi xüsusiyyətlərinə münasibətdir ki, bu, tərcüməçinin fərdi üslubi meyilləri ilə bağlıdır. Balsenjanın əsərlərinə uyğun olaraq biz bu, mövqenin üç realizasiyasını nəzərdə tuturuq: sıfır tərcümə üslübi nöqteyi-nəzərdən ifadəli deyil, izafidir – üslubi informasiya yalnız kəmiyyət baxımından qarantlaşdırılır; tərcümədə yeni üslub.

**Tərcüməçi mövqeyi (üslubi nuleveya)** – tərcüməçinin dil və tematik ekvivalentlik səviyyəsindən qurtula bilməməsi və üslubi ekvivalentlik səviyyəsinə çıxması.

**Tərcüməçi proqramı –** tərcümə üçün mətn seçimi. Tərcüməçinin proqramı, adətən, mədəni-ictimai situasiya, mədəni-ictimai tələb və ədəbi səviyyədən ibarətdir. Tərcüməçi proqramı həm normanı üstələyə, həm də fərdi zövqünə uyğun olaraq geri də qala bilər.

**Tərcüməçi-referent –** 1. Xarici (ən azı iki) dillər üzrə mütəxəssis; ali məktəblərin tərcümə fakültəsini bitirmiş məzunlara verilən ixtisas; yeni dövlət standartı: «linqvistika və kulturoloji dərəcə (ixtisaslaşdırma)» linqvist. Tərcüməçi. 2. Müqayisə et: referent və tərcüməçi – referent.

**Tərcüməçilər kollektivi** – tərcümə ilə bağlı bir neçə tərcüməçinin birliyi və ədəbi mətnlər toplusu. Adətən, tərcüməçi kollektivi iri həcmli ədəbi əsərlərin tərcüməsi zamanı (çoxcildli) yaranır.

**Tərcüməçilik fəaliyyətinin modeli** – o, özündə dörd səviyyəni əks etdirir. Birinci səviyyəni mətninin ümumi strukturunda sözlərin ilkin mənasının başa düşülməsini və dərk edilməsini tərcümənin realizəsi kimi qeyd etmək olar. Daha sonra tərcümənin sxem səviyyəsində realizasiyasında mətnin ayrı-ayrı vahidlərinin (söz, söz birləşməsi, frazoloji vahidlər), həm də daha iri seqmentlərin (cümlə, cümlədən böyük vahidlərin, bütöv mətnin) mənasının daha dərindən və dəqiq müəyyən edilməsi amili özünü göstərir. Bu, tərcüməçi

fəaliyyətinin ikinci səviyyəsidir. Burada tərcüməçinin fəaliyyət kompleksinin orijinalın məna və üslubi informasiyasının tərcümə dilinin köməyi ilə yaradılması göz qabağındadır. Bu kompleksi ümumi sxemdə üçüncü səviyyəyə aid etmək olar. Dördüncü səviyyə – bu, tərcüməçinin yekun - qiymətləndirici fəaliyyətidir. Onu tərcüməçinin «nəzarət özünüredaktəsi» də adlandırmaq olar. Nəzarət özünüredaktə xüsusən peşəkar tərcüməçi üçün vacibdir. Lakin bununla belə, «məşq tərcümələr»in ali məktəb tələbələri ilə təlimdə rolu danılmazdır. Bu model tərcüməçinin yaradıcılığı prosesində əsas dönüş nöqtəsini (yeni mərhələsini) açır.

**Tərcüməçilik həlli prosesi** – tərcümə fəaliyyəti zamanı bu və ya digər üslubi xüsusiyyətlərin həddən artıq yüksək qiymətləndirilməsi, yaxud qiymətlən-dirilməməsinin seçilməsini. Qərarların həllinin həyata keçirilmə prosesi tərcüməçinin üslubi repertuarına uyğun olaraq baş verir (üslubi idiolekt). Üslubi priyomların seçimi imkanı orijinalın invariantının xarakteri, tərcüməçinin üslubi hissiyyatı və kommunikativ vəziyyətlə bağlıdır.

**Tərcüməçilik kompetensiyası –** 1. Tərcümə prosesində mühüm amil olmaqla, dərk etmək reseptiv kompetensiyasını eyni zamanda qısa və dürüst ifadə etmənin daha məhsuldar kompetensiyasını birləşdirir. Başqa sözlə, tərcüməçilik kompetensiyası ilkin mətnin başa düşülmə bacarığını və mətnin tərcümə dilində yaradılması bacarığını özündə birləşdirir. Belə olduğu halda, tərcüməçinin həyat təcrübəsi onun biliklərinin fonu kimi özünü əks etdirir. Tərcüməçilik kompetensiyasının komponentləri arasında tərcümə dilinin idiomatik səviyyəsini bilmək böyük əhəmiyyət kəsb edir. Bundan başqa, tərcüməçilik kompetensiyası tərcümə prosesində iki mədəniyyətin, iki dilin elementlərini birləşdirir. İlkin mətnə tam şəkildə iqtiqamətlənməklə, tərcüməçi axtarış prosesinə qədər qəbul edərkən, o, orijinalı tərcümədə necə ifadə edə bilməsi prosesinə qoşulur. 2. Onun diferensiasiyası iki səviyyədə mövcuddur: 1) janra görə (elmi-texniki mətn, bədii mətn və s.) və 2) istiqamət üzrə (ana dilindən xarici dilə və xarici dildən ana dilinə). Bu kompetensiyalardan hər

biri, öz növbəsində, iki subkompetensiyanı (ilkin dildəki reseptiv sferanı və tərcümə dilindəki produktiv sferanı) əhatə edir. Hər iki subkompetensiya bir-birini qarşılıqlı şəkildə əvəzləyir və tamamlayır. Burada mətnlərin tərcüməçi üçün məzmun və üslubi cəhətdən zəruri dərəcədə kommunikativ ekvivalentliyi vacibdir. Məhz tərcüməçilik kompetensiyasının bu tekstual xarakteri göstərir ki, heç də hər iki dili mükəmməl bilən şəxslər yaxşı tərcüməçi ola bilmir. 3. Tərcüməçi tərcümə olunan mətni necə başa düşür, o, tərcümənin strategiyasını necə qurur və yenidən qurur, vəziyyətdən asılı olaraq, deyim üçün hansı funksional perspektiv seçir, orijinal əsasında mətni yenidən necə yaradır – bütün bunlar tərcüməçinin dil, həm dildənkənar, həm də reseptiv, reproduktiv kompetensiyası deməkdir. Bu kompetensiyanın bütün növləri bir-biri ilə üzvü surətdə bağlıdır və ümumiləşərək tərcümə prosesinin əsasında duran dəyişilmənin və kommunikativ nəzərdə tutulmanın və səmərəliliyin lazimi dərəcəsini yaradır. 4. O elə bir çoxölçülü mürəkkəb kateqoriyadır ki, tərcüməçinin ixtisas təsnifatının xarakteristikasını dillərarası və mədəniyyətlərarası aktda həyata keçrməyə imkan verir: iki dili tərcüməçinin minumum bilməsi (həm orijinalın, həm tərcümənin) burada onların hər ikisi bir-biri ilə proyeksiya olunur, orijinal mətnin tərcüməçi tərəfindən interpretasiya olunması bacarığı ortaya çıxır, tərcümə texnologiyasına yiyələnilir, mətnin bu üslubda və janrda normalarını bilmək tələb olunur; tərcümə dilinin strategiyasını müəyyənləşdirən tərcümə normalarını bilmə; orijinal mətnin doğru-dürüst inpretasiyası üçün zəruri ümumi biliklərin müəyyən norması, xüsusən, uğurlu tərcümə üçün tərcüməçinin ixtisas çərçivələrində predmeti bilməsi olduqca vacibdir. Tərcuməçilik kompetensiyası anlayışı tərcümənin digər növlərinə tətbiq edilməklə konkretləşdirilə bilər və o, məsələn, bədii, xüsusən poetik tərcümə üçün zəruri olan yaradıcı bacarığı özündə əks etdirə bilər.

**Tərcüməçinin ədəbi savadlılığı –** tərcüməçinin əlində olan orijinal haqqında informasiyanın cəmi. Buraya tərcüməçinin qəbuledici ədəbiyyata münasibəti; orijinalda təsvir olunmuş

gerçəklik haqqında informasiya, tərcümə olunmuş ədəbi prosesdə yeri və mövqeyi, müəllif kodu və oxucu kodu haqqında informasiya, tərcüməçinin qəbuledici ədəbiyyat vətən kontekstinə (ictimai reallıq, oxucunun ənənəsi və kodu) tərcüməçinin münasibəti.

**Tərcüməçinin istifadə etdiyi üsullar –** tərcümə mətnini əldə etmək (hazırlamaq) məqsədilə orijinal mətn üzərində tərcüməçi tərəfindən aparılan əməliyyatların növü.

**Tərcüməçinin metabədii fəaliyyəti –** ikinci, əlavə ədəbi yaradıcılıqdır ki, onun bilavasitə impuls verən artıq mövcud əsərdir. Bu yaradıcılıqdan əvvəl, yaxud onu müşayiət edən yaradıcılıq onun metadil (analitik) fəaliyyətidir. Metabədiilik mətnyaratma prosesində tərcüməçilik həllinin sintezi olur.

**Tərcüməçinin metadil mövqeyi –** tərcüməçinin analitik əməliyyatı. Onun məqsədi – oricinalın öyrənilməsi və rasional dəyər meyarının aydınlaşdırılmasına, obyektiv dəyərləndirilməsinə və ədəbiyyatlararası kommunikasiyanın, faktların müəyyən-ləşməsinə istiqamətlənmişdir. Bu əməliyyatda tərcüməçinin tərcümə üçün növbəti qərarları gəlir.

**Tərcüməçinin poetikası –** təsvir vasitələri planında realizə olunan poetik idiolektdir ki, bu orijinaldan fərdi tərcüməçi kənarlaşmaları sisteminə ədəbi normanın qəbul edilməsi, yaxud tərcüməçilik metodudur. Bu sistemin elementi fərdi üslubi aktlardır ki, onlar məhz tərcüməçinin fərdi yaradıcılığını səciyyələndirir.

**Tərcüməçinin poetikası** – tənqidi məqalədə, «etiraf»da öz əksini tapa bilər və s. Tərcüməçinin poetikası tərcümənin müvafiq dövrdə olan nəzəri üstqurumu, yaxud da belə demək mümkünsə, tərcümənin estetikasıdır. Daha geniş formalaşmış tərcüməçi poetikası dövrün ədəbi savadlılığı hesab edilir.

**Tərcüməçinin sürətli yazısı –** nitqin qavrayışı prosesində şifahi tərcüməçinin yazısıdır ki, o sözlərin yox, fikirlərin fiksasiyası üzərində qurulur. Bax: həm də: ardıcıl tərcümə yazısı.

**Tərcümədə mədənyyət amili –** müəllif və tərcüməçinin mədəni kontekstə münasibəti. Bu münasibətləri «özünün» və

özgənin oppozisiyası kimi ifadə etmək olar ki, bu, tərcümə prosesində tərcüməçinin kommunikativ mövqeyindən asılı olaraq əslə yaxınlaşma, yaxud ondan uşaqlaşma şəklində realizə olunur (ekzotizasiya – naturalizasiya). Buna, həm də xeyli dərəcədə tərcüməçinin mədəni kodu və üslubi stereotipi təsir edir.

**Tərcümədə prinsipial əhəmiyyəti olmayan səhvlər –** bu, tərcümə prinsiplərinin pozulmasının nəticəsi olmayıb, digər dildə ifadəsini tapmış, daha doğrusu, bu, üslubi səhvlərdir ki, onlar ya orijinal müəllifinin dilinin təsirindən, ya ənənəvi yaradıcılıq manerasının formasına yaxşı bələd olmamaqdan, ya da tərcümə edilən dili mükəmməl səviyyədə bilməməkdən irəli gəlir.

**Tərcümədə simulyasiya –** müəlliflər oxucuları özlərinə cəlb etmək məqsədilə orijinalı tərcümə kimi təqdim edirlər. Tərcümənin simulyasiyası zamanı müəllif tərcümə olunmuş əsərlərin konyunkturasını istifadə etməyə çalışır. Mətn nəzəriyyəsi aspektində bu fiktiv tərcümə artıq kvazimetamətn (yalançı mətn) adlanır. Müəlliflərin psevdotərcümələrini bəzən subyektiv motivlərlə əlaqələndirirlər. Bununla belə, şəxsi motivasiyadan başqa psevdotərcümə ədəbi savadlılığın spesifik tələbatlarında yarana bilir (yəni oxucu marağının ödənilməsi üçün tərcümə olunmuş müəllifin populyarlığından istifadə etməklə, xüsusən populyar ədəbiyyat sahəsində, naşirin kommersiya maraqları sahəsində və s.).

**Tərcümədə tematik əməliyyatlar** – tərcümədə uyğun, yaxud analoji tematik elementlərin axtarılması. Bu orijinalın müvafiq mövzu - tematik xüsusiyyətlərini özündə əks etdirən, orijinalda və tərcümədə denotativ dəyərlərin identifikasiyası, konnotativ mənaların açılması, konnotatların denotatlarla əvəzlənməsidir.

**Tərcümədə üslubi ekvivalentlik və məzmun –** orijinal və tərcümənin elementlərinin funksional bərabərliyi. Tərcümə zamanı orijinalın elementləri elə üsulla əvəzlənir ki, mənaların invariant uyğunluğu və onların üslubi dəyəri bir-birinə identik olur.

**Tərcümədə üslubi tipologiyanın dəyişilməsi** – üslubi yerdəyişmələrə uyğun olaraq onların təsnifatı mikro və makroüslubi tərcümə səviyyələrinə uyğun olaraq aparılır.

**Tərcümənin adekvatlığı –** bax, tərcümədə üslubi və məzmun ekvivalentliliyi.

**Tərcümənin aksiologiyası –** bax, tərcümə tənqidi (dəyəri).

**Tərcümənin eyniliyi, uyğunluğu –** bu, elə tərcümənin adekvatlığı deməkdir.

**Tərcümənin cəmiyyətdə yayılması** – tərcümənin kommunikasiyaya və mədəni dəyərlər mübadiləsinə qoşulması. Bu tərcümə prosesinin fərqli aspektlərinin ictimai asılılığı və onların mətndə proeksiyası kimi başa düşülməlidir.

**Tərcümənin dil səviyyəsi** – dil səviyyələrinin tərcümə mətnində fonematik (qrafomatik) səviyyədən başlayaraq morfematik, leksik, sintaqmatik və sintaktik səviyyəyə qədər iyerarxik və funksional prinsipə uyğun olaraq tabe olunmasıdır.

**Tərcümənin «erudisiyalı» oxucusu –** bu, elə oxucudur ki, o, orijinalın əslini yaxşı bilir, orijinal və tərcüməni bir-biri ilə tutuşdura bilir və orijinal əsasında tərcüməçinin bütün əməliyyatlarına nəzarət edə bilir və tərcümə onun üçün metamətndir.

**Tərcümənin «erudisiyasız» oxucusu –** tərcümənin oxucu üçün protomətn kimi mövcudluğu, daha doğrusu, bu elə oxucudur ki, o yalnız tərcümədən istifadə edə bilir.

**Tərcümənin əsas prinsipləri –** 1. Tərcümə orijinalın (əslin) ideya, məna və məzmununu mümkün qədər tam şəkildə ifadə etməlidir. 2.Tərcümə orijinalın bədii-milli özünəməxsusluğunu yarada bilməlidir. 3. Tərcümədə heç bir dəyişiklik, əlavələr, buraxılmalar, müəllif sözünün təhrif olunması, əslə xələl gətirilməməlidir. 4. Bədii tərcümə orijinala estetik cəhətdən bərabər tutulmalıdır. 5. Tərcümə dili düzgün, aydın, canlı və zəngin olmalıdır. 6. Düzgün tərcümə hərfi olmaya bilməz. 7. Tərcümədə dürüstlük yaradıcılıqla uyğunlaşmalı, onu tamamlamalıdır. 8. Əsl tərcümə-istedadın və yaradıcılığın nəticəsidir.

**Tərcüməçinin fəaliyyət strukturu –** tərcüməçi işinin (fəaliyyətinin) ardıcıllığı, yaxud digər qruplaşması.

**Tərcümənin funksiyası –** reasiyasiya üslubuna uyğun olaraq tərcümənin aşağıdakı funksiyaları fərqlindirilir: tərcümə təhsil amili

kimi (qəbuledici mühitdə orijinal haqqında təsəvvür yaradan əvəzedici); tərcümə reseptor göstərici kimi; tərcümə ədəbi savadlılıq amili kimi; tərcümə müxtəlif ölkələr arasında kommunikasiya amili kimi (tərcümənin mədəni-ictimai funksiyası); tərcümə qəbuledici ədəbiyyatın tələblərini nəzərə alan ədəbiyyatlararası münasibətlərin təzahürü kimi (ədəbi funksiya).

**Tərcümənin həddən artıq interpretasiyası –** orijinalın tematik və üslubi elementlərinin müvafiq səviyyələrinin arzuolunmadan yenidən kodlaşdırılmasıdır ki, o, orijinal üçün səciyyəvi deyildir. Mətnin dərinləşdirilmiş strukturunun onun səthi səviyyəsinə diqqətsizlik, daha doğrusu, mətnin faktik uyğunluğudur. Həddən artıq interpretasiyanı tərcümədə dil elementlərinin yüksək dərəcəliliyi və mövzunun inkişafı xarakterizə edir.

**Tərcümə həlli –** tərcümə vahidində sinonimik əvəzləmə seçimi (adətən, digər dildə).

**Tərcümənin inkişaf dəyəri –** tərcüməni ədəbi prosesə qoşan tərcümə olunmuş mətnin xüsusiyyətlərini özündə birləşdirir. Qəbul edən ədəbiyyatın kontekstinə görə tərcümə ya ədəbi inkişafı tezləşdirə, ya da gecikdirə, yaxud da qəbul edən ədəbiyyatın tələblərini neytrallaşdıra bilər.

**Tərcümənin interfenlər aspektləri –** linqvistika, stilistika, ədəbiyyatşünaslıq, informasiya nəzəriyyəsi, semiotika, psixologiya, sosiologiya, frazeologiya kimi elm sahələrini birləşdirir. Dar mənada bədii tərcümə nəzəriyyəsi dörd fənnin çarpazlaşmasında – müqayisəli – linqvistika, müqayisəli üslubiyyat, ədəbi komparativistika nəzəriyyəsi, ədəbiyyat nəzəriyyəsi (tarixi və təsviri poetika) istiqamətindədir.

**Tərcümənin interfənlərarası gerçəkləşməsi –** interfənlərarası komplekslik dedikdə biz bədii tərcümə nəzəriyyəsi yaradılması zamanı, onun qohum fənlərin və onun metadilinin (spesifik terminologiya) humanitar və dəqiq elmlərin arada iştirakı nəzərdə tutulur.

**Tərcümə intuisiyası (fəhmi) –** tərcümə prosesində üslubi vasitələri axtarıb tapa bilmək, interpretasiya (şərh) etmə və seçmə bacarığı.

**Tərcümənin kommunikativ subyekti –** məlumat funksiyasını tərcümədə yerinə yetirən kommunikasiya iştirakçısı (bax, tərcümə).

**Tərcümənin konkretləşməsi** – bax, tərcümə mətnində üslubi interpretasiya(şərh).

**Tərcümənin köhnəlməsi –** tərcümənin yaranması və qəbul edilməsi çərçivələrində ədəbi qaydaların dəyişilməsi. Tərcümənin köhnəlmə səbəbi- qəbuledən kommunikativ kontekstinin dəyişilməsi, dil və üslubun inkişafında dəyişikliklər. Tərcümənin təkrar realizəsinin səbəbi – bu, ədəbi zövqlə bağlı tələbatdır. Yenidən tərcümə etmək və müvafiq müəllifin üslubuna, poetikasına, ədəbi cərəyan və s. öz şəxsi münasibətini konkretləşdirmək deməkdir (Bax, tərcümənin təkrarlanması).

**Tərcümənin linqvistikası –** linqvistik metodlar ilə tərcümə strukturunun dil baxımdan tədqiqi.

**Tərcümənin mexanikləşdirilmiş sistemi** – ikidillik (qoşadillilik tərcümə) şəraitində informasiyanın işlənməsidir ki, o tərcümənin mexanikləşdirilmiş sistemi parametrlərində uyğun gəlir və hər hansı texniki vasitələrlə işlənib hazırlanmasını nəzərdə tutur.

**Tərcümənin metadili –** Tərcümə prosesini kifayət qədər tam təsvir etməyə imkan verən struktur-linqvistik səciyyəli kompleksdir. Onun nəzəri-linqvistik əsasını generativ qrammatika təşkil edir ki, onun terminlərlə tərcümə prosesinin qrammatik aspektləri təsvir olunur və komponent təhlil nəzəriyyəsi bu prosesin bəzi leksik aspektlərini anlamağa kömək edir. Göstərilən sxem orijinalın dili ilə tərcümənin dilindəki vahidlər arasında «uyğunluq şəbəkəsi» qurmağa imkan verir və tərcümə prosesinin qanunauyğunluqlarını ortaya çıxarmağa şərait yaradır. Əlavə bax**: tərcümə nəzəriyyəsinin metadil problemi.**

**Tərcümənin metakommunikativ konteksti –** orijinalın invariant xüsusiyyətlərinin, yaxud tərcümədə modifikasiyanın funksi-

onal prinsipi (tərcümənin konfrontasiya – yaradıcı konteksti) həyata keçirilən invariant reproduksiyanın həyata keçirilməsi. Ədəbi kommunikasiyanın ikinci fazası (kommunikasiya daxilində kommunikasiya) orijinal əsərin tərcümədə yeni mətn və reproduktiv – modifikasiya xarakterli kommunikativ kontekstini təqdim edir. Metakommunikativ kontekst orijinalı oxucular arasında orijinalla qarşılıqlı şəkildə vermə üsulu.

**Tərcümənin məna üsulu –** digər, xarici dildə uyğunluğu nəzərdə tutan çıxarışda denotatın identifikasiyası, obyektiv olaraq bir dildən o biri dilə qanunauyğun şəkildə mövcud keçidini nəzərdə tutur.

**Tərcümənin modernləşməsi –** tərcümə edilən mətnin, yaxud onun hissələrinin tematik və dil işləmələridir ki, onlar orijinalın ixtiyarında semantik-üslubi qəlibdən çıxır, yaxud mətni qəbuledənlərin zövq tələbatları ilə müəyyənləşir.

**Tərcümənin mükəmməlliyi –** bax: tərcümənin adekvatlığı.

**Tərcümənin mürəkkəblikləri –** tərcümə intellektual fəaliyyət kimi nəinki özlüyündə mürəkkəbdir, onun mürəkkəbliyi aşağıdakılarla dərinləşir: ekstremal, stress situasiyanın qaçılmazlığı; etibarlı və praktiki yerinə yetiriləcək tərcümə nəzəriyyəsi və metodologiyasının olmaması; tərcümə təcrübəsinin (lüğət və dərsliklər yalnız mütəmadi leksik və qrammatik uyğunluğu əks etdirir ki, bu da açıq-aydın kifayət etmir) uçot mexanizmi və onun zənginləşməsinin yoxluğu tərcümənin mürəkkəbliyidir.

**Tərcümənin nəticəsinin qiyməti** – qiymətin əsasına funksionallıq, yaxud dinamiklik ekvivalenti qoyula bilər. O tərcümənin xarakteristikası kimi başa düşülür ki, burada ilkin mətndən gələn məlumatın məzmunu elə şəkildə verilir ki, sonuncu məlumatın xarici dil alıcısı tərəfindən qavrayışı bütün cəhətlərdə ilkin mətndən məlumatı alan ünvançının mühüm xüsusiyyətlərinə uyğun olur. Bununla belə, məlumat mətnində həm semantik, həm də ekspressiv-üslubi olan bütün informasiyanın qavrayışı nəzərdə tutulur.

**Tərcümənin orijinaldan aralanması sistemi** – tərcüməçinin üslubi xarakteri ilə bağlı olan üslubi kənarlaşmalar sistemi. Bu, tərcüməçinin fərdi poetikasını yaradır (bax: tərcümənin poetikası).

**Tərcümənin praqmatik aspekti –** 1. Adresata, tərcüməni alana yönəlmiş aspekt; 2. Orijinal və tərcümə ilə ortaya çıxan effektik eyniliyinin nəzərə alınmasını tələb edir.

**Tərcümənin praktikologiyası –** bu, elə bir fəndir ki, o tərcüməçilik praktikasının proqramlaşmasını obyektiv metodlarla (statistika, sosiologiya, informasiya nəzəriyyəsi) tərcüməçilik praktikasının tərcümə haqqında elm və ictimai-mədəni tələblər baxımdan təhlilidir. Praktikologiya – həm də tərcümələrin ictimai realizə nəzəriyyəsidir.

Tərcümənin praktikologiyası – 1) mədəni siyasətin tərcüməçilik proqrammı və tərcüməçilik fəaliyyətinə təsirini; 2) kitab bazarı nöqteyi-nəzərindən tərcüməçilik proqramlarının təhlilini; 3) bədii tərcümənin tənqidinin spesifik funksiyalarını; 4) tərcümə mətninin yaradılmasında redaktorun iştirakını; 5) tarixi-tərcüməçilik müəssisələrini (təşkilatları və jurnalları) özündə birləşdirir**.**

**Tərcümənin psixolinqvistik nəzəriyyəsi –** bu nəzəriyyə Azərbaycanda geniş inkişaf etməsə də, Rusiya tərcüməşünaslığında kommunikativ yanaşma – tərcümənin psixolinqvistik nəzəriyyəsinin predmeti kimi dillərarası kommunikasiya tərcümənin psixoloji psixolinqvistik aspektində araşdırılır. Bu istiqamətdə olan işləmələrdəki metodoloji və nəzəri əsaslar üzrə prioritet A.F.Şiryayevə məxsusdur. Onun fikrincə predmeti, vasitələri, həyata keçirmə üsulları ilə, məhsul və strukturu ilə tərcümə nıtq fəaliyyətinin xüsusi növüdür və məqsədli motivasiyaya malikdir. Tərcümənin məqsədi düşüncədə real deyilmiş, yaxud yazılmış deyimin, yaxud müəyyən dildə bir qrup deyimin söz şəklində məhsulunun yaradılmasıdır. Yaradılacaq məhsulun əsas parametrləri tərcüməçiyə sosial sifariş kimi verlir. Burada fəaliyyət obyekti ilkin dilin vasitələrindən birindəki nitq fəaliyyətinin müxtəlif dilin kommunikantlarıdır. Tərcüməçilik fəaliyyətinin vasitələri özündə heç də əksər nitq fəaliyyəti növlərindəki kimi hər hansı dilin vasitələrini yox, iki dili

birləşdirir. Tərcümədə vasitələrin seçimi, hər şeydən əvvəl, subyektin motiv və məqsədləri ilə yox, ilkin mətnin obyekt fəaliyyəti ilə şərtlənir, buna görə də fəaliyyət məhsulunun predmetləşməsi üçün dil vasitələrinin seçiminin determinasiyası tərcümədə əksər fəaliyyət növlərindən fərqli olaraq daha ciddi xarakter daşıyır. Tərcüməçilik fəaliyyətinin həyata keçirilməsi üsulları üç qrupa bölünür. Birinci qrup – bu, nitq fəaliyyətinin eşitmə və danışma məhsulunun predmetsiz hissələrə bölmə üsullarıdır. İkinci qrup isə ekvivalentlərdən, variant və kontekstual uyğunluqlardan istifadə etməklə tərcümə məsələlərinin yerinə yetirilmə prosesini əhatə edir. Üçüncü qrup – danışma və yazı kimi nitq fəaliyyətinin predmetləşməsinin (qeydə alınması) qlobal üsullarını birləşdirir. Struktur baxımdan tərcümə fəaliyyəti qarşılıqlı əlaqəli və qarşılıqlı şərtlənmiş tərcüməçi işlərinin ardıcıllığından ibarətdir. Fəaliyyət prosesinin minimal vahidi mikrofəaliyyət olub, bütövlükdə bu fəaliyyətin əsas cəhətlərini birləşdirir. Həm tərcümə fəaliyyəti bütövlükdə, həm də ona daxil olan tərcüməçilik işi hər bir intellektual akta xas olan üç fazalı strukturdan ibarətdir: fəaliyyət şəraitinə yönəlmiş faza, fəaliyyət planının hazırlanması, yaxud hərəkətin, işlənib hazırlanmış planın realizə fazası və nəzərdə tutulmuş nəticənin müqayisə fazası. Tərcümə fəaliyyətinin məhsulu tərcüməçi tərəfindən aparılan tərcümə dilində olan mətndir. Tərcümə fəaliyyətinin məhsulunda eyni zamanda həm adresatın, həm də tərcüməçinin fəaliyyəti predmetləşdirilir və əyaniləşdirilir.

**Tərcümənin redaktoru –** tərcüməçilik kommunikasiyasının iştirakçısı. Tərcümə mətninin redaktəsi – bu, onun ədəbi situasiya, ədəbi və dil norması, nəşriyyat tələbləri və s. baxımından aprobasiyasıdır. Tərcümə redaktoru tərcümə mətninin seçimində iştirak edə bilər.

**Tərcümənin relyativ modernləşdirilməsi –** bütün mətnin yox, onun ayrı-ayrı səviyyələrinin tematik və dil işləmələri. O, qəbuledicinin zövq və tələbləri ilə müəyyənləşən orijinalın semantik-üslubi varlığından ortaya çıxır.

**Tərcümənin semantik-semiotik modeli** – ilkin və tərcümə dillərindən işarə və strukturun qarşılıqlı korrelyasiyası tipologiyasını qurmuş Y.İ.Retskerin, tərcümənin semantik-semiotik modelini qurmuş L.S.Barxudarovun araşdırmalarında yanaşmanın inkişafını nəzərdə tutur. Bu modelə uyğun olaraq mətninin ümumi məzmununda onun ayrı-ayrı komponentləri – denotativ, siqnifikativ, linqvistik və praqmatik – fərqləndirilir. Alim ilk dəfə göstərmişdir ki, ilkin mətndən tərcümə mətninə keçərkən orijinalın heç də bütün məzmunu deyil, yalnız onun bu və ya digər komponentləri saxlanılır. L.S.Barxudarov öz həllini gözləyən növbəti tədqiqat problemi kimi ilkin mətnin yuxarıda adlarını çəkdiyimiz məzmun komponentlərinin növbəliliyi problemini irəli sürür.

**Tərcümənin semantik nəzəriyyəsi –** orijinal və tərcümə mətnlərinin məna baxımdan iki mətnin məzmununun ekvivalentliyinin öyrənilməsinə əsaslanır.

**Tərcümənin semiotik aspekti –** tərcüməçilik prosesinin işarə xarakteri. Tərcümə – ikinci fəallıqla şərtlənən orijinal müəllifinin ədəbi fəaliyyətinə münasibətin metaişarəsidir.

**Tərcümənin sosiologiyası** – ictimai kontekst aspektində tərcümənin funksiyasını yerinə yetirməsi və genezisin tədqiqi. Tərcümə sosiologiyanı ictimai kommunikasiya aspektində maraqlandırır. O, tərcüməni ictimai və mədəni şüurun fakıı kimi nəzərdən keçirir (nəşr siyasəti, mədəni münasibətlər və s.).

**Tərcümədə strukturalist metod –** çex alimi İrji Levıy tərəfindən təklif olunmuşdur. Tərcümənin bir sıra problemlərinin həllində dünya linqvistikasının XX əsrin 20-30-cu illərində aparıcı istiqamətlərindən biri olan «Praqa linqvistik dərnəyi»nin metodoloji prinsiplərinə söykərmişdir. Müəllif dillərarası transformasiyanın üç fazasını fərqləndirir: orijinalın dərki, onun interpretasiyası (şərhi), onun yendən ifadəsi. Tərcümə fəaliyyətinin əsas məqsədi kimi – onu dərk, əsli qoruyub saxlamaq, əsli (informasiyanı) verə bilməkdir. Prototipi olmayanı yeni əsər yaratmaq yox, yenidən yaratmaqdır. Tərcümə prosesində bir dilin materialları digər dilin

materialı ilə əvəzlənir, deməli, əslində tərcüməçi bütün bədii əsərləri yenidən özü ana dilində yaradır və beləliklə, dil sahəsində tərcümə əsl orijinal yaradıcılıqdır. Ona görə də burada iki normanın mövcudluğu haqqında danışmaq olar: yenidən yaratma norması və bədiilik norması (gözəllik meyarı), onlar arasındakı konkret münasibət tərcümə edilən mətnin xüsusiyyətindən asılı olacaq. Buradan müəllifin məqsəd ustanovkası doğur – yəni o, burada tərcümə priyomunu ilkin və ikinci mətnlərin funksional uyğunluğu istiqamətində nəzərdən keçirir (məhz dilin funksional tərəfinə böyük diqqət yetirilməsi «Praqa linqvistik dərnəyi»nin mühüm cəhəti olmuşdur).

**Tərcümənin strukturu –** tərcümədə real mövcud olan məna münasibətlərinin müəyyən tərzdə təşkil olunmuş, sxemləşmiş ifadəsi nəzərdə tutulur.

**Tərcümənin subinterpretasiyası –** tərcümə mətninin qurulduğu zaman qismən realizə olunmuş ölçüsüdür ki, bu zaman orijinal mətnin bütün səviyyələrində üslubi yenidən kodlaşdırma getmir. Burada, mətnin daha da dərinləşdirilmiş aspektinə diqqət yetirilmir, yəni mətn səthi interpretasiya olunur.

**Tərcümənin təkrarlanması –** müvafiq xarici dildə və müvafiq ədəbiyyatda realizə olunmuş orijinala münasibətdə tərcümə variantları. Tərcümənin təkrarlanması dilin inkişafındakı dəyişikliklərlə, üslublar fərqi ilə, metakommunikativ kontekst dəyişilmələri, müəyyən dövrdə olan estetik tələb və zövqlərin və s. inkişafı ilə bağlıdır. Əgər qəbul edən mühitin tələbləri mövcuddursa, yeni nəsil və ədəbi məktəb və istiqamətlərin dəyişilməsi bunu tələb edirsə, bu zaman orijinal əsər yenidən tərcümə olunur. Bəzi hallarda isə tərcümənin təkrarlanması heç də ədəbi-zövq motivləri ilə yox, həm də zahiri səbəblərlə (məsələn, kommersiya maraqları ilə) bağlı olur. Belə tərcümələr seriyasını invariantların üslubi dağınıqlığı xarakterizə edir ki, onun köməyilə ədəbi-tarixi fenomeni obyektiv tədqiq etmək olar.

**Tərcümənin tərtibatı –** tərcümə mətninin yaranması. Tərcümənin tərtib olunması şifahi və yazılı ola bilər.

**Tərcümənin ümumi nəzəriyyəsi** – 1. Tərcümə universaliləri ilə məşğul olan və tərcümə haqqında əsaslı əhəmiyyətə malik olan və tərcümənin əsas problemlərini özündə birləşdirən tərcüməşünaslıq bölməsi. Bu planda (mənada) tərcümənin ümumi nəzəriyyəsi linqvistikadan sonra gəlir. Lakin linqvistik universalilər bütün dünya dillərində olduğunun mahiyyətidirsə, tərcümə universaliləri tərcümənin bütün növ və formalarına xasdır. 2. Tərcümə fəaliyyətinin və mətnin yaranması və tərcümənin nəzəri modelinin formalaşmasının mahiyyətini açır. 3. Hər hansı ikidillik kommunikasiyanın xüsusiyyətinin mahiyyəti haqqında elmi konsepsiya. 4. Bu və ya digər konkret dillərin qarşılıqlı münasibətləri ilə müəyyən olunan janrı spesifikasından, onun həyata keçirilməsi şəraitindən və xüsusiyyətlərindən asılı olmayaraq tərcümənin ümumi qanunauyğunluqlarını nəzərdən keçirir. 5. Tərcümənin təsviri ilə bağlı anlayış aparatı yaradır, onun akt xüsusiyyətlərini açır və bununla xüsusi tərcümə nəzəriyyəsinin qurulması üçün konseptual baza yaradır. Tərcümə nəzəriyyəsi digər dil və qeyri-dil sahələri ilə əlaqələrə malikdir. 6. Müqayisəli dilçilik, psixolinqvistika, sosiolinqvistika və linqvistik coğrafiya ilə sıx əlaqələrə malik olması əsasında linqvistik problemlər fənlərarası istiqamətdir. Bu nəzəriyyə dildaxili çərçivələrdə formal-struktur təhlildə qapanıb qalmayan dil və qeyri-dil fənləri ilə sıx kontakt şəraitində inkişaf edən dillərin qarşılıqlı əlaqəsini və təsirini öyrənən tətbiqi dilçiliyin mühüm sahəsidir. 7. Kontakta daxil olan dillərin, tərcümənin realizasiya, mətnin janr xarakterindən və s. asılı olmadan tərcümə prosesini öyrənir. Onun vəzifəsi tərcümənin hər bir konkret aktında təkrar olunan daha çox amilləri birləşdirən tərcümə modelinin qurulmasıdır. Tərcümənin ümumi nəzəriyyəsi tərcümə universalilərini tədqiq edir. 8. Müxtəlif strukturlu dillərin köməyi, iştirakı və tədqiqatçının elmi refleksiyası çoxsaylı tərcümə faktları əsasında konkret qoşa dilə aid olmada tərcümə prosesinin daha ümumi xüsusiyyətlərini, prinsiplərini və qanunauyğunlarını təhlilə cəlb edir. 9. İkidilli kommunikasiyanın mahiyyəti və xüsusiyyətləri haqqında elmi konsepsiya.

**Tərcümənin üslubi aspekti –** tərcümənin üslubi aspekti onun leksik-qrammatik vasitələrindən əslin ümumi funksional kommunikativ istiqamətlərə uyğun olaraq və tərcümə olunan dildə mövcud olan dil normalarını nəzərə almağı mühüm hesab edir.

**Tərcümə variantları –** eyni orijinalın müxtəlif tərcümələri olan mətnlər (Tərcümənin təkrarlanması).

**Tərcümənin yığcamlığı –** tərcümə olunan mətndə çoxsözlüyün olmaması, mətnin lakonik forması ilə səciyyələnən tərcümənin keyfiyyət göstəricisi.

**Tərcüməşünaslıq (1)** – 1. Tərcümə tarixini, onun ümumi və fərdi nəzəri əsaslarını, tərcümə prosesinin texnika və metodikasını, ikidilli nitq şəraitində tərcümə vərdiş və bacarıqların nitq fəaliyyətində mürəkkəb növü, mətnin tərcümə prosesində elm kimi öyrənilməsi, daha doğrusu, elə bir situasiyadır ki, burada nitq-dil ünsiyyəti (kommunikasiyası) prosesində iki dilin vasitələrinin (iki dil sistemi kodlarının) iştirakı nəzərdə tutulur. 2. Nitq fəaliyyəti növünü öyrənən tərcümə haqqında elmdir ki, bu prosesdə digər dildə verilmiş nitq əsəri (mətn) onun tam hüquqlu əvəzedicisi kimi çıxış etməlidir.

**Tərcüməşünaslıq (2) –** tərcümə haqqında olan elmlərdən birinin adı, bax; tərcüməşünaslıq.

**Tərcüməyə daxil edilmiş, nişanlanmamış dil vahidi –** Bax: maşın dövrəsi.

**Tərcüməyə diaxronik baxış nöqtəsi –** ədəbi proseslə tərcümənin yerinin sistemli müəyyənləşməsi. Tərcümənin yerinin sistemli müəyyənləşməsi dedikdə tərcümənin orijinalla münasibətlərini, milli ədəbiyyat əsərlərinə, eləcə də bu əsərlərin digər tərcümələrinə münasibətini başa düşməliyik. Diaxronik proyeksiyada sistemli münasibət ədəbi prosesdə tərcümənin, dəyərini artırır (bax, tərcümə tarixi).

**Tərcüməyə gəlməyən söz oyunu –** tərcümə dilində birbaşa ekvivalenti olmayan sözlər oyunu. Buna kalambur da deyilir (müəllif).

**Təsadüfi ekvivalentsiz sözlər –** bu sözlər orijinal dildə predmet və hadisələri, həm də tərcümə dili daşıyıcılarının praktik təcrü-

bəsində olan predmet və hadisələri bildirməsinə baxmayaraq, tərcümə dilində hansı səbəb üzündənsə bu predmet və hadisələrin adının (bəzən izah oluna bilməyəcəyi) olmamasıdır.

**Təsirin ədəbi sistemi –** metakommunikativ sistem, onun funksiyası oxucuya orijinalı əvəz etməsi (orijinalla ikinci manipulyasiyası), o mətnin qavranılması üçün instruksiya (qaydalar) vermək və əsərin uğurlu reytinqini təmin etmək üçün inanılmış strategiya yaradılması.

**Təsnifatın ilkin mövqeyi –** bədii tərcümənin üslubi vəhdət elementidir. Təsnifat ölçüsü – onların intensivliyik dərəcəsinə uyğun olaraq üslubi dəyişmələrin identikliyidir.

**Təsvir –** monoloji müəllif nitqinin ən çox yayılmış komponentlərindən biri. Məntiqi planda predmet və hadisəni təsvir etmək - onun əlamətlərini sadalamaq deməkdir. Təhkiyənin inkişafını quran statistik təsvir qeyd olunur və dinamik təsvir adətən həcminə görə o qədər də böyük olmasa da, hadisələrə qoşularkən təhkiyəni heç də dayandırıb saxlamır. Müqayisə et: hekayə, təhkiyə.

**Təsviri annotasiya – bax**: annotasiya.

**Təsviri priyom –** mövcud anlayışın başqa dilin vasitələri ilə təsvirini verən tərcümə priyomu. Bu priyoma dildə müvafiq nominasiya, yaxud tərcüməçiyə nəsə məlum olmayanda müraciət olunur.

**Təsviri tərcümə –** 1. Ən çətin şəraitdə tərcüməçiyə kömək edən daha mühüm universal priyom. O müxtəlif səbəblər - sosial, coğrafi, yaxud milli xüsusiyyətli müvafiq anlayışlar tərcümədə mövcud olmadığı hallarda daha zəruridir. Bu priyomun özünün də çatışmazlıqları az deyildir. Onlardan başlıcası ondan ibarətdir ki, bəzi təsvirlər olduqca şişirdilmiş şəkildə verilir və sanki tərcümə mətnində kənar cisim təsiri bağışlayır. Bax: həm də təsviri priyom. 2. Digər dildəki vasitələrlə qeyd olunmuş (işarələnmiş) anlayışın təsvirini verən tərcümə priyomu. Bu priyoma tərcümə dilində müvafiq nominasiyalar olmadıqda daha çox müraciət edirlər. 3.Məzmunun (mənanın) digər formada və digər sözlərlə ifadə olunması. 4. Söz birləşmələrinin köməyi ilə ilkin vahidlərin mənasının açılma-

sını ekvivalentsiz leksika ilə vermə üsulu. 5. Tərcümə olunan mətnin məna və məzmununu sərbəst şəkildə verən tərcümə.

**Tətbiqi dilçilik –** praktik vəzifələrin həm linqvistin, həm də informasiya axtarışının – maşın tərcüməsi, terminologiya, linqvodidaktika, informasiya problemləri kimi digər sahələrin linqvistik- nəzəri tətbiqi.

**Tətbiqi linqvistika –** maşın tərcüməsi, avtomatlaşdırılmış informasiya axtarışı və s. kimi müasir praktik spesifik vəzifələrin əsasını öyrənən dilçilik sahəsi. Bax: həm də tətbiqi dilçilik.

**Tətbiqi tərcümə nəzəriyyəsi –** tətbiqi tərcümə nəzəriyyəsinin predmet sahəsinə aşağıdakı vəzifələr daxildir: 1) ilkin mətnin tərcümə dilinə çevrildiyi zaman ortaya çıxan tərcüməçilik çətinliklərinin təsnifatı; 2) tərcümə elmində linqvistik və psixoloji cəhətdən əsaslandırılmış işləmə formaları; 3) bütün relevant dil hadisələrini, səhvlər təhlilini (həm də tərcümənin tənqidi üçün öncədən nəzərdə tutulmuş) tam əhatə edən səmərəli işləmələr; 4) tərcümə tənqidi üçün nəzəri və metodik cəhətdən əsaslandırılmış təsviri, interpretasiya və dəyər prosedurlar. Bu vəzifələrin birinci və ikincisi prospektiv, üçüncü və dördüncü isə tətbiqi tərcümə nəzəriyyəsinin retrospektiv aspektləridir.

**TLA – bax:** təlimverici linqvistik avtomat.

**Törədici model –** Burada dilin qanunlarına müvafiq deyimin strukturunu təmin etmək imkanı verilməklə bir sıra qaydaların saxlanılması təmin edilir və qeyri-dürüst deyimlərə yol verilmir.

**Törəmə qrammatika –** 1. Cümlələrin düzəlməsi qaydalarına söykənən qrammatik modelin ümumi adı. 2. N.Xomskinin generativ transformasiya qrammatikasını göstərmək üçün sinonim.

**Törəmə rəmz –** hərfi, yaxud assosiativ rəmzlər əsasında alınmış xüsusi rəmz.

**Transformasiya qaydaları –** nüvə və törəmə modellərin - onun qarşılıqlı əsasını təşkil edənlərin konstatasiya münasibətləri.

**Transformasiya metodu –** məna təhlili metodundan eləsidir ki (ardıcıl tərcümədə yazılış sistemində istifadə olunur), bu zaman açar informasiyanı özündə əks etdirərkən bir neçə söz daha uyğun,

məsələn, işgüzar dairə nümayəndələri- biznesmen kimi sözlə əvəz edilir.

**Transformasiyalar metodu –** mətnin leksik, sintaktik və semantik cəhətdən dəyişdirilməsi.

## U

**Universal tərcümə –** tərcümə prosesinin dərk olunmasına yönəlmiş (A.Lüdskanov) ümumi anlayış və tərcümə tipləri arasında onların üslubi əlamətlərinə və məqsədlərinə görə fərqlərin fiksasiyasına (xüsusi, sakral, şifahi, yazılı tərcümə və s.) deyilir. Tərcüməçilik fəaliyyətinin ümumi xarakteri, ümumiyyətlə, tərcümə haqqında inteqral elmin köməyi ilə tədqiq olunur.

**Uyğunlaşdırma –** hər hansı bir şeyin (mətnin) məzmununun digər formada şərhi. Müqayisə et: nağıl.

**Uyğunluq –** bax: leksik uyğunluq.

**Uyğunluq –** 1. Tərcümə haqqında elmin əsas kateqoriyalarından biri. Tərcümədə mütləq uyğunluq ilkin mətnlə tərcümə mətninin formal, semantik və informativ komponentlərinin üst-üstə düşməsi ilə ifadə olunmalıdır ki, bu da faktiki mümkün deyildir. Tərcümədə uyğunluq kateqoriyası əsasən «hərfi tərcümə – sərbəst tərcümə» zamanı özünü göstərir. 2. İlkin mətnin tərcümə vahidinin variantlarından biri. 3. Tərcümə dilindəki ilkin dildə ifadə planın bir, yaxud bir neçə vahididir ki, ilkin dildə ifadə planının müəyyən vahidinin məzmunun verilməsi üçün mütəmadi istifadə olunan vahididir. Müqayisə et: kontekstual əvəzləmə. 4. Uzlaşma, eynilik ifadə edən münasibət. 5. Digər verilmiş kontekstdə funksional baxımdan müvafiq olan bir dilin elementi.

**Uyğunluq - uzlaşma lüğəti** – leksik uzlaşma üzrə materialı özündə birləşdirən lüğət.

**Uyğunsuzluq –** 1. Uyğunsuzluq dedikdə biz tərcümədə verilməmiş, yaxud əlavə edilmiş informasiyanı başa düşməliyik ki, o ilkin mətndə ya nitq axınında ayrılmış hansı hissəninsə tərcümə

edilməməsi, ya da tərcümə olunmuş mətndə əlavə edilmiş nitqin bir hissəsidir. 2. Bu, ilkin, yaxud tərcümə mətninin hansısa hissəsində verilməmiş, yaxud əlavə edilmiş informasiyanın hissələridir.

**Uzlaşmanı sınama –** tərcümə prosesi mərhələlərindən biri olub bir neçə variantdan tərcümə olunan dilin normalarına müvafiq əsas «açar» sözün ardıcıl seçilməsi.

## Ü

**Ümumi birdilli lüğət** – eyni dildə sözlərin, anlayışların və predmetlərin mənasını təriflərin, təsvirlərin, nümunələrin və eləcə də sinonimlərin və antonimlərin köməyi ilə izah edən lüğət.

**Ümumi ensiklopediya** – məqalələr, çertyojlar, şəkillər, cədvəllər və s. təmin olunmuş sosial-iqtisadi elmlər, təbiətşünaslıq və texnika üzrə biliklərin sistemləşdirilmiş külliyatı, oxucunu düzgün istiqamətləndirən və elmi cəhətdən maraqlandıran məsələlərlə bağlı daha hərtərəfli informasiya mənbələrinə yönəldən xüsusi ədəbiyyat siyahısı.

**Ümumi ikidilli lüğət –** müəyyən qaydada düzülmüş müvafiq (adətən əlifba üzrə) tərcümə və (yaxud) digər dildə (müəyyən kontekstdə mümkün ekvivalentlərinin) sözlərin şərhi.

**Ümumi referat –** bir neçə mənbəyə görə bütün material haqqında tam təsəvvür yaratmaq məqsədinə istiqamətlənmiş referat. Belə referatda əhatə olunan mənbələrin (yalnız verilmiş mövzuya görə) məzmunu referatın tam şəkildə əsli (orijinalı) əvəz etməsi ilə bağlı orada əksini tapacaq hər nə varsa, daha tam şəkildə sistemləşdirilməli və ümumiləşdirilməlidir.

**Ümumi semantik komponent** – çoxmənalı söz, yaxud müxtəlif sözlərin mənasında iştirak edən eyni semantik komponent.

**Ümumi slenq** – emosiosnal-espressiv kolorit ifadəni səciyyələndirən danışıq leksikası.

**Ümumi tezlik lüğəti –** dilin bütün sferalarında eyni dərəcədə çox və ya daha az işlək olan leksika.

**Ünsiyyət** – intellektual və emosional informasiya mübadiləsinə qoşulmuş insanların qarşılıqlı verbal durumu.

**Üslub** – 1.Dil vasitələrindən məqsədyönlü istifadə, seçim. 2. İşlədilmə priyomlarının cəmi, bu sahədə işlənmə vasitələrinin seçimi. 3. Hər hansı yazıçı, əsər, janr üçün xarakterik olan priyomların cəmi. 4. Ekspressiv üslubi rəng prinsipinə görə dil vasitələrinin seçimi. 5. Nitqin söz istifadəsi normaları və sintaksisə uyğun olaraq quruluşu (qurulması).

**Üslubi kod** – mətnin üslubi strukturunun qenerasiyası üçün nəzərdə tutulmuş təsviri vasitələr sistemi üslubi kod yaradır, əsas üslubi xüsusiyyətləri və mətndə onların struktur təşkili qaydaları cəmini birləşdirir.

**Üslubi modifikasiya** – eyni funksional üsluba öz elementləri ilə birgə digər üsluba aid olan deyim elementlərinin tərcümə prosesində dəyişdirilməsi.

**Üslubi çalar** – linqvistik vasitənin ekspressiv nailiyyətidir ki, onun əsas, yaxud predmet-məntiqi mənasına əlavə olunur.

**Üslubi sinonimiya** – bax: modulyasiya.

**Üslubi sinonimlər** – 1. Yalnız üslubi cəhətdən seçilən sinonimlər. 2. Məna etibarı ilə üst-üstə düşən, lakin istənilən fərqli nitq üslubuna məxsusluğu ilə, istifadə dərəcəsi, ekspressiv çaları və s. üst-üstə düşür.

**Üslubi transformasiyalar** – mətnin üslubunun üslubi mənasının tərcümədə eyni effekti yenidən yaratmaq məqsədi ilə verilməsi, daha doğrusu, oxucuda analoji reaksiya yaratmaq, tərcüməçi bunu əldə etmək üçün daha tez-tez əvəzləmə və kompensasiya priyomlarından istifadə etməklə tamamilə digər dil vasitələrinə müraciət və onlardan istifadə edir.

**Üslubi transpozisiya** – üslubi nöqteyi-nəzərdən rəngli vahidlərin onun üçün qeyri-adi üslubi kontentdə istifadə olunması.

## V

**Verilməyən informasiya** – uyğunsuzluq nəzəriyyəsində informasiyadır – tərcümədə mətnlərin müqayisəli şəkildə öyrənilməsində ortaya çıxır ki, məhz məlumatlar ilkin mətndə verilmiş olduğu halda, tərcümə mətnində öz əksini tapmır.

**Vərəqdən sinxron tərcümə** – sinxron tərcümə növlərindən biri. Bu tərcümə növündə tərcüməçi natiq nitqinin gedişatında ilkin mətndən kənara çıxırsa zəruri düzəlişlər edərək çıxışını yazılı mətnə tərcümə edir.

**Vərəqdən tərcümə** – ilkin yazılı mətnlərin eyni zamanda göz qavrayışı vasitəsi ilə (vizual) həyata keçirilən şifahi tərcümə.

## Y

**Yaddaş** – ətraf mühitlə qarşılıqlı əlaqə və təsir nəticəsində informasiya fəaliyyətinin ardıcıl olaraq saxlanılması və istifadə olunması ilə bağlı ümumfunksional mexanizm. Fizioloji planda bir neçə şərti-reflektor, obrazlı, söz-məntiqi və emosional yaddaş fərqləndirilir. Yaddaşı həm də informasiya reseptorları baxımından da təsnif edirlər. Burada görmə, eşitmə, tanbil, motor və digər yaddaş növləri fərqləndirilir. Zaman parametrlərinə müvafiq olaraq – qavrayışın ani uzunluğu (0,1 sm), bilavasitə yaddaş (1 sm-10 sm-dək) və uzunmüddətli yaddaş vardır ki, o müəyyən obyektlə bağlı deyildir. Bilavasitə yaddaş fəaliyyətə qoşulanın operativi olur. Onun həcmi bu və ya digər simvolla ifadə olunan informasiya vahidinin sayından asılıdır.

**Yalançı beynəlmiləlçilik** – yalançı beynəlmiləlçilik leksikası o sözlərə deyilir ki, hər hansı konkret dildə beynəlxalq morfemdən yaranmış və onun hüdudlarından (digər dillər tərəfindən götürülüb qəbul edilməmiş) kənara çıxmamışdır. Onlara, hər şeydən əvvəl, - çı şəkilçisinin köməyilə - reqbiçı, akvalanqçı, skandalçı və s. yaranmış çoxsaylı sözləri aid etmək olar. Onlardan əksəriyyəti dilimizə özgə dillərdən keçmişdir. Bu, məsələn, çoxsaylı mürəkkəb və mürəkkəb

qısaldılmış sözlərə – maqnitola (maqnitofon + radiola), kermet (keramika + metall), çepmet (çyornı + metal) aiddir.

**Yalançıekvivalent söz cütlüyü –** bax: tərcüməçinin yalançı dostları.

**Yamsılama –** başqa dildə olub hər hansı ilkin mənbəyə əsaslanan, onunla bəzi ümumi xüsusiyyətlərə malik cəhətləri qoruyub saxlayan və dilin prototipik, potensial, tematik və bədii imkanlarını inkişaf etdirən, lakin ondan məzmun–forma baxımından kənarda dayanan və tərcüməçinin fərdi üslubunu, yeni orijinalın keyfiyyətini göstərən bədii poetik mətn.

**Yazı ilə ardıcıl tərcümə –** bu, mətnin bir dildən digərinə şifahi tərcüməsi zamanı dinlənildikdən sonra ilkin mətnin ardıcıl tərcümədə qavramasının sistemli yazılışı deməkdir.

**Yazı sistemi** – ardıcıl tərcümə zamanı tərcüməçiyə çatdırılan seçim qaydasını və informasiyanın yazılışını özündə birləşdirən yaddaşın köməkçi vasitəsi; bax: ardıcıl tərcümədə yazı.

**Yazılı (1) –** yazılı tərcümə – yazılı mətnin yazılı tərcüməsi. Hər iki dil – ilkin dil və tərcümə dili - burada yazılı formada istifadə olunur. Adi tərcümə növlərindən biri. Bununla bağlı bax: yazılı tərcümə – görmə-yazılı tərcümə.

**Yazılı (2)** – şifahi tərcümə - yazılı mətnin şifahi tərcüməsi. İlkin dil yazılı formada istifadə olunur, tərcümə dili şifahi şəkildə. Bax: görmə - şifahi tərcümə.

**Yazılı dil –** yazılı nitq üçün səciyyəvi olan söz və ifadələrin işlənilmə spesifikası ilə istifadə olunan və işlənən dilin növlərindən biri.

**Yazılı kommunikasiya –** yazılı deyimlərin verilməsini və qavrayışını doğuran proses.

**Yazılı nitq –** 1. Yazılı formada olan nitq. 2. Hər hansı konkret dildə ədəbi normanın daha ciddi əməl olunması ilə səciyyələnən nitqin üslubi müxtəlifliyi.

**Yazılı tərcümə –** 1. Yaddaşın ölçüsü məhdudlaşmayan tərcümə. 2. Görmə ilə qavranılan yazılı tərcümə. 3. Peşəkar tərümənin daha çox yayılmış növüdür ki, bu zaman mətnin

qavrayışı görmə yolu ilə, tərcümənin özünün tərtibatı isə yazılı yolla həyata keçirilir. Tərcümənin bu növü görmə-yazılı, yaxud yazılı tərcümə adlandırlır, təsnif edirlir. 4. Yazılı formada tərcümə; özündə yazılı mətnlərin və şifahi mətnlərin tərcüməsini birləşdirir. 5. Bir dildən digər dilə tərcümədəki prosesdir ki, onun nəticəsi sənədli yazılı dildə təsbitlənir.

**Yazışma** – şəxsi ünsiyyət, biznes, elmi və digər fəaliyyət sistemi sahəsində müasir insanın əlaqələrində mühüm element olmaqla, cəmiyyətin elementi, sosial struktur elementi.

**Yazıyaalma metodu** – ardıçıl tərcümə metodudur, yazıyaalmanın əlavə yaddaş vasitəsi kimi istifadə olunmasını nəzərdə tutur

**Yeni sözlər lüğəti** – əvvəllər nəşr olunmuş lüğətlərə daxil edilməmiş yeni sözlərin izahını, şərhini verən lüğət.

**Yenidən kodlaşdırma** – bir məlum mənbədən və əvəzedici mənbədəki kod sistemindən hər hansı ünvançının kod sisteminə hər hansı informasiyanı tərcümə etmək (dəyişdirmək).

**Yenidən kodlaşdırma** – məlumatın bir dil sistemindən digərinə ötürülməsi və dəyişdirilməsi. Dil haqda söhbət gedən təqdirdə yenidən kodlaşdırmanı biz tərcümə adlandırırıq. Yenidən kodlaşdırma tərcümənin ən yüksək anlayışıdır (bax, kommunikativ mövqe).

**Yenidən sintaktik kodlaşdırma** – sintaktik kodlaşmaya, əks prosesə, daha doğrusu, sistemə çıxışda (nitq kommunikasiyası zamanı yenidən kodlaşdırma eşidənə məxsusdur) sintaktik zəncirin tanınması baş verir.

**Yerdəyişmə** – 1. Tərcümə dilində ilkin dildəkinə nisbətən dil elementlərinin yerinin dəyişdirilməsi. 2. Tərcümə dili və ilkin dilin leksik-semantik sıralanmasında uzlaşmasındakı fərqlərə görə tərcümədə tez-tez müraciət olunan qrammatik transformasiya. 3. Sözlərin sırasının dəyişilməsi. 4. Tərcümə dilində və ilkin dildə cümlə quruluşunda dəyişikliklərin aparılması. Sıranın yerdəyişməsinə heç də tez-tez rast gəlinmir.

## Z

**Zəmanət annotasiyası** – biblioqrafik göstərici və müxtəsər məlumatlardan başqa mətnin məzmunu, onun müəllifi, annotasiya edilmiş mənbənin istifadə üçün məsləhət olunması. Bax: annotasiya.

**Zəruri seçim həcminin müəyyənləşdirilməsi** – linqvistik tədqiqatlarda nisbi səhvin həcmini müəyyənləşdirmək üçün istifadə olunan metod. Bu, modelləşdiriləsi dilaltının lüğəti doğru statistikanın seçim həcminin qiymətini qabaqcadan almağa kömək edir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### *Azərbaycan dilində*


1. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, 1999.
2. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti. 8, 2005.
3. Axundov A.A. Ümumi dilçilik. B., 1988.
4. Bayramov Q. Tərcümə sənəti. Bakı, 2008.
5. Dilçilik ensiklopediyası. I-II, Bakı, 2006, 2008.
6. Dilçilik: problemlər və mülahizələr. Bakı, 2003.
7. Qurbanov A. Ümumi dilçilik. Bakı, 1989.
8. Koseriu E. Ümumi dilçiliyə giriş. Bakı, 2005.
9. Müqayisəli ədəbiyyat. Beynəlxalq elmi konfransın materialları (29-31 oktyabr). Bakı, 2004.
10. Müqayisəli ədəbiyyat (Ədəbiyyat kontekstləri). Beynəlxalq elmi konfransın materialları (24-25 noyabr). Bakı, 2006.
11. Müasir dilçiliyin problemləri. Beynəlxalq elmi konfransın materialları (18-19 may). Bakı, 2005.
12. Müasir dilçiliyin problemləri (Dil əlaqələri). Beynəlxalq elmi konfransın materailları (22-23 noyabr). Bakı, 2007.
13. Tərcümə və transmilli proseslər. Beynəlxalq elmi konfransın materialları (14-15 aprel). Bakı, 2003.
14. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. I-II, Bakı, 2005, 2008.


### *Rus dilində*


1. Алейник Г.Б. Введение в курс перевода. Французский язык. М.,1991.
2. Алексеев М.П. Проблемы художественного перевода // Сборник трудов Иркутского государственного университета. Вып.1. Иркутск, 1931.
3. Алексеев П.М. Квантитативная типология текста. Л., 1988.

4. Алексеев П.М. Статистическая лексикография (типология, составление и применение частотных словарей). Л., 1975.Анализ литературного произведения. Л., 1976.
5. Анализ художественного текста. М.; Просвещение, 1975.
6. Апухтин В.Б. Система записей в последовательном переводе // Л.Л. Нелюбин, А.А. Дормидонтов, А.А.Васильченко и др. Учебник военного перевода. Английский язык. Специальный курс. Под.ред. д.ф.н., проф. Л.Л.Нелюбина. М., 1984.
7. Ахманова О.С. Словарь лингвистических терминов. М., 1966.
8. Ахматова О.С. и др. Принципы и методы лингвистического исследования. М., 1969.
9. Бабаев Г. Узы дружбы. Баку, 1981.
10. Бабаев Г.В. Маяковский в Азербайджане. Баку, 1960.
11. Бархударов Л.С. Язык и перевод. Вопросы общей и частной теории перевода. М.,1975.
12. Бархударов Л.С., Рецкер Я.И. Курс лекций по теории перевода. М., 1968.
13. Барт Р. Введение в структурный анализ повествовательных текстов // Зарубежная стилистика и теория литературы XIX-XX вв. М., 1987.
14. Баткин Л.М. О некоторых условиях культурологического подхода // Античная культура и современная наука. М., 1985.
15. Батрак А.В. Семантический анализ текста и перевода. М., 1980.
16. Бахтин М.М. Эстетика словесного творчества. М., 1979.
17. Богин Г.И. Филологическая герменевтика. Калинин, 1982.
18. Большой толковый словарь русского языка. СПб., 1998.
19. Борисова Л.И. «Ложные друзья переводчика» (Общенаучная лексика). Английский язык. – М., 1999.
20. Борисова Л.И. «Ложные друзья» переводчика научно-технической литературы. Методическое пособие. Ч.I, II, III – М., 1989, 1990, 1991.
21. Борисова Л.И. Лексические закономерности научно – технического перевода. М., 1988.
22. Борисова Л.И. Лексические трудности перевода. Англо – русский словарь – справочник. М., 1999.
23. Борисова Л.И. Пособие по научно – техническому переводу ( методический обзор). М., 2000.

24. Борисова Л.И. Проблема эквивалентности в научно – техническом переводе. Ч. 1-2. М., 1990-1991.
25. Борисова Л.И., Нелюбин Л.Л. Актуальные вопросы обучения научно – техническому переводу в языковом вузе // Русский филологический вестник.1995. Т. 80, № 2. С. 71 – 80.
26. Велиханова Ф. Азербайджанская советская поэзия на русском языке. Баку, 1977.
27. Велиханова Ф. Русские переводы поэзии Самеда Вургуна. Баку, 1968.
28. Велиханова Ф. Самед Вургун среди друзей-переводчиков. Баку, 1986.
29. Виноградов В.В. О теории художественной речи. М., 1971.
30. Виноградов В.В. Стилистика. Поэтика. Теория поэтической речи. М., 1963.
31. Виноградов В.С. Лексические вопросы перевода художественной литературы. М., 1978.
32. Влахов С., Флорин С. Непереводимое в переводе. М., 1980.
33. Вопросы теории перевода в современной зарубежной лингвистике. М., 1978.
34. Гак В.Г., Григорьев Б.Б. Теория и практика перевода. Французский язык. М., 1997.
35. Гальперин И.Р. Текст как объект лингвистического исследования, М., 1981.
36. Гамидов И., Новрузов Р. Аксиоматика. Изд. 3-е. Дополн. и исправ. Баку, 1999
37. Гамидов И., Новрузов Р. Аксиоматические выражения: вопросы типологии и перевода. Баку, 1996.
38. Гачев Г.Д. О национальных картинах мира // Народы Азии и Африки, 1967, № 1. – 75-82 с.
39. Баширов Н.Д., Годжалиев О.М., Гулиев А.Д., Мухтаров Г.М. Теория и практика перевода с азербайджанского языка на русский и наоборот. Баку, 1984.
40. Гинзбург Л. Над строкой перевода. Статьи разных лет. М, 1981
41. Гончаренко С.Ф. Стиховые структуры лирического текста и поэтический перевод // Поэтика перевода. М., 1988.
42. Гринев С.В. Введение в лингвистику текста. М., 1998.
43. Гринев С.В. Введение в терминоведение. М., 1993.

44. Гулузаде Я. Художественный перевод и литературные связи. Баку, 1999
45. Дармодехина А.Н. Поэтический язык символизма: система, интерпретация, перевод. Краснодар, 1999.
46. Джидеева К. Поэтический перевод и историко-литературный процесс. Фрунзе, 1980.
47. Доблаев Л.П. Логико-психологический анализ текста. Саратов, 1969.
48. Деррида Ж. Письмо и различие. СПб., 2000.
49. Дудник Л.В. Теория перевода. Курс лекций. Английский язык. М., 1985.
50. Казакова Т.А. Аспекты теории письменного перевода. Свердловск, 1988.
51. Квятковский А.П. Поэтический словарь. М., 1966.
52. Клюканов И.Э. Основные модели перевода. Калинин, 1986.
53. Комиссаров В.Н. Общая теория перевода. Проблемы переводоведения в освещении зарубежных ученых. М., 1999.
54. Комиссаров В.Н. Перевод и интерпретация // Тетради переводчика. М., 1982.- № 19.
55. Комиссаров В.Н. Современное переводоведение. Курс лекций. М., 1999.
56. Копанев П.И.Вопросы теории и истории художественного перевода. Минск, 1972.
57. Котов Р.Г., Якушин Б.Г. Языки информационных систем. М., 1979.
58. Кошевая И.Г. Текстообразующая структура языка и речи. М., 1983.
59. Крупнов В.Н. В творческой лаборатории переводчика. Очерки по профессиональному переводу. М., 1976.
60. Крупнов В.Н. Лексикографические аспекты перевода. М., 1987.
61. Крюков А.Н. Теория перевода. Курс лекций. М., 1979.
62. Кундзич О. Слово и образ. М, 1973
63. Латышев Л.К. Перевод: проблемы теории, практики и методики преподавания. М., 1988.
64. Латышев Л.К.Курс перевода (эквивалентность перевода и способы ее достижения). М., 1981.
65. Левидов А.М. Автор-образ-читатель. -2-е изд., доп. Л., 1983.
66. Левицкая Т.Р., Фитерман А.М. Проблема перевода. М., 1976.

67. Левицкая Т.Р., Фитерман А.М. Теория и практика перевода с английского языка на русский. М., 1963.
68. Левый И. Искусство перевода. М., 1974.
69. Лилова А. Введение в общую теорию перевода. Под.общ. ред.П.М.Топера. М., 1985.
70. Лотман Ю.М. О поэтах и поэзии. СПб., 1999.
71. Лотман Ю.М. Внутри мыслящих миров. М., 1996.
72. Львовская З.Д. Теоретические проблемы перевода. М., 1985.
73. Мамедов А.Я. Система формальных средств связи в построенин текста. Афтореф.докт.дисс. Баку, 2003.
74. Мамедов Н. Драматургия Самеда Вургуна на русском языке.- Баку, 1999.
75. Мамедов Н. Национальное своеобразие подлинника и перевода. Баку, 1998.
76. Мамедов Н. Поэтический перевод. Баку, 2001.
77. Манафоглу Р. История авторского перевода в Азербайджане. Баку, 1997.
78. Марузо Ж. Словарь лингвистических терминов. М., 1960.
79. Марчук Ю.Н. Методы моделирования перевода. М., 1985.
80. Марчук Ю.Н. Проблемы машинного перевода. М.1983.
81. Мешков О.Д. Переводческая мозаика. М., 1996.
82. Миньяр – Белоручев Р.К. Записи в последовательном переводе. М., 1997.
83. Миньяр – Белоручев Р.К. Общая теория перевода и устный перевод. М., 1980.
84. Миньяр – Белоручев Р.К. Последовательный перевод. Теория и методы обучения. М., 1969.
85. Миньяр – Белоручев Р.К. Теория и методы перевода. М., 1996.
86. Миньяр – Белоручев Р.К.Как стать переводчиком. М., 1994.
87. Мирам Г.Э. Профессия: переводчик. Киев, 1999.
88. Морозов М.М. Пособие по переводу. М., 1956.
89. Нелюбин Л.Л. Вводный курс военного перевода. М., 1965.
90. Нелюбин Л.Л. Компьютерная лингвистика и машинный перевод. – М., 1991.
91. Нелюбин Л.Л. Перевод и прикладная лингвистика. М., 1983.
92. Нелюбин Л.Л. Переводоведение в ретроспективе // Филология. Краснодар: КГУ, 1997. -№12/97.
93. Нелюбин Л.Л. Проблема термина и научно-технического перевода // Терминоведение, 1995.-№2-3.

94. Нелюбин Л.Л. У истоков машинного перевода // Теория перевода и методика подготовки переводчиков. М., 1999.
95. Нелюбин Л.Л. Учебное пособие по военному и военно-техническому переводу (Учебник для 2-го языка). М., 1964.
96. Нелюбин Л.Л., Хухуни Г.Т. История и теория зарубежного перевода. М., 1999.
97. Нелюбин Л.Л., Хухуни Г.Т. История и теория перевода в России. М., 1999
98. Новиков А.И. Семантика текста и ее формализация. М., 1983.
99. Новиков А.И. Энциклопедическое описание языков. М., 1985.
100. Новикова М.А. Проблемы индивидуального стиля в теории перевода: Автореф. дис.докт. филол. наук. Л., 1980.
101. Нуриев В.А. Добавление в художественном переводе/: прием или ошибка // Вопросы филологии, 2007, №2 (26)
102. Перевод – средство взаимного сближения народов. М., 1987.
103. Попович А. Проблемы художественного перевода. М., 1980.
104. Пыриков Е.Г. Коммуникативные аспекты перевода и терминология. М., 1992.
105. Ревзин И.И., Розенцвейг В.Ю. Основы общего и машинного перевода. М., 1964.
106. Рецкер Я.И. Теория перевода и переводческая практика.Очерки лингвистической теории перевода. М., 1974.
107. Самедова Л. Народов связующая нить. Баку, 1980.
108. Свиридова Л.К. Теория и практика перевода (английский язык). Теоретический курс. Книга авторизованного изложения. М.,1996.
109. Семенев О.Б., Панасьев А.Н. История перевода. Киев, 1989.
110. Семенов А.Л. Основные положения общей теории перевода. М, РУДН, 2004
111. Силард Л. Герметизм и герменевтика. М., 2001.
112. Синтаксис текста. М., 1979.
113. Станевич В. Некоторые вопросы перевода прозы. М., 1959.
114. Стрелковский Г.М. Теория и практика военного перевода. М., 1979.
115. Структура и семантика художественного текста. М., 1999.
116. Султанова Г. Муза, открывающая миры. Баку, 1984
117. Таирбеков Б. Философские проблемы науки о переводе. Баку, 1974.
118. Теория и методика учебного перевода. М., 1950.

119. Тимофеев Л.И., Венгров М.П. Краткий словарь литературоведческих терминов. М., 1963.
120. Типология образных систем азербайджанского и русского языков // Под общ. ред., проф. А.К.Алекперова. Баку, 1992.
121. Тороп П.Х. Проблема интертекста // Труды по знаковым системом, Тарту, 1981. Вып. XIV.
122. Тюленев С.В. Теория перевода. М., 2004.
123. Уфимцева Н.В., Сорокин Ю.А. Культурный знак Л.С.Выготского и гипотеза Сепира-Уорфа // Национальная культура и общение, М., 1977.
124. Федоров А.В. Искусство перевода и жизнь литературы. М., 1983.
125. Федоров А.В. Основы общей теории перевода (лингвистический очерк). Изд. 3-е. М., 1968.
126. Ференцин Д., Основные термины перевода. Будапешт, 1977.
127. Финкельберг Н.Д. Теория перевода арабского языка. Курс лекций. М., 1976.
128. Хайруллин В.И. Перевод научного текста: лингвокультурный аспект. М., 1992.
129. Халилова Т. Азербайджанская проза на русском языке. Баку, 1986.
130. Хартунг Ю., Брейдо Е. Гипертекст как объект лингвистического анализа // Вестник МГУ. сер. филология., 1996, №3.
131. Чернов Г. Основы синхронного перевода. М, 1987
132. Эко У. Роль читателя. Исследования по семиотике текста. СПб, 2007.

# MÜNDƏRİCAT

TƏRCÜMƏNİN NƏZƏRİ-PRAKTİK PROBLEMLƏRİNİ İŞIQLANDIRAN UĞURLU TƏŞƏBBÜS .....

LÜĞƏTİN STRUKTURU .....

A .....
B .....
C .....
Ç .....
D .....
E.....
Ə .....
F .....
G .....
H .....
X .....
İ.....
J .....
K .....
Q .....
L.....
M .....
N .....
O .....
Ö .....
P.....
R .....
S.....
Ş.....
T.....
U .....
Ü .....
V .....
Y .....
Z.....

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT .....

**R.Manafoğlu, N.Tağısoy, R.Kamal**

*(Novruzov Rafiq Manaf oğlu,*
*Məmmədov Nizami Tağı oğlu,*
*Rəsulov Rüstəm Kamal oğlu)*

# İZAHLI TƏRCÜMƏŞÜNASLIQ TERMİNLƏRİ LÜĞƏTİ

Bakı – «Mütərcim» – 2010

Çapa imzalanıb: 08.01.2010.
Format: 60x84 1/16. Qarnitur Times.
Həcmi: 10,25 ç.v. Tiraj 300. Sifariş № 01.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru